# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## ƏLLİ İKİNCİ KİTAB

## İYUL 2012 - SENTYABR 2012

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanı uğurlara aparan daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Belarus Respublikasına və Böyük Britaniyaya rəsmi və işgüzar səfərləri, həmçinin ölkəmizə səfərə gəlmiş Tacikistan prezidenti, Türkiyənin Baş naziri və NATO-nun Baş katibi ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsindən bəhs olunur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ problemi və onun həlli yolları təşkil edir.

Bu cilddə, həmçinin dövlət başçısının ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, xarici ölkələrin televiziya kanallarına verdiyi müsahibələri yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{M} - 651(07) - 2017}$$

**ББК - 32**

© Azərnəşr, 2017

# SƏADƏT SARAYININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*5 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 5-də Bakı şəhərindəki Səadət sarayının əsaslı təmir və yenidənqurma işlərindən sonra açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Bakının memarlıq ansamblında özünəməxsus yeri olan Səadət sarayının binası məşhur Azərbaycan milyonçusu Murtuza Muxtarov tərəfindən XX əsrin əvvəllərində tikdirilmişdir. Həyat yoldaşı Liza xanım Tuqanova ilə birgə tez-tez Avropa səyahətinə çıxan və belə səfərlərdən birində xanımının Venesiyada bir saraya heyranlığını görən M.Muxtarov bu binanın bənzərini Bakıda tikdirmək qərarına gəlir. Bakının memarlıq incilərindən biri olan bu bina polyak mənşəli arxitektor İosif Ploşkonun layihəsi əsasında, «Qasımov qardaşları» şirkəti tərəfindən tikilmişdir.*

*Bina fransız qotik üslubunda inşa edilib, interyeri klassik, qotik və rokoko ənənəsində işlənilib. Bina Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarı ilə ölkə əhəmiyyətli tarixi və memarlıq abidəsi kimi qeydə alınıb. Prezident İlham Əliyevin Bakıda tarixi memarlıq abidələrinin qorunması, paytaxtın simasının müasirləşdirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər çərçivəsində 2007-ci ildə Səadət sarayında da təmir-bərpa və yenidənqurma işlərinə başlanıldı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva neft milyonçusu Murtuza Muxtarovun həyat və fəaliyyətinin əks olunduğu fotoşəkillərə baxdılar.*

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Rusiya Federasiyası Dövlət Dumasının MDB və Həmvətənlərlə Əlaqələr üzrə Komitəsinin sədri Leonid Slutskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət Dumasına yeni seçkilərdən qısa müddət ötməsinə baxmayaraq, Rusiya Federasiyası Dövlət Dumasının MDB və Həmvətənlərlə Əlaqələr üzrə Komitəsinin növbəti iclasının Bakıda keçirilməsini yüksək qiymətləndirən prezident İlham Əliyev bunu həm parlamentlərarası əlaqələrin, həm də ümumilikdə ölkələrimiz arasında mövcud əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin çoxşaxəli olduğunu və bütün sahələri əhatə etdiyini vurğulayan prezident İlham Əliyev əməkdaşlığımızın siyasi, iqtisadi, ticari və digər sahələrdə uğurla inkişaf etdiyini dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığı başqa ölkələr üçün nümunə kimi qiymətləndirdi. Bütün sahələrdə əməkdaşlığımızın tərəfdaşlıq və dostluq münasibətlərinə əsaslandığını qeyd edən prezident İlham Əliyev bildirdi ki, hər iki ölkənin dövlət rəhbərlərinin bu münasibətləri strateji tərəfdaşlıq əlaqələri kimi dəyərləndirmələri təsadüfi deyildir. Münasibətlərimizin genişlənməsində parlamentlərarası əlaqələrin rolunu qeyd edən dövlətimizin başçısı ölkəmizin MDB çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayaraq dedi ki, bu əməkdaşlıq ilk növbədə, Azərbaycan ilə Rusiya arasında*

*münasibətlərin* daha da *genişləndirilməsi üçün əlavə* imkanlar *açır.*

*Azərbaycan prezidenti İlham Əliyev nümayəndə heyəti üzvlərinin ölkəmizlə yaxından tanış olmaları üçün səfərin yaxşı fürsət yaradacağına əminliyini* bildirdi.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Krasnodar diyarında daşqınlar nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün dost Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2012-ci il*

# RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ SERGEY NARIŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Rusiya Federasiyası Dövlət Dumasının Sədri Sergey Narışkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Krasnodar diyarında daşqınlar nəticəsində çoxsaylı insan tələfatına səbəb olmuş faciə ilə əlaqədar Rusiya Federasiyası Dövlət Dumasının Sədri Sergey Narışkinə və bütün Rusiya xalqına başsağlığını çatdırdı.*

*Rusiya Federasiyası Dövlət Dumasının Sədri kimi yüksək dövlət vəzifəsinə seçilməsi münasibətilə Sergey Narışkini təbrik edən prezident İlham Əliyev onun ilk xarici səfərlərindən birini Azərbaycana etməsindən məmnunluğunu bildirdi və bunu ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası və digər sahələrdə mövcud uğurlu əməkdaşlığın təzahürü kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini və bu münasibətlərin çoxəsrlik əməkdaşlıq tarixinə, dostluq və qarşılıqlı dəstəyə əsaslandığını vurğuladı.*

*Prezident İlham Əliyev Rusiya Dövlət Dumasının Sədri Sergey Narışkinin Azərbaycana səfərinin ölkələrimiz arasında qarşılıqlı siyasi əlaqələrin, iqtisadi, humanitar, parlamentlərarası və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı səfərin uğurlu olacağına əminliyini bildirdi.*

*Rusiya Federasiyası Dövlət Dumasının Sədri Sergey Narışkin Krasnodar diyarında daşqınlar nəticəsində çoxsaylı insan*

*tələfatına səbəb olmuş facia ilə əlaqədar verdiyi başsağlığına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Azərbaycan Respublikası Milli Məclisinin dəvətinə əsasən Rusiya Federasiyası Dövlət Dumasının Sədri vəzifəsində ilk dəfə olaraq böyük parlament nümayəndə heyəti ilə respublikamıza səfər etdiyini vurğulayan Sergey Narışkin ölkələrimizin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi və bu əməkdaşlığı daha da möhkəmləndirməyin önəmini qeyd etdi.*

* * *

*Görüşdən sonra Rusiya Federasiyası Dövlət Dumasının Sədri Sergey Narışkinin və Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun təltif edilməsi mərasimi olmuşdur.*

*Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sergey Narışkinin Rusiya Federasiyası Baş nazirinin müavini, hökumətlərarası birgə komissiyanın həmsədri, Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri vəzifələrində çalışarkən, hazırda isə Rusiya Federasiyası Dövlət Dumasının Sədri kimi, ölkələrimiz arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, humanitar və digər sahələrdə daha da möhkəmləndirilməsi işində fəal rol oynadığını xüsusi vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, Sergey Narışkinin rəhbərliyi ilə hökumətlərarası birgə komissiya səmərəli fəaliyyət göstərərək iqtisadi xarakterli mühüm məsələlərin həllinə nail olub. Prezident İlham Əliyev qeyd etdi ki, həmçinin Sergey Narışkinin uğurlu fəaliyyəti nəticəsində Rusiya–Azərbaycan Humanitar Forumu Beynəlxalq Humanitar Foruma çevrilib, Moskva Dövlət Universitetinin Bakı filialı fəaliyyətə başlayıb. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlətlərarası əlaqələrin inkişafında və möhkəmləndirilməsi işində xüsusi xidmətlərinə görə Sergey Narışkinin Azərbaycanın yüksək*

mükafatlarından birinə – «Dostluq» ordeninə layiq görüldüyünü dedi və mükafatı ona təqdim etdi.

Sergey Narışkin Azərbaycanın yüksək mükafatlarından birinə – «Dostluq» ordeninə layiq görülməsini Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi işinə verilən qiymət kimi dəyərləndirdi. O bu əməkdaşlığın və dostluğun gələcək illərdə də davam etdirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

Ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın mühüm əhəmiyyətə malik olduğunu bildirən prezident İlham Əliyev Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun uzun illər bu sahədə ölkələrimizin və xalqlarımızın yaxınlaşması istiqamətində fəal işlər apardığını qeyd etdi. Dövlətimizin başçısı Mixail Şvıdkoyun MDB ölkələri çərçivəsində həyata keçirilən bütün humanitar layihələrdə fəal iştirak etdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin möhkəmləndirilməsi işində göstərdiyi xüsusi xidmətlərə görə Mixail Şvıdkoyun da Azərbaycanın yüksək mükafatına – «Dostluq» ordeninə layiq görüldüyünü dedi və mükafatı ona təqdim etdi.

Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy Azərbaycanın yüksək mükafatına – «Dostluq» ordeninə layiq görülməsindən böyük qürur hissi keçirdiyini dedi. O, Azərbaycan və Rusiya xalqları arasında yaxşı münasibətlərin mövcudluğundan məmnunluğunu bildirdi. Mixail Şvıdkoy Azərbaycanda rusların özlərini doğma vətənlərindəki kimi rahat hiss etdiklərini, azərbaycanlıların isə Rusiyanın həyatında mühüm rol oynadıqlarını vurğuladı.

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Belçikanın milli bayramı – Kralın Andiçmə Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Belçika münasibətləri, dostluq və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2012-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MURSİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2012-ci il*

## ATƏT-in BAŞ KATİBİ LAMBERTO ZANNİER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da ATƏT-in baş katibi Lamberto Zannieri qəbul etmişdi.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.*

## İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XANIM MARTA DASSUN VƏ İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ KLAUDİO DE VİNSENTİNİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İtaliya Respublikası Xarici İşlər nazirinin müavini xanım Marta Dassun və İqtisadi İnkişaf nazirinin müavini Klaudio de Vinsentinin başçılıq etdikləri nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin qarşılıqlı hörmət və maraq çərçivəsində inkişafından məmnunluq ifadə olundu, münasibətlərin daha da genişləndirilməsi üçün qarşıda duran vəzifələrin müzakirəsi baxımından səfərin önəmi qeyd edildi, Azərbaycan–İtaliya və Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## METAL KONSTRUKSİYALAR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*Qaradağ rayonu*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Qaradağ Metal Konstruksiyalar zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verdi. Bildirildi ki, sahəsi 8 min 600 kvadratmetr olan zavod «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq, Qaradağ rayonunun Sahil qəsəbəsində 4,5 hektar ərazidə inşa edilmişdir. Zavodun ümumi dəyəri 8,6 milyon manatdır. Bu layihənin icrasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən birinci mərhələdə 2 milyon manat güzəştli kredit verilmişdir. Gələcəkdə zavodun fəaliyyətinin genişləndirilməsi məqsədi ilə əlavə kredit vəsaitlərinin ayrılması da nəzərdə tutulur. Müəssisənin tikintisinə 2011-ci ilin iyulunda başlanılmış və bu ilin iyununda sona çatdırılmışdır.*

*Prezident İlham Əliyev zavodun istehsal prosesindən bəhs edən filmə baxdı.*

*Azərbaycan prezidenti müəssisəni işə saldı.*

*Vurğulandı ki, gələcəkdə məhsulların çeşidinin və istehsalın həcminin artırılması məqsədi ilə əlavə istehsal korpuslarının da inşa olunması nəzərdə tutulur. Layihələndirilən istehsal sahəsi 11 min 970 kvadratmetr təşkil edir.*

*Yeni müəssisə ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## «HOLCİM–AZƏRBAYCAN» ASC-nin YENİ SEMENT ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*Qaradağ rayonu*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Bakının Qaradağ rayonunda «Holcim–Azərbaycan» ASC-nin yeni sement zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev və «Holcim»in baş icraçı direktoru Bernard Fontana dövlətimizin başçısına yenidənqurma işləri barədə ətraflı məlumat verdilər. Bildirildi ki, quru üsulla məhsul istehsal edən zavod Cənubi Qafqaz regionunun sement sənayesində yeni dövrün başlanğıc nöqtəsi olacaqdır. 300 milyon avro dəyərində olan zavodun təməli 2009-cu ildə prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. Dünyanın 70-dən çox ölkəsində 80 min əməkdaşı çalışan İsveçrənin «Holcim» şirkətinin Azərbaycan iqtisadiyyatının inkişafında yaxından iştirakı ölkəmizdə istər yerli, istərsə də xarici investorlar üçün yaradılan əlverişli və etibarlı investisiya mühitinin məntiqi nəticəsidir. «Holcim–Azərbaycan»ın səhmdarları İsveçrənin «Holcim» Şirkətlər Qrupu, Azərbaycan İnvestisiya Şirkəti, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin bir qrup yerli fiziki şəxslərdir.*

*Azərbaycan prezidenti müəssisənin istehsal prosesini əks etdirən stendlərə baxdı.*

*Dövlətimizin başçısına «Holcim–Azərbaycan» ASC-nin məhsullarının çeşidi, istehsalatda istifadə edilən xammal və digər qatqılar nümayiş etdirildi.*

*Prezident İlham Əliyevə texniki-iqtisadi göstəricilər əsasında yeni və köhnə müəssisələrdəki əsas avadanlığın müqayisəli təhlili göstərildi. Qeyd olundu ki, yeni müəssisədə ABŞ, Almaniya, İtali-*

*ya, İsveçrə və digər inkişaf etmiş ölkələrin avadanlıqları quraşdırılmışdır.*

*Azərbaycan prezidenti «Holcim» şirkətinin Azərbaycanda fəaliyyəti və yeni texnologiya əsasında quraşdırılmış müəssisə barədə qısa filmə baxdı.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev zavodun açılışı mərasimində çıxış etdi:*

– Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı «Holcim–Azərbaycan» sement zavodunun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

3 il bundan əvvəl biz burada yeni sement zavodunun təməl daşını qoyduq. Mən çox şadam ki, 3 ildən sonra gözəl, müasir, yeni sement zavodu fəaliyyətə başlayır. Əminəm ki, bu zavodun fəaliyyəti nəticəsində Azərbaycan iqtisadiyyatı, Azərbaycanın sənaye potensialı daha da artacaq və möhkəmlənəcəkdir.

Qaradağ Sement zavodu 1950-ci illərdə yaradılmışdır. Əlbəttə ki, vaxt keçdikcə texnologiya köhnəlir və müasir tələblərə cavab vermirdi. Baxmayaraq ki, bu sahədə dünyanın aparıcı şirkəti olan «Holcim» 10 ildən artıqdır bu zavodu işlədir və buraya sərmayə qoymuşdur. Yeni zavodun tikilməsi çox vacib idi. İsveçrə ilə Azərbaycan rəhbərliyi arasında aparılmış danışıqlar və əldə edilmiş razılaşmalar nəticəsində yeni zavodun tikintisi haqqında qərar qəbul edildi. Mən o günləri yaxşı xatırlayıram. Xatırlayıram ki, qərar verildikdən dərhal sonra – 2009-cu ildə yeni zavodun təməl daşı qoyuldu. Bu zavod bütün müasir standartlara cavab verir. Burada ən son texnologiyalar tətbiq edilib. Çox sevindirici haldır ki, bu zavod ekoloji cəhətdən tamamilə təhlükəsizdir.

Azərbaycanda ekologiya məsələlərinə çox böyük diqqət göstərilir, ekoloji tədbirlər həyata keçirilir.

Bu zavod İsveçrə–Azərbaycan əməkdaşlığının nümunəsidir. İki ölkə arasındakı əlaqələr sürətlə inkişaf edir, qarşılıqlı rəsmi səfərlər, qarşılıqlı heyətlərin səfərləri həyata keçirilir. Bizim çox gözəl siyasi və iqtisadi əlaqələrimiz vardır. «Holcim» zavodunun Azərbaycanda fəaliyyətə başlaması qarşılıqlı inamın təzahürüdür. Azərbaycan Dövlət Neft Şirkəti – İsveçrənin enerji sənayesinə böyük həcmdə sərmayə qoyur. İsveçrədən Azərbaycanın qeyri-neft sektoruna sərmayə qoyulur, Azərbaycandan isə İsveçrənin enerji sektoruna sərmayə qoyulur. Bu özlüyündə gözəl bir göstəricidir. Çünki əlaqələrimiz çoxşaxəlidir və qarşılıqlı maraqlar əsasında qurulubdur. Çox şadam ki, bu zavod İsveçrə–Azərbaycan dostluğunu da gücləndirəcəkdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına çox böyük diqqət göstərilir. Bu bizim siyasətimizin əsas istiqamətidir. Bu ilin 6 ayında Azərbaycanda qeyri-neft sektoruna aid olan iqtisadiyyat 11 faizdən çox artmışdır. Bu, görülən işlərin məntiqi nəticəsidir. Biz enerji resurslarımızdan səmərəli şəkildə istifadə edərək qeyri-neft sektoruna sərmayə qoymaqla, ölkəmizi hərtərəfli şəkildə inkişaf etdiririk.

Zavodun fəaliyyətə başlaması yerli istehsalın gücləndirilməsi məsələlərini də həll edir. Bu məsələyə də böyük diqqət göstərilir. Biz istəyirik ki, Azərbaycanda istehlak olunan əsas məhsullar ölkəmizdə istehsal edilsin. Sement zavodunun fəaliyyətə başlaması nəticəsində, əminəm ki, bir neçə ildən sonra biz sementlə də özümüzü təmin edəcəyik. Azərbaycanda sementin illik istehlakı 3,3 milyon tondur. «Holcim–Azərbaycan» sement zavodunun istehsal gücü 1,7 milyon tondur. Nəzərə alsaq ki, bu yaxınlarda Naxçıvanda 300 min tonluq zavod istifadəyə verilmişdir, yaxın zamanlarda Ağstafada 1 milyon tonluq zavod istifadəyə veriləcək, Qaradağ rayonunda 2 milyon tonluq zavod inşa edilir, bir neçə ildən sonra Azərbaycanda istehsal olunan sementin həcmi tələbatımızdan daha da artıq olacaqdır. Ancaq ölkəmizin iqtisadiyyatı çox sürətlə inkişaf edir. Gələcəkdə, şübhəsiz, daxili tələbat daha da artacaqdır. Çünki ölkəmizdə böyük tikinti və quruculuq işləri aparılır. Bir sözlə, bu zavodun fəaliyyəti

nəticəsində ümid edirəm ki, gələcəkdə sement sahəsində ixrac imkanlarımız da yaradılacaqdır.

Zavodda işləyənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da çox müsbət haldır. Zavodun fəaliyyəti nəticəsində yüzlərlə insan işlə təmin edilir. Mən burada gəncləri görürəm, buna çox sevinirəm. Çünki gənclər bu işlərdə daha fəal iştirak etməlidirlər. Ən müasir texnoloji prosesdə fəal iştirak etməlidirlər və Azərbaycan gəncləri bütün sahələrdə daha da fəal olmalıdırlar. Yerli kadrların hazırlanması, yerli istehsalın yaradılması, idxalı əvəzləyən məhsulların buraxılması, xarici investisiyaların cəlb edilməsi – biz bu zavodun timsalında bütün bu mühüm amilləri görürük.

Onu da qeyd etmək istəyirəm ki, zavodun təməli 2009-cu ildə qoyulmuşdur. 2009-cu il dünyada maliyyə və iqtisadi böhranın ən ağır ili kimi tarixdə qalmışdır. Bu böhrana və bəzi bankların ağır vəziyyətə düşməsinə baxmayaraq, «Holcim» şirkəti 2009-cu ildə Azərbaycan iqtisadiyyatına böyük sərmayə qoyulması haqqında qərar vermişdir. Bu, Azərbaycan iqtisadiyyatına inamın, Azərbaycanda investisiya iqliminin çox yüksək səviyyədə olmasının təzahürüdür. Biz bu addımı yüksək qiymətləndiririk.

Mən bu gün fürsətdən istifadə edərək «Holcim» şirkətinin rəhbərliyinə, xüsusilə «Holcim»in keçmiş prezidenti cənab Akermana xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Biz cənab Akerman ilə bərabər bu zavodun tikintisinin icrasına qərar verən insanlarıq. Bizim qərarlarımız icra edilir. 3 il bundan əvvəl burada zavodun təməl daşını bərabər qoyduq və bu gün gözəl açılış mərasimində iştirak edirik.

Azərbaycanda investisiya iqlimi çox müsbətdir. Son 17 il ərzində Azərbaycanda 120 milyard dollardan çox, keçən il 15 milyard dollar sərmayə qoyulmuşdur. Bu il isə təqribən 18 milyard dolar sərmayə qoyuluşu gözlənilir. Bundan sonrakı illərdə də investisiya qoyuluşu əminəm ki, yüksələn xətlə davam edəcək və bu bizə imkan verəcək ki, ölkəmizin bütün infrastruktur layihələrini icra edək, bütün köhnəlmiş infrastrukturu yeniləşdirək, güclü sənaye potensialı yaradaq.

Zavodun Qaradağ rayonunun ərazisində yerləşməsi təbii səbəblərdən irəli gəlir – burada, yaxında zavodun məhsul istehsalı üçün lazım olan xammal yataqları vardır. Sovet dövründə bu zavod burada tikilmişdir. Əlbəttə, Qaradağ rayonunun gələcək sənaye inkişafı ilə bağlı konkret fikirlərimiz vardır. Mən dəfələrlə demişəm ki, Azərbaycanın yeni sənaye mərkəzlərindən biri də Qaradağ rayonu olmalıdır. Qaradağ rayonu inkişaf edir. Burada həm güclü sənaye potensialı yaradılır, həm də turizm obyektlərinin yaradılması, tikintisi məsələləri də gündəlikdədir.

Bir sözlə, bugünkü açılış mərasimi həm çox sevindiricidir, həm də onu göstərir ki, Azərbaycanın inkişafı düzgün istiqamətdə gedir. Xarici investorlar bizə inanır, biz xarici investorlar üçün gözəl şərait yaradırıq. Hökumət nümayəndələri ilə böyük şirkətlər arasında əlaqələr də çox müsbətdir. Yerli istehsalın artırılmasında xarici sərmayədarlar bizə köməklik göstərirlər. Zavodda tətbiq olunan texnologiya ən son, ən müasir texnologiyadır. Azərbaycanda bu texnoloji inkişaf, elmi tərəqqi, inkişaf məsələləri də daha dolğun şəkildə öz həllini tapır.

Əziz dostlar, mən bir daha bugünkü mərasimdə «Holcim» şirkətinin rəhbərliyinə, cənab Akermana və «Holcim»in yeni rəhbərinə minnətdarlığımı bildirmək istəyirəm. Sizin hamınızı bu zavodun açılışı münasibətilə təbrik etmək istəyirəm. Fürsətdən istifadə edərək tərəfdaşlara, bizim investorlara, xarici investorlara bir daha müraciət etmək istəyirəm ki, Azərbaycan xarici investisiyalar üçün çox gözəl yerdir. İnvestisiyalar burada qorunur. Biz bu investisiyaları alqışlayırıq, xarici investorlar üçün bütün lazımi şəraiti yaradırıq və bundan sonra da yaradacağıq. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

* * *

*İsveçrənin Azərbaycandakı səfiri xanım Sabine Ulmann Şaban tədbirdə çıxış etdi:*

– Cənab Prezident!

Cənab nazir!

Cənab Fontana!

Hörmətli qonaqlar!

Cənab Prezident, «Holcim»in yeni zavodunun rəsmi açılışında iştirak etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk və Siz bu gün öz iştirakınızla İsveçrəni və «Holcim»i şərəfləndirdiniz. Bu tədbirə qatılmaq məqsədi ilə yanvar ayında Davosda cənab Akerman dəvəti təqdim etdikdə Siz bu dəvəti tərəddüd etmədən qəbul etdiniz.

Azərbaycan və İsveçrə bir çox sahələrdə əla tərəfdaşdırlar. «Holcim»in yeni layihəsinin reallaşması bu münasibətlərin canlı olmasının sübutudur. Sizin və hökumətinizin dəstəyi olmadan bu nailiyyət mümkün olmazdı. Yaxşı tərəfdaş olmaq üçün dövlətlər də insanlar kimi, bir-birinə etimad göstərməlidir. Azərbaycan ilə İsveçrə arasında yaxşı münasibətlərin əsas cəhəti qarşılıqlı etimad və hörmətdir. Bu iki keyfiyyət olmadan «Holcim» heç vaxt Azərbaycanın qeyri-neft sektorunda vacib hissə ola bilməzdi. Bu etimad olmadan Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti İsveçrənin neft sektoru bazarında mühüm rol oynamaq üçün bizim ölkəyə gəlməzdi.

Azərbaycanın və İsveçrənin bu 2 şirkəti ölkələrimiz arasında kommersiya sahəsində yaxşı əməkdaşlığın əla nümunəsidir. İsveçrənin ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayan kiçik bir şəhəri vardır. Bu şəhər Davos adlanır. Öz gözəl təbiəti və xizəksürmə yerləri ilə tanınan İsveçrənin Alp dağlarındakı bu kiçik şəhərinin adı Dünya İqtisadi Forumu ilə bağlıdır. Bu, biznes dairələrini, siyasətçiləri və cəmiyyətin digər liderlərini bir araya gətirərək, dünyadakı durumun yaxşılaşdırılmasına çalışan beynəlxalq təşkilatdır.

Cənab Prezident, Davos uzun illərdir ki, Sizi öz qonaqları sırasında görməkdən fərəhlənir. Siz bu tədbirin mühüm iştirakçısısınız və dünyanın sabahının formalaşdırılmasına sadiqsiniz. 2009-cu ildə biz burada təməlqoyma mərasimini keçirdik. Bu gün artıq nailiyyət göz qabağındadır və bütün bu işlər həm Azərbaycan, həm İsveçrə tərəfdaşlarının dəstəyi olmadan mümkün olmazdı. Cənab Prezident, bu uğurun əldə edilməsi üçün Sizin verdiyiniz dəstək həlledici idi. Həmçinin burada çalışan azərbaycanlı işçilərin, «Holcim–Azərbaycan»ın və «Holcim»in İsveçrədə olan rəhbərliyinin səyləri məhz bu işdə mühüm rol oynadı.

Mən bu nailiyyəti mümkün edən bütün şəxsləri bu münasibətlə təbrik etmək istəyirəm. «Holcim Group» dünyanın 70 ölkəsində fəaliyyət göstərir və fəaliyyət sahəsində mühüm şirkətlərdən biri hesab olunur. «Holcim Group» fəaliyyətini möhkəm saxlamağa nail olmuşdur, çünki bu şirkət, həmçinin ətraf mühitin qorunmasına da əhəmiyyət verir.

Cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, ətraf mühitin qorunması, təmiz, yeni, müasir texnologiyalardan istifadə həm Azərbaycan, həm İsveçrə, həm də «Holcim» şirkəti üçün vacib məsələlərdən biridir. Əslində, bu gün açılışında iştirak etdiyimiz yeni zavod məhsulların istehsalı üçün ən yeni istehsal xəttini özündə əks etdirir və artıq bunun istismara verilməsi dünyanın bir çox yerlərində oxşar layihələrin həyata keçirilməsində nümunə kimi çıxış edəcəkdir. Yeni, müasir zavodun istifadəyə verilməsi, həmçinin yeni iş yerlərinin açılması ilə də bağlıdır. Bu da mühüm əhəmiyyət kəsb edir.

Cənab Prezident, hörmətli qonaqlar!

Bugünkü tədbir Azərbaycan ilə İsveçrə arasında iqtisadi münasibətlərin inkişafının təzahürüdür və mən tam əminəm ki, gələcəkdə bu sahədə bizim yeni nəticələrimiz olacaqdır. Bu nailiyyəti mümkün edən hər bir şəxsi bir daha təbrik etmək istəyirəm.

* * *

*«Holcim» şirkətinin baş icraçı direktoru Bernard Fontana mərasimdə çıxış etdi:*

– Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Cənab nazir Mustafayev!

Hörmətli xanım səfir Ulmann!

Hörmətli qonaqlar!

Cənab Prezident! Yeni zavodun rəsmi açılışı münasibətilə bu gün bizimlə olmağınızdan «Holcim–Azərbaycan» və mən xüsusi şərəf hissi duyuruq.

Mən 2012-ci ildə Davosda Dünya İqtisadi Forumunda keçmiş baş icraçı direktor cənab Markus Akermanın dəvətini qəbul etdiyinizə görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm.

Bu cür mühüm layihəyə dəstək verdiyinizə görə burada – Qaradağda rəhbərliyimiz, işçilərimiz adından və «Holcim Group»un adından Sizə təşəkkürümüzü bildiririk.

«Holcim Group» və «Holcim–Azərbaycan» bu vacib layihə ilə bağlı lazımi icazələrin və lisenziyaların verilməsi üçün hökumət qurumları ilə çox sıx əməkdaşlıq aparmış və onların dəstəyini almışdır. Əslində verilən bu dəstək çox mühüm idi. Mən şadam ki, bu gün biz hamımız yeni zavodun açılışı mərasimində birgə iştirak edirik. Böyük fərəh hissi ilə qeyd edirəm ki, bizim burada yatırdığımız sərmayənin həcminə gəldikdə bu, Azərbaycanın qeyri-neft sektoruna qoyulan xarici sərmayələr sırasında ən böyük sərmayələrdən biridir.

Bu, Azərbaycan ilə İsveçrə arasında məhz iqtisadi sahədə aparılan əməkdaşlığın ən böyük nümunəsidir. Bu həmçinin «Holcim Group»un əldə etdiyi nəticədir. Dünyanın 70 ölkəsində fəaliyyət göstərərək sement, beton məhsulları istehsal edən «Holcim Group» bu baxımdan ən yüksək tələblərə cavab verən şirkətlərdən biridir. Həmçinin insan sağlamlığı, təhlükəsiz iş üslubunun tətbiq edilməsi və ətraf mühitin qorunması baxımından

yararlı məhsulların istehsalına gəldikdə, biz beynəlxalq səviyyədə tanınmış şirkətə çevrildik.

Bildiyiniz kimi, bu il «Holcim» şirkəti 100 illiyini qeyd edir. Fəaliyyətə başladığı ilk anlardan «Holcim Group» daimi olaraq elə bir strateji xətt tutmuşdur ki, onun istehsal etdiyi məhsullar tikinti materialları sənayesində böyük keyfiyyətlə fərqlənsin. Lakin şirkətimiz bundan sonra da hər il yeni üsulların tətbiq edilməsində və yeni texnoloji proseslərin davamlı şəkildə mənimsənilməsində addımlarını davam etdirmək əzmindədir.

«Holcim Group» bundan sonra da Azərbaycanda başladığı bu işləri davam etdirmək və qazandığı uğurların sayını daha da çoxaltmaq fikrindədir. Bu baxımdan «Holcim Group» həm insan kapitalının formalaşdırılmasında, həm də yerli resursların bu işə daha da geniş şəkildə cəlb olunmasında, ətraf mühitin qorunmasında, yüksək keyfiyyətli məhsulların istehsalında, həmçinin maarifləndirmə proseslərinin aparılmasında qərarlıdır.

Biz son 13 il ərzində Azərbaycanda genişmiqyaslı fəaliyyətimizi davam etdirmişik. Bundan sonra da özümüz üçün müəyyən etdiyimiz məqsədlərə nail olmaq ənənəmizə sadiqik.

Tikinti işi beton tələb edir. Betonun alınması üçün də sementin istehsalı çox vacibdir. Təbii ki, inkişaf edən cəmiyyət və inkişaf edən iqtisadiyyata sement lazımdır. «Holcim–Azərbaycan» keyfiyyətli tikinti materiallarının təchizatçısı kimi mühüm rol oynamağa sadiqdir. Bundan sonra da görəcəyimiz işlərin miqyasını genişləndirməkdə davam edəcəyik.

Mən bu fürsətdən istifadə edib öz işçilərimizə və «Holcim–Azərbaycan»ın rəhbərliyinə həm keyfiyyətinə, həm də kəmiyyətinə görə Azərbaycana lazım olan qədər sementin istehsalında uğurlar arzulayıram.

Əslində burada çalışan heyət çox gözəl işi yerinə yetirir, daxili tələbatın sürətlə artmasını nəzərə alaraq, buna cavab verməyə çalışır.

Həm ətraf mühitin qorunması, həm texnoloji proseslərin artan məhsuldarlığı baxımından bundan sonra da bu yeni zavodun

istismarı ilə «Holcim–Azərbaycan» ölkədə öz nailiyyətlərini daha da artırmaq fikrindədir.

İstismara verilən yeni zavodda müasir texnologiyaların tətbiq edilməsi nəticəsində havaya buraxılan zərərli maddələrin həcmi də gözəçarpan dərəcədə azalacaqdır.

Azərbaycanda bizim dəyərli alıcılarımızın, müştərilərimizin gözləntilərinə cavab vermək məqsədi ilə biz Qaradağ Sement zavodunda keçmişdə mövcud olan sulu xətlərin əvəz edilməsi və məhsuldarlığın bu yeni istismar xətti ilə 30 faizə qədər artırılmasına nail olacağıq.

Cənab Prezident!

Hörmətli qonaqlar!

«Holcim Group» Azərbaycanda bu layihəni həyata keçirməklə uzunmüddətli sadiqliyini bundan sonra da bir daha nümayiş etdirir. «Holcim Group» və «Holcim–Azərbaycan», ümumiyyətlə, ölkənin inkişafına töhfə olaraq sement istehsalını bundan sonra da artıracaqdır.

Əslində bu gün keçirilən tədbir aramızda olan mühüm əlaqələrin göstəricisidir. Bu, «Holcim–Azərbaycan»ın ölkədə tutduğu mövqeyindən, onun Azərbaycanın gələcək inkişafına töhfəsindən və ona olan sadiqliyindən xəbər verir.

## SAHİL QƏSƏBƏSİNDƏ SALINACAQ YENİ PARKIN ƏRAZİSİNƏ BAXIŞ

*Qaradağ rayonu*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Qaradağ rayonunda yeni «Holcim–Azərbaycan» sement zavodunun açılışı mərasimindən dönərkən yolüstü Sahil qəsəbəsindəki çoxmərtəbəli yaşayış binalarının abadlaşdırılması işləri ilə tanış oldu, burada salınacaq yeni parkın ərazisinə baxdı.*

*Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov görülən və həyata keçiriləcək işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, qəsəbədəki yaşayış binalarının fasadları tamamilə yenidən qurulur, onların xarici görkəmi ən müasir qaydada təzələnir.*

*Prezident İlham Əliyev təmir və yenidənqurma işlərinin keyfiyyəti ilə maraqlandı.*

*Burada salınacaq yeni parkla bağlı da dövlətimizin başçısına məlumat verildi. Sahəsi 6 hektar olacaq yeni parkda qəsəbə sakinlərinin istirahəti üçün hər cür şəraitin yaradılacağı qeyd olundu, burada müxtəlif bəzək və gül kollarının əkiləcəyi, yeni yaşıllıq zolaqlarının salınacağı, müasir işıqlandırma sisteminin quraşdırılacağı bildirildi.*

*Görülən işlərlə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

# İSVEÇRƏNİN «HOLCİM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BERNARD FONTANA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da İsveçrənin «Holcim» şirkətinin baş icraçı direktoru Bernard Fontananı qəbul etmişdir.*

*Görüşdə İsveçrənin «Holcim» şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti vurğulandı, şirkətin yüksək texnologiyalar əsasında fəaliyyət göstərəcək «Qaradağ Sement» ASC-də yeni zavodun müasir standartlara uyğun şəkildə inşası qeyd olundu, əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı gələcək layihələr barədə fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), İqor Popovu (Rusiya), Jak Foru (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə əlaqədar məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İSPANİYA KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRLİYİNİN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ QONZALO DE BENİTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da İspaniya Krallığının Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin xarici işlər üzrə Dövlət katibi Qonzalo de Benitonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İspaniya Krallığının Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin xarici işlər üzrə Dövlət katibi Qonzalo de Benitonun ölkəmizə səfərinin əlaqələrimizin inkişafı baxımından uğurlu olacağına əminliyini bildirdi.*

*Qonzalo de Benito son illər Azərbaycanın əldə etdiyi iqtisadi uğurların ölkəsində diqqətlə izlənildiyini dedi və Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğuladı. Qonzalo de Benito İspaniya Krallığının Baş naziri Mariano Raxoyun məktubunu dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə İspaniya Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ SƏDR MÜAVİNİ FRANSİSKO ARROYO VİEYRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Meksika Birləşmiş Ştatları Senatının sədr müavini Fransisko Arroyo Vieyranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Meksikanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu vurğulayan Fransisko Arroyo Vieyra ölkələrimiz arasında 20 ildən artıq mövcud olan diplomatik əlaqələrin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. O, əlaqələrimizin genişləndirilməsində Azərbaycan hökumətinin dəstəyi ilə Meksikada həyata keçirilən mədəni-humanitar layihələrin önəmini qeyd etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevlə fəxr duyduğunu deyən qonaq ulu öndərin siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd etdi, ölkəmizin son illər əldə etdiyi nailiyyətlərin onlarda xoş təəssüratlar yaratdığını dedi. Meksikalı qonaq iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün də yaxşı imkanların olduğunu bildirdi. Qonaq ölkəsinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.*

*Meksika Birləşmiş Ştatları Senatının sədr müavini Fransisko Arroyo Vieyranın ölkəmizə səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı bu səfərin Azərbaycan ilə Meksika arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycanın*

*Meksika ilə əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayan prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Meksika Senatının Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qəbul etdiyi qərarı yüksək qiymətləndirdi və minnətdarlığını bildirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, ticarət, mədəniyyət, humanitar və parlamentlərarası əməkdaşlıq sahələrində daha da genişləndirilməsi ilə bağlı yaxşı imkanların olduğu vurğulandı.*

## NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*Prezident sarayı*

*11 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 11-də Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi:*

– Nazirlər Kabinetinin bugünkü toplantısı ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr edilmişdir. Bu toplantılar ənənəvi xarakter daşıyır. Keçən dəfə ilin birinci rübünə yekun vuraraq qeyd edildi ki, 2012-ci il Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu il olacaqdır. İlin birinci ayları iqtisadi cəhətdən çox müsbət idi və bu bizə imkan verir ki, 2012-ci ili Azərbaycan iqtisadiyyatı üçün növbəti uğurlu il kimi qiymətləndirək.

Altı ayın yekunları bu fikirləri bir daha təsdiqləyir. Çünki altı ayda ölkə iqtisadiyyatı uğurla inkişaf etmiş və qarşıda duran bütün vəzifələr icra edilmişdir. Ümumi daxili məhsul 1,5 faiz

---

*Назирляр Кабинетинин 2012-ъи илин биринъи йарысынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласında Maliyyə naziri Samir Şərifov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev çıxış etдилər.

artmışdır. Bu rəqəm əvvəlki dövrlərlə müqayisədə o qədər də böyük deyildir.

Ölkəmizin ümumi iqtisadiyyatı artdıqca hər bir faizin daha da böyük qiyməti və dəyəri vardır. Onu qeyd edə bilərəm ki, iqtisadiyyatın hər bir faizi təxminən 700 milyon dollara bərabərdir və iqtisadiyyatımızın 1,5 faiz artımı onu göstərir ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə ölkədə 1 milyard dollar dəyərindən çox məhsul istehsal edilmişdir.

Bizi daha çox sevindirən qeyri-neft iqtisadiyyatımızın inkişafı olmuşdur. Bu, iqtisadi siyasətimizin əsas istiqamətidir və 6 ayda qeyri-neft iqtisadiyyatımız 11,3 faiz artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricidir. Ümumi iqtisadiyyatımızın cəmi 1,5 faiz artımının səbəbi ondan ibarətdir ki, neft hasilatında müəyyən dərəcədə azalma müşahidə edilir. Nəzərə alsaq ki, neft sektoru iqtisadiyyatımızın böyük hissəsini təşkil edir, bu azalma istər-istəməz ümumi göstəricilərə də təsir göstərir. Ancaq biz bundan sonrakı illərdə də əsas diqqətimizi qeyri-neft iqtisadiyyatımızın inkişafına yönəldəcəyik və ilin 6 ayının yekunları Azərbaycanda aparılan islahatların məntiqi nəticəsidir. Sənaye istehsalının ümumi həcmi 3 faiz azalmışdır. Bunun da səbəbi neft hasilatının aşağı düşməsidir. Qeyri-neft sənayesinin inkişafı 8,3 faiz səviyyəsindədir. Bu da son illərdə sənayeləşmə proqramının icrasının nəticəsidir. Ölkəmizin müxtəlif bölgələrində, Bakı şəhərində yeni böyük və kiçik müəssisələr işə düşür, yeni iş yerləri açılır. Sənayeləşmə proqramı uğurla icra edilir. Növbəti illərdə bu məsələyə daim diqqət göstəriləcək. Bu il və gələn illərdə yeni sənaye müəssisələrinin işə düşməsi qeyri-neft sektorunu daha da gücləndirəcək.

Birinci 3 ayda investisiyalar 4,3 milyard dollar təşkil etmişdir. Hələ ki, 6 ayın investisiya rəqəmləri hesablanır və bu da müsbət göstəricidir. Keçən illə müqayisədə ölkə iqtisadiyyatına qoyulan investisiyalar 30 faiz artmışdır. Əgər biz ilin sonuna qədər bu templə işləsək – hesab edirəm ki, temp daha da yüksək olmalıdır – təqribən 18, bəlkə də 19 milyard dollar investisiyaya çatacağıq. Bu da əhalisi o qədər çox olmayan Azərbaycan üçün böyük rəqəmdir.

Nəzərə alsaq ki, hər il 10 milyard dollardan az olmayaraq investisiyalar qoyulur, növbəti illərdə ölkə qarşısında duran bütün infrastruktur və sosial məsələlər öz həllini tapacaqdır.

Makroiqtisadi vəziyyət çox müsbətdir, sabitdir. İnflyasiya cəmi 2,2 faizdir. İstehlak bazarına, qiymətlərə daim diqqət göstərilir. Əhalinin pul gəlirləri isə 14,2 faiz artmışdır. İnflyasiya ilə əhalinin pul gəlirləri arasında 12 faiz fərq var. Bu da real gəlirlərin nə qədər yüksək templərlə artmasına dəlalət edir.

Altı ayda kənd təsərrüfatı 10,4 faiz artmışdır. Hesab edirəm ki, bu da son illər üçün rekord göstəricidir. Biz bu göstəricini gözləyirdik, bilirdik. Çünki son müddət ərzində kənd təsərrüfatının inkişafına göstərilən diqqət, qoyulan investisiyalar, aparılan islahatlar məhsuldarlığı artırır. Dövriyyəyə buraxılan və buraxılacaq yeni əkin sahələri gələcək illərdə də kənd təsərrüfatının inkişafına daha böyük təkan verəcəkdir.

Əsas iqtisadi göstəricilər bundan ibarətdir. Bu barədə daha geniş danışacağıq, məlumatlar veriləcək. Ancaq ilin altı ayı onu göstərir ki, 2012-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Keçən rübdə əfsuslar olsun ki, biz yenidən təbii fəlakətlə üzləşmişdik. Şimal-qərb bölgəsində güclü zəlzələ baş vermişdi, minlərlə ev uçub dağılmışdı, yararsız vəziyyətə düşmüşdü, məktəblər, tibb ocaqları, sosial infrastruktur dağılmışdı. Ancaq operativ tədbirlərin görülməsi nəticəsində bu böyük zəlzələnin fəsadları aradan qaldırılır. Operativ qaydada ehtiyat fondundan və dövlət büdcəsindən əlavə vəsaitin ayrılması məsələləri də öz həllini tapmışdır. Mən zəlzələ bölgəsində vəziyyətlə tanış olarkən sakinlərə bildirdim ki, qısa müddət ərzində onlar üçün daha gözəl evlər tikiləcək, bütün sosial infrastruktur yenilənəcək və onların yaşayış şəraiti daha da yaxşı olacaqdır.

Birinci dəfə deyil ki, biz təbii fəlakətlərlə üzləşirik. 2 il əvvəl böyük daşqına məruz qaldıq. O sınaqdan da şərəflə çıxdıq. Minlərlə ev tikilmiş, kompensasiya ödənilmiş və bu proses hələ də davam edir. Əlavə vəsaitin ayrılmasına da biz müsbət baxdıq. Zəlzələ bölgəsində də eyni yanaşma tətbiq olundu. Çünki ilk növbədə, biz Azərbaycan vətəndaşlarının normal, rahat

yaşamasına çalışmalıyıq və bütün evlər dövlət hesabına yenidən tikiləcəkdir.

Mən daşqından sonrakı dövrdə bu məsələ ilə bağlı fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrdə dövlət öz üzərinə bu maliyyə öhdəliyini götürmür. Çünki orada bütün evlər sığortalanıb. Hər bir vətəndaş öz evini gedib sığorta şirkətində sığortalayır və təbii fəlakət baş verdikdə sığorta şirkəti kompensasiyanı ödəyir. Bizdə vəziyyət fərqlidir. Çalışmalıyıq ki, bu sığorta sisteminə keçidi daha da sürətləndirək. Amma hələ ki, bu, mümkün deyil. Dövlət bu vəzifəni öz üzərinə götürür.

Onu da deyə bilərəm ki, dünyada çox nadir hallarda belə məsələyə rast gəlmək olar ki, dövlət bütün maliyyə-texniki yükünü tamamilə, yəni 100 faiz öz üzərinə götürür. Bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki, yeni tikiləcək evlər, məktəblər, sosial-infrastruktur əvvəlkindən qat-qat keyfiyyətli və rahat olacaqdır.

Keçən rübdə «Bakının və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın birinci ilinə yekun vuruldu, geniş müşavirə keçirildi. Birinci ildə görülən işlər təhlil edildi, gələn il üçün qarşıya vəzifələr qoyuldu. Bütövlükdə bir il ərzində Bakıda və onun qəsəbələrində çox böyük quruculuq və abadlıq işləri aparılıb. Bu işlər davam edir. Yaxın zamanlarda bu işlərin məntiqi, real nəticələrini görəcəyik. Onlarla məktəb tikilir, bərpa edilir. Uşaq bağçaları, tibb ocaqları tikilir, yollar salınır, qazlaşdırma prosesi gedir. Su, kanalizasiya layihələri icra edilir. Bakı qəsəbələrində, ümumiyyətlə, heç vaxt kanalizasiya sistemi olmamışdır. Qəsəbədaxili yollar tikilir. Bu məsələyə kompleks şəkildə yanaşmışıq. Qəsəbələrdə yeni iş yerlərinin açılması məsələləri də öz həllini tapır. Bakı qəsəbələrində fəaliyyət göstərən iş adamlarına da Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli kreditlərin verilməsi prosesi başlanmışdır. Əminəm ki, gələn ilin sonuna qədər «Bakının və onun

qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» uğurla icra ediləcək.

Bölgələrdə regional inkişaf proqramı icra edilir. Ötən dövr ərzində, yəni ilin 6 ayında 46 min yeni iş yeri açılmışdır ki, onlardan 37 mini daimidir. Bu proses davam edir. Çünki Azərbaycanda hər həftə yeni müəssisə, yeni fabrik və yeni zavod tikilir, insanların məşğulluğu artır. Əmək bazarına nəzarət daha güclü olmalıdır. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Əfsuslar olsun ki, Azərbaycanda hələ də bu sahədə dəqiq sistem tətbiq edilməyibdir. Gizli məşğulluq halları kifayət qədər çoxdur, xarici miqrantların ölkəmizə qanunsuz gəlməsi və qanunsuz fəaliyyət göstərməsi halları aşkarlanır və bu meyillər güclənir. Bu da təbiidir. Çünki xüsusilə son 4 il ərzində Avropada iqtisadi-maliyyə böhranı davam edir, Azərbaycan nadir inkişaf templərini nümayiş etdirir. Buraya gəlmək, işləmək istəyənlərin sayı artır, Dövlət Miqrasiya Xidməti bütün lazımi tədbirləri görür. Bu tədbirlər daha da səmərəli olmalıdır ki, ilk növbədə Azərbaycan vətəndaşlarının əmək bazarında işlə təmin edilməsi məsələlərinə baxaq, onları tamamilə həll edək. Baxmayaraq ki, Azərbaycanda işsizlik aşağı səviyyədədir – keçən ilin yekunlarına görə 5,4 faizdir – ancaq hələ də işsizlik var və bəzi hallarda bu işsizlik reallığı əks etdirmir. Heç kəs üçün sirr deyil ki, qeydiyyata düşməyən, amma müəyyən işlərdə, tikintidə işləyənlər, maaş alanlar var, ancaq heç yerdə qeydiyyatı aparılmır. Belə hallar var və müvafiq göstərişlər verilibdir ki, bu sahədə də şəffaflıq tam şəkildə təmin edilsin və beləliklə, ölkə büdcəsinə daha da böyük vəsait daxil ediləcəkdir, o cümlədən pensiya fonduna. Beləliklə, bu sahədə də qayda-qanun yaradılmalıdır, birdəfəlik və tam şəkildə.

Regionlarda gedən quruculuq-abadlıq işləri artıq ənənəvi xarakter daşıyır. Mən bölgələrdə mütəmadi qaydada oluram və hər dəfə yenilikləri görəndə çox sevinirəm. Deyə bilərəm ki, rayonlar arasında sağlam rəqabət gedir. Həm rayon rəhbərləri, həm də ictimaiyyət, hər bir rayon sakini istəyir ki, onun rayonu daha da

gözəl, abad və inkişaf etmiş olsun. Biz də bu meyilləri gücləndiririk və Prezidentin ehtiyat fondundan ayrılan vəsaitin mütləq əksəriyyəti bölgələrin inkişafına yönəldilibdir.

Sosial məsələlərin həlli daim diqqət mərkəzində olmuşdur, bu gün də belədir. Bu ilin yaddaqalan əlamətlərindən biri də sovet dövründən qalmış, yəni batmış əmanətlərin kompensasiyasıdır. Yenə də demək istəyirəm ki, Azərbaycan dövləti o əmanətlərə görə heç bir hüquqi, yaxud da ki, mənəvi məsuliyyət və öhdəlik daşımır. Azərbaycan müstəqil dövlətdir. Azərbaycan müstəqil dövlət kimi, bütün öhdəliklərini yerinə yetirir.

Ancaq nəzərə alsaq ki, sovet dövründə 2 milyon 400 min əmanətçi var idi və insanlar bu əmanətlərin qaytarılmasını, kompensasiyasını gözləyirdi, yenə də siyasətimizin sosial xarakterini və sosial ədalət prinsiplərini daha da gücləndirmək üçün belə qərar qəbul edildi. Postsovet məkanında ən işlək, ən səmərəli, ən ədalətli və insanlar üçün ən məqbul variant məhz Azərbaycanda tətbiq edilib. Həm də müddət baxımından – çünki cəmi 2 il ərzində bütün kompensasiyalar ödəniləcək. Əgər biz sovet rublunu manatla deyil, dollarla müqayisə etsək, kompensasiyalar təqribən birə-beş, birə-altı əmsalı əsasında ödənilir. Bu da postsovet məkanında ən yüksək əmsaldır. Artıq proses başlanmışdır. Minlərlə, on minlərlə insan müraciət etmişdir. Minlərlə insan öz əmanətlərini almışdır və bu proses 2013-cü ilin sonuna qədər başa çatmalıdır.

Bu təşəbbüs bir daha niyyətimizi göstərir ki, sosial məsələlərin həlli daim bizim diqqət mərkəzimizdədir, bazar iqtisadiyyatı prinsipləri bizim üçün əsasdır. Bəzi hallarda bazar iqtisadiyyatı prinsipləri sosial ədalət prinsipləri ilə üst-üstə düşmür. Amma Azərbaycanda hər iki vacib amil daim diqqət mərkəzindədir və görülən tədbirlər bunun məntiqi nəticəsidir. Ünvanlı sosial yardım proqramı icra edilir, hər bir ailəyə verilən məbləğ 109 manat səviyyəsindədir və 143 min ailə ünvanlı sosial yardım alır. Bu da sosial siyasətimizi gücləndirən amildir.

Beynəlxalq mövqelərimiz son 6 ayda daha da güclənmişdir. Həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlardakı fəaliy-

yətimiz çox uğurlu olmuşdur. İkitərəfli əlaqələr, təmaslar güclənir, tərəfdaşlarımızın sayı artır və indi Azərbaycan diplomatiyasının fəaliyyət dairəsi genişlənir. Biz ənənəvi, regional tərəfdaşlıqdan yeni bölgələrə, yeni qitələrə çıxırıq – Afrika, Latın Amerikası ölkələri ilə daha da sıx əməkdaşlıq qururuq. Bu da həm ölkəmizin yeni statusuna uyğundur, həm ölkəmizin siyasi imicinin təzahürüdür, bizim xarici siyasətlə bağlı fikirlərimizin əlamətidir. Biz diplomatiyamızı şaxələndirməliyik. Ənənəvi tərəfdaşlarla əlaqələrimiz davam edir, güclənir və özümüz üçün yeni dostlar aşkarlayırıq. Biz «Qoşulmama Hərəkatı»na üzv olduq. Bu da düşünülmüş və çox düzgün bir addım idi. «Qoşulmama Hərəkatı»na üzv olduqdan sonra dərhal fəal işə başlamışıq və qısa müddət ərzində böyük hörmət qazana bilmişik. Latın Amerikası ölkələri ilə əlaqələrimiz daha da güclənir və qarşılıqlı səfərlərin keçirilməsi bunu göstərir. Latın Amerikasında həm siyasi, həm də iqtisadi maraqlarımızın təmin edilməsi üçün gözəl şərait vardır. Azərbaycan investisiyaları orada tələb olunur və biz bu məsələyə çox diqqətlə baxırıq. Afrika qitəsi ilə fəal işə başlamışıq. Bizim xarici siyasətlə bağlı fəaliyyətimiz genişlənir və bir daha demək istəyirəm ki, bu, dövrün tələbidir, güclənən Azərbaycanın xarici siyasəti daha da şaxəli olmalıdır.

Bu ilin may ayında Azərbaycan tarixdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Bu, tarixi hadisədir. Dünyanın bir nömrəli təşkilatına bir ay ərzində Azərbaycan sədrlik etmişdir və bu dövr daim bizim tariximizdə qalacaqdır. Azərbaycanın artan nüfuzu, imici, imkanları, gücü, bax, bu reallıqları mümkün etmişdir. Təhlükəsizlik Şurasının yeni üzvü kimi, Azərbaycan bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirir və bu mötəbər təşkilata üzv olduqda bəyan etdiyim kimi, Azərbaycan Təhlükəsizlik Şurasında ədaləti və beynəlxalq hüququ müdafiə edir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyanın qlobal məsələləri ilə bağlı çox fəal və geniş müzakirələr aparır, biz dünyanın aparıcı ölkələri ilə daim təmasdayıq və bizim prinsipial mövqemiz qiymətləndirilir.

Azərbaycan ilə dost olan ölkələrin sayı çoxdur. Bizim siyasətimizi dəstəkləyən, bəyənən ölkələrin sayı çoxdur. BMT Təhlükəsizlik Şurasında 155 ölkənin bizi dəstəkləməsi bunun əyani sübutudur. Təbii ki, hər kəsə xoş olmaq mümkün deyildir. Belə vəzifə də heç vaxt qarşımıza qoyulmayıbdır. Bizi istəməyən qüvvələr də, dairələr də vardır. Onlar da Azərbaycana hörmətlə yanaşırlar. Biz bu hörməti yenə də öz prinsipial mövqemizlə qazanmışıq. Bütün dövrlərdə bizim sözümüz də, əməlimiz də bir olmuşdur.

Beləliklə, növbəti aylar, illər ərzində bizim xarici siyasətlə bağlı işimiz daha böyük, əlaqələrimiz daha geniş olacaq. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqemiz, yenə də deyirəm, ədalətə və beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın ərazi bütövlüyü məsələləri heç vaxt danışıqlar predmeti olmamışdır və olmayacaqdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məndə bu barədə heç bir şübhə yoxdur. Danışıqlar prosesində müəyyən durğunluq vardır. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları yeni bəyanatla çıxış etmişlər və status-kvonun qəbuledilməz olduğunu bir daha təsdiq etmişlər. Hələ ki, status-kvonu dəyişdirən konkret, real addımlar atılmır. Ancaq bu qaçılmazdır. Status-kvo dəyişdirilməlidir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları, Avropa İttifaqı Şurasının Prezidenti Bakıda olarkən, ATƏT nümayəndələri, digər beynəlxalq təşkilatlar və siyasətçilər status-kvonun qəbuledilməz olduğunu dəfələrlə bəyan ediblər. Bu çox dəyərli bəyanatdır. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqlardan erməni işğalçı qüvvələrinin çıxarılması deməkdir. Bu işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxdıqca, əlbəttə ki, danışıqlar prosesində də müsbət meyillər daha da güclənəcək və bu məsələ tezliklə öz həllini tapacaqdır.

Ancaq bütün siyasi və diplomatik səylərlə yanaşı, şübhəsiz ki, biz öz hərbi qüdrətimizi artırırıq, gücləndiririk. Güclü ordu yaratmışıq və yaradırıq. Güclü ordu danışıqlarda bizim mövqemizi böyük dərəcədə gücləndirir. Azərbaycanın iqtisadi imkanları

genişlənir. Azərbaycan nəinki bölgədə, dünya miqyasında güclü ölkəyə çevrilir. İqtisadi və maliyyə, eyni zamanda, siyasi resurslarımız məsələnin ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə gətirib çıxaracaqdır. Bizim həm iqtisadiyyatımız, həm valyuta ehtiyatlarımız, həm də əhalimiz artır. Son məlumata görə, Azərbaycanın əhalisi 9,3 milyon nəfər təşkil edir. Ermənistana gəldikdə, ancaq onların rəsmi statistikasına görə ilin birinci 5 ayında 80 min nəfər o ölkəni həmişəlik tərk etmişdir. İlin sonuna qədər bu rəqəm təqribən 170, 200 minə çatacaqdır. Beləliklə, bir neçə ildən sonra, ümumiyyətlə, demoqrafik vəziyyət həlledici məqama çevriləcəkdir. Təsadüfi deyildir ki, son çıxışlarımda bu məsələyə xüsusilə diqqət yetirirəm. Azərbaycanda demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Bu artım daha güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün əlavə tədbirlər görülməlidir.

İqtisadiyyatımız, sənaye gücümüz, maliyyə imkanlarımız imkan verəcək ki, indiki səviyyədən 2 dəfə çox əhalini işlə təmin edək və bütün şəraiti yaradaq. Bu gün əhalimizin sayı 9,3 milyondur, bir neçə ildən sonra 15 milyon, 20 milyon olacaq. Biz indidən müəyyən əlavə tədbirlərin görülməsi ilə bu prosesi daha da stimullaşdırmalıyıq.

Ermənistana gəldikdə, bəlkə də Ermənistan rəhbərləri sevinir ki, əhali azalır. Orada nə iş yerləri, nə pul, nə iqtisadiyyat, nə sənaye, nə də perspektiv var. Əhali nə qədər azalsa, hökumətin üzərinə düşən yük də o qədər azalır. Bu bir yanaşmadır. Bizim yanaşmamız isə tam başqadır. İqtisadiyyatımız, sənaye gücümüz və siyasi iradəmiz diktə edir ki, Azərbaycan, əhalisi daha da artsın. Bu nəinki Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli üçün lazımdır – bu məsələni biz həll edəcəyik və Azərbaycan bayrağını Xankəndidə qaldıracağıq – bu, gələcək, üçün lazımdır. Bu gün dünyada bir çox hallarda beynəlxalq hüquq normalarına məhəl qoyulmur. Güc amili ön plana çıxır. Bu, ötən əsrlər üçün xas olan bir mənzərə idi. İkinci dünya müharibəsindən – dünyanın yeni quruluşu, yeni qaydaları tətbiq

olunduqdan sonra beynəlxalq hüquq normaları əsas kimi qəbul edildi və bu gün də belədir. Ancaq tendensiyalara və bölgədə, dünyada gedən proseslərə baxdıqda biz görürük ki, bəzi hallarda beynəlxalq hüquq normalarına kobudcasına zidd olan addımlar atılır, güc amili ön plana çıxır. Güclü kimdir, haqlı da odur. Bu bizim seçimimiz deyil, əfsuslar olsun ki, dünyada gedən proseslər bunu göstərir. Güclü olmaq üçün güclü iqtisadiyyat, hərbi sənaye potensialı və böyük əhali lazımdır. Ona görə biz bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq. İndiyə qədər bu proseslər təbii xarakter daşıyırdı. Ölkə iqtisadiyyatı artdıqca təbii artım daha da sürətlənirdi. Statistik rəqəmlərdə bunu görürük. Son illər doğulan uşaqların sayı daha çoxdur, nəinki 10–15 il əvvəl. Bu, iqtisadi və sosial amillərlə birbaşa bağlıdır. Biz bu məsələyə yeni prizmadan yanaşmalıyıq. Azərbaycan əhalisi daha da sürətlə artmalıdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, qeyd etmək istəyirəm ki, son illər Xocalı faciəsini soyqırımı kimi tanıtdırmaq üçün dövlət, hökumət, ictimai təşkilatlar, diaspor təşkilatlarımız, diplomatiyamız çox böyük işlər görüb. Artıq 3 ölkə – Kolumbiya, Meksika və Pakistan Xocalı soyqırımını rəsmi qaydada qəbul edib. Əminəm ki, bu proses davam etdiriləcək. Səfirliklərimiz, dövlət qurumları, ictimai təşkilatlar bu məsələ ilə bağlı səylərini davam etdirəcəklər. Xocalı faciəsini soyqırımı kimi tanıyan ölkələrin sayı daha da çoxalacaqdır.

Bu ilin 6 ayının yekunlarını müzakirə edərkən deyə bilərik ki, 2012-ci il bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu il kimi tarixdə qalacaqdır. Bu ildə böyük infrastruktur layihələri icra edilir. Azərbaycanın siyasi gücü böyük dərəcədə artıb. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz həqiqətən, tarixi hadisədir. Müstəqilliyimizin bərpasının 20 illiyinə təsadüf edən bu hadisə rəmzi xarakter daşıyır. Bu gün ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq, müvafiq göstərişlər veriləcək. 2013-cü ildə görüləcək işlər haqqında fikirləşirik, fikirləşməliyik. Hesab edirəm ki, müsbət dinamika ilin sonuna qədər davam edəcək və ölkə iqtisadiyyatı daha da inkişaf edəcəkdir.

## YEKUN NİTQİ

Əminəm ki, iqtisadiyyatda müsbət meyillər ilin sonuna qədər daha da güclənəcək. İlin sonuna qədər görüləsi işlər çoxdur – infrastruktur layihələrini başa çatdırmalıyıq. Əminəm ki, makroiqtisadi vəziyyət ilin sonuna qədər sabit olaraq qalacaqdır. Çünki 6 ayda inflyasiyanın cəmi 2,2 faiz səviyyəsində olması belə deməyə əsas verir. Bu çox müsbət göstəricidir. Qeyd etdiyim kimi, əhalinin pul gəlirləri inflyasiyanı 10 faizdən çox üstələyir. Şübhəsiz, bu dinamika və göstəricilər hər bir vətəndaşın həyatında, onun maddi rifahında öz izlərini buraxmalıdır.

Manatın məzənnəsi bizdə sabitdir. Hətta ən çətin, böhranlı illərdə manatın məzənnəsini saxlaya bilmişik. Baxmayaraq ki, bəzi ölkələrdə 20, 30, 40 faiz devalvasiya olub, amma biz manatın məzənnəsini saxlamışıq ki, Azərbaycan vətəndaşları bu böhrandan az itki ilə çıxsınlar. Bu gün də manatın məzənnəsi və manatın gücü ölkəmizin iqtisadi qüdrətini göstərir, Azərbaycana xaricdə olan inamı daha da artırır.

Biz pul sahəsində islahat aparanda, yeni manatı dövriyyəyə buraxanda bir manatı bir dollara bərabər etdik. Amma hazırda bir manat bir avroya bərabərdir, ondan daha da dəyərlidir. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. İqtisadi potensialımız və sənaye gücümüz imkan verir ki, manatın məzənnəsini, bax, belə güclü səviyyədə saxlayaq. Bəzi ölkələrdə ümummilli valyutanın qiymətdən düşməsi ixrac imkanlarını daha da genişləndirir. Bizim isə ixrac imkanlarımız onsuz da genişlənir və ölkəmizdə yaradılan və yaranmaqda olan yeni müəssisələr, o cümlədən ixracyönümlü müəssisələrdir. Bizim üçün əsas vəzifə makroiqtisadi sabitliyi saxlamaqdır. Çünki investisiya xərclərimiz, büdcəmiz, sosial ödəmələr artır, əmanətlərin kompensasiyası məsələləri də əlavə yükdür.

Bunlar istər-istəməz inflyasiyaya təkan verə biləcək amillərdir. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir.

İstehlak qiymətlərinə nəzarət güclü olmalıdır. Bu sahədə müsbət dəyişikliklər var. Hesab edirəm ki, əlavə tədbirlərin görülməsi nəticəsində bu sahədə daim müsbət vəziyyət qalacaqdır. Biz sağlam rəqabəti gücləndirməliyik. İnhisarçılığa qarşı güclü mübarizə aparmalıyıq. Bu mübarizə nəticələrini verir. Amma hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın bu bloku daim diqqət mərkəzindədir və burada aparılan islahatlar, atılan addımlar ümumi iqtisadi iqlimimizi sağlamlaşdırır.

Baxmayaraq ki, Azərbaycanda aparılan köklü iqtisadi islahatlar bugünkü reallıqları mümkün etmişdir, iqtisadi islahatları daha da sürətləndirməliyik. Biz 20 ildə həm siyasi, həm iqtisadi sahədə köklü islahatlar aparmaqla ölkəmizi yeni müstəviyə gətirib çıxarmışıq. Azərbaycan artıq ortagəlirli ölkələr sırasındadır, qarşıya vəzifə qoyulubdur ki, yüksəkgəlirli ölkələr sırasında olsun, inkişaf etmiş ölkəyə çevrilsin. Bunun üçün iqtisadi islahatlar davam etdirilməlidir. Bu islahatların böyük bir hissəsi artıq icra edilib; həm qanunvericilikdə öz əksini tapıbdır, həm də verilən qərarlarda və gündəlik həyatda biz bunu görürük.

Beynəlxalq təşkilatlar, yəni mötəbər beynəlxalq maliyyə təşkilatları bizim uğurlarımızı qeyd edir. Dünyanın 3 aparıcı reytinq agentliyi – «Standard & Poors», «Fitch» və «Moodys» Azərbaycanın kredit reytinqini artırmışdır. Baxmayaraq ki, Avropa ölkələrinin və Avropa banklarının reytinqləri eyni agentliklər tərəfindən aşağı salındı, Azərbaycanın kredit reytinqi qalxdı.

Bu, görülən işlərin, aparılan islahatların məntiqi nəticəsidir. Biz islahatları aparmaqla neft-qaz amilindən iqtisadi asılılığımızı böyük dərəcədə aşağı sala bilmişik və gələcəkdə şaxələndirmə, yerli istehsalın, sağlam rəqabətin gücləndirilməsi, investisiyaların cəlb edilməsi sayəsində əminəm ki, daha da böyük uğurlara çatacağıq.

Biznes mühitinin yaxşılaşdırılması sahəsində əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər baş verib. Bu il biznes proqramında Azərbaycan yüksək səviyyədədir. Hesab edirəm ki, daha da yüksək pilləyə qalxmaq üçün imkanlar var. Müəyyən bürokratik əngəllərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılacaq yeni addımlar, əminəm ki, bu il biznes cədvəlində Azərbaycanı daha da yüksək pilləyə çıxaracaq. Məsələ onda deyil ki, biz reytinqlərdə lap yüksək pillədəyik – baxmayaraq ki, bu da vacibdir – əsas məsələ konkret, real işlərin görülməsi, biznes iqliminin yaxşılaşdırılması və özəl sektorun inkişafı üçün əlavə tədbirlərin görülməsidir.

Özəl sektora diqqət yüksək səviyyədədir. Hər il sahibkarlarla və yerli icra orqanlarının nümayəndələri ilə geniş müşavirə keçirilir. Hər il sahibkarlara həm siyasi, həm də iqtisadi dəstək verilir və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 100 milyonlarla ölçülən kreditlər verilir və bu kreditlər işləyir. Bu bizim özəl sektora konkret münasibətimizdir. Şəxsən mənim üçün Azərbaycanın dövlət və özəl şirkətləri arasında heç bir fərq yoxdur. Hər ikisi Azərbaycan şirkətləridir, hər ikisində Azərbaycan vətəndaşları işləyir və maaş alır, hər ikisini də dəstəkləməliyik. Ona görə biznes mühitinin yaxşılaşdırılması daimi prosesdir. Biz yeni yanaşmaları tətbiq etməklə bu sahədə daha da böyük nəticələrə çata bilərik.

Dövlət orqanlarının biznes strukturlarına əsassız müdaxilə hallarına tamamilə son qoyulmalıdır. Bu sahədə müsbətə doğru irəliləyiş var. Ancaq hələ ki, bu müdaxilələr olur. O demək deyil ki, bu sahə tamamilə nəzarətsiz qalsın. Nəzarət qanun çərçivəsində güclü olmalıdır. Ancaq nəzarət biznesi əngəlləməməlidir və əsassız maneələr yaratmamalıdır.

Ümumiyyətlə, bu sahədə elektron xidmətə keçid daha sürətli olmalıdır. Bəzi dövlət qurumları bu sahədə çox sürətlə irəliyə gedirlər, bəzi qurumlar hələ ki, ləng tərpənirlər. Keçən müşavirədə bu məsələ ilə bağlı fikirlərimi daha da geniş bildirdim. Elektron sistemə keçid qaçılmaz bir reallıqdır. Bu labüddür və biz bunu etməliyik. Dünya iqtisadiyyatının inkişafı bu istiqamətdə gedir, bu

bizə həm şəffaflıq gətirəcəkdir, həm də çox məsələlər daha dəqiq təşkil ediləcək və xoşagəlməz hallara qarşı mübarizə daha da güclü olacaqdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə yaxşı nəticələr vardır. İctimaiyyət də görülən işlər haqqında mütəmadi qaydada məlumat alır, məlumatlandırılır. Bu mübarizə davam etdiriləcək. Bir daha demək istəyirəm ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə kampaniya xarakteri daşımır. Bu bizim şüurlu seçimimizdir. Elə etməliyik ki, bu böyük bəlanı Azərbaycandan çıxaraq, buna son qoyulsun. Bu sahədəki işlər daha da sürətlə getməlidir.

Əlbəttə, cəza tədbirləri tətbiq olunmalıdır. Əfsuslar olsun, hələ ki, bunsuz mümkün deyil. İnstitusional islahatlar, tədbirlər, yenə də elektron sistemə keçid, «elektron hökumət»in bütün əlamətlərini tətbiq etməklə biz daha da ciddi nəticələrə çata bilərik. Hələ ki, təkmilləşdirməyə imkanlar çoxdur. Əminəm ki, növbəti aylar ərzində daha da böyük nəticələr olacaq.

Yerli istehsalın gücləndirilməsi sahəsində konkret addımlar atılır. Yeni sənaye parklarının yaradılması prosesi gedir. Kimya parkı artıq yaranmaqdadır.

Yüksək texnologiyalar parkının yaradılması haqqında müvafiq göstərişlər verilmişdir. Sumqayıt texnoparkı öz fəaliyyətini genişləndirir. Balaxanı texnoparkının yaradılması istiqamətində konkret addımlar atılır. Qaradağ rayonunda yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması və ümumiyyətlə, Qaradağın sənaye mərkəzlərindən birinə çevrilməsi prosesi uğurla gedir. Bu sahədə bütün göstərişlər verilib, iş ardıcıllıqla gedir, sadəcə olaraq, mən həmişə bu işlərdə çox tələbkaram, dövlət qurumlarının nümayəndələrini tələsdirirəm ki, bu işləri daha qısa müddət ərzində görək. Qeyri-neft sənayemiz təxminən 10 faiz artmışdır. Əminəm ki, bu dinamika yeni yaradılan müəssisələrin fəaliyyəti nəticəsində saxlanılacaq.

Dünən Qaradağ rayonunda «Holcim» sement zavodunun açılışında iştirak edərkən bir daha vurğuladım ki, belə layihələr Azərbaycan iqtisadiyyatını gücləndirir. Bu layihələri icra etmək

üçün Azərbaycanda çox gözəl işlək mexanizm var. Dünən də qeyd etdim, bu gün də qeyd etmək istəyirəm, sevindirici haldır ki, xarici investorlar Azərbaycanın təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da maraq göstərir. Bu layihəyə xarici şirkət, yəni «Holcim» şirkəti 300 milyon avro dəyərində investisiya qoymuşdur. Vaxtilə bizim təşəbbüsümüzlə yaradılan Azərbaycan Dövlət İnvestisiya Şirkəti də bu layihədə iştirak edir. Bu iştirak xarici investorları daha da ruhlandırır. Bu onu göstərir ki, vaxtilə Azərbaycan Dövlət İnvestisiya Şirkətinin yaradılması çox düzgün addım idi. O şirkətə verilən vəsait artıq işləyir. Biz istədiyimiz məqsədə çatmışıq.

Dövlət İnvestisiya Şirkətinin yaradılması iqtisadiyyatda, yaxud da ki, sənayedə dövlət sektorunun artırılması məqsədlərini güdmürdü. Təsadüfi deyil ki, məhz sement zavodunun layihəsində Dövlət İnvestisiya Şirkətinin payı cəmi 10 faizdir. Ancaq biz bu 10 faiz ilə həm idarəetmə prosesində iştirak edirik, konkret vəsaiti investisiya şəklində qoyuruq, investorlarda inamı gücləndiririk və istisna edilmir ki, Azərbaycan Dövlət İnvestisiya Şirkəti gələcəkdə öz payını lazım gəldikdə hərrac, yəni tender yolu ilə satışa da çıxara bilər. Çünki əsas məqsədimiz sənaye müəssisələrinin yaradılmasıdır. Nə üçün mən bu gün bu məsələ ilə bağlı xüsusilə geniş danışıram? Təkcə ona görə yox ki, dünən biz bu zavodun açılışında iştirak etmişik.

Ümumiyyətlə, bu zavodun açılışı onu göstərir ki, investorlar bizə inanırlar. Böhranlı illərdə, 2009-cu ildə Avropa bankları, demək olar ki, iflasa uğrayırdı. Böhranın ən ağır dövrü hökm sürürdü. O vaxt böyük məbləğdə investisiyaların qoyuluşu Azərbaycan iqtisadiyyatına və Azərbaycanın gələcəyinə böyük inamın təzahürüdür. Azərbaycanda müsbət investisiya mühitinin mövcudluğu, xarici investorlara gözəl şəraitin yaradılması sayəsində biz buna nail ola bildik. Yeni, müasir, ekoloji cəhətdən tamamilə təhlükəsiz zavod artıq dünəndən fəaliyyətə başlayıb.

Bir neçə il bundan əvvəl Azərbaycanda sementin istehsalı təxminən 1 milyon ton səviyyəsində idi, tələbat isə ildən-ilə artırdı. Çünki bu qədər tikinti, bu qədər sənaye müəssisələrinin

yaradılması sement tələb edir. Hazırda tələbat 3,3 milyon tondur. İstehsal ondan azdır, biz özümüzü təqribən 70 faiz təmin edirik. Ancaq icrada olan layihələr bir neçə ildən sonra Azərbaycanda sementin istehsalını 5 milyon tona çatdıracaqdır. Bu, təqribən 2014–2015-ci illərdə olmalıdır. Beləliklə, bu sahədə həmin məhsula daxili tələbatımızı ödəyirik.

Bütövlükdə bu meyillər hər bir sahədə özünü büruzə verməlidir. Həm kənd təsərrüfatı sahəsində – bu barədə hələ danışacağıq – həm tikinti materiallarının istehsalında.

Dünən metal konstruksiyalar zavodunun açılışını qeyd etdik. Bu layihə də dövlət dəstəyi ilə icra edilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrıldı, yerli iş adamları öz vəsaitini qoydu və müasir müəssisə yaradıldı. Belə layihələrin sayı çox olmalıdır. Həm iri, həm ortahəcmli, həm kiçik müəssisələrin yaradılması bu gün artıq reallıqdır.

Kənd təsərrüfatının inkişafı ilə bağlı görülən tədbirlər öz nəticəsini verir. Kənd təsərrüfatı 10 faizdən çox artmışdır. Növbəti illərdə çalışıb bu dinamikanı saxlamalıyıq. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üçün əsas sahələrdən biridir və məşğulluğun təmin edilməsi üçün, demək olar ki, əsas sahədir. Çünki əhalimizin təxminən yarısı bölgələrdə, kənd yerlərində yaşayır. Burada həm yeni təşəbbüslərin icra edilməsi, həm də təkmilləşmə proseslərinin sürətlə getməsi daha gözəl nəticələr verəcəkdir.

İri fermer təsərrüfatlarının yaradılması prosesi, nəhayət, başlamışdır. Mən bu barədə hələ bir il əvvəl demişəm, əfsuslar olsun ki, buna o qədər də böyük diqqət verilməmişdir. Keçən müşavirədə mənim sahibkarlarla bağlı kəskin sözlərim bizim dövlət məmurlarını da hərəkətə gətirdi. Hazırda yerlər müəyyən edildi. Artıq birinci 5 min hektar hazırlanır ki, orada iri fermer təsərrüfatlarının yaradılmasına başlayacağıq. Əminəm ki, bu təcrübə uğurlu olacaqdır və biz bundan sonra dövriyyəyə buraxılacaq əkin sahələrinin həcmini böyük dərəcədə artırmalıyıq.

Yerlər müəyyən edilib, indi orada aqrotexniki, meliorativ tədbirlər görülməlidir ki, sahibkarlığa daha da güclü təkan verilsin.

Məhsuldarlığın artırılması məsələləri xüsusilə taxıl yığımı prosesində daha da ciddi diqqət tələb edir. Müəyyən təcrübə vardır və bu il daha çox məhsuldarlıq gözlənilir. Ancaq hamımız yaxşı bilirik, hətta imkan var ki, indiki əkin sahələrini də nəzərə almaqla, məhsuldarlığı artırmaqla ərzaq təhlükəsizliyini tam şəkildə təmin edə bilək. Ümumiyyətlə, kənd təsərrüfatı məhsullarının istehsalında özümüzü 100 faiz təminetmə prinsipi tətbiq edilir. Yaxın illərdə özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin edəcəyik.

Bununla paralel olaraq meliorativ tədbirlərin həyata keçirilməsi prosesləri gedir. Bu sahədə 2 böyük layihə icra edilir. Samur–Abşeron kanalı, Taxtakörpü Su Anbarı və Şəmkirçay dəryaçası tikilir. Hər iki layihə qlobal layihədir. Ölkə iqtisadiyyatına, yəni bir layihəyə qoyulan investisiya baxımından bəlkə də ən böyük layihələrdir və kənd təsərrüfatının inkişafı üçün ən vacib layihələrdir. Bu layihələrin icrası nəticəsində 10 minlərlə, bəlkə də 100 minlərlə hektar yeni əkin sahələri dövriyyəyə buraxılacaq, yeni iş yerləri, yeni istehsal sahələri yaranacaq, o bölgələrdə böyük canlanma müşahidə olunacaq. Orada işlər cədvəl üzrə gedir və bəlkə də cədvəli bir qədər qabaqlayır. Ona görə də baxmaq lazımdır – düzdür, dövlət büdcəmiz artıq formalaşıb, əlavə vəsait yoxdur – ancaq əgər haradasa bir imkan yaranarsa, hesab edirəm ki, bu layihələri daha da sürətləndirmək, vaxt itirməmək üçün əlavə vəsait ayrıla bilər.

Altı ayda digər infrastruktur layihələrinin icrası davam etmişdir. Prezidentin ehtiyat fondundan və dövlət büdcəsi hesabına bir çox yeni layihənin icrası başlanmışdır, xüsusilə kənd yollarının tikintisi. Çalışmalıyıq ki, gələn ilin sonuna qədər kənd yollarının tikintisi ilə bağlı əsas məsələləri həll edək. Tərtib edilmiş proqrama əsasən – əgər biz bu templəri saxlaya bilsək – gələn ilin sonuna qədər kənd yerlərində əhalinin yaşadığı məntəqələrin 85 faizində yeni kənd yolları artıq istismara veriləcəkdir. Bölgələrdə, Bakıda su və kanalizasiya layihələri icra edilir. Oğuz–Qəbələ–Bakı su

kəmərinin istifadəyə verilməsi nəticəsində bu sahədə dönüş yaranmışdır. Bu yaxınlarda mənə verilən məlumata görə, Hövsan qəsəbəsinə artıq 24 saat fasiləsiz su verilir. Bu çox gözəl göstəricidir. Yaxşı bilirik ki, Hövsan qəsəbəsində, ümumiyyətlə, o bölgədə həmişə su ilə problemlər olmuşdur. Mən bir neçə dəfə Hacıbala Abutalıbovla oraya getmişəm, əhali ilə görüşmüşəm. Yuxarı mərtəbələrə, ümumiyyətlə, su çatmırdı. Gündə bir-iki saat su verilirdi və daim ən ağrılı yerimiz ora idi. Amma görülən tədbirlər nəticəsində indi 24 saat fasiləsiz keyfiyyətli su verilir. Deməli, hər bir işi görmək olar, təki iradə, istək və işə düzgün münasibət olsun. Biz bu layihənin timsalında görürük ki, bütün Bakıətrafı qəsəbələrdə bu layihələr icra ediləcək və bütövlükdə ölkə üzrə bu layihələr icra edilir. Bakıda, qəsəbələrdə, hər bir şəhərdə, hər bir rayon mərkəzində və artıq rayon mərkəzinə yaxın olan kəndlərdə, yaxud da ki, yeni çəkiləcək su xətlərinin üzərində yerləşən kəndlərdə bu layihələr maksimum dərəcədə icra edilir. Paralel olaraq, kanalizasiya layihəsi icra edilir.

Mənə bu yaxınlarda yeni layihələr təqdim edilib, hansılar ki, əvvəllər nəzərdə tutulmurdu. Kür çayının suyunu rayon istiqamətinə yönləndirməklə 7 rayonun su təchizatını xeyli dərəcədə yaxşılaşdıra biləcəyik. Gələn ilin sonuna qədər Hacıqabul, Şirvan, Neftçala, Biləsuvar, Salyan, Sabirabad, Saatlı rayonlarının 111 kəndinə yeni layihə əsasında təmiz içməli suyun verilməsi nəzərdə tutulur. Bu böyük layihə bu yaxınlarda artıq start götürəcəkdir. Digər infrastruktur layihələrinə gəldikdə, qazlaşdırma, elektrik enerjisi ilə təchizatla bağlı sahələrdə işlərin mütləq əksəriyyəti görülmüşdür. Qalan işlər də cədvəl üzrə görülməlidir ki, burada 100 faiz təminat təşkil edilsin.

Biz artıq bərpa olunan enerji mənbələrinin yaradılması ilə ciddi məşğuluq. Bu məsələ ilə bağlı konkret addımlar atılmış, strukturlar formalaşmışdır. Artıq Bakı və Sumqayıtda günəş panelləri zavodu fəaliyyətə başlamışdır. Hesab edirəm ki, bütün aidiyyəti qurumlar – dövlət qurumları və özəl qurumlar bu zavodun məhsullarından istifadə etməlidir. Məsələn, dövlət xətti ilə tikilən yeni evlərdə, indi zəlzələ bölgəsində, yaxud da ki, məcburi köçkünlər üçün tikilən

evlərdə biz günəş panellərindən daha da geniş şəkildə istifadə etməliyik. Çünki bu, böyük iqtisadi səmərə verəcəkdir, bu, təmiz enerji növüdür. Düzdür, hazırda Azərbaycanda qeyri-təmiz enerji növlərindən istifadə edilmir. Bizim enerji növlərimiz təbii qaz və sudur. Hər ikisi təmizdir. Ancaq günəş enerjisi qazdan daha da təmizdir. Bir də ki, bunun böyük iqtisadi səmərəsi olacaqdır, qaza əlavə qənaət etmək imkanı yaradacaqdır. Nəzərə alsaq ki, indi ixrac imkanlarımız genişlənir, təbii qaza nə qədər çox qənaət olunsa, o qədər də çox ixrac oluna bilər.

Bərpa olunan enerjidən istifadə texnologiyalarının yaradılması ölkəmizin müasirliyə doğru getməsini əks etdirir. Çünki neftlə, qazla zəngin olan ölkədə bərpa olunan enerji növlərinin inkişafı, ilk növbədə məsuliyyətimizi və niyyətimizi göstərir. Bu, yeni iş yerləri, müasir texnologiyalar, kadrların hazırlanması deməkdir. Hesab edirəm ki, bu sahədə çox işlər görülməlidir. Biz təzə başlamışıq, ancaq yaxşı başlamışıq. Düşünürəm ki, bizim təcrübə başqa ölkələrdə də öyrənilə bilər. Bizim üçün bərpa olunan enerji növlərinin yaradılması və genişləndirilməsi çox da təcili xarakter daşımır, çünki zəngin neft-qaz yataqlarımız var. Yeni yataqlar aşkar edilib. «Şahdəniz», «Abşeron», «Ümid» və digər yataqlarda 2,6 trilyon kubmetr qaz ehtiyatları var ki, bu da gələn 100 il ərzində bizə və tərəfdaşlara kifayət edəcəkdir. Ancaq bununla bərabər, biz bərpa olunan enerji növlərini mütləq inkişaf etdirməliyik.

Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, bu sahədə də deyə bilərəm ki, biz ölkə qarşısında duran bütün vəzifələri icra edirik. Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı həll olunmamış heç bir məsələsi qalmayıb. Bütün məsələlər həll edilib. Sadəcə olaraq, neft-qaz sektorunun inkişafının indiki mərhələsində biz strategiyamızı düzgün qurmalıyıq. Bunu müəyyən etmişik və bu strateji hədəflərə çatmaq üçün konkret addımlar atılmalıdır. Bu sahədə görülən bütün işlər haqqında ictimaiyyət bilir. Bizim çoxşaxəli ixrac nəqliyyat infrastrukturumuz var. Hasilat lazımi səviyyədədir. Keçən ay TANAP layihəsinə start verdik. Bu bir neçə səbəbə görə tarixi layihədir. Uzun illərdir ki, Azərbaycan və

ümumiyyətlə, Xəzər qazının Avropaya çatdırılması ilə bağlı müzakirələr, danışıqlar aparılır, konfranslar, zirvə görüşləri keçirilir. Ən azı son 7 ildə bu məsələ ilə bağlı müzakirələr gedir, ancaq nəticə yoxdur. Qərara gəldik ki, bu sahədə də Azərbaycan liderliyi üzərinə götürməlidir. Necə ki, ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan Bakı–Tbilisi–Ceyhan layihəsinin icrası ilə bağlı liderliyi, bütün məsuliyyəti və öhdəlikləri öz üzərinə götürmüşdür. Biz gördük ki, əgər liderliyi üzərimizə götürməsək, bu danışıqlar bəlkə də 10 il heç bir nəticəsi olmadan davam edəcəkdir. Qısa müddət ərzində türkiyəli tərəfdaşlarımızla bu məsələ ilə bağlı müzakirələr, danışıqlar aparıldı. Layihəyə ad verildi – TANAP, Trans–Anadolu Qaz Kəməri. Bütün məsələlər həllini tapdıqdan sonra keçən ay İstanbulda TANAP ilə bağlı bütün sənədlər imzalandı. Layihəyə start verildi. Bir daha vurğulamaq istəyirəm ki, bu layihə sırf Azərbaycan–Türkiyə layihəsidir. Pay bölgüsü 80 faiz Azərbaycan, 20 faiz Türkiyə tərəfinə çatacaqdır. Bu pay bölgüsü maliyyə öhdəliyini göstərir.

Biz hazırıq ki, layihənin 80 faizinin maliyyəsini özümüz təmin edək. Mən bunu elan etmişəm, bu gün də demək istəyirəm ki, bu layihə tərəfdaşlar üçün, bizim üçün dost olan şirkətlər, Azərbaycanda uzun illər fəaliyyət göstərən şirkətlər üçün də açıqdır. Əgər hər hansı bir şirkət bu layihədə səhmdar, investor kimi iştirak etmək istəyərsə, biz buna müsbət baxacağıq. Biz qərar verəcəyik ki, hansı şirkətlər bu layihədə iştirak edə bilər. Əminəm ki, bu layihənin uğurlu nəticəsi olacaqdır. Çünki indiyədək Azərbaycan tərəfindən irəli sürülmüş layihələrin heç biri iflasa uğramayıb. Hər biri gözəl nəticələrlə sonuclanıb. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Supsa, Bakı–Novorossiysk kəmərləri və digər kəmərlər Azərbaycan tərəfindən icra edilib və uğurla icra edilib. O ki qaldı neft-qaz yataqlarının işlənilməsinə, bizim son illər ərzində bu sahədə də heç bir problemimiz olmamışdır. Biz bütün hədəflərə çatmışıq.

Bir daha demək istəyirəm ki, Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib, başqa ölkələrin enerji təhlükəsizliyi məsələlərinin həllində iştirak edir və gələcəkdə daha da geniş

şəkildə iştirak edəcəkdir. Bu layihə böyük əhəmiyyətə malikdir, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələrindən az əhəmiyyət daşımır. Bu bizə imkan verəcək ki, qaz resurslarımızı Türkiyəyə və Avropaya daha da böyük həcmdə nəql edək. Beləliklə, biz enerji siyasətimizdə əsas amil olan şaxələndirmə məsələlərinə tam şəkildə çatacağıq.

Bu sahədə heç bir problemlə üzləşmirik. Azərbaycanda hasil edilən neft-qaz ixrac olunur, daxildə istehlak edilir. Hazırda hasilatın səviyyəsi bizi qane edir və uzun illər bu səviyyə qalarsa, iqtisadiyyatımız yalnız inkişaf edəcəkdir. Nəzərə almalıyıq ki, biz indi neft-qaz amilindən iqtisadi asılılığımızı azaldırıq və azaldacağıq. Demək istəyirəm ki, hər şey indiki səviyyədə də qalsa, yenə də biz inkişaf edəcəyik və inkişafımızı yavaşıdan amil olmayacaqdır. Ancaq bu layihə icra edilsə, inkişafımız daha da sürətlənəcək, təsir dairəmiz daha da genişlənəcək. Çünki enerji sahəsi iqtisadi maraqlarla bərabər, digər maraqları da təmin edir. Azərbaycanın, şübhəsiz ki, regional və beynəlxalq mövqeləri yalnız və yalnız güclənəcək və möhkəmlənəcək.

Sənaye inkişafımızla bağlı bir məsələyə də toxunmaq istəyirəm. İri sənaye müəssisələrinin şəhər mərkəzindən çıxarılması prosesi gedir, getməlidir. Bakı sakinləri bu prosesin müsbət nəticələrini görürlər. Biz vaxtı ilə köhnəlmiş, ekoloji cəhətdən təhlükəli sənaye müəssisələrini şəhərin mərkəzindən çıxarırıq, yeni yerlərə köçürürük. Köhnəlmiş müəssisələrin fəaliyyətə davam etməsi də lüzumsuzdur. Biz yeni, güclü sənaye potensialı yaradırıq. Çalışmalıyıq ki, ən qabaqcıl texnologiyalar tətbiq edilsin. Şəhərin mərkəzində – köçürülən köhnəlmiş sənaye müəssisələrinin yerlərində ictimai istifadə üçün yerlər yaradılmalıdır. Parklar, avtomobil dayanacaqları, bağçalar salınmalıdır ki, insanlar üçün daha yaxşı şərait yaradılsın. Yaşıllıq zolaqları, ağaclar əkilməlidir. Bu il 2 milyondan artıq ağac əkilib. «Ekologiya ili» çərçivəsində hər yerdə bu proses sürətlə gedirdi. Mən demişdim ki, «Ekologiya ili» bu gün də davam edir, sabah da davam edəcək, hər il bizdə «Ekologiya ili» olmalıdır. Çünki ekologiya həyatımızdır, sağlamlığımızdır, gələcəyimizdir. Bu proses davam etdirilir və

etdirilməlidir. Bayraq Meydanına gedən yol və yeni bulvar bunun bariz nümunəsidir. Bu yerlər köhnəlmiş, yəni sovet dövründə tikilmiş və heç bir əhəmiyyət daşımayan zavodlarla əhatə olunmuşdu. Onları köçürmək o qədər də asan deyildi. Müqavimətlər də oldu. Ancaq iradə olduqda müqavimət heç bir nəticə vermir.

Bu gün Bakı sakinləri və Azərbaycan vətəndaşları görürlər ki, nə qədər böyük işlər görüldü. Bu sahə ümumi istifadəyə verildi, bulvar uzadıldı, yaşıllıq zolaqları yaradıldı və insanlar rahat istirahət edirlər. Belə yerlər Bakının mərkəzində çoxdur, çalışmalıyıq ki, onları mərkəzdən çıxaraq və işləyən müəssisələri köçürək, işləməyən müəssisələr də oradan yığışdırılsın.

Şəhərdə və ətraf qəsəbələrdə çirklənmiş göllər həddən artıq çoxdur. Təxminən 30-a qədər göl var. O göllərin yaranma tarixi bizə bəllidir. Oraya lay suları, kanalizasiya suları axır, Bakının müasir simasına uyğun gəlmir. Göstəriş verilib, hazırda İqtisadi İnkişaf Nazirliyi və «Azərsu» şirkəti bu məsələ ilə bağlı təkliflər hazırlayır. Biz bu gölləri təmizləməliyik, abadlaşdırmalıyıq, kanalizasiya və drenaj sistemlərini yaratmalıyıq ki, bu göllərdən Bakı sakinləri və qonaqlar istifadə etsinlər. Çox acınacaqlı mənzərə təşkil edən bu göllər gözəl, şəffaf göllərə çevrilməlidir. Baxmayaraq ki, böyük və çətin bir işdir.

Həm maliyyə resursları tələb edən, həm də texniki cəhətdən çox çətin bir işdir. Ancaq bunu mütləq etməliyik. Bunun ölkəmizin gələcəyi üçün çox böyük əhəmiyyəti olacaqdır. Təsəvvür edin ki, çirklənmiş, ekoloji vəziyyəti korlayan bu göllər gələcəkdə əgər təmiz göllərə çevrilərsə, görün nə qədər yaxşı şərait, nə qədər yeni istirahət yerləri, parklar, meşə zolaqları yaradılacaq. Misal üçün, Böyük Şor gölü. İndi ən ağır vəziyyətdə olan Böyük Şor gölü şəhərin lap mərkəzindədir. İndi Böyük Şor gölünün təmizlənməsi, yeni kanalizasiya sistemlərinin, lay sularının ötürülməsi, yaşıllıq zolaqlarının yaradılması layihəsi əgər uğurla başa çatarsa, böyük bir ərazidə, şəhərin mərkəzində gözəl, təmiz göl yaranacaqdır.

Xocasən gölü, Xırdalan gölü, Qanlı göl, Zığ gölü – bu göllərin sayı həddən artıqdır. Bu göllərə yuxarıdan, helekopterdən baxanda

dəhşətli mənzərə açılır. Biz bu gölləri təmizləməliyik. Göstərişlər verilib, bu il əlavə vəsaitin ayrılması da nəzərdə tutulub. Ancaq gələn ilin investisiya proqramında bu məsələ xüsusilə qeyd olunmalıdır və çalışmaq lazımdır ki, mümkün olan işləri bu il görək. Əsas işləri gələn ilin əvvəlində maksimum diqqətlə görməliyik.

Bakı və qəsəbələrin proqramı icra edilir. Bu barədə mən giriş nitqimdə sözümü dedim. Bütün vəzifələr qarşıya qoyulub. Əminəm ki, proqramda olan bütün məsələlər 2013-cü ilə qədər öz həllini tapacaq. Proqram tərtib olunanda yerlərdən bizə daha çox məlumat gəldi. Biz də proqramı bu məlumat və sifarişlər əsasında yaratdıq. Ancaq indi yeni məsələlər ortaya çıxır. Misal üçün, qəzalı məktəblərin təmiri.

İndi qəzalı məktəb hansı məktəb sayılır? Dağılan məktəb, yoxsa ki, pis vəziyyətdə olan məktəb? Bu qəzalı məktəbi müəyyən etmək o qədər də asan məsələ deyil. Bir halda ki, indi biz ən pis vəziyyətdə olan məktəbləri ya sökürük, yenidən tikirik, ya da bərpa edirik, o qədər də yaxşı vəziyyətdə olmayan məktəblər qalır kənarda, onlar da təmir olunmalıdır. Artıq onlar da proqrama əlavə edilir. İndi uşaq bağçalarının hamısı təmir olunacaq. Şəhərdə bir ədəd də təmirsiz uşaq bağçası qalmayacaq.

Ancaq uşaq bağçalarının sayı və potensialı bizi təmin etmir. Yeni bağçalar tikilməlidir. Bu məsələlər də proqrama əlavə edildi, vəsait də ayrıldı. Əminəm ki, gələn ilin sonuna qədər icra ediləcək. Gələn ilin büdcəsi haqqında indidən fikirləşirik. Bu gün Maliyyə Nazirliyi bu məsələ ilə məşğuldur. Gələn ilin büdcəsi həmişə olduğu kimi, yenə də investisiyayönümlü və sosialyönümlü olmalıdır. Gələn il Bakı və qəsəbələrin proqramı, böyük infrastruktur layihələri başa çatmalıdır. Göllərlə bağlı ekoloji tədbirlər icra edilməlidir.

Gələn il bizim xərcimiz çox olacaq. Biz bu işi indidən planlaşdırmalıyıq və bu barədə mən artıq göstəriş vermişəm. Bu gün bir daha demək istəyirəm ki, gələn ilin investisiya proqramını biz bu ilin sonunda təsdiq etməliyik. Adətən, bizdə investisiya proqramı ilin əvvəlində, təqribən yanvar ayında təsdiq edilir.

Ondan sonra vəsait açılır və investisiya layihələri, demək olar ki, fevral ayına qədər öz icrasını gözləyir. Ancaq vaxt itirməmək üçün investisiya proqramı bu ilin sonunda qəbul edilməlidir ki, yanvarın əvvəlindən artıq bu proqram icra edilməyə başlansın.

Maliyyə vəziyyətimiz yaxşıdır. İlin əvvəlindən ölkəmizin strateji valyuta ehtiyatları artmışdır. Hazırda Azərbaycanın valyuta ehtiyatları 44 milyard dollar səviyyəsindədir. İlin sonuna qədər bu rəqəm artmalıdır. Xarici dövlət borcu çox aşağı səviyyədədir. Ümumi daxili məhsulun 7 faizini təşkil edir. Bu, dünya miqyasında ən müsbət göstəricilərdən biridir. Göstəriş vermişəm ki, əlavə kreditlərin götürülməsində ehtiyatlı olsunlar. Bu gün biz özümüz kreditlər veririk və bu həm siyasi, həm iqtisadi cəhətdən müsbət haldır.

Biz öz pulumuzu müxtəlif alətlər vasitəsilə yerləşdiririk. Götürüləcək kreditlər istisna hal kimi ola bilər. Çünki əsas işlər dövlət büdcəsi, yaxud da ki, əvvəllər götürülmüş kreditlər hesabına görülür. Mən yeni kreditlərin götürülməsinə o qədər də ehtiyac görmürəm. Müstəsna hal kimi etmək olar, hər bir kreditin götürülməsi əsaslandırılmalıdır. Bu, krediti götürmək istəyən şirkət, yaxud da nazirlik tərəfindən əsaslandırılmalıdır ki, biz xarici dövlət borcunu artırmayaq. Düzdür, ümumi daxili məhsulun 7 faizi çox aşağı göstəricidir. Müqayisə üçün deyim ki, inkişaf etmiş ölkələrdə bu, 80, 100, 150 faizdir və artıq iflasa gedən yoldur. Bizdə 7 faizdir. Ola bilər müəyyən dərəcədə artsın, əvvəlki illərdən götürülmüş kreditlər hələ gəlməyə davam edir. Ola bilər artsın, amma heç bir halda 10 faizi keçməməlidir və çalışmalıyıq ki, növbəti illərdə biz bu kreditlərin borcunu bir az endirək. Halbuki biz bu borcu bir gündə ödəyə bilərik. Bizim valyuta ehtiyatlarımız borcumuzdan 10 dəfə çoxdur.

Elə etməliyik ki, bu gün də, sabah da, 20 ildən, 50 ildən sonra da ancaq inkişaf yolu ilə gedək. Avropanın bəzi ölkələri borc götürməklə, bax, bu vəziyyətə düşdülər. Borc götürürdülər, o borcu yönəldirdilər sosial proqramlara, seçkiqabağı vədlərin yerinə yetirilməsinə. Populist çıxışları təmin etmək üçün ondan sonra gələn siyasi qüvvələr yenə də borc götürürdülər və beləliklə,

piramida yaranırdı ki, o da çökməli idi, çökdü də. Belə təhlükə bizdə yoxdur, ola da bilməz. Həmişə deyirəm ki, siyasətdə də, iqtisadiyyatda da, həyatda da hər kəs ayağını yorğanına görə uzatmalıdır.

Bir məsələyə də toxunmaq istəyirəm. «Eurovision» mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsi bizə imkan verdi ki, ölkəmizi dünyaya olduğu kimi təqdim edək. Ancaq sözün düzü, keçən il bizim istedadlı gənc müğənnilərimiz Almaniyada keçirilən müsabiqədə qalib gəldikdə heç təsəvvür edə bilməzdik ki, bu müsabiqə bu qədər siyasiləşdiriləcək. İndiyə qədər bu müsabiqə sadəcə olaraq, mahnı yarışması idi, bunun heç bir siyasi tərəfi olmamışdı və ola da bilməz. Əfsuslar olsun ki, Azərbaycana gəldikdə bunu siyasiləşdirmək istəyən qüvvələr tapıldı və deyə bilərəm ki, Azərbaycana qarşı böyük və çirkin kampaniya başlamışdı. Qeyd etməliyəm ki, «Eurovision»u Azərbaycanda keçirmək üçün biz heç vaxt təşəbbüs irəli sürməmişdik, bu, mümkün deyil. Çünki yarışmanın qaydaları belədir ki, qalib olan ölkə məcburdur ki, bu tədbiri keçirsin və biz də bunu böyük məsuliyyət kimi qəbul etdik. 9 ay ərzində – bu da dünya miqyasında yəqin ki, rekord göstəricidir – «Crystal Hall» kimi möhtəşəm idman-konsert sarayını tikdik. Bayraq Meydanı onsuz da genişləndirilirdi, biz orada işləri sadəcə olaraq, sürətləndirdik və bütün şəraiti yaratdıq.

Təşkilati nöqteyi-nəzərdən ən gözəl müsabiqə idi. Bizə gələn minlərlə xarici qonaq təşkilati məsələləri yüksək qiymətləndirdi və bütövlükdə şəhərimizə heyran oldu. Çünki Bakıya vurulmamaq mümkün deyil. Biz bütün qonaqları qonaqpərvərliklə qarşıladıq, çalışdıq ki, onlar üçün gözəl şərait yaradaq və elə edək ki, bu müsabiqə hər bir cəhətdən yadda qalsın və əvvəlkilərdən fərqlənsin. Görürəm və bilirəm ki, biz buna müvəffəq olduq. Bakıda keçirilmiş «Eurovision» müsabiqəsi hesab edirəm ki, başqa şəhərlər üçün nümunə ola bilər. Biz gözlənilməz kampaniya ilə üzləşdik. Yenə də deyirəm, «Eurovision»un tarixində heç vaxt siyasi məqamlar olmamışdı.

Burada antiazərbaycan qüvvələrin birləşməsi prosesi sürətlə getmişdi. İlk növbədə, erməni lobbisi – bu məsələ ilə bağlı mən

əvvəllər də demişəm, bu gün də deyirəm. «Eurovision» müsabiqəsi bir daha mənim sözlərimi təsdiqləyir ki, bizim üçün, Azərbaycan xalqı, Azərbaycan dövləti üçün bir nömrəli düşmən dünya erməni lobbisidir. Onlar gündəlik fəaliyyətdə Azərbaycanı ləkələmək, qaralamaq, şayiə, böhtan yaymaq üçün çalışırlar və bütün maliyyə-siyasi qüvvələrini səfərbər edirlər ki, təki Azərbaycana zərbə vursunlar. Erməni lobbisi, ondan sonra digər qurumlar, digər dairələr, Avropada islamofobiya xəstəliyinə düçar olmuş bəzi dairələr bu kampaniyaya qoşuldu. Bunu da mən təəssüf hissi ilə deyə bilərəm. Belə fikirlər səsləndi ki, müsəlman ölkəsində Avropa müsabiqəsi keçirilə bilməz.

Əlbəttə, bunlar çox məyusedici bəyanatlardır. Düzdür, belə qüvvələrin Qərb dünyasında, siyasi müstəvidə çəkisi çox aşağı səviyyədədir. Ancaq bu qüvvələr, belə partiyalar, bu fikirdə olan siyasətçilər, əfsuslar olsun ki, var. Əgər belə təsnifat aparsaq deyə bilərəm ki, üçüncü qüvvələr sadəcə olaraq, Azərbaycanın uğurlu inkişafını qəbul edə bilməyən, Azərbaycanın böhranlı illərdə bu qədər inkişaf etdiyini həzm edə bilməyən və uğurlarımıza qısqanan, paxıllıq edən dairələrdir. Onları qıcıqlandıran budur ki, necə ola bilər ki, hər yerdə böhran, hər yerdə problem, nümayişlər, polis ilə əhalinin toqquşması – indi bəzi şəhərlərdə bu, ənənəvi hal almışdır – ancaq burada sakitlik, rahatlıq, inkişaf və xoş ovqat hökm sürür?!

İnkişafımızı qəbul etməyən qüvvələr var və biz onları tanıyırıq. Bunlara qoşulmuş yerli, antimilli qüvvələr, özünü müxalifət adlandıran, əslində, uzun illər antiazərbaycan mövqeyində dayanan və Azərbaycana qarşı kampaniya aparan qüvvələr var. Mən onlara qüvvə deməyəm, elementlər, ünsürlər desəm daha dəqiq olar. Həm xarici, həm daxili mətbuatda qəsdən müəyyən təxribatların baş verməsini onlar təşkil etmişlər.

Onlar üçün, daxildəki bu elementlər üçün siyasi həyatda bir prinsip var ki, Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün bir o qədər yaxşıdır. Azərbaycanı ləkələmək, haqqında yanlış məlumat yaymaq, erməni lobbisi ilə birləşmək – bunlar bizim gözümüzün qabağında baş vermiş hadisələr idi. Azərbaycan xalqı bir daha

açıq-aydın gördü ki, kim kimdir. Demək olar ki, Azərbaycan xalqı bu bir ayı sevinc içində idi. Bu qədər qonaq gəlir, hər kəs istəyirdi ki, öz ölkəsini təqdim etsin, tanıtdırsın, gözəl yerləri göstərsin. Antimilli qüvvələr isə xarici qonaqlara deyirdilər ki, siz baxmayın ki, bura gözəldir, gəlin biz sizi kənara aparaq, siz görərsiniz ki, bura necə pisdir. Adamın ağlına gəlmir ki, bu dərəcədə antimilli duyğularla yaşayan insanlar burada, ümumiyyətlə, özləri üçün necə yer tapa bilirlər?! Onlar üçün hər gün dərddir, hər gün faciədir. Bir yenilik görəndə üzülürlər, bir inkişaf görəndə yasa batırlar. Bunlar çox ağır psixoloji durumda olan insanlardır, özü də uzun illər ərzində. Azərbaycanın inkişafı bu günün işi deyil. Bu, ardıcıllıqla gedən inkişafdır. Ötən əsrin 90-cı illərinin ortalarından bu günə qədər hər il inkişaf, gözəllik, abadlıq – indi Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bunu biz demirik, xarici qonaqlar deyirlər.

«Eurovision»a qədər 20-ci Sahədə ayrılan yerdə 3 mitinq keçirilib. Bir daha demək istəyirəm ki, onlar üçün ən məqbul yer 20-ci Sahədir və özləri də öz xoşu ilə 20-ci Sahədə mitinqləri çox sakit şəkildə keçirdilər. Heç kim onlara dəymədi. Amma görəndə ki, hər dəfə – yəni 3 dəfə belə yığıncaqlar keçirildi – oraya gələn insanların sayı getdikcə azalır, yeni taktikaya əl atdılar. Şəhərin mərkəzində qanunsuz piket, mitinq keçirməklə xarici mətbuatın diqqətini cəlb etməyə cəhd etdilər.

Bu, sırf təxribat xarakteri daşıyan addım idi. Yaxşı, «Eurovision» artıq qurtardı. Haradadır o piketlər, mitinqlər?! Hacıbala Abutalıbov onlara müraciət etsin və onları 20-ci Sahəyə dəvət etsin. «Eurovision» növbəti dəfə nə vaxt Azərbaycanda keçiriləcək, biz bilmirik.

Bu nə qədər gülməli olsa da, bir o qədər də acınacaqlıdır. Çünki doğrudan da xalqına, millətinə, dövlətinə bu qədər mənfi münasibət bəsləyən insanlara bir ad vermək olar – milli satqınlar, xəyanətkarlar və antimilli qüvvələr. Ancaq bütün bu cəhdlərə və bizə qarşı bu çirkin kampaniyaya baxmayaraq, yenə də biz qalib gəldik – Azərbaycan dövləti, Azərbaycan xalqı qalib gəldi. Çünki biz güclüyük, haqlıyıq. Haqlı qüvvə qalib gələndə o zaman ədalət

zəfər çalır və əminəm ki, biz bundan sonra da həmişə qalib gələcəyik!

# TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iyulun 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Respublikasının Prezidentinə raport verdi.*

*Tacikistan Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Tacikistan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Emoməli Rəhmona, Tacikistan Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iyulun 12-də təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirildi. Dövlətlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.*

*Tacikistan prezidenti Emoməli Rəhmonun Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyul 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

İcazə verin, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayım. Xoş gəlmisiniz!

Dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəldiyiniz üçün Sizə təşəkkür edirəm. Biz Sizin səfərinizə və bütövlükdə dövlətlərimiz arasında yaxşı tarixə və gözəl perspektivə malik olan münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu gün biz Sizinlə siyasi və iqtisadi sahələrdə ikitərəfli münasibətlərin mühüm məsələlərinə dair fikir mübadiləsi apardıq, konkret məsələlərin həlli yollarını qeyd etdik. Sizin səfərinizin müsbət məzmun kəsb etməsi üçün bu gün müvafiq qurumlara konkret tapşırıqlar veriləcək.

Ümid edirəm ki, səfər çox uğurlu olacaq. İmzalayacağımız sənədlər də qarşılıqlı münasibətlərin inkişafı üçün yaxşı yeni baza yaradır. Xalqlarımız arasında tarixən çox yaxın qardaşlıq münasibətləri vardır. Bu münasibətlər dövlətlərimizin qarşılıqlı maraqları ilə möhkəmlənir. Biz beynəlxalq məsələlərdə, beynəlxalq qurumlarda da fəal əməkdaşlıq edirik. Bir-birimizi dəstəkləyirik və dəstəkləyəcəyik. Sizin ölkəni özümüzə dost və qardaş hesab edirik. Bütün istiqamətlər üzrə fəal əməkdaşlığın davam etdiriləcəyinə ümidvarıq. Buna görə də Sizin səfəriniz bizim münasibətlər üçün xüsusi əhəmiyyət kəsb edir. Əminəm ki, bu səfər əlaqələrimizin inkişafına yeni təkan verəcək və gələcəkdə

ölkələrimizin və xalqlarımızın rifahı naminə iki dost, qardaş dövlət kimi, fəal qarşılıqlı əlaqə saxlayacağıq.

**E m o m ə l i R ə h m o n:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlar!

İcazə verin, bizi ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə bir daha səmimi təşəkkürümüzü bildirim. Bizə göstərdiyiniz səmimi münasibət və qonaqpərvərliyə görə Sizə, Sizin şəxsinizdə Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına minnətdarıq. Biz bu səfərə böyük əhəmiyyət veririk və onu əsası 2007-ci ildə yüksək səviyyədə qarşılıqlı səfərlərlə qoyulmuş daimi əlaqələrimizin məntiqi davamı kimi qəbul edirik.

Hörmətli İlham Heydər oğlu, biz Sizin Tacikistana səmərəli səfərinizi xüsusi hərarətlə xatırlayırıq. Bu səfər iki ölkənin bütün istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığının inkişafına güclü təkan vermişdir.

Tacikistan Azərbaycan Respublikası ilə səmimi, dolğun və konstruktiv dövlətlərarası münasibətləri yüksək qiymətləndirir və bu münasibətlərin daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirir.

Bu gün Tacikistan–Azərbaycan əlaqələri çoxşaxəlidir və əməkdaşlığın mühüm istiqamətlərini əhatə edir. BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və bir sıra başqa beynəlxalq və regional birliklərin üzvləri olan ölkələrimizin obyektiv olaraq üst-üstə düşən maraq dairəsi genişdir. Bu bizim imkanlarımızın bir-birini qarşılıqlı tamamladığı sahələrdə konkret birgə layihə və proqramların həyata keçirilməsində təcəssüm etməlidir. Bu baxımdan, tərəflərin qarşılıqlı əlaqələrinin digər universal və regional mexanizmləri, habelə ümumi qayğı mövzusu olan qlobal problemlər barəsində mövqelərin qarşılıqlı dəstəklənməsi iki ölkənin səylərinin əlaqələndirilməsi üçün əlverişli məkandır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Tacikistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Prezidentinin və Tacikistan Respublikası Prezidentinin Birgə Bəyanatı»nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon imzaladılar.*

*«Bakı Dövlət Universiteti və Tacikistan Milli Universiteti arasında əməkdaşlıq haqqında Müqavilə»ni Azərbaycan Respublikasının Təhsil naziri Misir Mərdanov və Tacikistan Respublikasının Təhsil naziri Nuriddin Saidov imzaladılar.*

*«Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Tacikistan Respublikası Milli Olimpiya Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Tacikistanın Gənclər, İdman və Turizm Komitəsinin sədri Malikşo Nematov imzaladılar.*

*«Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Tacikistan Respublikası Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İsmət Abasov və Tacikistan Respublikasının Kənd Təsərrüfatı naziri Kosim Kosimov imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Tacikistan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol»u Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar*

*Məmmədyarov və Tacikistan Respublikasının Xarici İşlər naziri Xamroxon Zarifi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov və Tacikistan Respublikasının Mədəniyyət naziri Mirzoşoxrux Asrori imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov və Tacikistan Respublikasının Gənclər, İdman və Turizm Komitəsinin sədri Malikşo Nematov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sənədlərinin, elmi dərəcələrin və elmi adların qarşılıqlı tanınması və ekvivalentliyi haqqında Saziş»i Azərbaycan Respublikasının Təhsil naziri Misir Mərdanov və Tacikistan Respublikasının Təhsil naziri Nuriddin Saidov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında 2013–2015-ci illər üçün iqtisadi əməkdaşlıq üzrə Proqram»ı Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, hökumətlərarası komissiyanın həmsədri Şahin Mustafayev və Tacikistan Respublikasının Xarici İşlər naziri Xamroxon Zarifi imzaladılar.*

## ALİ ORDENLƏRLƏ TƏLTİFOLUNMA MƏRASİMİ

*12 iyul 2012-ci il*

*Azərbaycan–Tacikistan sənədlərinin imzalanmasından sonra iyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun ali ordenlərlə təltifolunma mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev Tacikistan dövlətinin başçısına Azərbaycanın ali mükafatı – «Heydər Əliyev» ordenini, prezident Emoməli Rəhmon isə Azərbaycan dövlətinin başçısına Tacikistanın ali mükafatı – «İsmoili Somoni» ordenini təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Emoməli Şərifoviç!

Hörmətli dostlar!

Bu gün biz dövlətlərarası münasibətlərimizin inkişafının bir çox sahələrini müəyyənləşdirəcək mühüm sənədlər imzaladıq.

Bu gün biz əziz dostumuz, Tacikistan Respublikasının Prezidenti hörmətli Emoməli Şərifoviç Rəhmonu ölkəmizdə qəbul edirik. İndi Emoməli Şərifoviçə Azərbaycan dövlətinin ali mükafatı, müstəqil Azərbaycanın ən yüksək mükafatı olan «Heydər Əliyev» ordenini təqdim etmək istərdim.

Biz Emoməli Şərifoviçi görkəmli dövlət xadimi, bu gün dünyada böyük nüfuza malik olan, Tacikistan və tacik xalqının ən çətin dövründə bu ölkəyə rəhbərlik etmiş, onu ağır vəziyyətdən, xaos və vətəndaş müharibəsindən inkişaf və tərəqqi yoluna çıxaran insan kimi tanıyırıq.

Siz uzun illər ərzində qardaş Tacikistana çox uğurlu rəhbərlik edirsiniz. Sizin rəhbərliyiniz altında respublikanızda böyük dəyişikliklər olmuşdur. Sizin respublika inkişaf edir. Mən rəsmi səfərim zamanı Tacikistanın inkişaf dinamikasını şəxsən görmüşəm. Yaxın vaxtlarda yenidən Tacikistana səfər etmək, danışıqlarımızı orada davam etdirmək niyyətindəyəm.

Biz Sizi həm də ölkəmizin dostu kimi tanıyırıq. Siz Azərbaycan dövlətinin dahi lideri Heydər Əliyevlə fəal işləmisiniz. Çox

cəhətdən məhz Sizin birgə fəaliyyətiniz sayəsində ikitərəfli əməkdaşlığın bu cür səmərəli formatını yaratmaq mümkün olmuşdur. Mənim atam ilə birgə əsasını qoyduğunuz əməkdaşlıq ənənələri bu gün uğurla davam etdirilir.

Biz Sizi dövlətimizin və xalqımızın bütün problemlərinə həssaslıqla yanaşan insan, Azərbaycanın dostu kimi tanıyırıq. Sizə Azərbaycan dövlətinin yüksək mükafatını təqdim etmək, Sizə və qardaş tacik xalqına ən xoş arzularımı, yeni uğurlar və firavanlıq diləyimi bildirmək imkanına görə çox məmnunam.

**E m o m ə l i  R ə h m o n:** Hörmətli həmkarlar!

Əziz dostlar!

Mən hörmətli İlham Heydər oğlunun söylədiyi fikirlərlə tamamilə razıyam. Biz hələ Heydər Əliyev ilə başladığımız işləri davam etdirmişik və davam etdirəcəyik. Heydər Əliyev çox müdrik siyasi xadim idi. Mən bu ordeni bütün xalqıma verilən mükafat kimi qiymətləndirirəm. Biz həmişə yaxşı münasibətlər qurmağa çalışmışıq. Mən xalqım və ölkəm üçün çətin illərdə bir sıra məsələlər barəsində həmişə Heydər Əliyevdən məsləhət almağa çalışmışam. O vaxtdan bəri biz yaxşı münasibətlər qurmuşuq.

Azərbaycanla dostluğumuz davam edir, ikitərəfli münasibətlərimizi inkişaf etdiririk. Bütün istiqamətlər üzrə ikitərəfli əməkdaşlığımız son 10 ildə xüsusilə dinamik inkişaf edir. Bugünkü görüşün də yaxşı nəticələri vardır.

Mənim qardaşım, hörmətli İlham Heydər oğlunun dəvəti ilə bugünkü rəsmi səfərim də ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir.

Bu gün biz ikitərəfli ticari-iqtisadi və humanitar sahələrdə, dövlətlərimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın bütün istiqamətlərində yeni, çox perspektivli plan haqqında razılıq əldə etdik.

Biz mənim dostum, hörmətli İlham Heydər oğlunu Tacikistan–Azərbaycan əməkdaşlığının möhkəmlənməsində, ikitərəfli əməkdaşlığın inkişafında xidmətlərinə, bütün beynəlxalq forum və təşkilatlarda Tacikistanın mövqeyini, təşəbbüslərini dəstəklədiyinə görə Tacikistan Respublikasının ali mükafatı olan «İsmoili

Somoni» ordeni ilə təltif etməyi qərara almışıq. Biz bir-birimizin təşəbbüslərini həmişə dəstəkləyirik.

İcazə verin, bu mükafatı dostum İlham Heydər oğluna təqdim edim. Sizi təbrik edirəm.

*Prezident Emoməli Rəhmon «İsmoili Somoni» ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dost! Mənim əməyimi yüksək qiymətləndirdiyinizə görə çox sağ olun. Sizə səmimi demək istəyirəm ki, bundan sonra da ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərini möhkəmlətmək üçün var qüvvəmlə çalışacağam. Bu münasibətlərin çox böyük tarixi vardır. Xalqlarımız həmişə qardaşlıq və anlaşma şəraitində yaşamışlar.

Bu gün biz iki müstəqil dövlət kimi, yenə bir yerdəyik, əməkdaşlığın möhkəmləndirilməsi və regional təhlükəsizlik kimi mühüm məsələləri yenə birlikdə həll edirik.

Mən qardaş Tacikistan ilə Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsi üçün bundan sonra da əlimdən gələni edəcəyəm.

Bu ali mükafata görə bir daha sağ olun.

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 iyul 2012-ci il*

*İyulun 12-də ali ordenlərin təqdim edilməsi mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Əziz Emoməli Şərifoviç!

Əziz qonaqlar, dostlar!

Bu gün mən Tacikistan Respublikasının Prezidenti möhtərəm Emoməli Şərifoviçi ölkəmizdə bir daha ürəkdən salamlayıram.

Tacikistan prezidentinin rəsmi səfəri bizim ikitərəfli münasibətlərin tarixində mühüm hadisədir. Bu, Tacikistan prezidentinin ikinci rəsmi səfəridir. Özlüyündə bu fakt ölkələrimiz arasında münasibətlərin səviyyəsinin göstəricisidir. Bizi tarix birləşdirir, bu günümüz birləşdirir. Mənə çox xoşdur ki, müstəqillik illəri ərzində ölkələrimiz böyük dostlara, tərəfdaşlara çevrilmişlər, beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayır, konkret siyasi və iqtisadi əməkdaşlıq məsələlərini həll edirlər.

Müstəqil dövlətlərimiz arasında münasibətlərin təməli hörmətli Emoməli Şərifoviç Rəhmon və Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuşdur. Bu gün uğurla inkişaf edən münasibətlərin əsası məhz onların rəhbərliyi ilə yaradılmışdır. Xalqlarımız arasında dostluq və qardaşlıq ənənələri davam edir, möhkəmlənir, yeni formalar kəsb edir. Biz beynəlxalq qurumlarda fəal qarşılıqlı əlaqə saxlayır, bir-birimizi qarşılıqlı dəstəkləyirik.

Mən bu gün Emoməli Şərifoviçə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilərkən bizi dəstəklədiyinə görə artıq təşəkkür etmişəm, Tacikistan prezidentinə hamınızın qarşısında bir daha təşəkkür etmək istəyirəm. Biz bu dəstəyi çox yüksək qiymətləndiririk, bu dəstək bizə çox kömək etdi. Mən onu da demişəm ki, biz Təhlükəsizlik Şurasının üzvü kimi, Tacikistan tərəfindən irəli sürüləcək bütün təşəbbüsləri dəstəkləyəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də əməkdaşlıq edirik, MDB-də, İƏT-də bir-birimizi dəstəkləyirik. Başqa sözlə desək, beynəlxalq baxımdan harmoniya və qarşılıqlı dəstək var.

Bu gün konkret iqtisadi əməkdaşlıq layihələri müzakirə edilmiş, iqtisadi əlaqələrin fəallaşdırılmasına dair yeni təşəbbüsləri və təklifləri qısa müddətdə hazırlamaq üçün nümayəndə heyətlərinin müvafiq üzvlərinə tapşırıqlar verilmişdir. Bunlar energetika, iqtisadiyyat, sənaye, habelə investisiya məsələlərinə aiddir. Əminəm ki, bu göstərişlər həyata keçiriləcək, görülən tədbirlər nəticəsində ölkələrimiz arasında əmtəə dövriyyəsini qısa müddətdə xeyli, ola bilsin ki, dəfələrlə artırmağa nail olacağıq. İqtisadi əməkdaşlıq məsələlərini fəal həll etmək üçün yaxşı imkanlar, ən başlıcası, siyasi iradə var. Bunların köməyi ilə ölkələrimiz bir-birinə daha yaxın olacaq, daha sıx qarşılıqlı fəaliyyət göstərəcəklər. Mərkəzi Asiyada Tacikistan, Xəzər və Qafqaz regionunda Azərbaycan regional məsələlərdə mühüm rol oynayır və biz səylərimizi birləşdirməklə daha böyük uğurlar qazana bilərik.

Mən hörmətli Emoməli Şərifoviçə bizim layihələr barədə, ilk növbədə Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi barədə məlumat vermişəm. Bu yol region ölkələrinə yüklərini daşımaq üçün yeni, səmərəli, qənaətli, sərfəli yollar açmaq imkanı yaradacaq, həmçinin regional inteqrasiyaya kömək edəcək. Biz bir sıra konkret layihələri müzakirə etdik, göstərişlər verildi və əminəm ki, həmin göstərişlərin hamısı reallaşacaqdır.

Humanitar sahədə əməkdaşlığımız qarşılıqlı maraq, qarşılıqlı hörmətlə fərqlənib. Xalqlarımızın mədəniyyəti, ənənələri, həyat tərzi bir-birinə yaxındır, mədəni sahədə mübadilə xüsusi

əhəmiyyət kəsb edir. Bu gün imzalanmış, o cümlədən humanitar xarakterli – təhsil, mədəniyyət sahəsində mühüm sənədlər xalqlarımızı daha da yaxınlaşdıracaq, biz daha sıx ünsiyyət saxlayacaq, daha sıx dostluq edəcəyik.

Hörmətli Prezidenti ölkəmizdə bir daha salamlayıram. Bizim dəvətimizi qəbul edərək Azərbaycana gəldiyinə görə ona təşəkkür edirəm, bütün qardaş Tacikistan xalqına yeni uğurlar və firavanlıq arzulayıram.

## Tacikistan prezidenti Emoməli Rəhmonun bəyanatı

Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələri nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

Tacikistan 2007-ci il martın 15-də iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilədə təsbit edilmiş prinsiplər əsasında Azərbaycan ilə çoxplanlı əməkdaşlığın inkişafına prioritet əhəmiyyət verir. Azərbaycana budəfəki səfərin yekunları çoxəsrlik dostluq telləri və ümumi mədəni dəyərlərlə, qədim ənənələrə malik mehriban münasibətlərlə bir-birinə bağlı olan iki dövlətin, tacik və Azərbaycan xalqlarının qarşılıqlı münasibətlərinin inkişafında daha bir addımdır.

Ali səviyyədə qarşılıqlı rəsmi səfərlərdən 5 il keçir. Bununla əlaqədar, biz qarşılıqlı münasibətlərimizin 2007-ci ildə yaradılmış müqavilə-hüquqi baza əsasında keçdiyi yola yekun vurduq və müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın yeni, hələ istifadə edilməmiş imkanlarını gerçəkləşdirməyin yolları və üsulları üzərində diqqəti cəmləşdirmişik. Biz İlham Heydər oğlu ilə qarşılıqlı faydalı və konstruktiv danışıqlar apardıq. Bu danışıqların gedişində ikitərəfli xarakter daşıyan məsələlərin geniş dairəsini müzakirə etdik, ölkələrimizdə və regionlarımızda vəziyyət, hər iki tərəfi narahat edən beynəlxalq problemlər barədə fikir mübadiləsi apardıq.

Görüşün və nümayəndə heyətlərinin danışıqlarının yekunlarına əsasən, qarşılıqlı fəaliyyətin mövcud müqavilə-hüquqi bazasını

möhkəmlədən zəruri ikitərəfli sənədlər paketi imzalanmışdır. Onların sırasında 2013–2015-ci illər üçün ölkələrimiz arasında İqtisadi Əməkdaşlıq Proqramını xüsusi qeyd etmək istərdim. Danışıqların gedişində qarşılıqlı maraq doğuran başqa məsələlərə, o cümlədən BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimizin vəziyyəti və perspektivləri məsələlərinə də toxunulmuşdur. Biz mövqelərimizi əlaqələndirmək və beynəlxalq aləmdə bir-birimizin təşəbbüslərini dəstəkləmək məqsədilə siyasi dialoqu müntəzəm əsasda davam etdirmək barədə razılığa gəldik.

Tacikistan və Azərbaycan xüsusən ticari-iqtisadi və nəqliyyat-tranzit sahələrində bizim əməkdaşlıq münasibətlərini daha yüksək səviyyəyə çatdırmaq üçün mövcud potensialdan istifadə etmək əzmindədirlər. Ümid edirik ki, birinci iclası cari ilin mart ayında Düşənbədə keçirilmiş Ticari-İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya hər iki ölkənin zəngin potensialından səmərəli istifadə edilməsi, iqtisadi və mənəvi-mədəni xarakterli mənafelərimizin üst-üstə düşdüyü sahələrdə əməkdaşlığı intensivləşdirmək və fəallaşdırmaq üçün səy göstərəcəkdir.

Demək istəyirəm ki, səfərin gedişi və yekunları, ali səviyyədə baş tutmuş dialoq bizi qane edir və biz dövlətlərarası münasibətlərimizin gələcəyinə nikbinliklə baxırıq. Bizim münasibətlərimizin perspektivləri, görüşümüzün gedişində nazirlik və idarələrin rəhbərlərinə verilmiş tapşırıqlar barədə dostum, hörmətli İlham Heydər oğlunun indicə dediyi fikirlərlə tam razıyam. Düşünürəm ki, bu səfər bütün istiqamətlər üzrə ikitərəfli əməkdaşlığımıza yaxşı təkan verəcək.

Mən böyük məmnuniyyətlə dostum, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi ölkəmizə rəsmi səfərə dəvət etdim. Güman edirəm ki, dialoqumuzun Düşənbədə davam etdirilməsi səmərəli və qarşılıqlı faydalı münasibətlərimizi daha da genişləndirmək və dərinləşdirmək yollarını göstərməyə imkan verəcəkdir.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından iyulun 12-də ölkəmizdə rəsmi səfərdə olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Tacikistan prezidenti ilə ikitərəfli əlaqələr, həmçinin regional məsələlərə dair müzakirələr apardığını deyən prezident İlham Əliyev səfər zamanı bir çox sahələri əhatə edən mühüm sənədlərin imzalandığını qeyd etdi. «Tacikistan və Azərbaycan müstəqil ölkələr olaraq öz gələcəyini uğurla qurur» – deyən Azərbaycan dövlətinin başçısı hər iki ölkənin 20 il ərzində inkişaf və tərəqqi yolu keçdiyini vurğuladı. Bu illər ərzində xalqlarımız arasındakı əlaqələrin daha da möhkəmləndiyini, bunun da öz növbəsində dövlətlərarası münasibətlərin inkişafına təkan verdiyini vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Bu gün biz iqtisadi sahədə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün hərtərəfli müzakirələr apardıq və müvafiq tapşırıqlar verdik. Yaxşı perspektivlər mövcuddur və biz bu perspektivlərin real olduğunu görürük. Əminəm ki, müvafiq qurumlara verilən tapşırıqlar yaxşı nəticələrə gətirib çıxaracaq və bizə ticarət dövriyyəsini bir neçə dəfə artırmağa imkan verəcəkdir. Energetikanı, sənayeni, sərmayələri əhatə edən bu layihələr ölkələrimizin yaxınlaşmasına xidmət edəcək, regional əlaqələri möhkəmləndirəcək. Regional problemlərə, regional əməkdaşlığa gəldikdə, deməliyəm ki, Tacikistan Mərkəzi Asiyada, Azərbaycan isə Xəzər hövzəsi və Qafqazda sülhün, təhlükəsizliyin, regional əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynayır. Bu gün, həmçinin nəqliyyat siyasəti məsələləri müzakirə olundu. Əminəm ki, regionda həyata keçirilən nəqliyyat təşəbbüsləri

ölkələrimizə tam şəkildə öz iqtisadi potensialını reallaşdırmağa imkan yaradacaqdır.

*Prezident İlham Əliyev bildirdi ki, bugünkü danışıqlar bir daha Tacikistan və Azərbaycanın regional və qlobal siyasətə dair bir çox məsələlərdə oxşar mövqelərinin olduğunu təsdiqlədi. «Biz beynəlxalq təşkilatlarda bir-birimizi fəal dəstəkləyirik, həmişə bir-birimizə səs veririk» – deyən dövlətimizin başçısı buna nümunə kimi, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi zamanı Tacikistanın dəstəyini xatırlatdı. Prezident İlham Əliyev bu səfərin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin göstəricisi olduğunu vurğuladı.*

*Tacikistan prezidenti Emoməli Rəhmon göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. Səfər çərçivəsində ikitərəfli münasibətlərin bir sıra aktual aspektlərinə dair çox faydalı və konstruktiv fikir mübadiləsinin aparıldığını deyən Tacikistan prezidenti qeyd etdi ki, 2007-ci ildə dostluq və əməkdaşlıq haqqında əsas müqavilə və daha 20 sənəd imzalandıqdan sonrakı dövrdə toplanan qarşılıqlı fəaliyyət təcrübəsi nəzərə alınmaqla, Tacikistan ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, möhkəmlənməsi və genişlənməsi istiqamətləri və formaları konkretləşdirilib.*

**Emoməli Rəhmon:** Bu gün Azərbaycan Tacikistanın xarici siyasət strategiyasında mühüm yerlərdən birini tutur. Biz Tacikistan–Azərbaycan əməkdaşlığının daha da möhkəmləndirilməsində, onun qarşılıqlı faydalı inkişaf sahələrinin və istiqamətlərinin şaxələndirilməsində maraqlıyıq. Ölkələrimiz və onların rəhbərləri arasında mövcud müqavilə-hüquqi bazası, qarşılıqlı etimad və qarşılıqlı rəğbət ruhu bu istək və planların həyata keçirilməsi üçün etibarlı zəmin yaradır. Bu səfərin yekunlarına əsasən əldə edilmiş razılaşmalar bizim daha fəal və konkret qarşılıqlı fəaliyyət göstərməyimizə, Tacikistan–Azərbaycan əməkdaşlığının və tərəfdaşlığının gələcəyinə nikbin baxmağa imkan verir. Bunun üçün maksimum səy göstərmək lazımdır.

# TÜRKİYƏ RESPUBLİKASININ ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ FARUK ÇƏLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə naziri Faruk Çəlikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Faruk Çəlik Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin müvafiq qurumları arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmi qeyd edildi, Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əməkdaşlığın səmərəli olacağına əminlik ifadə edildi.*

*Dövlətimizin başçısı prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ TƏHSİL VƏ TƏLİM NAZİRİ HƏMİDRZA HACIBABAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İran İslam Respublikasının Təhsil və Təlim naziri Həmidrza Hacıbabayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Həmidrza Hacıbabayi İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nazir İran prezidentinin «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin Tehranda keçiriləcək sammitinə dəvət məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərlə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BİNƏ QƏSƏBƏSİNDƏ YERLƏŞƏN «AZƏRSUN HOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA MƏXSUS «GREEN TECH» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN MÜASİR İSTİXANA KOMPLEKSİ İLƏ TANIŞLIQ

*13 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Bakının Binə qəsəbəsində yerləşən «Azərsun Holdinq» Şirkətlər Qrupuna məxsus «Green Tech» Məhdud Məsuliyyətli Cəmiyyətin müasir istixana kompleksi ilə tanış olmuşdur.*

Prezident İlham Əliyevin təsdiq etdiyi «2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində paytaxtın müxtəlif qəsəbələrində ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, qəsəbə və kəndlərdə əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Belə təsərrüfat sahələrindən biri də Bakının Binə qəsəbəsində «Azərsun Holdinq» Şirkətlər Qrupuna məxsus «Green Tech» Məhdud Məsuliyyətli Cəmiyyətin müasir istixana kompleksidir.

Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin «Azərsun Holdinq» müəssisələrinin açılışında iştiraklarını əks etdirən fotoguşə ilə tanış oldu.

Sonra prezident İlham Əliyev kompleksin ayrı-ayrı sahələrini gəzdi. Dövlətimizin başçısı avtomatik suvarma sistemləri sahəsinə baxdı. Müasir istixana kompleksi barədə prezident İlham Əliyevə ətraflı məlumat verildi. Bildirildi ki, «Green Tech» MMC-nin Azərbaycanda həyata keçirdiyi bu layihənin əsas məqsədi ən son Qərb texnologiyasını tətbiq etməklə, aqrar sahəni daha da inkişaf etdirmək, kənd təsərrüfatında yeni iş yerləri açmaq və əhalini ekoloji cəhətdən sağlam tərəvəz məhsulları ilə təmin etməkdir. İstixana kompleksinin 80 hektar ərazisi vardır. Layihənin reallaşdırılması məqsədi ilə İqtisadi İnkişaf Nazirliyinin nəzdində

fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu «Green Tech» MMC-yə 5 milyon manat güzəştli kredit ayırmışdır. Müəssisədə inşaat işləri və yeni investisiya layihələrinin reallaşdırılması davam etdirilir. Layihəyə ümumilikdə 16 milyon manat investisiya qoyuluşu nəzərdə tutulmuşdur. İstixananın inşasında bu sahədə ən son dünya təcrübəsinə əsaslanan inşaat materiallarından, müasir avadanlıqdan, cihaz və qurğulardan istifadə edilmişdir.

Dövlətimizin başçısı tərəvəzlərin yetişdirildiyi sahə ilə tanış oldu. Qeyd edildi ki, buradakı əkin texnologiyasında ən son holland üsulu tətbiq edilmişdir. İstixana kompleksi dünyanın qabaqcıl şirkətlərinin texnologiyası əsasında qurulmuş, iqlim-nəzarət sistemləri, istilik-mühafizə pərdələri, qazanxana avadanlıqları, isitmə və suvarma sistemləri ilə tam təchiz edilmişdir.

Kompleksin illik istehsal gücü 6 min tondur və bu potensial 10 min tona çatdırılacaqdır. İstixana kompleksində məhsulların becərilməsində üzvi gübrədən istifadə edilir. Burada tərəvəz şitillərinin tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır ki, bu da məhsuldarlığın təbii yolla artırılmasına səbəb olur. Tərəvəz məhsullarının yetişdirilməsində müasir texnologiyanın tətbiq olunması yüksək məhsuldarlığa və istehlakçıların ilboyu ekoloji təmiz məhsulla təmin edilməsinə şərait yaradacaqdır.

Dövlətimizin başçısı istehsal olunan məhsulların dadına baxdı.

Tərəvəzlərin yetişdirildiyi sahə ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.

Prezident İlham Əliyev kompleksin qablaşdırma sahəsi ilə də tanış oldu və müvafiq tapşırıqlarını verdi.

## ŞİRVAN–MUĞAN QRUP SU KƏMƏRİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*Hacıqabul*

*16 iyul 2012-ci il*

*İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabulda Şirvan–Muğan qrup su kəmərinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Şirvan–Muğan qrup su kəmərinin planını və texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov prezident İlham Əliyevə məlumat verdi ki, Kür–Bakı su kəmərlərindən biri ilə nəql edilən su Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin Salyanda 41, Neftçalada 44, Biləsuvarda 23, Sabirabadda 13 – ümumilikdə 121 kəndin tələbatının ödənilməsinə yönəldiləcəkdir. Şirvan–Muğan qrup su kəmərinin istismara verilməsi ilə 470 min insan keyfiyyətli və fasiləsiz su ilə təmin olunacaq. Magistral kəmərin çəkilişi ilə yanaşı, hər bir şəhərdə içməli su və kanalizasiya şəbəkəsi müasir standartlara uyğun yenidən qurulacaq, çirkab sularını təmizləyən qurğu inşa ediləcək. Layihəyə uyğun olaraq Şirvan–Muğan qrup su kəmərinin inşası 2013-cü ilin sonuna qədər yekunlaşacaq.*

*Sonra Azərbaycan prezidenti Şirvan–Muğan qrup su kəmərinin təməlini qoydu.*

*Dövlətimizin başçısı su kəmərinin tikintisində istifadə olunacaq inşaat materiallarına və avadanlığa baxdı.*

*Diqqətə çatdırıldı ki, bu layihə çərçivəsində 600–1200 millimetr diametrli borulardan 170 kilometr uzunluğunda magistral xəttin inşası planlaşdırılır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi:*

– Əziz dostlar! Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz yeni böyük su layihəsinin təməl daşını qoyduq. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Bu layihənin çox böyük əhəmiyyəti var. Son illər ərzində ölkəmizdə su və kanalizasiya layihələri icra edilir, bu proses geniş vüsət almışdır. Vəzifə qoyulmuşdur ki, bir neçə ildən sonra Azərbaycanın bütün su və kanalizasiya layihələri başa çatsın. Buna böyük ehtiyac var idi. Bölgələrdə su qıtlığı daim hökm sürürdü, kanalizasiya layihələri, ümumiyyətlə, yox idi. Görülmüş tədbirlər nəticəsində və qəbul edilmiş proqramlar çərçivəsində bu layihələrin icrası nəzərdə tutulur.

Şirvan–Muğan su kəməri də bu böyük proqramın tərkib hissəsidir. Bu gün təməl daşını qoyduğumuz layihə əminəm ki, gələn ilin sonuna qədər başa çatacaq və beləliklə, 6 rayonun su problemi, demək olar ki, həll olunacaq. Bu layihə Hacıqabul, Şirvan, Biləsuvar, Neftçala, Salyan və Sabirabad rayonlarının 121 kəndini və 5 şəhərini əhatə edəcək. Beləliklə, bu layihənin və digər bölgələrdə su layihələrinin icra edilməsi nəticəsində uzun illər problem olaraq qalan su məsələsi öz həllini tapacaq, Azərbaycan yeni mərhələyə qədəm qoyacaq. Çünki ölkəmizdə gedən geniş quruculuq, abadlıq işləri bütün sahələri əhatə edir. Bu işlərin içərisində infrastruktur layihələri birinci yerdədir və son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür. Demək olar ki, bizim indi enerji potensialımız xeyli dərəcədə artmışdır və biz nəinki özümüzü təmin edirik, eyni zamanda, elektrik enerjisini ixrac edirik. Bizdə yaranan enerji gücləri imkan verir ki, öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edək və gələcəkdə daha böyük həcmdə enerji ixrac edək. Hazırda Şirvan şəhərində tikilməkdə olan «Cənub» elektrik stansiyasının bu il işə düşməsindən sonra enerji potensialımızın artırılmasına yeni təkan veriləcəkdir. Biz indi yeni elektrik xətlərinin çəkilişi ilə gələcəkdə elektrik enerjisini ixrac etmək üçün yeni imkanlara malik olacağıq.

Ölkəmizdə qazlaşdırma layihələri icra edilir. Vəzifə qoyulmuşdur ki, gələn ilin sonuna qədər Azərbaycanda qazlaşdırma 95 faizə çatsın. Ucqar dağ kəndləri istisna olmaqla, bütün qalan kəndlərə təbii qazın verilməsi nəzərdə tutulur. Bu 6 rayonda 100 faiz qazlaşdırma gələn ilin sonuna qədər başa çatmalıdır. Kənd yollarının tikintisi ilə bağlı ciddi tədbirlər görülür. Prezidentin ehtiyat fondundan ən çox ayrılan vəsait məhz kənd yollarının tikintisinə yönəldilir. Bu da təbiidir. Çünki kəndlərdə yollar, onların vəziyyəti bizi qane edə bilməz və biz yeni müasir asfalt yolların çəkilməsi ilə bu böyük problemi də həll etmiş oluruq. Yenə də bu məsələnin həlli üçün konkret tapşırıqlar verilmişdir, müddət müəyyən edilmişdir və əminəm ki, gələn ilin sonuna qədər əksər kəndlərdə yeni yollar çəkiləcək və bu proses bundan sonra da davam edəcəkdir. Elə etməliyik ki, Azərbaycanda bütün kəndlərdə yaxşı yollar olsun. Böyük layihələr əslində Azərbaycanda mövcud olan infrastrukturun yeniləşdirilməsi məqsədini daşıyır. Bunların içində su və kanalizasiya problemləri xüsusi əhəmiyyət kəsb edir. Çünki su həyat, inkişaf deməkdir, kənd təsərrüfatının inkişafı, insanların sağlamlığı deməkdir.

Həm Bakıda, həm bölgələrdə müasir standartlara cavab verən yeni su xətləri insanların sağlamlığına da böyük dəstək olacaqdır. Azərbaycan əhalisinə verilən və veriləcək su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun olmalıdır.

Bakını içməli su ilə təmin etmək üçün Oğuz–Qəbələ–Bakı su kəməri artıq istismara verilib və bu kəmərin fəaliyyəti nəticəsində su ilə təchizat xeyli dərəcədə yaxşılaşdırılmışdır. Bakı qəsəbələrində bu layihə icra edilir və bəzi qəsəbələrdə artıq 24 saat fasiləsiz su verilir. Eyni yanaşma bölgələrdə də tətbiq edilir. Mən istəyirəm ki, hər bir yerdə, hər bir şəhərdə, hər bir kənddə 24 saat fasiləsiz su verilsin. Bu gün başladığımız layihə bu bölgənin su ilə təminatını xeyli dərəcədə yaxşılaşdıracaqdır. Bu yeni imkanlardan istifadə edəcək insanların sayı 470 mindir. Nəzərə alsaq ki, Kür–Araz boyu yerləşən çaylarda modul tipli təmizləyici qurğular quraşdırılır və artıq 200-dən çox kənddə bu qurğular quraşdırılıb, 400 mindən çox əhali artıq təmiz, içməli su ilə təmin edilib və bu

layihələrin nə qədər böyük əhəmiyyəti olduğunu görmək mümkündür.

Şübhə etmirəm ki, qarşımıza qoyduğumuz bütün vəzifələr vaxtında və keyfiyyətlə icra ediləcək. Bunu demək üçün əsas vardır. Çünki ölkəmiz yeniləşir, müasirləşir. Ölkəmizdə dövlət xətti ilə həyata keçirilən bütün layihələr ekspertizadan keçirilir. Onların müasir standartlara cavab verməsi üçün lazımi tədbirlər görülür.

Valyuta ehtiyatlarımız artır, maddi imkanlarımız genişlənir. Texniki imkanlar da genişlənir. Bu da çox vacibdir. Çox şadam ki, Azərbaycanda infrastruktur layihələrində iştirak edən şirkətlərin mütləq əksəriyyəti yerli şirkətlərdir. Hələ bir neçə il əvvəl biz daha çox xarici şirkətlərə müraciət edirdik. Onların dəstəyinə ehtiyac var idi. Ancaq yeni kadrların hazırlanması, bu sahədə dövlət siyasətinin aparılması nəticəsində yeni şirkətlər, yəni Azərbaycan şirkətləri artıq bu işləri görür. Bunun çox böyük mənası vardır. Çünki birincisi, iş yerləri yaradılır, ikincisi, yerli şirkətlər böyüyür, daha çox vəsait əldə edir, vergilər ödəyir. Dövlət xətti ilə icra edilən layihələrə Azərbaycan şirkətlərinin cəlb edilməsi bu prosesi daha da stimullaşdırır. Dövlət tərəfindən özəl sektora göstərilən dəstək, eyni zamanda, maddi dəstək, yerli şirkətlərin Azərbaycanda icra edilən layihələrə cəlb edilməsi prosesi bütün bu yeni reallıqları təmin edir. Bizim texniki imkanlarımız, peşəkar kadrlarımız vardır. Dövlət şirkətlərində yeni, müasir standartlara keçid mərhələsi də çox uğurla gedir. Çünki bu da çox vacibdir. Şirkətlərimiz, xüsusilə dövlət şirkətlərimiz dünya standartlarına cavab verməlidir. Hazırda biz bunu görürük və əminəm ki, bu layihənin icrası da uğurlu olacaq və uzun illər bundan sonra bu 6 rayon və digər rayonlar davamlı, dayanıqlı içməli su ilə təmin ediləcəkdir. Onu da qeyd etməliyəm ki, bu layihə ehtiyatla icra edilir. Çünki əhalinin artımı nəzərə alınmaqla, suyun verilmə həcmi 2035-ci ilə hesablanıbdır. Yeni xətlərin çəkilməsi, yeni texniki tədbirlərin görülməsi nəticəsində 2035-ci ildən sonra da bütün bu bölgələr su ilə təmin ediləcəkdir. Azərbaycanın inkişafı hər bir istiqamətdə uğurla gedir. Bizim gördüyümüz işlərin

təməlində Azərbaycan vətəndaşının zəhməti dayanır və biz bütün bu uğurları öz hesabımıza əldə edə bilmişik. Biz iqtisadi islahatlar, uğurlu enerji siyasəti aparmaqla müstəqil siyasətimizi təmin edə bilmişik. İqtisadi sahədə müstəqillik siyasi sahədə müstəqilliyi şərtləndirir və bu gün Azərbaycanın iqtisadi vəziyyəti çox müsbətdir.

Bizim valyuta ehtiyatlarımız artır, dövlət büdcəsindən maliyyələşən layihələr, o cümlədən infrastruktur layihələri ölkəmizi irəliyə aparır. İqtisadi sahədə gördüyümüz işlər özəl sektorun inkişafına səbəb olur və hazırda ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda formalaşır. Sosial siyasət çox fəal aparılır. Bu layihə Azərbaycan dövləti tərəfindən aparılan sosial siyasətin təzahürüdür. Çünki böyük vəsait tələb edir və bu vəsait heç vaxt suyun tarifləri ilə tam şəkildə geri qayıtmayacaq. Bu layihənin iqtisadi səmərəsi çox aşağıdır. Biz buna bu prizmadan yanaşmırıq. Çünki bu layihə sırf sosial məna, sosial xarakter daşıyır – insanları təmiz içməli su ilə təmin edək və beləliklə, bu ciddi problemi həll edək.

Sosial siyasət bizim siyasətimizin ayrılmaz hissəsidir. Mən dəfələrlə demişəm ki, biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və Azərbaycanın uğurları bunun əyani sübutudur. Ancaq bununla bərabər, biz güclü sosial siyasət aparılmadan inkişaf edə bilmərik. Çünki bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat, rifah içində yaşaması bizim başlıca borcumuzdur. Ona görə sosial siyasətin aparılması müxtəlif istiqamətlərdə özünü büruzə verir – bu, layihələrin icra edilməsində, kənd yollarının tikintisində, qazlaşdırma layihələrinin həyata keçirilməsində, sosial ödəmələrin, əməkhaqqının, pensiyaların artırılmasında, sovet dövründən qalmış əmanətlərə kompensasiya verilməsində, ünvanlı sosial proqramın icra edilməsində. Bu siyahını davam etdirmək olar. Azərbaycan o nadir ölkələrdəndir ki, hətta böhranlı illərdə sosial proqramları ixtisar etməmiş, əksinə, onları artırmışdır.

İndi Avropada hökm sürən və hələ sonu çatmayan iqtisadi və maliyyə böhranı davam edir. Böhranın ikinci dalğası başlanmışdır.

Artıq böyük ölkələr də bu çətinliklərlə üzləşirlər – sosial ödəmələr, iş yerləri, büdcə xərcləri ixtisar edilir. Ancaq biz Azərbaycanda bunun tam əksini görürük. Bu böhranlı illərdə biz sovet dövründən qalan əmanətlərin kompensasiyasına başlamışıq. Bu, böyük layihədir və böyük iqtisadi və maliyyə resursları tələb edən layihədir.

Bu böhranlı illərdə infrastruktur layihələrinə daha da böyük diqqət göstərilir. Dövlət büdcəsinin xərcləri daha da artırılır. Bizim ümumi xərclərimiz artır. Bu gün Azərbaycan reallıqları bundan ibarətdir. İndiki reallıqlarımızın başlıca səbəbi odur ki, biz öz hesabımıza yaşamışıq, borc almamışıq. Bizim dövlət borcumuz ümumi daxili məhsulda cəmi 7 faiz təşkil edir. İnkişaf etmiş ölkələrdə bu hətta 100 faizi də keçir, 80 faiz olan yerlərdə hesab olunur ki, orada dövlət borcu yaxşı səviyyədədir. Bizdə isə 7 faizdir. Biz ayağımızı yorğana görə uzatmışıq və bu yanaşma hər yerdə olmalıdır – ailədə, siyasətdə, iqtisadi islahatların aparılmasında. Ona görə biz özümüzü tam əmin və rahat hiss edirik.

Valyuta ehtiyatlarımız ildən-ilə artır, enerji layihələrimiz bizə imkan verir ki, bundan onilliklər sonra da Azərbaycanı inkişaf yolu ilə irəliyə aparaq. Güclü sosial layihələrin icrası imkan verir ki, insanları ən çox narahat edən məsələlər həllini tapsın. Onların içərisində su layihəsi birinci yerdədir. Odur ki, bu gün toplaşdığımız mərasimdə başlanan layihəyə çox böyük önəm verilir və ona görə də biz bu gün təməl daşını böyük təntənə ilə qoyuruq. Çünki bu layihə doğrudan da ölkəmizdə gedən proseslərin əyani təzahürüdür. İnkişaf, sosial siyasətin aparılması, iqtisadi islahatların davam etdirilməsi və öz hesabımıza yaşamağımız bu gün Azərbaycan reallıqlarıdır. Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək.

Bu yaxınlarda cari ilin birinci 6 ayının sosial-iqtisadi inkişafının yekunları müzakirə edildi. Bütün statistik göstəricilər yüksək səviyyədədir. İlin sonuna qədər bütün proqramlar və infrastruktur layihələri həllini tapacaqdır. Bundan sonra da yalnız və yalnız inkişaf yolu ilə gedəcəyik.

2004-cü ildə bizim tərəfimizdən irəli sürülmüş, bu gün uğurla icra edilən «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın uğurlu icrası Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün əsas alət idi və bölgələrin inkişafı, bölgələrdə yeni iş yerlərinin, yeni müəssisələrin yaradılması artıq bir ənənəyə çevrilibdir. Elə həftə keçmir ki, hansısa yeni müəssisə, yeni istehsal sahələri yaradılmasın, yeni iş yeri açılmasın. Budur Azərbaycan reallıqları! Bir daha demək istəyirəm ki, bu reallıqları biz təmin etmişik, Azərbaycan xalqı öz zəhməti ilə və Azərbaycan dövləti öz müstəqil siyasəti ilə.

Mən bu gün sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Bu gün burada 6 rayonun nümayəndələri toplaşıbdır. Xahiş edirəm, mənim səmimi salamlarımı yaşadığınız rayonların sakinlərinə çatdırasınız. Əminəm ki, gələn ilin sonuna qədər bütün 6 rayonda gözəl mərasimlər keçiriləcəkdir və bu 6 rayona təmiz içməli suyun verilməsi mərasimində sizinlə birlikdə iştirak edəcəyik.

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD VAHİDƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Maldiv arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2012-ci il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLYANTA UMALA TASSOYA**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımızın rifahına daim töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Peru xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2012-ci il*

## MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeşin milli bayramı – Taxt-tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın yekdil iradəsinə uyğun olaraq Azərbaycan ilə Mərakeş arasındakı möhkəm dostluq münasibətlərinin qorunub saxlanması, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2012-ci il*

# GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VANO MERABİŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Gürcüstan Respublikasının Baş naziri Vano Merabişvilini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Gürcüstanın Baş naziri Vano Merabişvilini yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və fəaliyyətində ona uğurlar arzuladı. Prezident İlham Əliyev Vano Merabişvilinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etdi.*

*Vano Merabişvili Baş nazir kimi ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirdi.*

*Görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MONTENEQRONUN BAŞ NAZİRİ İQOR LUKŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Monteneqronun Baş naziri İqor Lukşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Monteneqro arasında ikitərəfli əlaqələrin son illər sürətlə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Krans Montana Forumunda iştirak edən Monteneqro prezidenti Filip Vuyanoviçlə görüşünün və əməkdaşlığımızla bağlı aparılan müzakirələrin önəmini qeyd etdi. Dövlətimizin başçısı Monteneqronun Baş naziri İqor Lukşiçin ölkəmizə səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.*

*Monteneqronun Baş naziri İqor Lukşiç prezident İlham Əliyevlə Çikaqoda görüşünü məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayan Monteneqronun Baş naziri bu əlaqələri iqtisadi sahədə də genişləndirmək üçün mövcud imkanlardan danışdı.*

*Görüşdə ikitərəfli əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımızı yetirir, dost Sinqapur xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2012-ci il*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM EVELİN VİDMER-ŞLUMPFA

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Konfederasiyanın Yaranması Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–İsveçrə əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin daim inkişafı, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2012-ci il*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ DEPUTATLAR PALATASININ PREZİDENTİ OSKAR MARTİN ARSE PANİAQUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının prezidenti Oskar Martin Arse Paniaquanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Meksika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin son illər uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etdi. Ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əlaqələrin önəmini qeyd edən prezident İlham Əliyev bu sahədə əməkdaşlığı fəal şəkildə genişləndirməyin vacibliyini vurğuladı. Dövlətimizin başçısı iqtisadi sahədə də qarşılıqlı ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün əlavə imkanların araşdırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Latın Amerikası ölkələrindən ilk dəfə olaraq Meksikada Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının önəmini vurğuladı. Ölkələrimiz arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının prezidenti Oskar Martin Arse Paniaquanın Azərbaycana səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Meksika Senatının Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qəbul etdiyi qərarı yüksək qiymətləndirdi və minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Meksika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə*

*Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının Meksika–Azərbaycan Dostluq Qrupunun sədri Marcos Perez Esquerin «Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu» ilə təltif olunduğunu dedi və mükafatı ona təqdim etdi.*

*Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının Meksika–Azərbaycan Dostluq Qrupunun sədri Marcos Perez Esquer minnətdarlığını ifadə etdi.*

*Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının prezidenti Oskar Martin Arse Paniaqua Azərbaycana qardaş ölkə kimi böyük önəm verdiklərini və ölkəmizlə əlaqələri bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində daha da genişləndirməkdə maraqlı olduqlarını dedi.*

*Görüşdə ölkələrimizin iqtisadi, mədəni, təhsil və parlamentlərarası əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.*

# POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RADOSLAV SİKORSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Polşa Respublikasının Xarici İşlər naziri Radoslav Sikorskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Polşa arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycan ilə Polşa arasında əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı Polşa Respublikasının Xarici İşlər naziri Radoslav Sikorskinin Azərbaycana səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Polşa Respublikasının Xarici İşlər naziri Radoslav Sikorski ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan–Polşa ikitərəfli əlaqələri, Avropa İttifaqı və «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT, DƏNİZÇİLİK VƏ KOMMUNİKASİYA NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə, o cümlədən nəqliyyat, dənizçilik və kommunikasiya sahələrində uğurlu inkişafından məmnunluq ifadə olundu, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin icrasının gedişi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İTALİYA RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ BİACİO ABRATENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də İtaliya Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Biacio Abratenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. İkitərəfli münasibətlərimizin genişlənməsində qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Azərbaycana ilk səfərinin bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmli olacağına ümidvar olduğunu bildirdi.*

*İtaliya Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Biacio Abrate Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. O, Əfqanıstandakı Beynəlxalq Sülhməramlı missiyanın tərkibində İtaliya hərbçilərinin Azərbaycanın sülhməramlıları ilə birlikdə uğurlu əməkdaşlığının əhəmiyyətini qeyd etdi.*

*Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ ÜZVÜ, KEÇMİŞ MÜDAFİƏ NAZİRİ LİAM FOKS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, keçmiş Müdafiə naziri Liam Foksu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində daha da inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev iyulun 18-də* Amerika *Yəhudi Komitəsinin icraçı* direktoru Devid Harrisin *başçılıq* etdiyi *nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı* Amerika *Yəhudi Komitəsinin icraçı* direktorunun *Azərbaycana səfərinin səmərəli olacağına ümidvar olduğunu* bildirdi.

*Cənab Devid Harris ölkəmizə ikinci dəfə səfər etməsindən məmnunluğunu ifadə* etdi. *Ötən dövr ərzində* paytaxtda *çox böyük inkişafın şahidi olduğunu deyən* qonaq *müasir memarlıq üslubu ilə diqqəti cəlb edən Heydər Əliyev Mərkəzinin möhtəşəm binasının Bakıya xüsusi yaraşıq* verdiyini *vurğuladı.*

*Görüşdə Azərbaycan ilə* Amerika *Yəhudi Komitəsi* arasında *əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstanın Burqas şəhərindəki aeroportda törədilmiş terror aktı nəticəsində həmvətənlərinizin həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2012-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Kolorado ştatında baş vermiş faciə nəticəsində insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Bu kədərli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 iyul 2012-ci il*

## XXX YAY OLİMPİYA OYUNLARININ KEÇİRİLƏCƏYİ LONDON ŞƏHƏRİNƏ SƏFƏR

*26 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 26-da XXX Yay Olimpiya oyunlarının keçiriləcəyi London şəhərinə gəlmişlər.*

*Londonun «Stansted» aeroportunda dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri Fəxrəddin Qurbanov, Böyük Britaniya Kraliçasının şəxsi nümayəndəsi Lord Piter və Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin rəsmisi qarşıladılar.*

*Prezident İlham Əliyev «Stansted» aeroportundan onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Hindistan dostluğu və əməkdaşlığı, dövlətlərarası münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Hindistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2012-ci il*

**QANA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CON DRAMANİ MAHAMAYA**

Hörmətli cənab Prezident!

Görkəmli dövlət xadimi, prezident Con Evans Atta Millsin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Qana xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2012-ci il*

## XXX YAY OLİMPİYA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*London*

*28 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 28-də Böyük Britaniyanın 90 min tamaşaçı yeri olan Olimpiya stadionunda XXX Yay Olimpiya oyunlarının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*London Olimpiya oyunlarına artıq üçüncü dəfə ev sahibliyi edir. Burada əvvəlki oyunlar 1908-ci və 1948-ci illərdə keçirilmişdir. Bu il Olimpiya oyunlarında 36 idman növündə 302 dəst medal uğrunda mübarizə aparılacaqdır.*

*Olimpiadanın açılışı mərasiminin əsas şousu «Möcüzələr adası» adlandırılmışdır. 42 milyon dollardan çox məbləğə başa gələn möhtəşəm şou süni yağış və dünyada ən böyük – 23 tonluq zəngin sədaları ilə müşayiət olunmuşdur.*

*Oskar mükafatı laureatı, Britaniya kinorejissoru Denni Boylun təqdimatında meydanda aqrar Britaniyanın həyatından idilliya səhnələrini Birləşmiş Krallığın tarixinə səyahət səhnələri əvəz etmişdir.*

*Ölkəmizin nümayəndə heyəti bu paradda, başda şef-demission İlham Mədətov olmaqla, 100-ə yaxın idmançı, məşqçi və mütəxəssis ilə təmsil edilmişdir. Azərbaycan Respublikasının Dövlət bayrağını komandanın kapitanı, Pekin Olimpiadasının çempionu, cüdoçu Elnur Məmmədli aparırdı.*

*Azərbaycan komandasının 53 üzvü idmanın 16 növündə yarışacaqdır. Velosiped, avarçəkmə, qadınlar arasında boks, idman gimnastikası yarışlarında idmançılarımız ilk dəfə çıxış edəcəklər.*

## XXX YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞ «AZƏRBAYCAN GÜNÜ» MƏRASİMİNDƏ İŞTİRAK

*London*

*28 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 28-də Londonda XXX Yay Olimpiya oyunları çərçivəsində keçirilmiş «Azərbaycan günü» mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi:*

– Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün sizin hamınızı «Azərbaycan günü»ndə salamlamaq istəyirəm. Bu axşam bizimlə birgə olduğunuza görə sizə çox minnətdaram. Burada olmağımızdan və belə bir möhtəşəm tədbirdə iştirakımızdan çox fərəhlənirik. Mən bizi qəbul edən Britaniya tərəfinə də gördüyü bütün hazırlıq işlərinə görə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan müstəqil ölkə kimi artıq 5-ci dəfədir ki, Yay Olimpiya oyunlarında iştirak edir və biz hər dəfə irəliyə doğru addımlar atırıq. Qazandığımız birinci medal 1996-cı ildə Atlantada oldu. Həmin vaxt bizim komanda yalnız 1 medal qazana bildi. Sonra 2000-ci ildə Sidneydə 3, 2004-cü ildə Afinada 5, 2008-ci ildə isə Pekində 7 medal qazanıldı. Biz hamımız istəyirik ki, bu ənənə davam etsin. Hamımız ümid edirik ki, idmançılarımız ölkəmizi layiqincə təmsil edəcəklər və yarışlar zamanı bayrağımız qaldırılacaqdır. Fürsətdən istifadə edərək dünyanın bütün atletlərinə uğurlar və xoşbəxtlik arzulayıram. Azərbaycan zəngin tarixi, böyük adət-ənənələri olan ölkədir. Lakin müstəqil ölkə kimi, biz dünyanın siyasi xəritəsində yalnız 20 ildir ki, mövcuduq. Bu illər dəyişikliklər, islahatlar dövrü olub. Bu illər

göstərir ki, Azərbaycan müstəqil ölkə kimi, uğurla inkişaf edir. Əldə etdiyimiz nailiyyətlər xalqımızın istedadı sayəsində mümkün olub. 20 il öncə bizim öz dövlətimiz yox idi, demokratik təsisatlarımız, bazar iqtisadiyyatı mövcud deyildi. Bu gün Azərbaycan regionda möhkəm mövqelərə malik olan ölkədir, dövlətçiliyimiz çox güclüdür. Biz demokratik islahatlara, bazar iqtisadiyyatına sadiqik. 20 ildə əldə etdiyimiz ən böyük nailiyyətlərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi oldu. Dünyanın ən ali beynəlxalq təşkilatı hazırda bizim iştirakımızla fəaliyyət göstərir. Namizədliyimizə səs verən 155 ölkə, sözün əsl mənasında, göstərdi ki, bu 20 ildə biz dünyanın diqqətini cəlb edə bildik, bir çox ölkələrlə dostluq və qarşılıqlı etimad münasibətləri qurduq.

Bu gün Azərbaycana hörmətlə yanaşırlar və ölkəmiz nəinki regionda, o cümlədən dünyanın qlobal işlərində öz rolunu oynayır. Biz çox böyük iqtisadi dəyişikliklərə nail olduq və iqtisadiyyatımız dünyada ən sürətlə artan iqtisadiyyatdır. Bizim iqtisadiyyatımız bu günə qədər görünməyən dərəcədə artım tempi nümayiş etdirdi və son 8 ildə 3 dəfə artdı. Ölkəmizdə dəyişikliklərin edilməsi, güclü iqtisadiyyatın qurulması üçün bir çox səylər göstərildi. Ölkəmiz sabitdir, xalqımızın güzəranı yaxşıdır. Azərbaycan bütün dinlərin və millətlərin nümayəndələrinin sülh şəraitində birgə yaşamasının nümunəsi ilə tanınır. Təsadüfi deyil ki, ölkəmizdə sülh və əməkdaşlıq işinə xidmət edən çoxsaylı beynəlxalq tədbirlər keçirilir.

Biz həmçinin ölkəmizdə idmanın inkişafına və olimpiya hərəkatına böyük diqqət yetiririk. Müasir idman infrastrukturunun yaradılmasına çoxlu sərmayələr yatırılır. Son 12 ildə bütün ölkə üzrə 34 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilib və bu proses davam edir. Bu il Azərbaycanda «İdman ili» elan edilib. Bu həmçinin Azərbaycanda idmanın inkişafına və olimpiya hərəkatına göstərilən diqqəti bir daha nümayiş etdirir. Biz ilk dəfə bu oyunlarda 53 atletdən ibarət ən böyük komanda ilə iştirak etməkdən fərəhlənirik. Bu həm də onu göstərir ki, idmana qoyulan sərmayə və idmanın, olimpiya hərəkatının təşviq

edilməsinə yönələn dövlət siyasəti yaxşı nəticələr verir. Əminəm ki, biz bu oyunlarda uğurla iştirak edəcəyik. Bu yarışlar özümüzü təqdim etmək üçün daha bir fürsətə çevriləcəkdir.

Bu gün nailiyyətlərimizə həsr olunan kiçik təqdimat – bəzi fotoşəkillər, ölkəmizin inkişafı ilə bağlı videotəqdimat olacaq. Əminəm ki, bu tədbirdə iştirak edən insanların əksəriyyəti artıq Azərbaycanda olub. Qonaqlarımız arasında Azərbaycanda olmayanları isə ölkəmizə səfərə dəvət edirəm.

Onu da bildirmək istəyirəm ki, idman və olimpiya hərəkatı mənim həyatımın bir hissəsidir. Böyük fərəh hissi ilə qeyd edirəm ki, 15 ildir olimpiya ailəsinin üzvüyəm. Mən 15 il əvvəl Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildim. Ondan 6 il sonra isə ölkə prezidenti seçildim. Buna görə də, adətən, deyirəm ki, mən idmanı və olimpiya hərəkatını ölkə rəhbərliyi səviyyəsində təmsil edirəm. Bu illər uğur, dəyişiklik, inkişaf, işə sadiqlik illəri oldu. Bu gün Azərbaycanda idmançı olmağın böyük mənası vardır. İdmanın inkişafı və idmançılara qayğının göstərilməsi ilə bağlı dövlət siyasətimiz vardır. Biz müasir idman infrastrukturuna böyük sərmayələr qoymuşuq. Bu gün Azərbaycanda çoxlu beynəlxalq idman tədbirləri, o cümlədən Avropa və dünya çempionatları keçirilir. Əminəm ki, gələcəkdə Azərbaycanda qonaqlarımızın, o cümlədən atletlərin və turistlərin sayı çox olacaq, bununla da biz dostluğumuzu və əməkdaşlığımızı davam etdirəcəyik.

Olimpiya oyunları nadir beynəlxalq hadisədir. Bu zaman bütün dünyadan gələn insanlar görüşürlər, atletlər öz aralarında ədalətli şəkildə, tərəfdaşlıq ruhunda yarışırlar, rəqabət yalnız idman arenası ilə yekunlaşır. Bu, idmanla siyasət arasında ən böyük fərqdir.

Biz oyunlarda iştirak etməkdən çox fərəhlənirik. Mən bir daha bütün komandaların idmançılarına uğurlar, dünya xalqlarına xoşbəxtlik və çiçəklənmə arzulayıram. Çox sağ olun.

* * *

*Tədbirin keçirildiyi zal Azərbaycanın mədəniyyətini, idman tarixini özündə əks etdirən fotostendlərlə bəzədilmişdi. Ölkəmizdə idmanın inkişafına dövlət səviyyəsində göstərilən qayğı iri monitorlarda ön plana çıxarılmışdı. Bununla yanaşı, dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmançılarla görüşlərindən, ölkəmizdə olimpiya idman komplekslərinin açılışı mərasimlərindən hazırlanan videogörüntülər də nümayiş etdirilirdi.*

*«Azərbaycan günü»nə dəvət olunan rəsmi şəxslər, beynəlxalq idman ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyev ilə söhbətlərində bir daha ölkəmizdə idmana və olimpiya hərəkatına göstərilən diqqət və qayğını yüksək qiymətləndirdilər. Onlar bu sahənin inkişafının ölkəmizdə dövlət siyasətinin mühüm prioritetlərindən biri elan edilməsinin təqdirəlayiq hal olduğunu söylədilər. Bildirildi ki, getdikcə güclənən və iqtisadi cəhətdən inkişaf edən Azərbaycanın bu sahədə uğurlarını artırması ölkəmizin dünyada idman məkanı kimi tanınmasına geniş imkanlar açır.*

*Tədbirin gedişində prezident İlham Əliyev XXX Yay Olimpiya oyunlarında iştirak edən idmançılarımızla görüşdü, onlara xeyir-dua verdi, uğurlar və qələbə əzmi arzuladı.*

## XXX YAY OLİMPİYA OYUNLARINDA AZƏRBAYCANIN AĞIR ATLETİ VALENTİN XRİSTOVUN YARIŞINA BAXIŞ

*London*

*29 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 29-da Londonda keçirilən XXX Yay Olimpiya oyunları sırasında ağır atletika üzrə 56 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Valentin Xristovun yarışına baxmışlar. O, 286 xalla bürünc medala sahib oldu.*

*Ümumi nəticədə 286 xal toplayan Valentin Xristov üçüncü pillədə qərarlaşdı və Azərbaycan millisinə London Olimpiadasında ilk medalını qazandırdı.*

*Dövlətimizin başçısı ağır atletimizi və yığmamızın məşqçilər korpusunu qələbə münasibətilə təbrik etdi.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ

*Bakı*

*30 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Mərkəzinin muzey hissəsinin tavanında aparılan qaynaq işləri nəticəsində baş verən yanğın hadisəsi ilə əlaqədar iyulun 20-də Mərkəzə gəlmişdir.*

*Baş vermiş yanğının nəticələrinin aradan qaldırılması ilə bağlı dövlətimizin başçısına məlumat verildi. Vəziyyətlə yerindəcə tanış olan prezident İlham Əliyev bərpa işləri ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.*

## LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏR

*31 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də təyyarə ilə Lənkəran şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Lənkəran şəhərinin mərkəzindəki Heydər Əliyev xatirə parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov prezident İlham Əliyevə məlumat verdi ki, bu park hazırda rayon sakinlərinin və qonaqların istirahət üçün ən çox üz tutduqları məkandır. Ümumi sahəsi 4 hektar olan parkda geniş abadlıq-quruculuq işləri aparılmış, yaşıllıq zolaqları salınmış, fəvvarələr quraşdırılmışdır. Heydər Əliyev xatirə parkında asudə vaxtın səmərəli keçirilməsi və mənalı istirahət üçün hər cür şərait vardır.*

### Yenidən qurulmuş Heydər Əliyev Mərkəzi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Lənkəranda yenidən qurulmuş Heydər Əliyev Mərkəzi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işlərindən əvvəl Mərkəzin ümumi sahəsi 300 kvadratmetr idi. Hazırda isə binanın ümumi sahəsi 3 min kvadratmetrdir. Mərkəzin ikimərtəbəli binasının interyeri nəfis tərtibatda işlənilib.*

*Heydər Əliyev xatirə parkında yerləşən Mərkəzin muzeyində ulu öndərin büstü qoyulub. Muzeydə görkəmli dövlət xadiminin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə aid maraqlı sənədlər və fotolar toplanılıb. Burada ulu öndər Heydər Əliyevin uşaqlıq, gənclik və tələbəlik illəri, eləcə də dövlət təhlükəsizlik orqanlarında çalışdığı dövrlərə aid maraqlı fotolar vardır.*

*Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə Lənkərana səfərləri rayonun tərəqqisi ilə*

*xarakterizə* olunur*.* Bu *səfərlər Lənkəranın tarixinə* yeni *inkişaf mərhələsinin başlanğıcı* kimi *düşmüşdür.*

*Mərkəzdə* dahi *şəxsiyyətin* ordu *quruculuğuna göstərdiyi diqqət və qayğı, eləcə də* prezident *İlham Əliyevin Lənkərana səfərlərini əks etdirən* fotolar *da vardır.*

Binada *yaradılan tədqiqatçılar* qrupunda *ümummilli lider Heydər Əliyevin 1973–98-ci illərdə Lənkərana səfərlərinə* dair fotolar*, qəzetlər, sənədlər nümayiş* etdirilir*. Həmin səfərlər* za*manı* ulu *öndər Heydər Əliyev ilə görüşən insanların* xatir*ələri və səs yazıları* da burada *toplanılıb.*

*Mərkəzdəki 300 yerlik* akt *və 80 yerlik* konfrans *zallarında* rayonun ictimai-siyasi *və mədəni həyatında, əlamətdar günlərdə müxtəlif tədbirlərin keçirilməsi üçün geniş şərait yaradılıb.* Zallar *müasir* akustika *sistemləri ilə təchiz* olunub*.*

*Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış* olan prezident *İlham Əliyev* rayon *ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*31 iyul 2012-ci il*

Biz bu gün Heydər Əliyev Mərkəzinin yenidənqurmadan sonra açılışını qeyd edirik. Gözəl Mərkəzdir, həm yaraşıqlı binadır, həm də ki, Mərkəzin tərtibatı çox dəyərlidir, qiymətlidir.

Bu gün sizinlə yenidən görüşürəm. Bu mənim prezident kimi, Lənkərana səkkizinci səfərimdir. Səkkiz ildə 8-ci dəfə səfər edirəm və çox şadam ki, Lənkəranda işlər yaxşı gedir. Rayon inkişaf edir, şəhər gözəlləşir, abadlaşır, gözəl binalar ucaldılır. Bu gözəl Mərkəz də həm memarlıq, həm funksional baxımdan çox dəyərlidir, qiymətlidir, ulu öndərin xatirəsinə ehtiramın əlamətidir.

Biz keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd edərkən, yenə də keçmişə baxarkən bir daha gördük ki, ulu öndərin Azərbaycan dövlətçiliyinin formalaşmasında müstəsna xidmətləri olmuşdur. Ən ağır dövrdə ölkə rəhbərliyinə gəlmiş Heydər Əliyev xalqı böyük bəlalardan qurtara, dövlətçiliyin əsaslarını yarada bilmişdir, ölkəmizin bugünkü reallıqlarını təmin etmişdir. Çünki onun tərəfindən irəli sürülmüş bütün təşəbbüslər ölkəmizin inkişafına yönəldilmişdir. Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir, daxildə proseslər müsbət istiqamətdə getmiş, islahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız ulu öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk. Lənkəranda son illər ərzində görülmüş işlər bu siyasətin bariz nümunəsidir, onun təzahürüdür.

Çox şadam ki, Lənkəranda – həm şəhərdə, həm kəndlərdə işlər yaxşı gedir, əlavə tədbirlər də görüləcək. Lənkəranın sosial-iqtisadi inkişafı ilə bağlı yeni sərəncam imzalanacaq və əlavə vəsait ayrılacaqdır ki, işlər daha da sürətlə getsin. Siz yaxşı bilirsiniz ki, son illər ərzində bir sıra obyektlərin istifadəyə verilməsi nəticəsində rayonda inkişaf daha da sürətlə getmişdir.

Lənkəran aeroportu yenidən quruldu. Bu gün mən Lənkərana təyyarə ilə gəlmişəm və artıq beynəlxalq uçuşlar da təşkil edilir. Əminəm ki, gələcəkdə bu uçuşların sayı artacaqdır. Lənkəranın çox gözəl təbiəti,  iqlimi, turizm imkanları var. Bu gün mənim səfər proqramımda yeni hotelin təməlqoyma mərasimi də vardır və ümid edirəm ki, gələcək illərdə turizm daha da sürətlə inkişaf edəcəkdir.

Hazırda daxili turizm inkişaf edir. Mən bilirəm ki, Bakıdan, Azərbaycanın digər bölgələrindən insanlar dincəlmək üçün Lənkərana gəlirlər. Amma istərdim ki, xaricdən də gəlsinlər, Lənkəranı daha çox tanısınlar və burada istirahət etsinlər. Buranın turizm potensialı çox güclüdür. Potensial var, sadəcə olaraq, infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində biz bu potensialı daha da aşmalıyıq.

Bakı–Astara magistral yolunun tikintisi gedir. Bu yol da Lənkərandan keçəcək. Ümid edirəm ki, ən müasir standartlara cavab verən magistral yol gələn ilin sonuna qədər istifadəyə veriləcək və beləliklə, gediş-gəliş daha da rahat olacaqdır.

Kənd yollarının tikintisinə dair sərəncamlar verilib. Keçən ay 40 min əhalisi olan 20 yaşayış məntəqəsini birləşdirən kənd yolunun tikintisi üçün vəsait ayrılmışdır və əminəm ki, yaxın zamanlarda tikinti başlanacaq və yol istifadəyə veriləcək.

İcra hakimiyyətinin başçısı və deputatlar yeni məsələlər qaldırırlar ki, əlavə kənd yollarının tikintisinə ehtiyac var. Bu məsələyə də baxacağıq. Mərkəzi Rayon Xəstəxanasının vəziyyəti o qədər də yaxşı deyil. Bildiyiniz kimi, Lənkəranda Müalicə-Diaqnostika Mərkəzi tikilmişdir və bu Mərkəz insanlara yaxşı xidmət göstərir. Ancaq Mərkəzi Rayon Xəstəxanasının təmirinə, yenidən qurulmasına ehtiyac var. Əlbəttə, bu məsələ də öz həllini tapacaq.

Qəzalı vəziyyətdə olan məktəblər Lənkəranda da, başqa bölgələrdə də hələ ki, var. Baxmayaraq ki, son illərdə 2 mindən artıq məktəb tikilmişdir, hələ ki, qəzalı vəziyyətdə məktəblər var. Biz çalışacağıq ki, bütün qəzalı məktəbləri gələn ilin sonuna qədər əsaslı şəkildə bərpa edək.

Digər infrastruktur layihələri də Lənkəranda ardıcıllıqla icra edilir. Çünki birinci mərhələdə elektrik enerjisi ilə bağlı məsələləri həll etdik. Astarada modul tipli elektrik stansiyasının istifadəyə verilməsi nəticəsində bütün cənub zonasının elektriklə təchizatı böyük dərəcədə yaxşılaşdırılmışdır. İndi, demək olar ki, problem yoxdur.

Sonrakı mərhələdə qazlaşdırma icra edilməyə başlanıb. İndi bu proses geniş vüsət alıb. Mən qarşıya vəzifə qoymuşam ki, Lənkəranın bütün yaşayış məntəqələri gələn ilin sonuna qədər qazlaşdırılsın. Şəhər qazlaşdırılıbdır, proses davam edir və bu məsələ də öz həllini tapacaq.

İnsanları narahat edən digər problem içməli su ilə bağlıdır. Amma bu problem də artıq həllini tapmaqdadır. Qarşıya vəzifə qoyulubdur ki, Lənkəran şəhərinin su və kanalizasiya problemi gələn ilin sonuna qədər əsaslı şəkildə həll olunsun. Ətraf kəndlər də bu proqramla əhatə olunacaq və ondan sonrakı mərhələdə digər kəndlərin su-kanalizasiya problemi öz həllini tapmalıdır. Əsas infrastruktur layihələrinin sadalanması göstərir ki, nə qədər böyük işlər görülür.

Hələ mən sahibkarlığın inkişafına verilən dəstəyi demirəm, biznes mühitinin yaxşılaşdırılması üçün irəli sürülən təşəbbüsləri qeyd etmirəm. Əgər bunların hamısını təhlil etsək, Lənkəran rayonunun timsalında ölkənin dinamik inkişafını görərik. Bu inkişaf hər yerdə, hər bir bölgədə özünü büruzə verir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası bu problemlərin həlli üçün əsas bir mexanizm olmuşdur. Mən çox şadam ki, proqram uğurla icra edilir. İkinci Dövlət Proqramı gələn ilin sonuna qədər başa çatacaqdır. Ondan sonrakı dövr üçün də planlarımız vardır. Bu barədə mən artıq öz fikirlərimi bildirmişəm. 2014–2023-cü illəri əhatə edəcək yeni Dövlət Proqramı hazırlanır.

Ancaq birinci proqramların icra edilməsi nəticəsində əsas infrastruktur, sosial məsələlər öz həllini tapacaq. Növbəti onillik proqram gələcəyə baxışlarımızı əks etdirəcək. Çünki biz növbəti 10 ildə Azərbaycanı daha sürətlə inkişaf etdirməliyik. Ölkə qarşısında duran əsas vəzifələr icra edilib. Ancaq həyat

yerində durmur, yeni vəzifələr ortaya çıxır. Elə etməliyik ki, növbəti 10 ildə iqtisadi gücümüzü 2 dəfə artıra bilək. Son 8 ildə iqtisadiyyatımız 3 dəfə artıb. Növbəti 10 il ərzində daha 2 dəfə artmalıdır. Bu proqramın reallaşdırılması nəticəsində Azərbaycan dünya miqyasında yüksəkgəlirli ölkəyə çevriləcək. Beləliklə, insanların rifah halı daha da yaxşılaşacaq, ölkəmiz daha da güclü olacaq, bizim dünyadakı mövqemiz daha da möhkəmlənəcək.

Qlobal məsələlərlə yanaşı, həm xarici siyasətlə, həm enerji siyasətimizlə bağlı irəli sürülmüş təşəbbüslərin reallaşması ilə bərabər, hər bir kəndin problemi də həll olunur. Bu, dünyada nadir bir təcrübədir. Çünki biz istənilən istiqamət üzrə ancaq və ancaq uğurlar qazanırıq. Dünyanın ən mötəbər beynəlxalq təşkilatının üzvüyük. BMT Təhlükəsizlik Şurasının 15 üzvü var, onlardan 5-i daimi, 10-u seçilən üzvlərdir. Bu 10 ölkənin içərisində Azərbaycan da var. 155 ölkə bizə inandı, bizi dəstəklədi və öz səsini bizə verdi.

Enerji siyasətimiz bu gün nəinki bölgənin, qitənin də enerji siyasətini müəyyən edir. Bunu biz öz zəhmətimizlə etmişik. Gələcək illərdə bu istiqamətdə əlavə təşəbbüslərin irəli sürülməsi nəticəsində bizim dünyadakı mövqemiz daha da güclənəcək və iqtisadi maraqlarımız daha da dolğun şəkildə təmin ediləcək. Hər bir istiqamət üzrə konkret proqramlar var və addımlar atılır. Ancaq yenə də deyirəm, bütün qlobal məsələlərlə yanaşı, daxildəki vəziyyət, insanların yaşaması, infrastruktur layihələrinin icra edilməsi, təhsil, səhiyyə məsələlərinin həlli də prioritetdir.

Mən bir daha demək istəyirəm ki, Lənkəranın uğurlu inkişafı, demək olar ki, ölkəmizdə gedən bütün prosesləri özündə cəmləşdirir. Biz növbəti illərdə daha da sürətli inkişafa nail olmalıyıq ki, Lənkəran şəhəri də, rayonu da gözəlləşsin, abadlaşsın, insanlar daha da yaxşı yaşasınlar.

Bir daha sizi ürəkdən salamlayıram və yeni uğurlar arzulayıram.

**M ə n s u r  A ğ a y e v** *(sakin, Əməkdar müəllim):* Möhtərəm cənab Prezident! İcazə verin, Sizi Lənkəran ictimaiyyəti adından salamlayım, şəhərimizə «Xoş gəlmisiniz!» – deyim. Ulu öndərimiz Heydər Əliyev bütün mənalı ömrünü Azərbaycanın inkişafına sərf etmişdir. Onun səyləri nəticəsində Azərbaycan  və yüksək sürətlə inkişaf edir. Bu gün Siz onun siyasətini uğurla davam etdirirsiniz. Biz buna görə Sizə minnətdarıq. Sizin uğurlu siyasətiniz də Azərbaycanın inkişafını, onun beynəlxalq nüfuzunun artmasını, əhalinin rifah halının yaxşılaşmasını təmin etdir.

Cənab Prezident, biz bilirik ki, Sizin əsas məqsədiniz hər bir azərbaycanlı ailəsinin firavan yaşamasıdır. Mən 40 ilin müəllimi, 20 ilin məktəb rəhbəri və Sizin sərəncamınız ilə «Əməkdar müəllim» fəxri adına layiq görülən bir şəxs kimi, Sizin sosial sahəyə verdiyiniz önəmi çox yaxşı başa düşürəm. Başa düşürəm ki, Siz bütün fəaliyyətinizi bu sahəyə yönəltmisiniz. Dünyada iqtisadi böhran baş verən zaman, dünya ölkələrində əmək haqlarının, sosial müavinətlərin azaldığı bir dövrdə Azərbaycanda əksinə, sosial müavinətlər və əmək haqları artırıldı. Cənab Prezident, icazə verin, lənkəranlılara bu diqqət və qayğınıza, Lənkəranda görülən bütün işlərə görə Sizə və Lənkərana çox səmimi, xoş münasibət bəsləyən Mehriban xanım Əliyevaya lənkəranlıların minnətdarlığını və xoş arzularını bildirim.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Siz çox vacib məsələlərə toxundunuz. Doğrudan da sosial məsələlərin həlli bizdə prioritetdir və son illərin, ayların təcrübəsi bunu göstərir. Sosial proqramları icra etmək üçün ilk növbədə, iradə, digər tərəfdən, iqtisadi güc lazımdır. Bizdə həm iradə, həm iqtisadi potensial vardır və bu iqtisadi gücü biz özümüz yaratmışıq. Çünki 20 il əvvəl, müstəqilliyimizin ilk illərində bizdə, demək olar ki, iqtisadiyyat, sənaye yox idi, sovet dövründən qalmış müəssisələr işləmirdi, kütləvi işsizlik və ümidsizlik hökm sürürdü. Bundan əlavə siyasi və hərbi böhran, torpaqlarımızın işğalı, vətəndaş müharibəsi – demək olar ki, biz məhvə doğru gedirdik. Ulu öndərin o vaxt qətiyyətli addımları bizi bu bəladan qurtara bildi və ondan sonra aparılan iqtisadi islahatlar, enerji siyasətimiz və çəkilən neft-qaz kəmərləri bizə böyük iqtisadi dəstək verdi. İqtisadiyyatın digər sektorlarının inkişafı hesabına biz çoxşaxəli

iqtisadiyyata malik ola bildik. Misal üçün, bu ilin 6 ayının yekunlarına görə qeyri-neft sektorumuz 11 faizdən çox artmışdır. Bu, dünya miqyasında ən yüksək göstəricidir. Bu bizə əlavə maddi imkanlar verdi ki, infrastruktur və sosial məsələləri həll edək.

Əmanətlərin qaytarılması, böhranlı illərdə müavinətlərin, maaşların, pensiyaların artırılması məhz bu güclü iradəyə söykənir. Onu da qeyd etməliyəm ki, postsovet məkanında əmanətlər ən yüksək əmsalla və ən qısa müddət ərzində Azərbaycanda verilir. Çünki biz bu proqramı gələn ilin sonuna qədər yekunlaşdıracağıq. Postsovet məkanında ölkələrin əksəriyyətində bu proses başlanılıb, amma hələ ki, başa çatmayıbdır və nə vaxt başa çatacağını heç kim bilmir. Azərbaycanda hər şey planlı şəkildə aparılır, göstərişlər verilir, qərarlar qəbul olunur və icra edilir. Sonrakı illərdə də sosial məsələlərin həllinə daim böyük diqqət göstəriləcəkdir. Maaşlar, pensiyalar daim artmalıdır, artacaqdır. Ünvanlı sosial yardım proqramı, digər sosial proqramlar aparılır. Biz bunu bundan sonra da edəcəyik. Maliyyə imkanlarımız ildən-ilə artacaqdır. O ki qaldı siyasi iradəyə, o da ildən-ilə güclənəcəkdir.

Lənkəranda hələ görüşlərimiz, açılışlar, tədbirlər çox olacaq. Bu gün hotelin, Gənclər Mərkəzinin təməl daşı qoyulur. Bu da rəmzi xarakter daşıyır. Gənclər bizim gələcəyimizdir. İndi Azərbaycan Gəncliyi Dövlət Proqramı icra edilir, Gənclər fondu yaradılıbdır. Prezidentin ehtiyat fondundan Gənclər fonduna 5 milyon manat vəsait ayrılıb ki, biz gəncləri ölkə üçün lazım olan layihələrə cəlb edək, onları stimullaşdıraq, qrantlar verilsin, müxtəlif layihələr üzrə vəsait verilir. Hotelin təməl daşı qoyulur, əminəm ki, 1-2 ildən sonra gözəl turizm mərkəzinə çevriləcəkdir. Biz inamla addımlayırıq və gələcəyimiz də açıqdır. Əminəm ki, bizi gələcəkdə ancaq uğurlar gözləyəcəkdir. Sizə də yeni uğurlar arzulayıram.

## Gənclər Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Lənkəranda Heydər Əliyev xatirə parkında inşa olunacaq Gənclər Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevə əvvəlcə Lənkəran şəhərində yeni inşa edilən yaşayış kompleksi barədə məlumat verildi. Bildirildi ki, kompleks hər biri yeddimərtəbəli 14 binadan ibarətdir. Burada 133 mənzil vardır. Onlardan 5-i birotaqlı, 5-i ikiotaqlı, 49-u üçotaqlı, 29-u dördotaqlı, 45-i isə beşotaqlıdır. Yaşayış sahəsi 20 min 941 kvadratmetr olan kompleks üçün ümumilikdə 2,39 hektar torpaq sahəsi ayrılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yeni yaradılacaq Gənclər Mərkəzinin ümumi sahəsi 1 hektar, tikintialtı sahəsi isə 850 kvadratmetr olacaq. Burada geniş abadlıq-quruculuq işləri görüləcəkdir. İkimərtəbəli binada gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılacaqdır. Mərkəzin birinci mərtəbəsində kafe, diskoteka, tir və kino zalları fəaliyyət göstərəcək. Burada, həmçinin inzibati otaqlar da yaradılacaqdır. Binanın ikinci mərtəbəsində isə kompüter və oxu zalları, yaradıcılıq studiyaları üçün otaqlar yerləşəcəkdir. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı da inşa ediləcəkdir.*

*Diqqətə çatdırıldı ki, bu gün gənclərimizin intellektual və yaradıcı potensialının üzə çıxarılması və ümummilli məsələlərə yönəldilməsi, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü iş aparılır. Respublikamızın bölgələrində, o cümlədən Lənkəranda yaradılacaq Gənclər Mərkəzi də bu xoşməramlı məqsədə xidmət edəcəkdir.*

*Gənclər Mərkəzinin təməlini qoyan prezident İlham Əliyev metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**Dövlət Sərhəd Xidmətinin yenidən qurulmuş və**

**əsaslı təmir edilmiş Lənkəran sərhəd dəstəsi qarnizonu ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyulun 31-də Dövlət Sərhəd Xidmətinin yenidən qurulmuş və əsaslı təmir edilmiş Lənkəran sərhəd dəstəsi qarnizonu ilə tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı qarnizonda yaradılmış şəraitlə yaxından tanış oldu.*

*Qeyd edildi ki, Lənkəran sərhəd dəstəsi qarnizonu ərazisinə görə Dövlət Sərhəd Xidmətinin ən böyük qurumlarındandır.*

*Ali Baş Komandan İlham Əliyev qarnizonun Heydər Əliyev ideoloji mərkəzi ilə tanış oldu. Mərkəzdə Dövlət Sərhəd Xidmətinin inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndər Heydər Əliyevin və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Dövlət Sərhəd Xidmətinin inkişafı ilə bağlı həyata keçirdikləri tədbirləri əks etdirən fotoguşə yaradılmışdır.*

*Dövlətimizin başçısı qarnizonun idman zalı ilə tanış oldu. Bildirildi ki, əsaslı şəkildə yenidən qurulan bu zal zəruri idman avadanlığı ilə təchiz olunmuş, şahmat və bilyard otaqları, həmçinin istirahət zalı yaradılmışdır.*

*Prezident İlham Əliyevə Dövlət Sərhəd Xidmətinin ölkə üzrə inşa edilən və tikilməkdə olan zastavaları, qarnizonları barədə məlumat verildi. Bildirildi ki, 500 yerlik əsgər yataqxanası əsaslı təmir olunmuş və müasir avadanlıqla təmin edilmişdir. İdeoloji və təlim siniflərində sərhədçilərə həm silah, həm də digər texnikalar barədə geniş məlumat verilir. Qeyd edildi ki, 500 yerlik yeməkxana sərhədçilərə yüksək səviyyədə xidmət göstərəcəkdir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev qarnizona məxsus texnika və silahlara baxdı.*

*Diqqətə çatdırıldı ki, hazırda zabit və gizirlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Lənkəran qarnizonunda səkkiz-mərtəbəli, 126 mənzilli yaşayış binası tikilir. Bundan başqa, Lənkəran sərhəd dəstəsinin Astara rayonu ərazisində dislokasiya olunan 5 sərhəd zastavası və 1 sərhəd komendantlığı əsaslı təmir edilərək istifadəyə verilmişdir. Astarada isə zabit və gizirlər üçün altımərtəbəli, 65 mənzilli yaşayış binası inşa edilir.*

*Daha sonra Prezident, Ali Baş Komandan İlham Əliyev şərti «narkotik qaçaqmalçı»sının zərərsizləşdirilməsi ilə bağlı təşkil olunan təlimə baxdı və qarnizonda yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## Hotel kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də ölkəmizin cənub bölgəsinə səfəri çərçivəsində Lənkəran şəhərindəki Heydər Əliyev prospektində inşa olunacaq hotel kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı hotel kompleksinin baş planını əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, hotel kompleksi şəhərin şimal hissəsində 4,7 hektar ərazidə tikiləcək. Hotelin 114 nömrədən ibarət yeddimərtəbəli binasının sahəsi 20 min kvadratmetr olacaqdır. Burada eyni vaxtda 244 qonağa xidmət göstəriləcək. Kompleksin təməlini qoyan dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Prezident İlham Əliyev inşaat işlərinin vaxtında və keyfiyyətlə görülməsi barədə tapşırıq və tövsiyələrini verdi.*

## Bayraq Meydanında yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Lənkərandakı Bayraq Meydanında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ölkəmizdə dövlət atributlarına hörmət və ehtiram ən yüksək səviyyədədir. Paytaxt Bakı ilə yanaşı, ölkəmizin bir çox bölgələrində yaradılan Bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Lənkərandakı Bayraq Meydanı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.*

*Qeyd olundu ki, Bayraq Meydanının inşasına bu ilin mayında başlanılmışdır. Meydan şəhərin giriş hissəsində, Heydər Əliyev prospektində yerləşir. Bayraq dirəyinin hündürlüyü 70, bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın Dövlət himni və gerbi əks olunmuşdur. Burada, həmçinin Azərbaycanın Dövlət bayrağı, himni, gerbi, 1843-cü il mayın 2-də təsdiq edilmiş Lənkəran şəhərinin gerbi barədə məlumatların əks olunduğu guşələr yaradılmışdır. Bundan başqa, Azərbaycan prezidenti İlham Əliyevin Dövlət bayrağına ehtiramını əks etdirən ayrıca guşə də fəaliyyət göstərir.*

*Bildirildi ki, Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmışdır. Mərmər piltələr və tamet üzlüklər döşənmiş meydanda müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Sonra Azərbaycan prezidenti Lənkəran şəhərinin inkişafına dair yeni layihələrlə bağlı stendlərə baxdı.*

*Dövlətimizin başçısı Bayraq Meydanında görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## CƏLİLABAD RAYONUNA SƏFƏR

*31 iyul 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Lənkərana səfərini başa çatdırdıqdan sonra Cəlilabad rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Cəlilabad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında aparılan abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, rayonun mərkəzində yerləşən bu ərazidə geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır.*

### İstirahət parkında həyata keçirilmiş yenidənqurma işləri ilə tanışlıq

*İyulun 31-də Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad şəhərinin mərkəzindəki istirahət parkında həyata keçirilmiş yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov dövlətimizin başçısına məlumat verdi ki, 1952-ci ildə salınan bu parkda ilk dəfədir ki, belə əsaslı yenidənqurma tədbirləri görülmüşdür. Burada 1941–1945-ci illər müharibəsində həlak olan soydaşlarımızın xatirəsinə abidə kompleksi ucaldılmışdır. Cəlilabadlılar müharibədə rəşadət göstərmişlər. Faşizm üzərində Qələbənin qazanılmasında payı olan soydaşlarımızın xidmətlərini həmişə yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev onların cəmiyyətdə nüfuzunun daha da qaldırılması üçün ardıcıl tədbirlər həyata keçirmişdir. Bu insanlara hərtərəfli dövlət qayğısı bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Azərbaycan prezidenti 1941–1945-ci illər müharibəsində həlak olan soydaşlarımızın xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoydu.*

*Diqqətə çatdırıldı ki, parkda Cəlilabad sakinlərinin, o cümlədən veteranların hərtərəfli istirahəti üçün hər cür şərait yaradılmışdır. Burada müxtəlif iaşə obyektləri də fəaliyyət göstərir. Yenidənqurma tədbirləri zamanı müasirlik başlıca meyar götürülmüşdür. İdmançıların məşq etmələri üçün burada müvafiq qurğular quraşdırılmışdır. Bu qurğularda həndbol, voleybol, basketbol və idmanın digər növləri ilə məşğul olmaq mümkündür.*

*Prezident İlham Əliyevə bildirildi ki, bu park yenidənqurmadan sonra füsunkarlığı, müasirliyi və səliqə-sahmanı ilə diqqəti cəlb edir. Çoxlu sayda dekorativ daş, gül və digər landşaft kompozisiyalarından ibarət guşələr parka xüsusi yaraşıq verir. Parkda milli memarlıq üslubu beynəlxalq təcrübə ilə məharətlə uzlaşdırılmışdır.*

*Yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tapşırıqlarını verdi.*

## Heydər Əliyev adına Yaradıcılıq Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Cəlilabadda istirahət parkının yaxınlığında inşa olunmuş Heydər Əliyev adına Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Mərkəzin tikintisinə ötən il başlanılmışdır. İnşaat işləri daxili imkanlar hesabına aparılmışdır. Ərazisi 1200 kvadratmetr olan bina orijinal memarlıq üslubu ilə diqqəti cəlb edir. Mərkəzin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Cəlilabad rayonuna səfərlərini əks etdirən fotoguşələr vardır. Bu fotolar ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin Cəlilabad rayonunun sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxlamaları barədə dolğun təəssürat yaradır.*

*Birinci mərtəbədəki «Cənub palitrası» təsviri incəsənət studiyasında rayon gənclərinin rəsm və digər əl işləri nümayiş etdirilir. Burada rəssamlığın sirlərinə dərindən yiyələnmək üçün müvafiq*

*dərnək fəaliyyət göstərir. Gənclərə ağac üzərində oyma, toxum və meyvə tumlarından müxtəlif əl işlərinin hazırlanmasının incəlikləri öyrədilir. Gənclər milli və müasir rəqslərin sirlərinə də dərindən yiyələnmək imkanı əldə edirlər.*

*Mərkəzdə yetkinlik yaşına çatan qızlar üçün «Gənc analar» studiyası fəaliyyət göstərəcək. Burada gənc analar Azərbaycan mətbəxi ilə yaxından tanış olacaq, gündəlik ev işlərini daha dərindən yerinə yetirmək üçün təcrübəli müəllimlərdən dərs alacaqlar. Mərkəzin orijinallığı ilə seçilən dərnəklərindən biri də moda studiyasıdır. Burada gənc xanımlara toxuma və tikiş sənəti barədə dolğun məlumat veriləcək, kəsmə, biçmə və tikmə ilə bağlı digər vərdişlər öyrədiləcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## Bayraq Meydanı və Gənclər parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Cəlilabad şəhərində yenidən qurulan Bayraq Meydanı və Gənclər parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Bayraq Meydanına gəldi.*

*Diqqətə çatdırıldı ki, şəhərin ən yüksək nöqtəsində inşa olunan bayraq dirəyinin hündürlüyü 41, bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Meydanın ətrafı abadlaşdırılmışdır.*

*Prezident İlham Əliyevə bildirildi ki, Gənclər parkı və burada yaradılmış Bayraq Meydanı Cəlilabadın mərkəzində, 50 metr yüksəklikdə daxili imkanlar hesabına inşa olunmuşdur. Burada yaradılan şəraitlə tanışlıq zamanı diqqətə çatdırıldı ki, 2 hektar ərazini əhatə edən park başdan-başa yenidən qurulmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizin hər yerində olduğu kimi, Cəlilabadda da gənclərlə iş sahəsində və onların istirahətinin səmərəli təşkili ilə bağlı əməli tədbirlər görülür. Gənclər parkı əsaslı bərpa və yenidənqurmadan sonra Cəlilabadın gözəlliyini daha da artırmışdır.*

Kompleks Gənclər parkı, Bayraq Meydanı, restoran və tikinti işləri davam etdirilən üçmərtəbəli, 30 yerlik hoteldən ibarətdir. Burada mədəni-kütləvi tədbirlərin və el şənliklərinin keçirilməsi üçün 200 nəfərlik restoran da inşa edilmiş, möhtəşəm şəlalə və fəvvarə kompleksləri qurulmuşdur.

Gənclər parkında uşaqlar üçün maraqlı attraksionlar quraşdırılmışdır. Gənclər burada bilyard, tennis, şahmat, dama və digər oyunlar oynaya biləcəklər.

Bildirildi ki, yaşıllaşdırma işləri aparılarkən əvvəldən mövcud olan həmişəyaşıl bitkilər saxlanmış, minədək yeni dekorativ ağaclar və gül kolları əkilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur.

Prezident İlham Əliyev Gənclər parkında və Bayraq Meydanında yaradılmış şəraiti yüksək qiymətləndirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.

## Cəlilabad–Hamarqışlaq–Sadatlı kəndlərarası avtomobil yolunun açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Cəlilabad–Hamarqışlaq–Sadatlı kəndlərarası avtomobil yolunun açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.

Məlumat verildi ki, 17 kilometrlik Cəlilabad–Hamarqışlaq–Sadatlı yolu 14 yaşayış massivinin 24 min sakininin yol probleminin həllinə böyük təsir göstərəcəkdir. Vaxtilə yalnız yay aylarında istifadəsi mümkün olan bu yol artıq müasir standartlar səviyyəsində tamamilə yenidən qurulmuşdur. Prezident İlham Əliyevin 2012-ci il 9 mart tarixli Sərəncamına əsasən çəkilmiş yolun inşasına dövlət tərəfindən 3 milyon manat vəsait ayrılmışdır.

Diqqətə çatdırıldı ki, dördüncü dərəcəli avtomobil yolunun eni 8 metrdir. Ərazidən asılı olaraq yolun 5,2–6 metrini asfalt örtüyü təşkil edir. Avtomobillərin sürət həddinin saatda 50–100 kilometr müəyyənləşdirildiyi yolda 32 su keçidi, 3 körpü sistemli

*suötürücü qurulmuşdur. Mövcud yol bir neçə yerdə sürüşmə zonasına düşdüyünə görə yeni yol sürüşmə zonasından 50 metr kənarlaşdırılmışdır. Yola 90 min kvadratmetr həcmində iki qatdan ibarət asfalt döşənmişdir. Müasir standartlar səviyyəsində inşa olunan yol ilin istənilən fəslində avtomobillərin və piyadaların maneəsiz hərəkətinə imkan yaradacaqdır.*

*Azərbaycan prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra prezident İlham Əliyev Cəlilabad–Hamarqışlaq–Sadatlı yolunda sakinlərlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Yeni yolun açılışı münasibətilə sizi təbrik edirəm. Bu yolun tikintisi ilə əlaqədar ilin əvvəlində sərəncam imzalanmış, vəsait ayrılmışdır. Yol 13 kəndi birləşdirir. Bu kəndlərdə 20 mindən artıq əhali yaşayır. Yolun bir hissəsi hazırdır, tikinti işləri davam edir. Bu kənd yolunun tikintisi nəticəsində gediş-gəliş rahat olacaqdır. İnsanlar bu gözəl yoldan istifadə edəcəklər. Beləliklə, Cəlilabad rayonu da sürətlə inkişaf edəcəkdir. Rayonda işlər yaxşı gedir. Görürsünüz, Cəlilabad necə gözəlləşir, abadlaşır.

**S a k i n l ə r:** Çox sağ olun! Bunlar hamısı Sizin rəhbərliyinizlə görülən işlərdir, Sizin diqqət və qayğınızın nəticəsidir. Allah Sizdən razı olsun! Allah ulu öndərimizə rəhmət etsin!

**İ l h a m  Ə l i y e v:** Tikinti-quruculuq işləri aparılır. Onların içərisində kənd yollarının tikintisi xüsusi məna daşıyır. Ancaq Cəlilabadda kəndlərin sayı çoxdur. Təqribən 200-ə qədərdir. Çalışmalıyıq ki, növbəti illərdə bütün kəndlərdə gözəl yollar çəkək, düzəldək, bərpa edək. Kəndlərdə yaşayan insanlar daha rahat yollardan istifadə etsinlər. Əlbəttə, biz birinci mərhələdə magistral yollara fikir veririk. İndi hər yerdə, hər bir istiqamətdə magistral yollarda tikinti gedir, o cümlədən Bakı–Astara yolunun tikintisi davam edir və gözəl yol olacaqdır. İndi sıra gəlib kənd yollarına. Cəlilabadda kənd yollarının tikintisi, bərpası, təmiri bundan sonra da gedəcəkdir. Bu birinci böyük açılışdır. Belə açılışlar çox olacaq.

*Yeni yolda görülən işlərlə tanışlıqdan sonra prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Cəlilabad Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Cəlilabad Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdikdən sonra burada yaradılmış şəraitlə tanış oldu.*

*Binanın foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr nümayiş olunur.*

*Gənclər və İdman nazirinin müavini İntiqam Babayev komplekslə bağlı Azərbaycan prezidentinə məlumat verdi.*

*Diqqətə çatdırıldı ki, Azərbaycan Atıcılıq Federasiyasının quraşdırdığı pnevmatik tirdə Almaniya istehsalı olan avadanlıqdan istifadə olunmuşdur. Burada «Hörinq» şirkətinin texnologiyası əsasında atıcılıq növü üzrə idmançıların hazırlığı aparılır. İdman qurğusunda geniş trenajor zalı fəaliyyət göstərir. İdmanın 17 növü üzrə müxtəlif avadanlıqları quraşdırıldığı kompleksdə arzu edənlər bilyard və stolüstü tennislə də məşğul ola bilərlər. Şahmat otağında eyni vaxtda 10 nəfərə bu qədim oyunun sirləri öyrədiləcəkdir. Divarda quraşdırılan lövhə vasitəsilə gənclərə şahmatın incəlikləri tədris olunacaqdır.*

*Dövlətimizin başçısı Cəlilabad Olimpiya İdman Kompleksi ilə yaxından tanış olduqdan sonra burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

# CƏLİLABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*31 iyul 2012-ci il*

Mən sizin hamınızı ürəkdən təbrik edirəm! Cəlilabad Olimpiya İdman Kompleksinin açılışı çox böyük hadisədir. Mən şadam ki, bu gün biz sizinlə bərabər bu gözəl kompleksin açılışında iştirak edirik.

Doğrudan da bu, Cəlilabad rayonu üçün, Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda idmanın inkişafı üçün çox vacib olan məsələdir. Mən çox şadam ki, bu kompleks xarici görünüşü və daxili tərtibat baxımından bütün standartlara cavab verir. Həm gözəl üzgüçülük hovuzu, həm böyük idman zalı, trenajor zalı, açıq meydançalar, stadion, mehmanxana var. Əslində bu, təkcə idman qurğusu deyil. Cəlilabadda gedən sürətli inkişaf üçün çox vacib olan obyektdir.

İdman bizim cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmana böyük diqqət göstərilir. Bütün yerlərdə, bütün bölgələrdə olimpiya idman kompleksləri tikilir və hər yeni Olimpiya İdman Kompleksi əvvəlkindən fərqlənir – daha da gözəl, daha böyük funksional cəhəti ilə. Cəlilabad Olimpiya İdman Kompleksi də əvvəlki illərdə tikilmiş komplekslərdən fərqlənir və əminəm ki, bu kompleks Cəlilabad idmançılarına və rayon sakinlərinə xidmət edəcəkdir.

Burada idman bölmələri yaradılacaq. Rayon sakinləri asudə vaxtlarını səmərəli keçirə bilərlər. İdman, fiziki sağlamlıq bizim üçün çox vacibdir. İnsanların sağlamlığı o cümlədən, insanların idmana olan münasibətindən asılıdır.

Bizdə idman siyasəti yüksək səviyyədə aparılır. İdmançılarımız hazırda Londonda Olimpiya oyunlarında yarışırlar. Biz onları oraya böyük ümidlərlə göndərmişik və əminəm ki, yaxşı nəticələr olacaqdır. Artıq 1 medal qazanılıb. İnanıram ki, medalların sayı daha da çox olacaqdır. Gələcəkdə Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün idmanın kütləviliyi daha da geniş

şəkildə təmin edilməlidir. Bütün bölgələrdə yaradılan olimpiya idman kompleksləri məhz bu məqsədi güdür. Uşaqlar, yeniyetmələr uşaqlıq yaşlarından idmana cəlb olunsunlar, idman ilə məşğul olsunlar, fiziki cəhətdən sağlam olsunlar və peşəkar idmançı olsunlar.

Mən şadam ki, Cəlilabadda da artıq Olimpiya İdman Kompleksi vardır. Cəlilabadda idman ənənələri həmişə olub, lakin idmanla məşğul olmaq üçün şərait o qədər də yaxşı olmamışdır. Ancaq indi biz bu boşluğu da artıq aradan götürürük. Bu kompleks ilə yanaşı, mən bu gün Cəlilabadda bir sıra digər obyektlərin açılışında iştirak etmişəm. Çox şadam ki, rayon sürətlə və hərtərəfli şəkildə inkişaf edir.

Əvvəlki səfərlərimdə Diaqnostika Mərkəzinin, digər obyektlərin açılışında iştirak etmişəm. Heydər Əliyev seyrəngahı möhtəşəm mərkəzə çevrilib. Bu gün isə yeni parkların açılışında iştirak etdim. Gənclər parkı, sonra şəhərin içərisindəki köhnə park tamamilə yenidən qurulub. Gənclik evi tikilib. Quşçuluq fabriki, taxıl anbarı, məktəblər tikilib, binalar bərpa olunub. Mən çox şadam ki, inkişaf sürətlə gedir.

Bu gün kənd yolunun açılışında iştirak etdim. Bu da çox vacibdir. Hazırda Azərbaycanda kənd yollarının tikintisi prosesi geniş vüsət alıb. O cümlədən Cəlilabad rayonunda 17 kilometr uzunluğunda kənd yolunun tikintisi başlanıb. Onun əhatə etdiyi kəndlərdə 20 mindən artıq əhali yaşayır. Cəlilabadda kəndlərin sayı çoxdur, təqribən 200-ə yaxındır. Biz tədricən bütün kənd yollarını yaxşı vəziyyətə salmalıyıq.

Bir rayonda görülən işlər, bir gün ərzində iştirak etdiyim açılışlar ölkəmizin dinamik inkişafını təsdiqləyir. Həm iqtisadi sahədəki işlər, regionların inkişafı, iş yerlərinin açılması, abadlıq-quruculuq tədbirləri, həm də idman obyektlərinin, kənd yollarının açılışı, tikintisi ölkəmizin dinamik inkişafını göstərir. Gələcək illərdə bu inkişaf daha da sürətli olmalıdır. Əvvəlki illərdə görülən işlər deməyə əsas verir ki, biz böyük uğurlara nail ola bilmişik. İndi infrastruktur layihələri icra edilir. Mən maraqlandım, icra başçısı məlumat verdi ki, Cəlila-

badda qazlaşdırma prosesi bir az ləng gedir. Bakıya qayıdandan sonra əlavə göstərişlər verəcəyəm ki, qazlaşdırma daha da sürətli getsin. Rayon mərkəzi tamamilə qazlaşdırılmalıdır və bu belə də olacaqdır. Çalışmalıyıq ki, kəndlərin də mütləq əksəriyyəti qazlaşdırılsın. Buna imkan var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında bu məsələlər öz həllini tapmalıdır. Çalışmalıyıq ki, gələn ilin sonuna qədər qazlaşdırma məsələlərini tamamilə yekunlaşdıraq.

Hazırda vacib infrastruktur layihələrinin arasında su və kanalizasiya layihələridir. Bu məsələlər də gələn ilin sonuna qədər yekunlaşmalıdır. Dövlət büdcəsində vəsait var. Cəlilabad şəhəri və ətraf kəndlər ilk növbədə su və kanalizasiya sistemi ilə təmin edilməlidir. Bu çox böyük layihədir. Bu layihə hər bir rayonda icra edilir, böyük vəsait və böyük zəhmət tələb edir. Keçmişdə, ümumiyyətlə, bölgələrdə kanalizasiya sistemi olmayıb. Heç Bakının da kanalizasiya sistemi lazımi səviyyədə olmayıb. İçməli su daim problem olmuşdur. Biz bu məsələni birdəfəlik həll edəcəyik. İnsanları ən çox narahat edən problemləri tədricən aradan qaldırırıq.

Sahibkarlıq üçün yeni şərait, gözəl imkanlar yaradılır, kreditlər verilir. Kənd təsərrüfatı inkişaf edir. Cəlilabadda kənd təsərrüfatının inkişafına xüsusilə böyük diqqət verilməlidir. Bildiyiniz kimi, vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cəlilabadda böyük üzüm bağları salınmışdı. Əfsuslar olsun ki, keçən əsrin 80-ci illərinin sonlarında sovet rəhbərliyi tərəfindən çox yanlış siyasət aparılmış, bütün üzüm bağları məhv edilmişdi. Onların bərpası indi çox çətindir. Buna baxmayaraq bu məsələ də tədricən öz həllini tapmaqdadır. Burada üzümçülüyün böyük ənənələri olmuşdur. Üzümçülüyün fermerlərə, kəndlilərə nə qədər xeyirli olduğunu hamımız yaxşı bilirik. Təsadüfi deyildir ki, keçən ilin sonunda Azərbaycanda üzümçülüyün inkişafına dair mənim tərəfimdən sərəncam imzalanmışdı, Dövlət Proqramı qəbul edilmişdi. Biz çalışacağıq ki, üzümçülüyü sürətlə inkişaf etdirək. Bu istiqamətdə Cəlilabadın üzərinə ən böyük məsuliyyət düşür.

Çünki biz vaxtilə salınmış bağları bərpa etməliyik, yenidən salmalıyıq və üzümçülüyün inkişafına nail olmalıyıq.

Kənd təsərrüfatının digər istiqamətləri üzrə də Cəlilabadda böyük imkanlar, böyük potensial var. İndi biz fermerləri texnika ilə də təmin edirik. Sumqayıtda gübrə zavodu tikilir. Özümüzü gübrələrlə təmin edəcəyik.

Rayonun turizm potensialı var. Ancaq indiyə qədər bu potensialdan istifadə olunmayıb. Çünki infrastruktur olmadıqda bunu etmək mümkün deyil. İndi yeni kənd yollarının tikintisi nəticəsində Cəlilabadın dağlıq əraziləri də artıq rayon mərkəzi ilə birləşəcək və o ərazilərdə, gözəl yerlərdə turizm obyektləri, hotellər tikilməlidir və tikiləcək.

Mən bir daha demək istəyirəm və çox şadam ki, Cəlilabadın inkişafı sürətlidir. Şəhər simasını dəyişir, müasirləşir, abadlaşır, gözəl binalar tikilir. Köhnə binalar bərpa edilir. Bir sözlə, inkişaf, dinamika var və bu dinamika gələcək illərdə də saxlanılmalıdır. Cəlilabad daha da sürətlə inkişaf etməlidir və edəcəkdir. Bir daha sizi bu gözəl binanın – Olimpiya İdman Kompleksinin açılışı münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**Zaur Paşayev** *(Azərbaycanın basketbol üzrə milli komandasının üzvü, Birinci İslam Ölkələri Olimpiadasının qalibi):* Bu gün rayonumuzun sakinləri və biz gənclər üçün çox əlamətdar bir gündür. Belə bir gözəl kompleksi bizə bəxş etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, bütün dünyanın gözü London Olimpiya oyunlarındadır. Orada idmançılarımızın çıxışını görəndə qəlbimiz fərəh hissilə dolur. Bu Sizin Azərbaycanda idmana göstərdiyiniz qayğının böyük nümayişidir. Bu da onu göstərir ki, Azərbaycanda olimpiya hərəkatı yüksək səviyyədə inkişaf edir, güclənir.

Cəlilabad da gündən-günə inkişaf etməkdədir. Gözəl yollar çəkilir, məktəblər tikilir, parklar salınır. Buna görə də Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun, cənab Prezident!

**«Cəlilabad Broyler» ASC-nin yeni inşa olunmuş**

**yem fabrikinin açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də «Cəlilabad Broyler» ASC-nin yeni inşa olunmuş yem fabrikinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı respublika üzrə quşçuluq təsərrüfatları barədə məlumatları, müəssisənin planını, yenidənqurmadan əvvəlki və sonrakı vəziyyətini, eləcə də 1976-cı ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə quşçuluq fabrikinin açılışını əks etdirən fotoşəkillərdən ibarət stendlərə baxdı.*

*Bildirildi ki, fabrikin inşasına 1969-cu ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra başlanılıb. Ulu öndər 1972-ci ildə Cəlilabada səfəri zamanı quşçuluq fabrikində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. 1976-cı ilin mayında ulu öndər Heydər Əliyevin iştirakı ilə Cəlilabad Quşçuluq fabriki istifadəyə verilmişdir.*

*Diqqətə çatdırıldı ki, Dövlət Proqramına uyğun olaraq yenidən qurulan müəssisənin illik istehsal gücü 6 min ton quş əti məhsullarıdır. Bu müəssisənin fəaliyyətə başlaması idxalı əvəz edən məhsul hazırlanmasına şərait yaradacaq, daxili bazarın yüksək keyfiyyətli məhsullarla təmin olunmasına imkan verəcəkdir. Müəssisə əsasən, Türkiyə texnologiyaları əsasında qurulmuşdur. Quş fermaları ən müasir yemləmə, havalandırma avadanlığı ilə təchiz edilmişdir. Həmçinin müəssisədə kəsim sexi yerli «ASENA» şirkəti tərəfindən Türkiyə texnologiyası əsasında qurulmuşdur. Sexdə saatda 2,5 min quşun kəsimi həyata keçirilir. Yeni inşa olunan sex hər birinin tutumu 177 min yumurta olan iki inkubator avadanlığı ilə təchiz edilib. Müəssisədə yem sexi, soyuducu və şoklama kameraları da inşa edilmişdir.*

*Azərbaycan prezidenti fabrikin istehsal etdiyi məhsulların nümunələrinə baxdı.*

*Sonra prezident İlham Əliyev yem fabrikini işə saldı və monitor vasitəsilə istehsal prosesini izlədi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müasir avadanlıqlarla təchiz edilən fabrik saatda 10 ton quş yemi hazırlamaq*

*gücünə malikdir. Quşçuluq təsərrüfatları üçün müxtəlif növ yem hazırlayan fabrik tam avtomatlaşdırılıb, 220 nəfər işlə təmin olunub.*

*Müəssisədə yaradılmış şəraitdən razılığını bildirən Azərbaycan prezidenti kollektivə uğurlar arzuladı.*

## Cəlilabadda «Avanqard» MMC-nin un fabrikinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 31-də Cəlilabadda «Avanqard» MMC-nin un fabrikinin açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, 100 tonluq un dəyirmanı və 10 min tonluq taxıl məhsullarının təmizlənməsi və satışı üçün anbar kompleksini özündə birləşdirən müəssisə ən müasir avadanlıqlarla təchiz olunub. Müəssisənin beşmərtəbəli binadan ibarət dəyirman kompleksi ekoloji baxımdan bütün gigiyenik normalara cavab verir. Taxıl məhsullarının qəbulu, çeşidlənməsi və təmizlənməsi, o cümlədən un istehsalı tam avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Belə müasir un fabriklərinin inşası ölkədə ərzaq təhlükəsizliyinin təminatına, yüksək keyfiyyətli taxıl məhsullarının və un məmulatının daha uzun müddətə saxlanılmasına imkan verir.*

*Dövlətimizin başçısı müəssisəni işə saldı.*

*Bildirildi ki, müəssisənin ərazisində inşa olunan taxıl məhsullarının tədarükü və emalı kompleksi prezident İlham Əliyevin sahibkarlığın inkişafına dəstək siyasətinə uyğun olaraq Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı 1 milyon manat güzəştli kredit və sahibkarın vəsaiti hesabına tikilmişdir.*

*İnşasına 2010-cu ilin sonunda başlanılan taxıl anbarı kompleksi Türkiyənin «OBİAL» şirkətinin texnologiyası əsasında qurulub. 10 min tonluq taxıl anbarı hər biri 2 min ton olmaqla 5 silodan ibarətdir. Fabrikə daxil olan taxıl xüsusiyyətinə və növünə görə elevatorlar vasitəsilə bu silolara ötürülür. Silolarda taxılın uzun müddətə saxlanılması üçün bütün lazımi şərait*

vardır. Silolarda saxlanılan taxıl sonra fabrikin dəyirman kompleksinə ötürülür. Burada taxıl yenidən yoxlanılır və dəyirmanda üyüdülməsi üçün müvafiq normalara uyğunluğu müəyyənləşdirilir, yuyulur və təmizlənir. Dəyirman kompleksi tam avtomatlaşdırıldığından burada taxılın üyüdülməsindən qablaşdırılmasınadək bütün prosesə idarəetmə mərkəzindən kompüterlərlə nəzarət olunur.

Bildirildi ki, taxılın yuyulması ekoloji cəhətdən ən müasir avadanlıqla həyata keçirilir. Digər dəyirmanlardan fərqli olaraq, burada taxılın yuyulması rejimi onun tərkibinə uyğun aparılır və suyun miqdarını kompüter müəyyən edir. Taxıl 6 iri avadanlıq vasitəsilə üyüdülür. Sonra un qablaşdırmaya yönəldilir. Burada 500 qram torbalardan 50 kiloqramadək kisələrə doldurulur. Fabrikdə «İpək» və «Ocaqlı» adı ilə un məhsullarının istehsalı nəzərdə tutulub. Dəyirman kompleksi Türkiyənin «Öz Başak» şirkətinin müasir avadanlığı ilə təchiz edilib. Dəyirmanın gündəlik istehsal gücü 100 ton təşkil edir. Müəssisədə 100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

Dövlətimizin başçısına məlumat verildi ki, yeni müəssisə respublikada taxılçılığın inkişafına təkan verməklə, əhalinin il-boyu keyfiyyətli un ilə təmin olunmasına şərait yaradacaqdır.

Azərbaycan prezidenti hazır məhsulların nümunələrinə baxdı. Müəssisədə yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Ukrayna xalqını dövlət bayramınız – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu gün dost Ukrayna dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsi, sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi yolu ilə inamla irəliləyir, beynəlxalq birlikdə ölkənin nüfuzu artır.

İnanıram ki, Azərbaycan ilə Ukrayna arasında mehriban dostluq və qarşılıqlı dəstək ənənələri, hərtərəfli əməkdaşlıq, dövlətlərarası münasibətlərimiz xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da dinamik inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Viktor Fyodoroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Ukrayna xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Qırğız Respublikasının milli bayramı – Dövlət Müstəqilliyi Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Qırğızıstan dostluğunun ənənələrini özündə yaşadan ikitərəfli münasibətlərimizin inkişafı, əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə, hörmətli Almazbek Şarşenoviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost qırğız xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLAYE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri zəngin ənənələrə malikdir. Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq bu ənənələrin qorunub saxlanması, dövlətlərarası münasibətlərimizin daim inkişaf etdirilməsi yolunda addımlarımızı davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə, hörmətli cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

**MALAYZİYA RESPUBLİKASININ ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU ABDUL HALİM MÜƏDZƏM ŞAH İBNİ ƏL-MƏHRUM SULTAN BADLİŞAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Malayziya münasibətlərinin, ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi, əməkdaşlığımızın genişlənməsi yolunda səylərimiz daim xalqlarımızın rifahına töhfələr verəcək.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Malayziya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

**QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qabon arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

## İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İndoneziya münasibətləri, ölkələrimiz arasındakı dostluq əlaqələri və ikitərəfli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcək.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2012-ci il*

## PAYTAXTIN HEYDƏR ƏLİYEV PROSPEKTİ İLƏ ƏLƏDDİN QULİYEV KÜÇƏSİNİN KƏSİŞMƏSİNDƏ SALINAN YENİ PARKDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*1 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də paytaxtın Heydər Əliyev prospekti ilə Ələddin Quliyev küçəsinin kəsişməsində salınan yeni parkda görülmüş işlərlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov parkda həyata keçirilən tikinti və yaşıllaşdırma işləri barədə dövlətimizin başçısına məlumat verdi. Ərazisi 25 min kvadratmetr olan parkda sakinlərin istirahəti üçün hər cür şəraitin yaradılacağı vurğulandı. Parkın qısa vaxt ərzində Bakı sakinlərinin istifadəsinə veriləcəyi bildirildi.*

*Həyata keçirilən tikinti-abadlıq işləri ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## YENİ SURAXANI QƏSƏBƏSİNDƏKİ R.ABDİNOV ADINA 85 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*2 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Bakının Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindəki R.Abdinov adına 85 saylı tam orta məktəbin yeni korpusunun açılışı mərasimində iştirak etmişdir.*

*Bakının kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin icrası ilə əlaqədar dövlətimizin başçısı paytaxtın Suraxanı rayonunda görülən işlərlə tanış olarkən Yeni Suraxanı qəsəbəsinin sakinləri 85 saylı orta məktəbin bir korpusunun tamamilə yararsız vəziyyətdə olduğunu bildirmiş və bu tədris ocağının yenidən qurulmasına kömək göstərilməsini xahiş etmişdilər.*

*Prezident İlham Əliyev yeni korpusun inşa olunması ilə bağlı yerindəcə göstərişlər vermişdir. 2011-ci ilin iyulunda dövlətimizin başçısı məktəbin kollektivi ilə birlikdə yeni tədris korpusunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*3 mərtəbədən, 27 otaqdan ibarət yeni korpusun tikintisi qısa vaxt ərzində müasir tələblər səviyyəsində başa çatdırılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev yeni korpusun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*85 saylı məktəbin yeni korpusunda yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## BAKININ BÜLBÜLƏ QƏSƏBƏSİNDƏKİ 268 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ ƏSASLI YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*2 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Bakının Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindəki 85 saylı tam orta məktəbin yeni korpusunun açılışı mərasimindən sonra Bülbülə qəsəbəsindəki 268 saylı körpələr evi-uşaq bağçasının əsaslı yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin və uşaq bağçalarının əsaslı təmir və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki 268 saylı körpələr evi-uşaq bağçası da əsaslı şəkildə yenidən qurulmuşdur.*

*Dövlətimizin başçısına 268 saylı körpələr evi-uşaq bağçasında görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, bağçanın binası 1989-cu ildə inşa olunub, Azərbaycan prezidentinin tapşırığı ilə 2012-ci ildə əsaslı şəkildə yenidən qurulub. Bağçada 240 nəfərdən ibarət 12 qrup fəaliyyət göstərir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra körpələr evi-uşaq bağçasında hər cür şərait yaradılıb. Uşaqların yataq otaqları, əyləncə yerləri, mətbəx və digər sahələr ən müasir standartlar səviyyəsində yenidən qurulub.*

*Körpələr evi-uşaq bağçası ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*3 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfərə gəlmişdir.*

### XXX Yay Olimpiya oyunlarında Yunan-Roma güləşi yarışlarına baxış

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev idmançılarımıza dəstək vermək üçün ailə üzvləri ilə birlikdə avqustun 5-də Londonda keçirilən XXX Yay Olimpiya oyunlarında Yunan-Roma güləşi yarışlarına baxmışdır.*

*Təmsilçilərimizdən ilkin olaraq mübarizəyə Yunan-Roma güləşində 55 kiloqram çəki dərəcəsində Rövşən Bayramov qoşulmuşdur. Rövşən Bayramovun ilk rəqibi rusiyalı Minqiyan Semyonov olmuşdur. 1/16 final mərhələsinin görüşü dünya çempionumuz üçün uğurlu alınmışdır. İlk hissədə 1:0 hesabı ilə qələbə qazanan Rövşən növbəti hissədə də eyni hesabla qalib gələrək 1/8 finala yüksəlmişdir. Bu dəfə onun rəqibi amerikalı Tomas Manqo Spenser olmuşdur. Pəhləvanımız üçün asan keçən ilk hissə rəqibin 0:4 hesablı məğlubiyyəti ilə başa çatmışdır.*

*Amerikalı güləşçi ikinci hissədə də çətin anlar yaşamış və Rövşən yenə 4:0 hesabı ilə qələbə qazanmışdır. Nəticədə güləşçimiz daha bir mərhələyə adlamışdır.*

*Rövşən Bayramov 1/4 finalda çinli Li Şujin ilə üz-üzə gəlmişdir. Güləşçimiz ilk 2 görüşündəki uğuru bu dəfə də təkrarlamışdır. O, birinci hissədə rəqibindən 3, ikinci hissədə isə 2 xal alaraq yarımfinala çıxmışdır. Finala gedən yolda Rövşən Koreya Respublikasının təmsilçisi Qyunjin Çoi ilə güləşmişdir. R.Bay-*

*ramov ilk hissədə rəqibin parter vəziyyətindən xal qazanmasına imkan verməmiş və nəticədə 1 xal qazanmışdır. İkinci hissədə isə Qyunjin Çoi parter vəziyyətinə düşmüşdür. Burada aşırma fəndini ustalıqla yerinə yetirən güləşçimiz finala yüksəlmişdir. Finalda onun rəqibi iranlı Məhəmməd Soryan olmuşdur. Həlledici qarşılaşmada pəhləvanımız cüzi fərq ilə uduzaraq gümüş medalla kifayətlənmişdir. Bununla da Rövşən Bayramov Pekin Olimpiadasında olduğu kimi, Londonda da yarışı gümüş mükafatla başa vurmuşdur.*

*Rövşən Bayramovun növbəti mərhələyə yüksəlməsi digər həmyerlimiz E.Əhmədova əlavə ruh yüksəkliyi vermişdir. Bunun da nəticəsi kimi, pəhləvanımız Xorvatiya təmsilçisini hər iki hissədə məğlub edərək, 1/4 final mərhələsinə adlamışdır. Növbəti mərhələdə isə E.Əhmədovun rəqibi daha güclü idmançı olmuşdur. Buna baxmayaraq, gənc güləşçimiz gürcüstanlı Zurab Datunaşvilini də mübarizədən kənarlaşdırmışdır. O, ilk hissədə rəqibinə uduzsa da, sonrakı hissələrdə qələbə qazanmış və yarımfinala çıxmışdır. Lakin təəssüf ki, pəhləvanımız finala vəsiqə qazana bilməmişdir. Buna baxmayaraq, o, Olimpiya oyunlarını mükafatla başa vurmuşdur. Emin Əhmədov bürünc medal uğrunda görüşdə belaruslu Aleksandr Kikinyov ilə görüşmüşdür. Gərgin keçən qarşılaşmanın ilk hissəsində rəqib irəlidə olsa da, Emin növbəti hissələrdə ona heç bir şans verməmişdir. Nəticədə ardıcıl 2 hissədə qalib gələn pəhləvanımız bürünc medala yiyələnmişdir. Bu, Azərbaycan yığmasının Londonda qazandığı 3-cü medal olmuşdur.*

*Yunan-Roma güləşi üzrə 55 və 74 kiloqram çəki dərəcələrində yarışlar başa çatdıqdan sonra prezident İlham Əliyev Yunan-Roma güləşi üzrə Azərbaycan seçmə komandasının baş məşqçisi Saleh Bora ilə görüşdü.*

*Dövlətimizin başçısı Azərbaycan idmançılarının çıxışlarını yüksək qiymətləndirdi, baş məşqçidən uğurlu çıxışlarına görə Rövşən Bayramova və Emin Əhmədova da təbriklərini çatdırmağı xahiş etdi.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*London*

*6 avqust 2012-ci il*

*Böyük Britaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Londonda bp şirkətinin icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bp şirkətinin uzun illər ərzində uğurlu əməkdaşlığından məmnunluq ifadə edildi.*

*«Şahdəniz» yatağının işlənilməsi layihəsinin ikinci fazası və icra edilən digər layihələrin gedişi barədə fikir mübadiləsi aparıldı.*

*Görüşdə ölkəmiz ilə bp şirkəti arasında əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik bildirildi.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ DEVİD KEMERON İLƏ GÖRÜŞ

*London*

*6 avqust 2012-ci il*

*Böyük Britaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron ilə görüşmüşdür.*

*Prezident İlham Əliyevi Baş nazir Devid Kemeron qarşıladı.*

*Görüşdə Azərbaycan–Böyük Britaniya ikitərəfli əlaqələrinin yüksək səviyyədə olduğu vurğulandı. Qeyd edildi ki, Birləşmiş Krallıq ilə Azərbaycan arasında bir sıra sahələrdə, o cümlədən enerji, qeyri-neft sektoru sahələrində uğurlu əməkdaşlıq vardır və bu əlaqələrin perspektivləri böyükdür.*

*Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təhlükəsizlik sahəsindəki münasibətlərin də müzakirə olunduğu görüşdə ölkəmizin NATO və Əfqanıstandakı beynəlxalq koalisiyaya dəstəyi yüksək qiymətləndirildi.*

*Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizin şimal-qərbində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına, qardaş İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 avqust 2012-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Dost Özbəkistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Özbəkistan müstəqillik yollarında inamla irəliləyərək dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi yüksəlişi istiqamətində böyük uğurlar qazanır, dünya birliyinin nüfuzlu üzvü kimi tanınır.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan–Özbəkistan dostluğu ənənələrinin daim qorunub saxlanması, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, qarşılıqlı maraq, dəstək və etimada əsaslanan əməkdaşlığımızın dərinləşdirilməsi sahəsində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə, hörmətli İslam Abduqəniyeviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 avqust 2012-ci il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq münasibətləri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 avqust 2012-ci il*

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Bir neçə gündən sonra bütün müsəlman aləmi müqəddəs Ramazan bayramını qeyd edəcəkdir. Bu bayram ərəfəsində müsəlman ölkələrinin səfirliklərinin nümayəndələri ilə görüşlərimiz gözəl ənənəyə çevrilib. Xahiş edirəm ki, mənim səmimi salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələr ilə bizim çox sıx əməkdaşlığımız var. İkitərəfli formatda əlaqələr güclənir, genişlənir və demək olar ki, bütün sahələri əhatə edir. Azərbaycanda müsəlman ölkələrinin səfirliklərinin sayı ildən-ilə artır. Keçənilki görüşdə mən demişdim ki, bir neçə ildən sonra bu masada yer qalmayacaq. Bunlar onu göstərir ki, doğrudan da ikitərəfli formatda əlaqələrimiz güclənir, genişlənir və bu bizi çox sevindirir.

Azərbaycan xarici siyasətində islam ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir. Biz bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin mövqeyini müdafiə edirik və bu qarşılıqlı dəstək bizi daha da gücləndirir.

Onu da qeyd etməliyəm ki, biz nəinki ikitərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı dərinləşdiririk. Biz İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətində quruma üzv ölkələrin dəstəyini daim hiss edirik. Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı dəstək çox əhəmiyyətlidir. Keçən il Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilib. Bu seçkilərdə müsəlman ölkələrinin çox böyük rolu olmuşdur. 155 ölkənin Azərbaycanın namizədliyini dəstəkləməsi eyni zamanda, müsəlman aləminə olan hörmətin təzahürü idi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində də biz daim müsəlman ölkələrinin dəstəyini hiss etmişik. Bu dəstək bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, uzun illərdir ki, beynəlxalq hüquq normaları kobudcasına pozulur. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri pozulmuşdur. Azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirilmişdir. Yenə də Xocalı soyqırımının rəsmən soyqırımı kimi, tanınması müsəlman aləmindən başlamışdır. Xocalı soyqırımını soyqırımı kimi birinci Pakistan dövləti tanımışdır və buna görə biz qardaş ölkəyə minnətdarlığımızı bildirmək istəyirik.

Bildiyiniz kimi, ATƏT işğal edilmiş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. Missiyanın məruzəsində açıq-aydın göstərilir ki, bütün binalar, evlər, müqəddəs din ocaqlarımız ermənilər tərəfindən dağıdılmışdır. İşğal edilmiş ərazilərdə bütün müsəlman məscidləri ermənilər tərəfindən yerlə yeksan edilmişdir.

Biz Azərbaycanda islam həmrəyliyinin güclənməsinə də böyük əhəmiyyət veririk. İndiki zəmanədə buna daha da böyük ehtiyac vardır. Bakının islam mədəniyyətinin paytaxtı elan edilməsini islam aləmi tərəfindən bizə verilən böyük dəstək kimi qiymətləndiririk. Azərbaycanda gedən proseslərə İslam Əməkdaşlıq Təşkilatı tərəfindən müsbət qiymətin verilməsi bizi daha da ruhlandırır. İslam dəyərləri bizim üçün əzizdir, doğmadır. Bizim milli dəyərlərimizin təməlində islam dəyərləri dayanır.

Biz çalışmalıyıq ki, müsəlman aləmi daha da sıx birləşsin, qarşımızda duran problemlər həll olunsun, gələcəkdə bir-birimizə daha da böyük dəstək verə bilək. Biz istəyirik ki, bütün müsəlman

ölkələrində sülh, əmin-amanlıq olsun, qan tökülməsin, vətəndaş müharibəsinə yol verilməsin.

Əfsuslar olsun ki, Azərbaycanda da müstəqilliyimizin ilk illərində vətəndaş müharibəsinə cəhd baş vermişdir. Bundan böyük faciə ola bilməz. Biz qardaş qanının axıdılmasına imkan verməməliyik. Ərəb Liqasının Yaxın Şərqdə gedən proseslərlə bağlı mövqeyini Azərbaycan ilk günlərdən dəstəkləyib. Biz bu gün də bu dəstəyi veririk. BMT Təhlükəsizlik Şurasında da Ərəb Liqasının mövqeyini müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik. Biz bütün dövrlərdə, müstəqillik dövründə islam ölkələri ilə daha da yaxın olmaq üçün səylər göstərmişik. Hesab edirəm ki, bu gün bu əməkdaşlıq ən yüksək səviyyədədir. Biz bir-birimizi bundan sonra da dəstəkləməliyik, bir-birimizə siyasi dəstək verməliyik.

Dünya miqyasında bəzi hallarda islam haqqında qəsdən yayılan şayiələrə birgə mübarizə ilə cavab verməliyik. İslamı terrorla bağlamaq cəhdləri böyük günah və böyük cinayətdir. Biz buna qarşı birgə səylərlə daha da ciddi mübarizə aparmalıyıq. Terrordan ən çox zərər çəkən müsəlman xalqları olmuşdur.

Hörmətli səfirlər, mən bir daha sizi salamlayıram. Yenə də deyirəm, əməkdaşlığımızın çox gözəl tarixi və gələcəyi var. Qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə bir daha sizi və təmsil etdiyiniz xalqları təbrik edirəm.

* * *

*Müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri adından çıxış edən Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Hulusi Kılıç görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Diplomat belə görüşlərin prezident İlham Əliyevin sayəsində xoş ənənəyə çevrildiyini dedi.*

*Qarşıdan gələn Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri adından dövlətimizin başçısına təbrik-*

*lərini çatdıran səfir bu ayın müsəlman dünyası üçün kəsb etdiyi əhəmiyyətindən, ölkəmizin bu gün dünyada artan siyasi və iqtisadi nüfuzundan bəhs etdi:*

– Bu gün Azərbaycan yalnız regional deyil, eyni zamanda, beynəlxalq proseslərə, meyillərə bilavasitə təsir edən mühüm ölkələrdən birinə çevrilib. Keçən il Azərbaycana edilən yüksək səviyyəli səfərlər silsiləsi və Azərbaycanda keçirilən əhəmiyyətli tədbirlər bunun bariz göstəricisidir. Biz Azərbaycanda iqtisadi və sosial sahələrdə davam edən uğurlu dinamik islahatlar prosesini və müsbət dəyişiklikləri səmimi diqqət və məmnuniyyətlə müşahidə edirik. Bu prosesin ən parlaq və inandırıcı sübutlarından biri isə hazırda dünyada yaşanan qlobal maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycanın milli iqtisadiyyatının inkişafı istiqamətində dərin təsir bağışlayan nəticələr göstərməkdə davam etməsi və ölkədə həyata keçirilən infrastruktur layihələri təşkil edir. Təbii ki, bütün bunların arxasında düzgün və düşünülmüş iqtisadi islahatlar durur. Siz, cənab Prezident, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu iqtisadi islahatları müvəffəqiyyətlə davam etdirirsiniz. Azərbaycan xalqı artıq bu islahatların bəhrəsini görür.

Azərbaycanın humanitar sahədəki uğurlarının da miqyası çox böyükdür. Bu baxımdan Azərbaycan təmsilçilərinin «Eurovision–2011» mahnı müsabiqəsindəki parlaq qələbəsi bütün müsəlman dünyası üçün çox böyük hadisə olmuşdur. Bu ilin mayında «Eurovision–2012» mahnı müsabiqəsinin Bakıda səmimi qonaqpərvərlik və yüksək təşkilatçılıq ilə keçirilməsi müsəlman dünyasını çox sevindirdi. Müsəlman ölkələrinin səfirləri və nümayəndələri olaraq, Sizi bu müvəffəqiyyət münasibətilə təbrik edirik. Həmçinin Azərbaycanın islam ümmətinin zəngin mirasının yenidən canlandırılması, inkişaf etdirilməsi istiqamətində intensiv təşəbbüslərini də məmnuniyyətlə qeyd edirik. Bunun ən bariz nümunəsi Azərbaycanda hər il keçirilən Beynəlxalq Muğam müsabiqəsidir. İslam ümmətinin nümayəndələri olaraq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün acısını, əzabını, sıxıntısını yaşamış azərbaycanlı qardaşlarımızın kədərini və

üzüntüsünü paylaşırıq. Müsəlman ölkələrinin Dağlıq Qarabağ münaqişəsinin BMT-nin müvafiq qətnamələrinin tətbiq edilməsi və beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü, bütün qaçqınların və məcburi köçkünlərin doğma torpaqlarına qayıtması şərti və sülh yolu ilə həllində Azərbaycanı dəstəkləməsi təqdirəlayiqdir.

*Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanda yüksək dini tolerantlığın, sivilizasiyalararası dialoqun mövcud olduğunu bildirən türkiyəli diplomat ölkəmizin İslam Əməkdaşlıq Təşkilatının tədbirlərində fəal iştirakının, müsəlman dünyası ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətindəki təşəbbüslərinin və bu məsələdə əhəmiyyətli rol oynadığının şahidi olduğunu diqqətə çatdırdı.*

*Müasir dünyada ölkələrarası dostluq və əməkdaşlığın möhkəmləndirilməsinin önəminə toxunan Hulusi Kılıç görüşə görə prezident İlham Əliyevə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri adından bir daha təşəkkürlərini bildirdi:*

– Hörmətli Prezident, mübarək Ramazan ayı və qarşıdan gələn bayram münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, hamımız üçün çox mühüm olan ayda bu gün keçirdiyimiz görüş üçün Sizə bir daha ən dərin təşəkkürlərimizi bildiririk. Sizə fəaliyyətinizdə uğurlar arzulayır, Uca Allahdan qardaş Azərbaycan xalqına və islam dünyasına bərəkət, rifah, müvəffəqiyyət, xoşbəxtlik, güc və firavan həyat diləyirik.

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*Qafqaz Müsəlmanları İdarəsinin yeni iqamətgahı*

*14 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Qafqaz Müsəlmanları İdarəsinin yeni iqamətgahında verilən iftar mərasimində iştirak etmişdir.*

*Şeyxülislam Allahşükür Paşazadə iftar süfrəsinə dəvət edilən Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gələn din xadimlərini və türkdilli ölkələrdən olan qonaqları dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə onları təbrik etdi və ən xoş arzularını çatdırdı.*

*Sonra şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına yeni iqamətgah barədə məlumat verdi.*

*Qeyd olundu ki, iqamətgah bir il ərzində ən müasir standartlar səviyyəsində inşa edilmişdir. Tikinti işləri zamanı dünya, Şərq və Azərbaycan memarlığının, müxtəlif nəqqaşlıq məktəblərinin nadir nümunələrinə geniş yer verilmişdir.*

*Prezident İlham Əliyevə bildirildi ki, yeni iqamətgahda eyni vaxtda 300 nəfər üçün iftar süfrələri təşkil edilə bilər. İqamətgahda dindarların namaz qılmaları və digər dini ayinləri yerinə yetirmələri üçün də müvafiq şərait yaradılmışdır. Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimin nazil olduğu, cənnətin qapılarının açıldığı, 11 ayın sultanı Ramazan ayında istifadəyə verilən yeni iqamətgah Azərbaycan müsəlmanlarına dəyərli töhfədir.*

*İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başladı.*

*Mərasimdə şeyxülislam Allahşükür Paşazadə çıxış etdi:*

– Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri möhtərəm prezident İlham Əliyev həzrətləri!

Hörmətli qonaqlar, dini konfessiyaların rəhbərləri!

Əziz müftilər! Quranın Yer üzünə göndərildiyi müqəddəs Ramazan ayının bu günündə, Allahın mərhəmət ayında bir süfrə arxasında əyləşməyimizə görə Allah-Təalaya şükür edirəm. Dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

İslam dini insanlığa, bütün insanlara göndərilmişdir. Bu gün biz dilindən, dinindən asılı olmayaraq, bu süfrənin arxasına yığışmışıq. Bu, Azərbaycanda tolerantlığın, dostluğun, mərhəmətin, qardaşlığın təcəssümüdür. Bu mərasim bir ənənə şəklini almışdır. Bu ənənənin bünövrəsini dostum, qardaşım ulu öndər Heydər Əliyev həzrətləri qoymuşdur. Heydər Əliyev həzrətləri – Allah ona rəhmət eləsin, Allah-Təala onun ömür-gün yoldaşı Zərifə xanıma da rəhmət eləsin, inşallah – bizə yaxşı bir tövsiyə etmişdir. İnşallah, biz bu tövsiyəni xeyir əməllərimizlə yaşadırıq və yaşadacağıq. Mən çox sevinirəm ki, onun layiqli davamçısı İlham Əliyev həzrətləri bu gün ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirir. Möhtərəm Prezidentimiz bu gün bizimlə bir süfrə arxasındadır. Buna görə ona dərin təşəkkürümüzü bildiririk.

Azərbaycanda dövlət–din münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Əlbəttə, bu inkişafı görməyən və görmək istəməyən bəzi qüvvələr vardır. Bəzən müəyyən cərəyanlar və şəxslər dindən siyasi məqsədlər üçün istifadə edirlər. Mən bir misal çəkə bilərəm. Sovet hakimiyyətinin, kommunist rejiminin əvvəllərində Azərbaycanda 1500-dən yuxarı məscid var idi. Amma 1990-cı ildə isə bizim cəmi 17 məscidimiz, 1 ziyarətgahımız qalmışdı. Sovet hakimiyyətinin 70 ili ərzində məscidlərimiz söküldü, dağıdıldı, məhv edildi, kitablarımız yandırıldı, alimlərimiz Sibirə sürgün olundu. Amma azərbaycanlılar öz imanlarını qəlblərində yaşatdılar və bu günədək gətirib çıxara bildilər. Mən müqayisə üçün deyə bilərəm ki, 1990-cı ildən sonrakı dövrdə, xüsusən Peyğəmbər əleyhissəlamın məbəsi (peyğəmbərliyin verilməsi) günü Təzəpir

məscidində ulu öndər Heydər Əliyev həzrətlərinin dindarlara müraciətindən sonra dini bir yüksəliş və inkişaf, intibah dövrü başladı. Azərbaycanda müstəqilliyimizin 20 ili ərzində yeni məscidlər tikildi. Bu gün 2000-ə yaxın məscid və ziyarətgahımız vardır. Bu müqayisədə fərq göz qabağındadır. O insanlar ki bu fərqi görmək istəmirlər, bu başqa məsələdir. Amma bu gün bu faktdır. Məscidlərimiz tikilir, bərpa olunur. Bu həm ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə belə idi, həm də bu gün prezidentimiz İlham Əliyev həzrətlərinin maddi və mənəvi dəstəyi ilə davam etdirilir. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidləri bərpa olunaraq, din qardaşlarımızın ixtiyarına verilmişdir. İndi İmamzadə, Şamaxı məscidi və digər məscidlərimiz yenidən qurulur.

Sovetlər dövründə Azərbaycanı tanımırdılar. Bu gün Azərbaycanı bütün dünya tanıyır. Xatırlayırsınızsa, keçən əsrin 90-cı illərinin əvvəllərində biz xarici ölkələrin dini liderlərinə, dövlət rəhbərlərinə mənəvi dəyərlərimizi bərpa etmək üçün bizə kömək göstərmələri barədə müraciət edirdik. Amma bu gün xaricdən həm müsəlmanlar, həm də xristianlar tərəfindən Prezidentimizə, Heydər Əliyev Fonduna müraciət edirlər ki, onların mənəvi dəyərlərinin bərpasına kömək göstərsinlər. Misal üçün, bu yaxınlarda Serbiyada Prezident həzrətlərinin maddi-mənəvi köməyi ilə məscid və mədrəsə təmir edilib dindarların ixtiyarına verilmişdir. O cümlədən, oradakı kilsənin bərpasına yardım olunmasını Serbiya patriarxı prezident İlham Əliyev həzrətlərindən xahiş etmişdi. Kilsə dövlətimizin maddi yardımı ilə bərpa olundu. Açılış mərasimində mən də iştirak etmişəm. Serbiyalıların və patriarxın Azərbaycan haqqında və Prezidentimiz barədə söylədikləri xoş sözlərdən qürur duyurdum.

Azərbaycan bütün sahələrdə – həm mədəni, həm də mənəvi sahədə inkişaf edir. Dünya Dini Liderlərinin Sammitinin Bakıda keçirilməsi, müxtəlif dinlərin rəhbərlərinin Azərbaycanda bir araya gəlməsi ölkəmizi dinlərarası dialoq məkanına çevirmişdir. Bu çox önəmli məsələdir. Mehriban xanım Əliyevanın

təşəbbüsü ilə Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda keçirilməsi, yaxud da ki, tariximiz üçün çox qiymətli olan əlyazmaların Vatikandan ölkəmizə gətirilməsi Azərbaycanda dövlətin dinimizə, mənəviyyatımıza, mədəniyyətimizə olan münasibətinin göstəricisidir.

Azərbaycan artıq dünya siyasətinin formalaşmasında mühüm rol oynayır. Azərbaycanın 155 dövlətin səsini qazanaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü seçilməsi və orada dünya siyasətinə təsir göstərən sənədlərə dövlətimizin rəhbərinin imza atması ölkəmizin həm daxili, həm də xarici siyasətinin düzgünlüyündən xəbər verir. Əlbəttə, bu uğurları hamı görür və qiymətləndirir. Bunları görməyənlər, yaxud görmək istəməyənlər isə Allah adamı deyillər.

Bizim ən böyük dərdimiz Dağlıq Qarabağ problemidir. Torpaqlarımızın zəbt olunması, bir milyondan artıq vətəndaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, əlbəttə, bizi ciddi narahat edir. Dövlətimizin rəhbəri bu problemin həlli ilə ciddi məşğul olur. Mən bu Ramazan ayında Allaha dua edirəm ki, inşallah, tezliklə torpaqlarımız işğaldan azad olunsun, Allah-Təala şəhidlərimizə rəhmət eləsin. Allah-Təaladan ulu öndərimiz Heydər Əliyevə rəhmət diləyirəm.

Bu gün dostum, qardaşım Heydər Əliyev həzrətləri aramızda yoxdur. Amma onun nuru, onun dühası bizimlədir. Bu gün onun nuru müstəqilliyimizin yoluna işıq saçır və əlbəttə ki, heç bir şəxs, heç bir qüdrət bizi bu yoldan, inşallah, döndərə bilməyəcəkdir.

Sizin gördüyünüz bu gözəl və yaraşıqlı binanın layihəsini təsdiq edən Prezident həzrətləridir. Gördüyünüz bu saray Prezident həzrətlərinin köməyi ilə ərsəyə gəlmişdir. Mən istərdim ki, bütün Qafqaz müsəlmanları adından, öz adımdan, ailəm adından belə bir hədiyyəni bizə etdiyinə görə Prezident həzrətlərinə minnətdarlığımı bildirim.

*Şeyxülislam Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandrın 60 illik yubileyi və onun təltifləri ilə bağlı təbriklərini çatdıraraq dedi:*

– Burada bir nəfər də əyləşib – Rus Pravoslav Kilsəsinin nümayəndəsi Aleksandr. Bu yaxınlarda onun 60 yaşı tamam oldu. Prezident həzrətləri onu «Dostluq» ordeni ilə təltif etdi. Patriarx Kirill həzrətləri isə ona arxiyepiskop rütbəsi verdi. Biz də onu təbrik edirik.

Mən burada əyləşən müftilərə müraciət edirəm, xüsusən Qafqazdan gələn müftilərə. Onlar gəliblər ki, Prezident həzrətlərinin əlini sıxsınlar və Sizinlə birlikdə iftar etsinlər. Bu, böyük məsələdir. Bu, ağsaqqallıq, bir-birinə hörmət deməkdir. Mən bunu düşünürəm, buna qiymət verirəm və onlara çox böyük minnətdarlığımı bildirirəm ki, dəvətimi qəbul etdilər və gəldilər.

Mən bir daha Sizi gələcək bayramlar münasibətilə təbrik edirəm, «Xoş gəlmisiniz!» – deyirəm. Əminəm ki, biz gələcəkdə də, inşallah, belə iftar süfrələrində iştirak edəcəyik.

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*14 avqust 2012-ci il*

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Müqəddəs Ramazan ayında bizim görüşlərimiz artıq gözəl ənənəyə çevrilibdir. Bu ənənəni ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar. Bu ənənə davam etdirilir. Mən hər il böyük məmnuniyyətlə şeyx həzrətlərinin iftar süfrəsində iştirak edirəm.

Bugünkü görüşümüzdə Şimali Qafqaz müftilərinin iştirakı xüsusi əhəmiyyət daşıyır. Mən qardaşlarımızı səmimiyyətlə salamlayıram. Onlar Azərbaycana tez-tez gəlirlər. Hər dəfə gələndə çalışırıq ki, görüşək, bir yerdə olaq. Onlar bizim tədbirlərimizdə iştirak etmişlər. Təzəpir məscidinin, Əjdərbəy məscidinin yenidənqurmadan sonra açılışlarında iştirak etmişlər. Gələcəkdə İmamzadə dini-tarixi kompleksinin bərpasından və Azərbaycanın ən qədim məscidi olan Şamaxı məscidinin əsaslı təmirdən sonra açılışında da biz onları görməyə şad olacağıq.

Qafqaz vahid orqanizmdir. Azərbaycan xalqı əsrlər boyu Şimali Qafqaz xalqları ilə bir yerdə olmuşdur. Bu gün bu birlik davam etdirilir. Şimali Qafqaz respublikalarının rəhbərləri dəfələrlə Azərbaycanda olmuşlar. Biz hamımız istəyirik ki, Qafqazda daim sülh, sabitlik, əmin-amanlıq və qarşılıqlı anlaşma olsun. Bu məqsədlərə çatmaq üçün din xadimlərinin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.

Şimali Qafqaz müftiləri öz respublikalarında çox böyük hörmətə malik olan insanlardır. Onların bizim hörmətli şeyx

həzrətləri ilə əlaqələri, dostluq telləri xalqlarımızı daha da sıx birləşdirir.

Bu gün məclisimizdə türkdilli dövlətlərin iqtisadiyyat nazirləri də əyləşiblər. Türkiyə, Qazaxıstan, Qırğızıstanın iqtisadiyyat nazirləri də bizim qonaqlarımızdır. Bu tərkibdəki görüş rəmzi xarakter daşıyır. Çünki Azərbaycan Qafqaz ölkəsidir, eyni zamanda, türkdilli dövlətdir. Azərbaycan o ölkədir ki, burada millətlər, xalqlar, dinlər görüşür, birləşir və bir ailə kimi yaşayırlar. Bugünkü reallıqlar ondan ibarətdir ki, Azərbaycan həm Xəzər hövzəsində, həm türk dünyasında, həm Qafqazda özünəməxsus yerə malikdir. Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan ölkədir. Bunun əyani sübutu keçən ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına keçirilən seçkilərdir. Dünyanın 155 ölkəsi Azərbaycanın namizədliyini dəstəkləmişdir, bizə inamını göstərmişdir. Biz bu inamı doğrulduruq. Təhlükəsizlik Şurasındakı fəaliyyətimiz çox ciddidir, səmimidir. Biz bu mötəbər təşkilatda beynəlxalq hüququ və ədaləti müdafiə edirik.

Bu gün şeyx həzrətləri dövlət–din münasibətlərinə toxundu. Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev dayanmışdı, şeyx həzrətləri dayanmışdır. Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. Eyni zamanda, dövlət siyasətinin müəllifidir. Bu gün Heydər Əliyev siyasəti bütün istiqamətlərdə davam etdirilir – xarici siyasətdə, daxili siyasətdə, dövlət–din münasibətlərinin tənzimlənməsində, sosial məsələlərin həllində. Sadəcə olaraq, həyat davam edir, Azərbaycan inkişaf edir. Qarşımıza yeni çağırışlar çıxır, yeni məsələlər həll olunur.

Azərbaycan çox dinamik inkişaf edir. Ancaq inkişafımızın əsas istiqamətləri ulu öndər tərəfindən qoyulmuşdur. Hesab edirəm ki, bu gün Azərbaycanda dövlət–din münasibətləri nümunəvi xarakter daşıyır. Bu münasibətlər nə qədər güclü olarsa, cəmiyyətdə də bir o qədər sülh, əmin-amanlıq və inkişaf olacaqdır. Bu münasibətlərin inkişafında şeyx həzrətlərinin çox böyük rolu vardır. Şeyx həzrətləri həm Azərbaycanda, həm xaricdə – Qafqazda böyük nüfuza malik şəxsiyyətdir. Mən bu barədə keçən görüşümüzdə də qeyd etdim. Müxtəlif dövrlərdə müxtəlif ölkələrin dövlət və

hökumət başçıları ilə görüşlərimdə şeyx həzrətlərinin fəaliyyətinə çox böyük diqqət və qiymət verilmişdir. Bu, əlbəttə ki, bizi sevindirir. Bu gün Qafqazda müsbətə doğru gedən proseslərdə şeyx həzrətlərinin böyük rolu vardır.

O, Qafqaz respublikalarına mütəmadi qaydada səfərlər edir və bu səfərlər bizim üçün, Qafqaz respublikaları üçün, bütövlükdə Rusiya–Azərbaycan münasibətləri üçün böyük məna daşıyır.

Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir, milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Sadəcə olaraq, müstəqillik əldə etdikdən sonra bu bayram rəsmi bayram kimi qeyd edilir.

Milli-mənəvi dəyərlərə söykənən, inkişafda olan gənc, müstəqil Azərbaycan həm iqtisadi, həm siyasi, həm də xarici siyasət sahələrində böyük uğurlara nail olmuşdur. Ancaq gələcəyimiz, gələcək inkişaf üçün milli dəyərlər daim diqqət mərkəzində olmalıdır, qorunmalıdır. Gənc nəsil milli dəyərlər əsasında tərbiyə edilməlidir, xüsusilə indiki zamanədə. Qloballaşan dünyada bəzi hallarda sərhədlər silinir. Bəzi hallarda ölkələr arasında sərhədlər, mənəvi sahədə sərhədlər pozulur, sərhədləri keçirlər. Buna yol vermək olmaz. Bizi xalq kimi qoruyub saxlayan milli-mənəvi dəyərlərimizdir, islami dəyərlərimizdir, dilimizdir, ədəbiyyatımızdır. Əgər biz bundan sonra da ölkəmizin uğurlu inkişafını istəyiriksə, bu məsələlərə mütləq diqqət göstərilməlidir. İqtisadi islahatlar daha da sürətlə gedə bilər, ləng də gedə bilər. Bu o qədər də böyük problem yaratmaz. Ancaq əgər milli dəyərlərimizdə hər hansı bir boşluq yaranarsa, yaxud da ki, milli-mənəvi əsaslarımız zərər görərsə, onda, əlbəttə, ölkə böyük çətinliklərlə üzləşər.

Biz müstəqil ölkəyik. Müstəqilliyimizin artıq 20 illik yubileyini qeyd etmişik. Müstəqil ölkə kimi, müstəqil siyasət aparırıq. Siyasətimiz xoşniyyətli, xoşməramlı siyasətdir. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Bütün ölkələrlə yaxşı münasibətlər qurmaq istiqamətində uğurlar əldə etmişik. Daxili siyasətdə islahatlar Azərbaycanı böyük

dərəcədə irəliyə aparmışdır. İqtisadi inkişaf baxımından Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Dünyada iqtisadi və maliyyə böhranının ikinci dalğasının hökm sürdüyü bir vaxtda Azərbaycanda inkişaf davam edir. Bu ilin 7 ayının yekunları artıq bəllidir. İqtisadiyyatımız artır, qeyri-neft iqtisadiyyatımız isə 10 faizdən çox artmışdır.

Müstəqil siyasət aparmaq üçün, əlbəttə ki, güclü iqtisadi dayaqlar və güclü ideoloji əsaslar olmalıdır. Azərbaycanda bu amillər vardır. Bizim ideoloji əsaslarımızı azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq məfkurəsi təşkil edir. Bizim iqtisadi islahatların təməlində bazar iqtisadiyyatı prinsipləri dayanır. Sosial siyasətin təməlində isə insan amili dayanır. Vaxtilə «nefti insan kapitalına çevirmək lazımdır» siyasəti bəyan edilmişdi. Bu siyasət artıq öz bəhrəsini verməkdədir.

Azərbaycanda çox keyfiyyətli və dəyərli gənc nəsil yetişir. Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə alır. Azərbaycan dünya miqyasında idman sahəsində də qabaqcıl yerlərdədir. İdmanın inkişafı ölkənin ümumi inkişafına təsir göstərir və bunu müəyyənləşdirir. Təsadüfi deyildir ki, Olimpiya oyunlarında ölkələr bir növ bir-biri ilə yarışa girirlər. Kim nə qədər çox medal qazanırsa, o ölkənin imici bir o qədər də çox artır.

Olimpiyaçılarımız bir daha göstərdilər ki, gənc, müstəqil Azərbaycan güclü dövlətdir, o cümlədən idman sahəsində də güclüdür. Ən sevindirici hal ondan ibarətdir ki, medallar – qızıl, gümüş və bürünc medallar qazanan idmançılar müstəqillik dövründə yetişmiş gənc insanlardır. Azərbaycan idmanına son illər ərzində göstərilən diqqətin hesabına onlar artıq peşəkar idmançılardır. Onlar Azərbaycanın milli bayrağını 10 dəfə qaldırdılar və Dövlət himnimizi 2 dəfə səsləndirdilər.

Hər bir sahədə olduğu kimi, idmanda da inkişaf özünü göstərmişdir. O ki qaldı mənəviyyatla bağlı olan məsələlərə, qeyd etməliyəm ki, Azərbaycanda bu məsələlərə xüsusi diqqət göstərilir. Bütün dini abidələr təmir edilir, bərpa olunur. Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, İmamzadə, Şamaxı

məscidi və digər məscidlər bərpa olunur, təmir edilir. Digər dinlərə mənsub olan məbədlər də təmir edilir.

Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu bizim böyük sərvətimizdir. Hörmətli arxiyepiskop Aleksandr da ulu öndərin bu kəlamlarını yada saldı. Bu həqiqətən də belədir. Bu sahədə də dövlət siyasətimiz dəyişməz olaraq qalır. Hesab edirəm ki, son illər ərzində Azərbaycanın bu sahədəki uğurları dünya ictimaiyyətinə daha da dolğun şəkildə çatdırılır. Çünki ölkəmizdə keçirilən müxtəlif forumlar, dini konfranslar, dünya dini liderlərinin zirvə görüşləri bir daha göstərir ki, Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi rahat yaşayırlar. Bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır. Bu sahədə Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır. Hesab edirəm ki, buna böyük ehtiyac vardır. Çünki heç də hər yerdə vəziyyət bizdəki kimi deyildir. Əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində dini zəmində münaqişələr, toqquşmalar, qarşıdurmalar hələ də davam edir. Bəzi hallarda bu qarşıdurmalar daha da şiddətli xarakter daşıyır və bu bizi çox narahat edir. Çünki dini zəmində münaqişələr ən təhlükəli münaqişələrdir. Bunların fəsadları çox ağır və acı ola bilər.

Biz hamımız çalışmalıyıq, dünya ictimaiyyəti, mütərəqqi bəşəriyyət çalışmalıdır ki, dini zəmində münaqişələrin sayı azalsın. Buna nail olmaq üçün biz çox diqqətli və məsuliyyətli olmalıyıq. Hamımız – dövlət, hökumət başçıları, media nümayəndələri, din xadimləri, ictimai xadimlər diqqətli, məsuliyyətli olmalıyıq. Çünki bəzi hallarda deyilən yanlış, təhqiramiz bir ifadə böyük fəsadlara gətirib çıxarır. Bəzi hallarda sivilizasiyalararası dialoq haqqında çox sözlər deyilir, amma əslində bu dialoqu pozmaq üçün addımlar atılır. Buna yol verməк və göz yummaq olmaz. Bu hadisələr – haradasa müqəddəs Qurani-Şərifin yandırılması, məscidə od vurulması, məscidin güllələbaran edilməsi beynəlxalq ictimaiyyətin qınağına çevrilməlidir. Biz bu hallara biganə qala bilmərik. Nəinki müsəlmanlar, bütün dinlərin nümayəndələri,

dünya liderləri öz səslərini ucaltmalıdırlar. Hesab edirəm ki, bu məsələlərlə bağlı ciddi düşünməyə böyük ehtiyac vardır.

Bizi narahat edən məsələlərdən biri də islamofobiyanın genişlənməsidir. Buna yol verməк olmaz. Çünki bu yanaşmanın axırı yoxdur. Bu, böyük bir qarşıdurmaya gətirib çıxara bilər. İslama qarşı əsassız ittihamlar, islamofobiya meyillərinin güclənməsi, bəzi xarici mətbu orqanlarda islamın terrorla bərabərləşdirilməsi halları bizi çox hiddətləndirir. İslam sülh, qardaşlıq, mərhəmət dinidir. Bəzi hallarda terrorçuya islamçı deməklə bütün dinimiz, bütün müsəlman aləmi təhqir olunur. İslamçı terrorist deyildir. İslamçı islam dininə mənsub olan insandır. Bir də ki, terrorun nə milləti, nə də dini vardır. Bu barədə çox danışılır, amma biz gərək artıq praktiki addımlara keçək.

Müstəqilliyimizin ilk illərində və ondan sonrakı dövrdə erməni terrorçuları bizə qarşı 30-dan yuxarı terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Biz bu terror aktlarını hər hansı bir dinlə bağlamırıq. Ona görə də burada məsuliyyət məsələləri ön planda olmalıdır. Xüsusilə siyasətçilərin məsuliyyəti. Bəzi hallarda biganəlik məsələnin müsbət istiqamətdə deyil, mənfi istiqamətdə getməsinə gətirib çıxarır.

Biz Azərbaycanda bütün bu məsələləri təhlil edərkən bir daha görürük ki, doğrudan da ölkəmizdə nadir bir təcrübə formalaşmışdır. Bu təcrübənin, əlbəttə ki, güclü əsasları vardır. Çünki əsrlər boyu müxtəlif dövrlərdə, müxtəlif ictimai-siyasi quruluşlar çərçivəsində Azərbaycanda bütün xalqlar dözümlülük, tolerantlıq nümayiş etdirmişlər, multikulturalizm şəraitində yaşamışlar. Baxmayaraq ki, o vaxt multikulturalizm anlayışı yox idi. Ancaq bizim həyat tərzimiz məhz multikulturalizmdir. Bu güclü zəmin üzərində ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində müstəqillik dövründə biz bu meyilləri daha da gücləndirdik. Azərbaycan bu siyasəti seçdi. Biz özünütəcridetmə siyasətini deyil, dünyaya açıq olmaq, dünya ilə bir yerdə olmaq və ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq etmək siyasətini aparmışıq. Bu gün isə biz öz həyatımızla, öz dünyagörüşümüzlə və

öz praktiki addımlarımızla təcrübəmizi dünya birliyinə təqdim edirik.

Hesab edirəm ki, müqəddəs Ramazan ayında biz bu məsələlərlə bağlı gərək açıq danışaq, fikirlərimizi açıq bildirək. Bir daha demək istəyirəm ki, Azərbaycanda ölkə daxilində bu məsələlərlə bağlı heç bir narahatlıq yoxdur. Məndə Prezident kimi, heç bir narahatlıq yoxdur, çünki bütün məsələlər lazımi səviyyədə tənzimlənir. Əminəm ki, bundan sonra – əbədiyyətə qədər Azərbaycanda millətlərarası münasibətlər nümunəvi olacaqdır. Ancaq biz vakuumda yaşamırıq. Biz istəyirik ki, hər yerdə belə olsun. Biz istəyirik ki, heç bir yerdə dini zəmində heç bir qarşıdurma olmasın. Bəzi hallarda biz islam aləminin içində bu qarşıdurmanın şahidi oluruq. Bu, ümumiyyətlə, dözülməzdir.

Beləliklə, deyə bilərəm ki, biz bu məsələlərin müsbət istiqamətdə həlli üçün səylərimizi davam etdirəcəyik. Öz işimizlə, əməllərimizlə beynəlxalq işbirliyini, beynəlxalq həmrəyliyi gücləndirəcəyik, dinlərarası münasibətlərin inkişafına töhfəmizi verəcəyik.

Dünən mən müsəlman ölkələrinin səfirləri ilə görüşdüm. O görüş də ənənəvi xarakter daşıyır. Bu gün də onlar buradadırlar. Bir daha demək istəyirəm ki, Azərbaycan islam aləminin bir parçasıdır. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, güclənir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini zəmində gedən proseslərə çox yüksək qiymət verir. Bu bizi daha da ruhlandırır.

Bu fürsətdən istifadə edərək qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə Azərbaycan xalqını və bütün dünya müsəlmanlarını təbrik edirəm.

**A l e k s a n d r** *(Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri):* Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Hörmətli müftilər!

İcazə verin, bizi belə bir möhtəşəm tədbirdə bir araya gətirən bu bayram münasibətilə Sizi təbrik edim. Bu gün mən şəxsən öz dərin

minnətdarlığımı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bildirmək istəyirəm. Hesab edirəm ki, müdrik dövlət xadimi kimi, Prezident iqtisadi, siyasi və digər sahələrdəki bütün mühüm işləri, o cümlədən ölkəmizin dini həyatını da diqqət mərkəzində saxlayır. Cənab Prezident xeyirxahlıq göstərib dinlərarası əlaqələrin və millətlərarası münasibətlərin gücləndirilməsinə verdiyim kiçik töhfəyə görə məni «Dostluq» ordeni ilə təltif etmişdir. Cənab Prezident, icazə verin, bizim fəaliyyətimizə yüksək və xüsusi diqqət göstərdiyinizə görə Sizə dərin təşəkkürümü bildirim.

Budur, indi ölkəmizdə gözəl tədbirlər keçirilir. Dünyanın böyük şəxsiyyətləri ölkəmizə səfərlər edirlər. Rəhmətlik Heydər Əliyevin dəvəti ilə Moskva və Bütün Rusiyanın Patriarxı II Aleksi, Roma Papası II İohann Pavel ölkəmizə səfər etmişlər. Cənab Prezident İlham Əliyevin dəvəti ilə Patriarx Kirill, Gürcüstanın Patriarxı II İlya və bir çox müsəlman, xristian, buddist dini xadimlər ölkəmizdə olmuş və müxtəlif tədbirlərdə iştirak etmişlər.

Mən fəaliyyətimlə əlaqədar bir çox ölkələrə səfərlər edirəm. Əlbəttə, mənim rəsmi titulumu – Bakının və Azərbaycanın yepiskopu olmağımı bildirəndə mənə çox adam – həm azərbaycanlılar, həm də ölkəmizdə olmuş digər xalqların nümayəndələri müraciət edirlər. Onlar soruşurlar ki, bizim Bakı necədir? Ölkəmiz necə inkişaf edir? Nələr baş verib? Həmişə də yalnız müsbət rəylər eşidirsən. İnsanlar öz həmyerliləri ilə görüşəndə sevinirlər.

Mən Heydər Əliyevin «çoxmillətlilik bizim sərvətimizdir» sözlərini təkrar etməkdən heç zaman yorulmuram. Dünyanın heç də hər ölkəsində daxili vəziyyət və çoxmillətlilik belə yüksək dəyərləndirilmir. Bu bizim ölkənin özünəməxsusluğudur, bu bizim həyat tərzimizdir. Bu həyat tərzini bizə böyük Heydər Əliyev bəxş etmişdir.

Möhtərəm cənab Prezident, belə bir təntənəli tədbirdə Allahdan Sizə möhkəm cansağlığı, bütün işlərinizdə uğurlar diləyirəm. Mən dostum, çox hörmətli şeyx həzrətlərinə uğurlar

arzu edirəm və onu belə bir gözəl iqamətgah münasibətilə təbrik edirəm. İstərdik ki, burada tez-tez xoş münasibətlə yığışaq, belə gözəl insanların əhatəsində olaq. Çalışaq ki, Azərbaycanın beynəlxalq səviyyədə imici bu qarşılıqlı münasibətlər, bu görüşlər sayəsində daha yüksəklərə ucalsın.

Sizə təşəkkür edirəm. Azərbaycan xalqına rifah diləyirəm.

**İ s m a y ı l B e r d i y e v** *(Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi):* Hörmətli cənab Prezident!

Möhtərəm şeyxülislam, hörmətli həmkarlar!

Hörmətli xanımlar və cənablar!

Bu əlamətdar gündə sizi Şimali Qafqaz müsəlmanları adından salamlamaq istəyirəm. Bu gün Şimali Qafqaz respublikalarının bütün müftiləri buradadır. Siz Ramazan ayının özəlliklərini çox yaxşı bilirsiniz. Lakin şeyx bizi dəvət edəndə biz hamımız sevinclə buraya gəldik və bu gün sizinlə birlikdə buradayıq. Bu çox gözəl ev, gözəl saraydır. Hörmətli Prezident və şeyxülislam, Sizə Allahdan xoşbəxtlik və uzun ömür arzulayıram.

Bakıya, Azərbaycana gələndə böyük dəyişikliklər görürsən. Siz burada yaşadığınıza görə bəlkə də bütün bu dəyişiklikləri hiss etmirsiniz. Biz isə buraya sovet dövründə və sonrakı dövrdə də gəlmişik – o dövrü mən anarxiya dövrü adlandırıram. O dövrdə Rusiyada da, elə sizdə də anarxiya idi. Biz gəlib burada nələr baş verdiyini görürdük. İndiki vəziyyəti əvvəlki ilə müqayisə etmək olmaz. Bunlar tamamilə müxtəlif məsələlərdir. Bütün bunlar Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Şeyxülislamın daim Heydər Əliyevi xatırlaması hədər deyildir. O, olduqca ağıllı, son dərəcə müdrik adam idi. Bütün bu keyfiyyətlər onun oğluna da keçmişdir və o nə iş görürsə, xalqı üçün görür.

Hörmətli Prezident, bu iqamətgaha görə çox sağ olun. Allah qismət etsin, biz burada həmişə yalnız xeyir işlərdə görüşək və bir-birimizin çöhrəsində həmişə təbəssüm və sevinc görək.

**S u l t a n M i r z ə y e v** *(Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi):* Hörmətli İlham Heydər oğlu!

Hörmətli şeyxülislam!

Hörmətli həmkarlar və qonaqlar!

Mən Sizi islami qaydada salamlamaq istəyirəm:

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu. Mən Çeçenistan Respublikasının rəhbəri, çeçen müsəlmanları adından həm Azərbaycan Prezidentini, həm bizim qardaşımız, dostumuz şeyxülislamı bu möhtəşəm, gözəl binanın, bu iqamətgahın açılışı münasibətilə təbrik etmək istəyirəm. Qoy bu iqamətgah bizi həmişə xoş hadisələr münasibətilə bir araya toplasın.

Mən Azərbaycana gələndə özümü qonaq kimi hiss etmirəm. Mən özümü doğma evimdəki kimi hiss edirəm. Çünki burada, Azərbaycanda qardaşlarımız bizi səmimiyyətlə qəbul edirlər. Biz də, həmkarlarım da təsdiq edə bilərik ki, burada özümüzü evimizdəki kimi hiss edirik.

# RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Federasiyası Hökuməti sədrinin müavini Dmitri Roqozin prezident Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sənaye sahəsində uğurla inkişaf etdiyi vurğulandı, bu sahədə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Rusiya Federasiyası Hökuməti sədrinin müavini Dmitri Roqozinin Azərbaycana səfərinin əməkdaşlığımızın daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLÜMJİNOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovu qəbul etmişdir.*

*Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov 1993-cü ildə Azərbaycana ilk səfərini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlatdı. O, ötən dövr ərzində respublikamızda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi. Beynəlxalq Şahmat Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayan Kirsan İlümjinov rəhbərlik etdiyi təşkilata daxil olan 177 ölkədən ilk dəfə olaraq Azərbaycanda şahmat idman növünün inkişaf etdirilməsi ilə bağlı xüsusi Dövlət Proqramının qəbul olunmasının və bu proqramın uğurla həyata keçirilməsinin önəmini qeyd etdi. Kirsan İlümjinov Dünya Şahmat Olimpiadasının 2016-cı ildə Bakıda keçirilməsi ilə bağlı Beynəlxalq Şahmat Federasiyasının təkliflərini diqqətə çatdırdı.*

*Azərbaycanlı şahmatçıların müxtəlif beynəlxalq yarışlarda əldə etdikləri nəticələrin razılıq doğurduğunu vurğulayan prezident İlham Əliyev ölkəmizdə idmanın bütün növlərinin, o cümlədən şahmatın inkişaf etdirilməsi ilə bağlı məqsədyönlü tədbirlərin ardıcıl olaraq həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı Dünya Şahmat Olimpiadasının 2016-cı ildə Bakıda keçirilməsi ilə bağlı təklifləri yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etdi.*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vyetnam arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, mövcud əlaqələrimizin daha da genişləndirilməsi yolunda səylərimiz daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2012-ci il*

# TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNUN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*16 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Tofiq Bəhramov adına Respublika stadionunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan prezidentinə məlumat verdi ki, stadionun 85 min 700 kvadratmetr ərazisində əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmişdir. Yenidənqurma işləri stadionun divarlarında da aparılmış, zədələnmiş hissələr bərpa olunmuşdur. Mövcud 29 min 870 oturacağı olan tribunanın bir hissəsi sökülmüş və yerində yeni tribuna inşa edilmişdir. Nəticədə oturacaqların sayı 31 min 200-ə çatdırılmışdır. Stadionun ön giriş hissəsində bilet satışı binası inşa edilmişdir. Burada eyni vaxtda 50 nəfərin keçə biləcəyi turniket keçid sistemi quraşdırılmışdır. Stadionun ön fasadında uzunluğu 30 metr olan elektron monitor quraşdırılmış, giriş hissədəki bağda da yenidənqurma işləri aparılmışdır.*

*Bildirildi ki, stadionun ot örtüklü futbol meydançası FİFA standartlarına tam uyğun şəkildə yenidən qurulmuşdur. Meydançanın ot örtüyünün alt hissəsində torpaqbərkitmə işləri yerinə yetirilmiş, drenaj və xüsusi isitmə sistemləri quraşdırılmışdır.*

*Diqqətə çatdırıldı ki, meydançanın ətrafındakı qaçış zolağı da yenidən qurulmuş, xüsusi örtüklə üzlənmişdir. Stadionun işıqlandırılması üçün köhnə projektor dirəkləri sökülmüş, yeni müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev yeni inşa edilmiş tribunada görülən işlərlə tanış oldu. Bildirildi ki, tribunanın alt hissəsində 4 ko-*

*mandanın istifadəsi üçün* soyunub-*geyinmə otaqları,* konfrans *zalı, məşqçilər, hakimlər üçün* otaqlar, *həkim otağı,* dopinq-*nəzarət otağı və digər köməkçi* otaqlar *yaradılmışdır. Üst* his-*səsində böyük* monitorun *quraşdırıldığı* tribunada *mətbuat nü-mayəndələri üçün lazımi avadanlıqla təchiz edilmiş 500 nəfərlik xüsusi* oturacaqlar *qurulmuşdur. Qeyd edildi ki,* stadionda *tribunaların üstünün bağlanması üçün xüsusi fəza* konstruksiyası *quraşdırılmış və 30* min kvadratmetr *ölçüdə yanğına və digər təsirlərə davamlı xüsusi* membran *örtüklə* tam *örtülmüşdür.* Burada, *həmçinin* qonaqlara *yüksək səviyyədə xidmət göstərmək üçün 205 nəfərlik* restoran *yaradılmışdır.* Tribunada *hər* biri *10 nəfərlik 16 «baxış otağı»* da *inşa edilmişdir.*

*Prezident İlham Əliyev* stadionda *görülmüş işlərdən razılığını* bildirdi, *müvafiq tapşırıq və tövsiyələrini* verdi.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan həmişə islam dünyasının tarixi-mədəni mərkəzlərindən biri olmuş, xalqımız əsrlər boyu öz dininə və milli-mənəvi dəyərlərinə sadiqliyini qoruyub saxlamışdır. Müstəqil respublikamızda vətəndaşların vicdan və dini etiqad azadlığı ölkə qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq təmin edilmiş, dini ayin və mərasimlərin sərbəst şəkildə icra edilməsi, bayramların keçirilməsi üçün münbit şərait yaradılmışdır.

Ramazan bayramını bütün müsəlman aləmi kimi, bizim xalqımız da hər il böyük məmnunluq hissi ilə qeyd edir. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin nümayişidir. Cəmiyyətdə vəhdət və humanizm duyğularını, Allah və Vətən sevgisini daha da gücləndirən Ramazan ayı artıq başa çatmaqdadır. Xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin ölməz ruhuna dualar oxunur.

Əziz bacı və qardaşlarım!

Dua və diləklərinizin Tanrı dərgahında qəbul olunması arzusu ilə bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 avqust 2012-ci il*

## EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİRMA VOLDE-GİORGİSƏ

Hörmətli cənab Prezident!

Efiopiyanın Baş naziri, görkəmli dövlət xadimi Meles Zenavinin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Efiopiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2012-ci il*

# BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*28 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Belarus Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Minsk Milli Aeroportunda Azərbaycan prezidentinin rəsmi qarşılanma mərasimi oldu.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı aeroportda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək və gül dəstəsi təqdim etdilər.*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Minsk*

*28 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 28-də Minskdəki «Zaslavl» iqamətgahında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü oldu.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar sahələrdə inkişafından məmnunluq ifadə olundu.*

*Azərbaycan prezidenti İlham Əliyevin Belarusa rəsmi səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi. Əməkdaşlığın bundan sonra da genişlənməsinə əminlik bildirildi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Minsk*

*28 avqust 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun avqustun 28-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycan prezidenti İlham Əliyevi ölkəsində bir daha salamlayaraq, ötən görüşlərdən keçən müddətdə ikitərəfli münasibətlərin daha da genişlənərək, strateji əməkdaşlıq xarakteri aldığını bildirdi və bu məsələdə dövlətimizin başçısının xidmətlərini yüksək dəyərləndirdi.*

**Aleksandr Lukaşenko:** Biz layihələr, müqavilələr, əməkdaşlığın konkret istiqamətləri barədə razılığa gəlmişik. Biz buna dəqiq əməl edir və ən yüksək səviyyədə nəzarət edirik. Biz münasibətlərimizin, həm Minskdə, həm də Bakıda keçirdiyimiz yüksək səviyyədə görüşlərimizin dinamikasına ciddi riayət edirik. Biz İlham Heydər oğlu ilə razılığa gəlmişik ki, bundan sonra da müvafiq qaydada hərəkət edək və biz, cənab Prezident, Sizin gözəl ölkənizə səfər etmək dəvətinizi məmnuniyyətlə qəbul edirik. Biz gələn il nümayəndə heyətimizlə ölkənizə səfər edəcəyik.

*Bu gün əməkdaşlığın, demək olar ki, bütün sahələrdə inkişaf etdiyini deyən Belarus prezidenti bunu ölkələrimiz arasında siyasi dialoq çərçivəsində fikir ayrılığının olmadığı ilə əsaslandırdı. Aleksandr Lukaşenko beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv əməkdaşlığı hər iki ölkənin siyasətinin ilk növbədə iqtisadiyyatın inkişafına və xalqın rifahının yaxşılaşdırılmasına istiqamətləndiyini vurğuladı.*

**İlham Əliyev:** Yüksək qonaqpərvərliyə və Belarusa səfərə dəvətə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə xidmət

edəcək. Bir daha demək istəyirəm ki, münasibətlərimiz çox yüksək səviyyəli dinamikliyi, konkretliyi, aydınlığı ilə fərqlənir. Ən başlıcası odur ki, qəbul edilən qərarların həyata keçirilməsi mexanizmi yüksək keyfiyyətə çatdırılıb. Razılaşdırdığımız bütün məsələlərin nəticəsini konkret işlərdə görürük. Yeni və mövcud istehsal sahələri inkişaf etdirilir, yeni təşəbbüslər, ideyalar irəli sürülür və qarşılıqlı əməkdaşlıq sahələri tədricən genişlənir. Nümayəndə heyətimizin tərkibinə baxdıqda belə qənaətə gəlmək olar ki, əməkdaşlığımız çoxşaxəlidir. Bu gün Azərbaycan hökuməti üzvlərinin üçdəbiri Belarusdadır. Bu bizim ölkənizə olan marağın və həyata keçirmək istədiyimiz layihələrin göstəricisidir. Biz beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq edirik. Fürsətdən istifadə edərək, BMT Təhlükəsizlik Şurasında namizədliyimiz səsverməyə çıxarılarkən bizi dəstəklədiyinizə görə şəxsən Sizə və ölkənizə minnətdarlığımı bildirmək istəyirəm. Bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının fəal üzvüdür və bu təşkilatda ədalət və beynəlxalq hüquq idealları uğrunda çıxış edir.

*Əməkdaşlığın əsas istiqamətinin ikitərəfli formatda olduğunu deyən Azərbaycan prezidenti siyasi, iqtisadi, energetika sahələrində əlaqələrin yüksək səviyyəsini vurğuladı. Belarus şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunan prezident İlham Əliyev qeyd etdi ki, birgə istehsal edilən məhsulların digər ölkələrin bazarlarına çıxış perspektivləri vardır. Prezident İlham Əliyev onu da bildirdi ki, ölkələrimiz arasında mal dövriyyəsi təkcə enerji deyil, digər sahələrdə də genişləndirilməlidir. Belarus ilə əməkdaşlığın Azərbaycan üçün maraq kəsb etdiyini deyən prezident İlham Əliyev bu səfərin əlaqələrin inkişafına yeni impuls verəcəyinə əminliyini bildirdi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Minsk*

*28 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra avqustun 28-də Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi oldu.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında lizinq fəaliyyətinin genişləndirilməsi, əlverişli hüquqi-iqtisadi şəraitin yaradılması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun İqtisadiyyat naziri Nikolay Snopkov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında odlu silahların, döyüş sursatlarının, partlayıcı maddələrin və partlayıcı qurğuların qanunsuz hazırlanması və dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Belarusun Daxili İşlər naziri İqor Şuneviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə əməkdaşlığa dair Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Belarusun Daxili İşlər naziri İqor Şuneviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında mədəni sərvətlərin talanması ilə mübarizə və onların geri qaytarılmasının təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Belarusun Daxili İşlər naziri İqor Şuneviç imzaladılar.*

*«Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Belarus Respublikası Ədliyyə Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədov və Belarusun Ədliyyə naziri Oleq Slijevski imzaladılar.*

*«Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Belarus Respublikası Səhiyyə Nazirliyi arasında dərman vasitələrinin keyfiyyətinə nəzarət və qeydiyyatdan keçirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev və Belarusun Səhiyyə naziri Vasili Jarko imzaladılar.*

*«Naxçıvan Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Brest Şəhər İcra Komitəsi (Belarus Respublikası) arasında iqtisadi-ticarət və humanitar-mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş»i Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov və Brest Şəhər İcra Komitəsinin sədri Aleksandr Palışenkov imzaladılar.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Minsk*

*28 avqust 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Belarus prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

Hörmətli dostlar!

Bu gün biz Azərbaycan prezidenti İlham Heydər oğlu ilə həm məhdud, həm də geniş tərkibdə çox səmərəli danışıqlar apardıq. Biz dəfələrlə demişik ki, görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu görüşlərdə biz ilk növbədə, səfərlərimiz zamanı – bizim nümayəndə heyətinin Bakıya, Azərbaycan nümayəndə heyətinin Minskə səfərləri zamanı qəbul etdiyimiz qərarların icrasına nəzarət edirik. Bu gün görə bildiyimiz işlər dostumuz İlham Heydər oğlunun çox böyük xidmətidir. Özü də bunlar bəlağətli sözlər deyil, bütün Belarus xalqı bilir ki, bizim vəziyyətimiz çox çətin olanda bir sıra dövlətlərə müraciət etmişdik. Üzləşdiyimiz mürəkkəb və çətin məsələləri həll etmək üçün bizim xahişimizə birinci olaraq Prezidentin şəxsində Azərbaycan cavab verdi. Hörmətli İlham Heydər oğlu, biz bunu yaxşı xatırlayırıq və heç vaxt unutmayacağıq.

Vaxtilə mən Sizə demişdim ki, Belarus xalqı qədirbilən xalqdır, borclu qalmaz. Buna görə də Siz bizə ümid bəsləyə bilərsiniz. Əgər Sizə Avropanın mərkəzində öz maraqlarınızı irəlilətmək üçün Belarusdan istifadə etmək və ya beynəlxalq

arenada bizimlə haradasa birlikdə çıxış etmək lazım gələrsə, yaxud bu gün etdiyimiz kimi, müştərək iqtisadi istehsalatlar, ticari-iqtisadi münasibətlər yaradılmasında Belarus həmişə Azərbaycanın yanında olacaq, Siz həmişə Belarusa arxalana bilərsiniz.

Bu sözləri ona görə deyirəm ki, mən Azərbaycan prezidentinin «Xalqlar dostluğu» ordeni ilə təltif olunması haqqında qərar qəbul etmişəm. Biz bu ordeni Belarus dövlətinin inkişafına, bizim qarşılıqlı əlaqələrin genişlənməsinə sanballı töhfə vermiş az sayda siyasətçilərə təqdim edirik. Bu tarixi təltif, İlham Heydər oğlu, Sizə və bütün Azərbaycan xalqına hörmət əlamətidir.

Mən əminəm ki, biz strateji tərəfdaşlığımızı inkişaf etdirməklə münasibətlərimizi daha yüksək səviyyəyə çatdırmaq iqtidarındayıq. Bu gün biz çox məsələlər haqqında razılığa gəldik. Bəzən gözlənilmədən yeni-yeni layihələr və əməkdaşlığımızın yeni kontraktları yaranır. Əgər bizdən asılı olarsa, biz Azərbaycanda təkcə müştərək istehsalat layihələrini deyil, elmi-texniki sahədə də layihələr həyata keçirmək əzmindəyik. Əgər Sizə lazımdırsa, biz gücümüz çatan istiqamətlər üzrə Sizin mütəxəssislərinizi də hazırlaya bilərik. Biz də öz növbəmizdə ümid edirik ki, Sizdə olan və Belarusda olmayan istiqamətləri inkişaf etdirməkdə və mütəxəssislər hazırlamaqda bizə kömək edərsiniz.

Əməkdaşlığımızın bünövrəsini vaxtilə biz Heydər Əliyev ilə birlikdə yaratmışıq. Lakin o vaxt mənim heç fikrimə də gəlməzdi ki, bizim ümumi evimizin, Azərbaycan ilə Belarusun qarşılıqlı münasibətlərinin yaranmasında bu qədər irəliləyə biləcəyik. Son illərdə Sizinlə birlikdə nə etmişiksə, əməkdaşlığımızın bu və ya digər istiqamətləri üzrə Sizin dəstəyiniz sayəsində mümkün olmuşdur. Sizinlə 10 il ərzində biz çox iş görmüşük, heç bir başqa ölkə bu qədər iş görməmişdir. Bir daha vurğulayıram, mütəxəssislərimiz, Belarus və Azərbaycan nümayəndə heyətlərinin üzvləri, sözün yaxşı mənasında, bu əməkdaşlığı inkişaf etdirmək sahəsində bizim ideyalara yolux-

muşlar. Yeni layihələrin, təşəbbüslərin yaranması ona dəlalət edir ki, biz Azərbaycan ilə Belarus arasında əməkdaşlığın həcmini 2, bəlkə də 3 dəfə artıra bilərik. Mən artıq demişəm – əməkdaşlığın bu yeni istiqamətlərini burada sadalamayacağam – qida məhsulları istehsalından tutmuş, dava-dərmana, tikintidən tutmuş, istehsalatın modernləşdirilməsinə, hərbi-texniki əməkdaşlığa qədər, bir sözlə, ən geniş spektr vardır. Burada heç bir qapalı mövzu yoxdur.

Bu gün biz Belarus iqtisadiyyatına investisiyalar barədə danışdıq. Əgər Azərbaycanın bu cür marağı olarsa, Siz Belarusda ən prioritet imkanlar əldə edəcəksiniz. Çünki biz bir-birimizi tanıyırıq, çünki Azərbaycan bizi heç vaxt məyus etməyibdir. Bizim kənardan investisiyalara, xüsusən Belarus müəssisələrinin özəlləşdirilməsi zamanı belə investisiyalara necə səliqəli və diqqətli yanaşdığımızı Siz bilirsiniz. Biz o barədə də danışdıq ki, gənclər gələcəyimizdir. Biz təhsil məsələlərində əməkdaşlığı genişləndirməyə hazırıq. Burada biz xeyli irəliləmişik və bu istiqamətdə fəaliyyət göstərməyə hazırıq. Bir sözlə, bu gün bizim problemlərimiz yoxdur, möhtəşəm vəzifələr var və Azərbaycan prezidenti ilə biz bütün bu məsələləri həll etmək əzmindəyik.

Məni növbəti dəfə gözəl ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə minnətdaram. Biz nümayəndə heyəti ilə hökmən Bakıya gələcəyik və orada bizim Belarusda əldə etdiyimiz razılaşmalara nəzarət etməyə imkanımız olacaqdır.

Mütəxəssislərdən ibarət geniş nümayəndə heyəti ilə bizə gəldiyinizə görə sağ olun. Bu, dəyərli addımdır, bizim əməkdaşlığımızı irəlilədir.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Aleksandr Qriqoryeviç, ölkəmiz haqqında xoş sözlərinizə görə sağ olun. Yenidən gözəl ölkənizdə olmaq və münasibətlərimizin gələcək inkişafı yollarını Sizinlə birlikdə müəyyən etmək imkanına görə təşəkkürümü bildirmək istərdim. Bizim münasibətlər zamanın sınağından çıxmış, real əmək-daşlıqda sınanmışdır. Bu gün mənə xüsusilə xoşdur ki, Siz məni Belarus Respublikasının yüksək dövlət ordeni – «Xalqlar dostluğu» ordeni ilə təltif etməyi mümkün saymısınız. İnanın ki, mən ölkələrimizi və xalqlarımızı bir-birinə daha çox ya-xınlaşdırmaq üçün gələcəkdə də əlimdən gələni edəcəyəm.

Ölkələrimiz arasında əməkdaşlığın mövcud səviyyəsi bizim birgə işimizin nəticəsidir. Düzgün qeyd etdiniz ki, ölkələrimiz arasında münasibətlərin əsasını mənim atam Heydər Əliyev və Siz qoymusunuz. Lakin son illərdə bu münasibətlər, Sizin tamamilə düzgün səciyyələndirdiyiniz kimi, strateji tərəfdaşlar arasında münasibətlərə transformasiya etmişdir. Biz çox geniş məsələlər spektri üzrə əməkdaşlıq edirik. Bu əməkdaşlığın dərinləşdirilməsinə aid konkret məsələləri həll edirik, beynəlxalq təşkilatlarda bir-birimizi çox fəal dəstək-ləyirik. Keçən ilin payızında BMT Təhlükəsizlik Şurasında səsvermə zamanı Azərbaycanın namizədliyini fəal dəstəklədiyinizə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Biz bu məsələdə Belarusun dəstəyini çox yüksək qiymətləndiririk. Biz başqa beynəlxalq təşkilatlarda da həmişə əməkdaşlıq edirik və həmişə bir-birimizi dəstəkləməyə çalışırıq. Əsl dostluq da budur – biz həmişə bir-birimizi dəstəkləməyə, imkan olduqda, gücümüz çatan yerdə bir-birimizə səmimi, təmənnasız, dostcasına dəstək göstərməyə çalışırıq. Strateji tərəfdaşlığın mahiyyəti də elə bundan ibarətdir.

Bu gün mən yenidən Sizin gözəl ölkənizə yola düşəndə əv-vəlcədən güman edirdim ki, bu səfərim də uğurlu olacaq. Bunun üçün hər cür əsas vardır. Həll etdiyimiz məsələlər Azərbaycanda istehsalı inkişaf etdirməkdə bizə çox cəhətdən kömək etmişdir. Mən bunu heç vaxt unutmaram. Bu, real

əməkdaşlığın ilk təcrübəsidir ki, Azərbaycanda müştərək istehsalat yaradılması barədə razılıq əldə edilməsindən layihənin həyata keçirilməsinə qədər bir neçə ay keçmişdir. Sizin iradəniz, tabeliyinizdə olanlara verdiyiniz göstərişlər sayəsində qısa müddətdə istehsal kompleksi yaradılmışdır. Bu gün həmin kompleks genişlənir və inkişaf edir, biz həmin kompleksin bazasında yeni istehsalat yaradacağıq. Bu da bizim bugünkü müzakirələrin bir hissəsi olmuşdur.

Bizim nümayəndə heyətlərinin üzvləri yeni ideyalar irəli sürmək üçün olduqca nikbin və təşəbbüskardırlar. Geniş tərkibdə görüş çərçivəsində yeni təşəbbüslər irəli sürüldü və mən əminəm ki, Sizin ölkənizə növbəti səfərimizə qədər həmin təşəbbüslər reallaşdırılacaq. Bizim münasibətlər səmimilik, qarşılıqlı hörmət və qarşılıqlı dəstəklə səciyyəvidir. Bir daha deməliyəm ki, biz əməkdaşlığımızın konkret nəticələrini görəndə, bu bizi daha da ruhlandırır və münasibətlərimizin daha yeni sahələrini tapmağa çalışırıq. Bizim iqtisadiyyatlar bir-biri ilə rəqabət aparmır, əksinə, bir-birini tamamlayır. Humanitar sahədə əməkdaşlıq xalqlarımızı daha da yaxınlaşdırır. Azərbaycanda Belarus xalqına böyük rəğbət, sizin ənənələrinizə, mədəniyyətinizə böyük maraq vardır. Biz Belarusu özümüz üçün artıq çoxdan kəşf etmişik. Hesab edirik ki, sizin ölkənizi tanıyırıq.

Bizim həyata keçirdiyimiz layihələr üzrə əmtəə dövriyyəsinin mal nomenklaturasına nəzər salsaq, bu layihələr bütün sahələri əhatə edir. Bizim əməkdaşlığımızın siyasi, iqtisadi, energetika, nəqliyyat, sənaye istiqamətləri bu gün tam həcmdə reallaşır. Bu işdə Sizin böyük xidmətiniz var, hörmətli Aleksandr Qriqoryeviç.

Mən bu fürsətdən istifadə edib Sizə və bütün Belarus xalqına yeni uğurlar, qələbələr arzulamaq istəyirəm. Biz həmişə Sizin yanınızda olacağıq, Sizin uğurlarınıza həmişə sevinəcəyik və başlanmış işləri birlikdə məntiqi sona çatdıracağıq. Qonaqpərvərliyə və səmimi qəbula görə bir daha təşəkkür edirəm.

# ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Minsk*

*28 avqust 2012-ci il*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Mərasimdə Belarus prezidenti Aleksandr Lukaşenko ölkəsinin ali mükafatı – «Xalqlar dostluğu» ordenini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

*Belarus prezidenti Aleksandr Lukaşenko mərasimdə çıxış edərək, Azərbaycan dövlətinin başçısını ölkəsində bir daha görməkdən şad olduğunu dedi. Bildirdi ki, yüksək səviyyədə həyata keçirilən müntəzəm görüşlər xoş ənənəyə çevrilib və xalqlarımız arasında qardaşlıq tellərinə əsaslanan Belarus–Azərbaycan tərəfdaşlığı dövlət başçılarının dostluq münasibətləri ilə daha da möhkəmlənir.*

*«Bu gün Azərbaycan ilə Belarus arasında münasibətlər sabit və faydalıdır, yüksək səviyyədə dostluğa və etimada əsaslanır» – deyən Aleksandr Lukaşenko bildirdi ki, ölkələrimiz strateji tərəfdaşlara çevrilib və burada Azərbaycan prezidentinin mühüm rolu vardır.*

*Belarus prezidenti Azərbaycanın onun ölkəsinə verdiyi dəstəyi yüksək qiymətləndirərək, prezident İlham Əliyevin xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı olduğunu vurğuladı. «Fikrimcə, İlham Heydər oğlu Azərbaycanın şəksiz lideri və vətənpərvəridir» – deyən prezident Aleksandr Lukaşenko dövlətlərimiz arasında dostluq münasibətlərinin və strateji əməkdaşlığın qurulması və inkişafındakı mühüm şəxsi töhfələrinə görə Azərbaycan prezidentinin Belarusun ali mükafatı – «Xalqlar dostluğu» ordeni ilə təltif olunduğunu dedi və ordeni prezident İlham Əliyevə təqdim etdi.*

*Yüksək mükafata və onun haqqında söylədiyi xoş sözlərə görə Belarus prezidenti Aleksandr Lukaşenkoya təşəkkürünü bildirən Azərbaycan prezidenti İlham Əliyev bu ali mükafatı onun əməyinə verilən yüksək qiymət kimi dəyərləndirdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan–Belarus münasibətləri möhkəm zəminə, qarşılıqlı rəğbət və xalqlarımız arasında çoxəsrlik əməkdaşlığa əsaslanır.*

*Dövlətimizin başçısı Azərbaycanın BMT Təhlükəsizlik Şurasına namizədliyinin səsverməyə çıxarıldığı dövrdə Belarusun verdiyi dəstəyə və göstərdiyi fəallığa görə minnətdarlığını bildirdi.*

*«Bu gün Belarus ilə Azərbaycan arasında dostluğa, strateji tərəfdaşlığa, qarşılıqlı dəstəyə, səmimiyyət və rəğbətə əsaslanan müasir münasibətlər qururuq» – deyən prezident İlham Əliyev ölkələrimiz arasında əmtəə dövriyyəsinin artdığını, sənayedə, energetikada, humanitar əməkdaşlıqda yeni təşəbbüslərin olduğunu dedi və bir daha yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

## MİNSKDƏ «QƏLƏBƏ» MEYDANINDA UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*29 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfəri çərçivəsində avqustun 29-da Minsk şəhərindəki «Qələbə» meydanında 1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbə şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Meydanda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 29-da Belarus Respublikasına rəsmi səfəri başa çatmışdır. Minsk Milli Aeroportunda Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko qısa söhbət etdilər.*

**A l e k s a n d r  L u k a ş e n k o:** Bu görüşlərin gedişində yeni ideyalar, təşəbbüslər yaranır. Budəfəki səfərin gedişində də belə oldu. Mən çox minnətdaram ki, bu ilin oktyabrında Bakıda bizim nümayəndə heyətimizi, ümumiyyətlə, görüşümüzün gedişində yaranan təklifləri götür-qoy edəcək birgə komissiyanı qəbul etməyə razı oldunuz. Sizin dediyiniz kimi, bundan sonra hansı istiqamətdə hərəkət edəcəyimizi birmənalı olaraq müəyyənləşdirərik.

Biz məmnuniyyətlə Belarusda bütün bərabər imkanlar daxilində Azərbaycan mallarına üstünlük verəcəyik. Biz hər hansı bir güzəşt xahiş etmirik. Əgər bizim ticarət mübadiləsində

və sairdə hər hansı bir maneə yoxdursa, fikrimcə, bunun mahiyyəti elə budur.

**İlham Əliyev:** Çox sağ olun, Aleksandr Qriqoryeviç! Əvvəla, qonaqpərvərliyə, mənə və nümayəndə heyətimin üzvlərinə göstərdiyiniz səmimi qəbula görə təşəkkür etmək istərdim. Mən öz səfərimin nəticələrindən çox məmnunam. Biz Sizinlə xeyli müddət bir yerdə olduq, çox mühüm məsələləri müzakirə etdik, ikitərəfli formatda danışıqlar apardıq və gələcək üçün böyük potensial görürük. Əlbəttə, görülən işlər böyük təəssürat oyadır, ona görə ki, qısa müddət ərzində həm əmtəə dövriyyəsində, həm sənaye istehsalında, həm də energetika sahəsində böyük uğurlara nail olmuşuq. Ən başlıcası isə, biznesin və qarşılıqlı səmərəli ticarətin inkişafı üçün yeni yollar müəyyənləşdirmişik.

İqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı aparılan müzakirələr olduqca əhəmiyyətlidir. Bunlar həm Azərbaycanda yeni istehsal sahələri, həm tikinti, həm kənd təsərrüfatı sektorları, həmçinin əczaçılıqla bağlı yeni istiqamətlərdir. Dünən biz bu məsələni müzakirə etdik, məlum oldu ki, potensial var. Bizim ikitərəfli münasibətlərdə bir çox sahə var ki, hələ işə düşməyib, amma böyük perspektivlərə malikdir. Düşünürəm ki, layihələrin gerçəkləşdirilməsi nadir təcrübədir. Qərarların qəbul edilməsi ilə onların həyata keçirilməsi arasındakı müddət çox azdır. Ən başlıcası isə bütün istiqamətlər üzrə münasibətləri qarşılıqlı inkişaf etdirmək arzusu var. Odur ki, mən böyük nikbinliklə, böyük planlarla qayıdıram və Bakıya çatan kimi bütün bu layihələrin vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün hökumət üzvlərinə bütün lazımi tapşırıqlar veriləcəkdir.

**Aleksandr Lukaşenko:** Azərbaycanda, Qafqazda ticarət münasibətləri yaratmaq çox sərfəlidir. Amma Sizdən xahiş etmək istərdik ki, biz birlikdə digər ölkələrin bazarlarına çıxa bilək.

**İlham Əliyev:** Biz də bu məsələdə çox maraqlıyıq. Ona görə ki, müəyyən müddətdən sonra bizim daxili bazarımız artıq bütünlüklə yerli istehsalla təmin olunacaqdır. Yəni biz

qarşımıza belə bir vəzifə qoymuşuq: xarici bazarlara çıxış məsələsi, əlbəttə, bizim qarşımızda çox kəskin dayanacaqdır. Əgər bundan sonra da inkişaf etmək istəyiriksə – təbii ki, biz bunu istəyirik – gərək ixrac potensialı, ixrac bazarları haqqında düşünək. Bu məsələdə belaruslu istehsalçılarla birgə istehsal elə ixracyönümlü olacaqdır. Mən Sizin Qafqazda Azərbaycan ilə prioritet əməkdaşlıq haqqında qərarınızı alqışlayıram. Bunun üçün bütün imkannlarımız da, münasibətlərimiz də vardır. Bu gün Azərbaycan bütün Qafqaz iqtisadiyyatının təxminən 80 faizi deməkdir. Bu, nəhəng təbii ehtiyatları və böyük potensialı olan ölkədir. Odur ki, biz birlikdə çox işlər görə bilərik. Düşünürəm ki, üçüncü ölkələrin bazarlarına meyil göstərmək məhz əməkdaşlığımızın yeni istiqamətlərindən biri olacaqdır.

* * *

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Belarus prezidenti Aleksandr Lukaşenko yola saldı.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «TELİASONERA» ŞİRKƏTİNİN PREZİDENTİ LARS NUBERQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da «TeliaSonera» şirkətinin prezidenti Lars Nuberqi qəbul etmişdir.*

*«TeliaSonera» şirkətinin prezidenti Lars Nuberq ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsinin dinamik inkişaf etdiyini yüksək qiymətləndirdi. O, «Azercell» şirkətinə ölkəmizdə 3G və 4G mobil texnologiyalarının tətbiqi üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*İnformasiya-kommunikasiya texnologiyaları sektorunun Azərbaycanda prioritet sahə olduğunu vurğulayan prezident İlham Əliyev internetin ən müasir vasitələrlə ölkənin bütün ərazilərinə çatdırılması istiqamətində işlərin görüldüyünü dedi.*

*Görüşdə Azərbaycanın təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilən xüsusi qətnamə əsasında həyata keçirilən «Transavrasiya Super İnformasiya Magistralı» (TASİM) layihəsinə «TeliaSonera» şirkətinin verdiyi dəstəyin önəmi qeyd olundu, Azərbaycan Hökumətinin BMT ilə birgə keçirdiyi İnternet İdarəçilik Forumunun əhəmiyyəti vurğulandı.*

# XXX LONDON YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*31 avqust 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev avqustun 31-də XXX London Yay Olimpiya oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşmüşdür.*

*Görüşə toplaşanlar Azərbaycan prezidentini və ailə üzvlərini hərarətlə qarşıladılar.*

*Ölkəmizdə idmanın, olimpiya hərəkatının inkişafına göstərilən diqqət və qayğıdan, idmançılarımızın Olimpiya oyunlarında qazandıqları qələbələrdən bəhs edən film nümayiş olundu.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi:*

Əziz dostlar!

Əziz idmançılar!

Əziz olimpiyaçılar!

Bu gün nümayiş etdirilən bu kiçik videofilmdə Olimpiya oyunlarının unudulmaz anları bir daha gözümüzün önündən keçdi. Doğrudan da unudulmaz anlar idi və bu qələbə sevincini bizə idmançılarımız bəxş etdilər.

Azərbaycan, sözün əsl mənasında, idman dövlətidir. London Yay Olimpiya oyunları bunu bir daha təsdiqlədi, bir daha sübut etdi. Azərbaycan Olimpiya oyunlarında ən böyük uğuru London Olimpiya oyunlarında qazanmışdır. Bu Olimpiya oyunlarında 200-dən çox ölkə iştirak edirdi. Azərbaycan bu yarışda 30-cu yeri tuta bildi. Medalların sayına görə 24-cü yerdəyik. Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında isə 3-cü yerdəyik. Azərbaycan idmançıları 10 medal qazanmışlar – 2 qızıl, 2 gümüş, 6 bürünc medal. Bu doğrudan da böyük və tarixi nailiyyətdir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin tən-

tənəsidir. Bu qələbə gözlənilən idi. Biz idmançıları Londona yola salarkən onlardan böyük ümidlərlə nəticə gözləyirdik. Bu ümidlərin əsası var idi. Biz artıq neçə ildir ki, bu qələbəyə doğru irəliləyirik. Birinci dəfə müstəqil dövlət kimi, Atlantada 1 medal, sonra Sidneydə 3, Afinada 5, Pekində 7 və nəhayət, Londonda 10 medal qazandıq. Əhali və ərazi baxımından bizdən bir neçə dəfə böyük olan ölkələri arxada qoyduq.

Bir daha demək istəyirəm ki, bu, tarixi qələbədir. Bu qələbə idmançılarımızın qələbəsidir. Azərbaycan dövləti və xalqı adından bütün idmançılara – peşəkarlığını, Vətən sevgisini nümayiş etdirən bütün idmançılara dərin minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, bizi gələcəkdə də medallar, qələbələr gözləyir. Bu qələbələr bütün xalqımızı sevindirəcəkdir. Medallar qazanmış idmançıları bu gün xüsusilə qeyd etmək istəyirəm. Bürünc, gümüş medallar qazanmış idmançıları və əlbəttə, bizim çempionları – Toğrul Əsgərovu və Şərif Şərifovu xüsusilə qeyd edirəm. Onlar doğrudan da xalqımıza sevinc bəxş etdilər.

Bütövlükdə, idmançılarımızın Olimpiya oyunlarında çıxışı çox uğurlu idi. İlk günlərdən biz artıq xəzinəmizə medal daxil edə bildik. Birinci medalı ilk günlərdə qazandıq. Ondan sonrakı günlərdə də biz medallar qazana bilmişik. Amma, əlbəttə ki, bütün Azərbaycan xalqı qızıl medal gözləyirdi. Nəhayət, Olimpiadanın son günlərində 1 gündə 2 qızıl medal qazana bildik.

Mən bir daha demək istəyirəm ki, bu qələbə Azərbaycan xalqının qələbəsidir, idmançıların qələbəsidir. Mən idmançıları xüsusilə qeyd edirəm, təbrik edirəm. Onların məşqçilərini təbrik edirəm. Məşqçilərin də böyük zəhməti vardır. Bütün idman mütəxəssislərini təbrik edirəm.

Azərbaycan bu qələbəyə layiqdir. Azərbaycan güclü dövlətdir. Güclü dövlətin güclü də idmanı olmalıdır. Həyatımızın hər sahəsində olduğu kimi, idmanda da qələbələrimiz görülən işlərin məntiqi nəticəsidir.

Azərbaycanda çox güclü və mehriban idman ailəsi vardır. Bu istiqamətdə düzgün dövlət siyasəti aparılır. Dövlət siyasətinin düzgün istiqamətdə aparılması, idmanın inkişafına cavabdehlik daşıyan bütün qurumların vahid komanda şəklində fəaliyyət göstərməsi, idmançılarımızın peşəkarlığı və Vətənə olan sevgisi bu qələbələri şərtləndirdi.

Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar – biz hamımız bu qələbələri təmin etmişik və əlbəttə ki, son sözü idmançılar döyüş meydanında deyirlər.

Mən çox şadam ki, idmanda proseslər çox müsbət istiqamətdə gedir. Ölkəmizin ümumi inkişafını idmanda gedən proseslər işıqlandırır. Sirr deyildir, Olimpiya oyunları dünya miqyasında yeganə beynəlxalq mötəbər tədbirdir ki, ölkələr öz aralarında rəqabətə çıxırlar. Dünyada istənilən başqa sahədə rəqabət var və Azərbaycan da bu rəqabətdə daim yüksəklərdədir. Ancaq bu rəqabət idmanda qabarıq şəkildə özünü göstərir. Bu rəqabət idmanda medalların sayı, ölkələrin müxtəlif yerləri tutması ilə müəyyən edilir. Təsadüfi deyildir ki, hər bir ölkə istəyir ki, onun idmançıları daha da böyük qələbə qazansın, cədvəldə o ölkənin yeri daha da yuxarılarda olsun. Biz buna nail ola bilmişik. 30-cu yer Azərbaycan kimi o qədər də böyük olmayan ölkə üçün tarixi nailiyyətdir.

Onu da qeyd etməliyəm ki, medalların sayı daha da çox ola bilərdi. Çünki bəzi idmançılarımız medalların bir addımlığında dayanmışdılar. Onlar da medallara layiq idilər. Amma hamımız – həm idmançılar, həm ictimaiyyət yaxşı bilirik ki, bəzi hallarda hakimlərin ədalətsizliyi imkan vermədi ki, bəzi idmançılarımız daha da yüksəkəyarlı medallara nail ola bilsinlər. Bütün bunlar gözümüzün qarşısında baş verən hadisələr idi. Ancaq idmançılarımızın həm peşəkarlığı, həm davranışı, həm ləyaqəti onlara olan hörməti daha da artırır.

Hamının gözü qarşısında əldə edilən qələbənin əlindən alınması da idmançılarımızı sarsıtmadı. Onların, necə deyərlər, duyğularına təsir etmədi. Onlar bu ədalətsiz qərarlara ləyaqətlə

dözdülər. Əminəm ki, bütün o yarışları seyr edənlər gördülər ki, əsl qalib kimdir.

İdmançılarımızın əksəriyyəti gəncdir, onların böyük gələcəyi vardır. Hakimlərin ədalətsizliyi ucbatından daha da yüksək medal ala bilməyən idmançılar, əminəm ki, növbəti yay Olimpiya oyunlarında bu ədalətsizliyi aradan götürəcək və ədaləti bərpa edəcəklər.

Medallar qazana bilməyən, yaxud da ki, o qədər də yüksək nəticə göstərə bilməyən idmançılar da hesab edirəm ki, peşman olmamalıdırlar. Halbuki biz onlardan da qələbə gözləyirdik. Amma bu idmandır. İdmanda məğlubiyyət də, qələbə də olur. Əsas odur ki, məğlubiyyət heç kimi ruhdan salmasın. İstənilən nəticəyə çatmayan idmançılar isə nəticə çıxarsınlar, gələcək yarışlara daha da inamla hazırlaşsınlar və güclərini gələcək yarışlarda göstərsinlər. Mən əminəm ki, belə də olacaqdır.

London Yay Olimpiya oyunlarında Azərbaycan böyük say tərkibi ilə iştirak edirdi. Dünya miqyasında 50-dən çox idmançısı olan ölkənin nümayəndə heyəti böyük nümayəndə heyəti hesab olunur. 50-dən çox idmançı ilə təmsil olunan Azərbaycan 10 medal qazandı və yenə də bir neçə idmançımız yüksək yerlərə nail ola bilmişdir. Beləliklə, London Yay Olimpiya oyunları tarixə Azərbaycanın növbəti uğuru kimi düşür.

Bizim ölkə hər bir sahədə gözəl nəticələr göstərir. Beynəlxalq aləmdə biz böyük qələbələrə nail ola bilmişik. Keçən il dünya birliyi yenə də çətin rəqabət şəraitində Azərbaycanın namizədliyini dəstəkləyərək dünyanın ən mötəbər beynəlxalq qurumuna üzv seçdi. Hazırda Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür. Orada da rəqabət kifayət qədər ciddi idi. Ancaq Azərbaycan öz mövqeyini şərəflə qorudu və sözün əsl mənasında, tarixi qələbə qazana bildi.

İqtisadi sahədə Azərbaycanda əldə edilən uğurlar dünyada artıq nəinki tanınır, bilinir, eyni zamanda, bizim təcrübəmiz öyrənilir. Azərbaycan nəyin hesabına bu qədər böyük inkişafa nail ola bilmişdir?! Son illər ərzində dünyanın heç bir yerində

Azərbaycan qədər iqtisadi sahədə inkişaf edən ölkə olmamışdır! Bütün başqa sahələrdə, yəni bütün bu qələbələrin, uğurların təməlində Azərbaycan xalqının zəhməti və istedadı, Azərbaycanda düzgün siyasətin aparılması dayanır. Bu siyasət idmanda da özünü göstərir. Artıq Azərbaycan ictimaiyyəti də idmanda olan uğurlara bir növ, öyrəşib, idmançılardan daim daha da böyük qələbələr gözləyir. Vaxtilə 1, ya 2, ya 3 medalla kifayətlənən ictimaiyyətimiz artıq böyük qələbələrə çatmaq üçün yarışları seyr edir və biz bu qələbələrə layiqik. Hər dəfə Olimpiya oyunlarında medallarımızın sayı artır. Əminəm ki, növbəti dəfə də artacaqdır.

Azərbaycanda çox güclü gənc nəsil yetişir, o cümlədən idman sahəsində. Son 10 il ərzində 35 regional Olimpiya İdman Kompleksi tikilmişdir ki, bizim uşaqlar, yeniyetmələr bu komplekslərdən səmərəli şəkildə istifadə edirlər. İdman infrastrukturunun yaradılması nəticəsində biz hər bir bölgədə idmanla məşğul olmaq üçün gözəl şərait yaratmışıq. Bizdə istedadlı idmançılar çoxdur – uşaqlar, gənclər, yeniyetmələr. Təsadüfi deyildir ki, yeniyetmələr arasında I Olimpiya oyunlarında Azərbaycan 11-ci yerə çata bilmişdir. Bu, dünya miqyasında çox böyük nəticədir. Yəni gənc nəsil yetişir. Onlar yaxın illərdə böyüklər arasında keçiriləcək yarışlarda da iştirak edəcəklər. Olimpiyaçılarımızın da əksəriyyəti gənclərdir. Olimpiya çempionumuz Toğrul Əsgərovun 20 yaşı da yoxdur. Bu gənclər, bu idmançılar son illər ərzində yetişib, püxtələşib və artıq dünyanın bir nömrəli idman yarışının qalibləri olmuşlar. Bu işlərin təməlində düşünülmüş siyasət və ardıcıl, məqsədyönlü fəaliyyət dayanır.

Mən çox şadam ki, gənclərimiz idmana meyillidirlər. Azərbaycan dövlətində idmana və xüsusilə, idmançılara hörmət, qayğı, dəstək gəncləri də, uşaqları da idmanla məşğul olmağa sövq edir. Hesab edirəm ki, hər bir bölgədə – bu, artıq reallıqdır – idmançılara daha da böyük diqqət və dəstək göstərilməlidir. Bizim olimpiya komandamızın tərkibində bölgələrdən olan idmançılar da vardır. Olimpiya çempionumuz Toğrul Əsgərov

bölgədən olan idmançıdır və fürsətdən istifadə edərək, bütün gəncəliləri Toğrulun qələbəsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm. İstedadlı gənclərimiz hər bir rayonda, hər bir kənddə vardır. Seleksiya işləri düzgün aparılmalıdır, təlim-məşq toplanışları, əlbəttə ki, müasir səviyyəyə çatmalıdır. Hesab edirəm ki, bu gün idman növlərinin əksəriyyətində bu belədir. Əlbəttə ki, peşəkar məşqçilərin fəaliyyəti uğurlarımızı daha da artıracaqdır.

Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə alır. Vətənpərvərliyi gücləndirən amillərdən biri, bəlkə də birincisi idman qələbələridir. İdman qələbələri insanları coşdurur, insanların ürəyi qürur hissi ilə dolur. İnsanlar bəzi hallarda sevincdən göz yaşlarını saxlaya bilmirlər. Hər dəfə milli bayrağımız qaldırılanda, Dövlət himnimiz səslənəndə hər bir vətənpərvər Azərbaycan vətəndaşı fəxr edir. Olimpiya oyunlarında idmançılarımız sevinclə dolu bu günləri bizə bəxş etdilər. Bizim bayrağımız 10 dəfə qaldırıldı, iki dəfə dövlət himnimiz səsləndirildi. Bu, böyük və tarixi nailiyyətdir. Bu, böyük və tarixi qələbədir. Mən əminəm ki, bu qələbələrin sayı daha da çox olacaqdır. Bunu deməyə kifayət qədər əsaslar vardır. London Yay Olimpiya oyunlarında uğurlarımız sadəcə olaraq, son 4 il ərzində görülən işlərin məntiqi nəticəsidir. Ancaq yenə də deyirəm, bu idmandır. İdmanda məğlubiyyət də, ədalətsizlik də ola bilər. Bayaq qeyd etdiyim kimi, idmançılarımızın bəziləri ədalətsizliklə üzləşdilər. Gözlənilməz hadisə ola bilər, zədə ola bilər. Ancaq 2 qızıl, 2 gümüş və 6 bürünc medalın qazanılması, hesab edirəm ki, məntiqi cəhətdən də, ədalət baxımından da düzgündür. Çünki həm idmançılarımız, həm dövlətimiz bu qələbəyə layiq idi. Mən əminəm ki, gələcək illərdə biz bu yüksək templəri saxlayacağıq. Biz əldə edilmiş uğurlarla kifayətlənməyəcəyik. Çünki biz heç bir sahədə əldə edilmiş uğurlarla kifayətlənmirik. Heç bir uğur, heç bir qələbə, heç bir inkişaf bizi sakitləşdirməməlidir və sakitləşdirmir. Biz daim irəliyə, gələcəyə baxmalıyıq. Növbəti olimpiya mərhələsində hansı işlər görülməlidir, hansı idman növlərində

qüsurlar vardır, biz federasiyaları harada daha da gücləndirməliyik, hansı idman növündə islahatlara daha böyük ehtiyac vardır, harada geriləmə vardır?! Bu, canlı prosesdir. Biz, əlbəttə ki, uğurlarımızla fəxr edirik. Ancaq nöqsanları da görməliyik və görürük. Düzgün nəticə çıxarmaq, gələcəkdə səhvlərə yol verməmək üçün düzgün təhlil işləri aparılmalıdır və aparılacaqdır. Mən hesab edirəm ki, idmanın inkişafına cavabdehlik daşıyan bütün qurumlar sakit şəraitdə bütün təhlilləri aparacaqlar. Növbəti olimpiya mərhələsinin daha da səmərəli keçməsi üçün əlavə tədbirlərin görülməsi də zəruridir.

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, həm ölkə prezidenti, həm Milli Olimpiya Komitəsinin prezidenti, həm də bir vətəndaş kimi, mən doğrudan da qürur hissi keçirirəm. Çünki idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etdilər. Bizə qələbə sevinci bəxş etdilər. Dünya miqyasında Azərbaycanı yüksəklərə qaldırdılar. Vətənə üzüağ, alnıaçıq, qələbə ilə qayıtdılar.

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Azərbaycan dövləti, Milli Olimpiya Komitəsi və bütün digər idman qurumları bundan sonra da idmançıların fəaliyyəti, məişət problemlərinin həlli üçün nə lazımdırsa onu edəcəkdir. İdmançıların mükafatlandırılması prosesi artıq başa çatmışdır. Pul mükafatları verilmişdir. Ancaq idmançılarımızın Olimpiya oyunlarındakı uğurlarını nəzərə alaraq Azərbaycan dövləti olimpiyaçılarımızı dövlət mükafatları ilə, ordenlərlə, medallarla təltif edir. Bu gün müvafiq sərəncam imzalanmışdır. İndi biz təltifetmə mərasiminə keçəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan idmançıları Azərbaycanın idman şöhrətini, Azərbaycan dövlətinin gücünü yüksəklərə qaldırdılar. Bütün dünyaya nümayiş etdirdilər ki, gənc müstəqil Azərbaycan dövləti böyük uğurlara nail olmaq üçün tam hazırdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü ölkəyik. Bizim güclü idmançılarımız, güclü gənclərimiz vardır. Bizim qələbəyə çatmaq üçün güclü iradəmiz vardır.

Bütün uğurlar münasibətilə bir daha idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edirəm. Olimpiyaçılara, idmançılara yeni uğurlar arzulayıram.

*Prezident İlham Əliyev Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXX Yay Olimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Şöhrət» ordenini, «Tərəqqi» medalını və «Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu»nu təqdim etdi, bir daha uğurlar arzuladı.*

**Firdovsi Umudov** *(sərbəst güləş üzrə Azərbaycan yığma komandasının məşqçisi)*: Möhtərəm cənab Prezident!

Əziz dostlar, idmançılar, qonaqlar!

Mən fürsətdən istifadə edərək, möhtərəm cənab Prezident, Sizi, idmançılarımızı, olimpiyaçılarımızı bu qələbə münasibətilə təbrik edirəm.

Möhtərəm cənab Prezident, bu qələbə Sizin qələbənizdir, başda Siz olmaqla, bütün Azərbaycan xalqının qələbəsidir. London Yay Olimpiya oyunlarına yolasalma mərasimində idmançılarımızın, xüsusilə güləşçilərimizin uğurla çıxış edəcəklərinə söz vermişdik. Biz bu məsuliyyəti başa düşürdük, dərk edirdik ki, möhtərəm cənab Prezidentimizə söz vermişik, yarış meydanlarında axıra qədər mübarizə aparıb qələbə qazanmalıyıq!

Bizim üçün ən sevindirici hal o oldu ki, işinizin çox olan vaxtında ailə üzvlərinizlə bir yerdə Londona gələrək, idman yarışlarını izlədiniz, bizlərə dəstək oldunuz. Sizin bizə azarkeşlik etməyiniz bizi daha da ruhlandırdı və qələbə üçün bizə qüvvə verdi. Məhz bunun nəticəsində idmançılarımız ilk dəfə olaraq London Yay Olimpiya oyunlarından 10 medalla vətənə döndülər.

Möhtərəm cənab Prezident!

Bir daha bu böyük qələbə münasibətilə Sizi təbrik edirəm. Söz veririk ki, Azərbaycanın bayrağını yüksəklərə qaldırmaq, himnimizi səsləndirmək üçün bundan sonra da gücümüzü əsirgəməyəcəyik. Hər zaman Sizin etimadınızı doğruldacağıq.

Sizin tövsiyələriniz heç vaxt yadımızdan çıxmayacaqdır. Biz Azərbaycanın bayrağını və himnini həmişə qəlbimizdə əziz tutmalıyıq.

Qarşıda bizi böyük sınaqlar – beynəlxalq turnirlər, Avropa, dünya çempionatları, 2016-cı ildə Rio-de-Janeyro Yay Olimpiya oyunları gözləyir. Biz orada da sübut etməliyik ki, Azərbaycan güclü dövlətdir. Azərbaycanın İlham Əliyev kimi güclü prezidenti vardır.

Yaşasın möhtərəm cənab prezidentimiz İlham Əliyev!

Yaşasın Azərbaycan!

## AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Avropa Komissiyasının sədri Jose Manuel Barrozunun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Avropa İttifaqı Şurasının Prezidenti Herman Van Rompeyin ölkəmizə səfərini xatırladan dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif səviyyələrdə inkişafından məmnunluğunu ifadə etdi.*

*Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı, «Cənub Qaz Dəhlizi» və ölkəmiz ilə Avropa İttifaqı arasında qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Jose Manuel Barrozunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Bu gün Azərbaycan–Tacikistan münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Çoxşaxəli dostluq əlaqələrimiz əməkdaşlığımızın dərinləşməsi və əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar açır.

Əminəm ki, bu yaxınlarda ölkəmizə rəsmi səfəriniz, Sizinlə apardığımız səmərəli fikir mübadiləsi, imzalanan sənədlər Azərbaycan–Tacikistan dövlətlərarası münasibətlərinin möhkəmləndirilməsi və inkişafı işinə yeni töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə, hörmətli Emoməli Şərifoviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Tacikistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 sentyabr 2012-ci il*

## KOREYA ƏMƏK PARTİYASININ BİRİNCİ KATİBİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN BİRİNCİ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İNƏ

Zati-aliləri!

Koreya Xalq Demokratik Respublikasının Yaranması Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 sentyabr 2012-ci il*

## BEŞULDUZLU «FOUR SEASONS HOTEL BAKU»NUN AÇILIŞI MƏRASİMİ

*3 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 3-də Bakıda daha bir beşulduzlu hotelin – «Four Seasons Hotel Baku»nun açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidenti və xanımı hoteldə yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, nadir memarlıq həlli ilə diqqəti cəlb edən «Four Seasons» hotellər şəbəkəsi fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Belə bir beynəlxalq səviyyəli şirkətin Azərbaycanın turizm bazarına maraq göstərməsi ölkəmizdə istər yerli, istərsə də xarici investorlar üçün yaradılan əlverişli sərmayə mühitindən irəli gəlir. Bu həm də dünyanın inkişaf etmiş ölkələri sırasında yerini möhkəmləndirən Azərbaycanda hotel biznesinin genişləndirilməsinə və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına böyük imkanlar açır. «Four Seasons Hotel Baku» kompleksinin yaradılması da bu istiqamətdə atılan əsas addımlardan biridir.*

*Qeyd edildi ki, klassik və müasir dizaynı ilə seçilən bu kompleksdə beynəlxalq və milli memarlıq üslubu peşəkarlıqla uzlaşdırılmışdır. «Four Seasons» özünün yeni incisini – «Four Seasons Hotel Baku»nu Xəzər dənizinin sahilində, ekoloji təmiz zonada turistlərin ixtiyarına verir.*

*Diqqətə çatdırıldı ki, «Four Seasons» hotellərinə xas mahir ustalıqla inşa edilən yeni memarlıq əsəri «Beaux-Arts» dəbinin parlaq nümunəsi olmaqla, tarixiliklə yanaşı, müasir dəbin ahəngini əks etdirir. Əzəmətli tağların altından keçərək içəri daxil olan hər kəsi ayrı-ayrı elementləri incə zövq və zərifliklə işlənən vestibül, sözün əsl mənasında, valeh edir.*

Bildirildi ki, möhtəşəmliyi və gözəlliyi ilə seçilən hotelləri idarə edən «Four Seasons Hotels and Resorts» şirkəti beynəlxalq mehmanxanalar şəbəkəsidir. «Four Seasons» şəbəkəsinə 30-dan çox ölkədə 90 hotel daxildir. Yarım əsr ərzində «Four Seasons» öz sahəsində liderliyi qoruyub saxlamağa müvəffəq olmuşdur. Şəbəkəyə daxil olan hotellər dəfələrlə müxtəlif mükafatlara layiq görülmüşdür. Mənzil-qərargahı Kanadanın Toronto şəhərində yerləşən «Four Seasons» hotellər şəbəkəsinin tarixi 1960-cı ildən başlayır. O vaxt Torontoda şəbəkənin ilk hoteli açılmışdır. Ötən əsrin 90-cı illərində mülkiyyət bazarını daha da genişləndirən «Four Seasons» dünya liderinə çevrilmişdir. «Four Seasons» şəbəkəsi hotellərlə yanaşı, daşınmayan əmlak bazarında «Residence Clubs» adı ilə tanınan proqramın idarə olunmasında iştirak edir.

Prezidentə və Mehriban Əliyevaya məlumat verildi ki, «Four Seasons Hotel Baku»nun orijinallığını artıran və daha çox diqqəti cəlb edən amillərdən biri də dizayn zamanı milliliyin diqqətdə saxlanılmasıdır. Təsadüfi deyil ki, «Four Seasons Hotel Baku»nun bütün zallarına və toplantı otaqlarına ecazkar Azərbaycan muğamlarının adı verilib. Burada «Segah» adlı 500 nəfərlik böyük ziyafət zalı yaradılmışdır. Bu zalda xüsusi mərasimlər və digər əlamətdar tədbirlər keçirmək mümkündür. Belə mərasimlərin keçirilməsi üçün həcmcə daha kiçik bir zal – 390 nəfərlik «Rast» zalı da istifadəyə verilmişdir. Hotelin «Şur», «Çahargah», «Bayatı-Şiraz», «Hümayun», «Şüştər» otaqlarında müxtəlif işgüzar görüşlərin keçirilməsi üçün bütün şərait yaradılmışdır. Qonaqların istirahətini yüksək səviyyədə təşkil etmək üçün hər cür avadanlıqla təchiz olunmuş müxtəlif idman zalları yaradılmışdır. Füsunkar mənzərəli 10 prosedur otağı da qonaqların ixtiyarına verilmişdir.

Məşhur «Four Seasons» hotellər şəbəkəsinin dünyada sayca 90-cı hoteli «Four Seasons Hotel Baku» 27 lüks və yüksək səviyyəli qonaqlar üçün nəzərdə tutulan 2 nömrə də daxil olmaqla, ümumilikdə 171 geniş otaqdan ibarətdir. Klassik interyeri, göz oxşayan rəng çalarları və gözəl balkonları ilə diqqəti çəkən

*otaqlar yüksək texnologiya ilə təchiz olunmuşdur. Otaqların əksəriyyətindən Bakının və Xəzər dənizinin füsunkar mənzərəsini seyr etmək mümkündür. Burada müxtəlif zövqlərə uyğun nömrələrlə yanaşı, müştərilərə zəngin əyləncə növləri də təklif edilir.*

*Bildirildi ki, hotelin restoranında da qonaqlar üçün hər cür şərait yaradılmışdır. Restoranda özəl ziyafətlər üçün «Qarabağ» zalı fəaliyyət göstərir. Hotelin mətbəxləri yüksək keyfiyyətli avadanlıqlarla təchiz olunmuşdur. Bu işi peşəkar mətbəx və camaşırxana avadanlığının quraşdırılması ilə bağlı bir çox layihələrdə iştirak edən «Minox» şirkəti həyata keçirmişdir. Son dəbdə yaradılan hotelin fəaliyyətə başlaması ümumilikdə 350-yə yaxın yeni iş yerinin açılması deməkdir.*

*Qeyd edildi ki, şüşə tavanlı hovuz da hotelin memarlıq quruluşuna xüsusi gözəllik verir. Çoxdilli xidmətlərin mövcud olduğu, şəhərin əyləncə məkanlarını asanlıqla tapmaq və tarixi yerlərə, çimərliklərə səyahət etmək üçün nadir məkanda yerləşən «Four Seasons Hotel Baku»nun fəaliyyəti bununla bitmir. Hotel həm də Azərbaycanın görməli yerlərinə və bölgələrinə turist səfərləri planlaşdırmaq imkanı yaradır.*

*«Four Seasons Hotel Baku»nun istifadəyə verilməsi Şərq və Qərb koloritlərini özündə təcəssüm etdirən doğma paytaxtımızın simasına yeni bir elementin daxil olması deməkdir. Mükəmməl memarlıq quruluşu ilə seçilən bu hoteldə yaradılan şərait istər istirahət, istərsə də işgüzar görüşlər zamanı qonaqlara «Four Seasons» sayağı qayğını hiss etməyə geniş imkanlar açır.*

*Hotel kompleksi ilə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivlə görüşdü.*

*Dövlətimizin başçısı hotelin kollektivini salamladı:*

– Əziz dostlar, mən sizin hamınızı «Four Seasons Baku» hotelinin açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hotelin fəaliyyətinə uğurlar arzulamaq istəyirəm. Azərbaycanda «Four Seasons» hotelinin açılışı böyük hadisədir.

«Four Seasons» dünya şöhrətli hotellər şəbəkəsidir və bir keyfiyyət rəmzidir. Mən çox şadam ki, hotel həm xarici görünüşü,

həm daxili dizaynı baxımından ən yüksək standartlara cavab verir. Hesab edirəm ki, «Four Seasons Baku» hotellərin arasında öz gözəlliyi ilə seçilərək fərqlənəcəkdir. Deyə bilərəm ki, Azərbaycanın ən gözəl hoteli hazırda məhz «Four Seasons» hotelidir.

Hotel bir sənət, memarlıq əsəridir. Daxili dizayn zövq oxşayır. Burada hər şey böyük zövqlə, böyük məhəbbətlə təşkil edilibdir. Otaqlar çox rahatdır. Geniş iclas yerləri, istirahət zonaları, restoranlar, barlar, yəni bir sözlə, burada olan səviyyə artıq özü bir səviyyəni müəyyən edir.

Biz bir çox hallarda Azərbaycanda gedən quruculuq işlərinə Avropa, yaxud da ki, dünya standartları anlayışı ilə yanaşırıq. Amma hazırda Azərbaycanda yaradılan binalar, əsərlər artıq Azərbaycan standartlarını da formalaşdırır. «Four Seasons Baku» hoteli dünya standartları, Azərbaycan standartları səviyyəsindədir. Mən buna çox sevinirəm.

Hotelin yeri də çox gözəldir. Bu, şəhərimizin ən mərkəzi yerlərindən biridir – «Azneft» meydanıdır. Hotelin bir tərəfində qədim İçərişəhər yerləşir. İçərişəhər bizim tarixi sərvətimizdir. O biri tərəfdə müasir bulvar yerləşir. Burada qalan qonaqların istirahət etmələri, şəhərimizlə tanış olmaları üçün bütün şərait vardır.

Hotelin memarlığı da qədim Bakı memarlığına uyğundur. Bu hotel Azərbaycana yaraşır, Azərbaycan isə «Four Seasons» hotellər şəbəkəsinə qucaq açır. Mən çox şadam ki, belə möhtəşəm memarlıq və sənət əsəri Bakıdadır, Azərbaycandadır. Azərbaycan buna layiqdir. Bakıya gələn qonaqlar şəhərin gözəlliyi ilə tanış olacaq, gözəl hoteldə istirahət edəcəklər.

Ölkəmizdə hotellərin sayı getdikcə artır. Azərbaycanda son bir il ərzində bir neçə dünya şöhrətli hotellər şəbəkəsi açılmışdır. Onların sadəcə, sadalanması onu göstərir ki, doğrudan da Bakı dünyanın mərkəzinə çevrilir. Son bir il, ya il yarım ərzində «Kempinski», «Hilton», «Sheraton», «Marriott», «Jumeirah» və nəhayət, «Four Seasons» hotellərinin açılması, növbəti aylarda «Fairmont» hotelinin açılışı Azərbaycanın nəinki turizm potensialını, ümumiyyətlə, potensialını göstərir. Çünki mən başqa belə bir şəhər tanımıram ki, qısa müddət ərzində dünyanın aparıcı

hotelləri orada öz hotellərini açsınlar. Bu, Azərbaycana olan inamın təzahürüdür. İnvestorların Azərbaycanın bu gününə, gələcəyinə olan inamının təzahürüdür. Şəhərimizin sürətlə inkişaf etməsinin təzahürüdür.

Hazırda Bakıda dünyanın ən gözəl yerlərində olduğu kimi, infrastruktur, xidmət şəraiti, hotellər, restoranlar, gəzinti yerləri vardır.

Bakı doğrudan da yaşamaq üçün çox gözəl şəhərdir. Bakının gözəlliyi üçün quruculuq, abadlıq işləri böyük diqqətlə, dəqiqliklə, həssaslıqla və zövqlə aparılır. Biz qədim, tarixi simasını saxlamaqla şəhərimizi müasirləşdiririk. Yeni zonalar açılır. Vaxtilə bulvarın bundan sonrakı hissəsində köhnəlmiş gəmiqayırma, təmir zavodları yerləşmişdi. İnsanlar üçün bu yerlər qapalı idi. Ancaq bu köhnə zavodlar köçürüləndən və yeni bulvar zonası yaradılandan sonra görün, insanlar üçün nə qədər böyük imkanlar yarandı! Orada xüsusi velosiped zolaqları, gəzinti üçün yerlər yaradıldı.

Bulvarın tarixi uzunluğu 3,5 kilometrə bərabərdir. İndi Bayraq Meydanındakı dənizkənarı zolaq ilə birlikdə bulvarın uzunluğu 14 kilometrə çatacaqdır. Bu doğrudan da böyük işlərin təzahürüdür. Mən çox şadam ki, şəhərimiz gözəlləşir, inkişaf edir. Azərbaycanda gedən bütün proseslər müasir standartlara cavab verir. İqtisadiyyatımızın bu sektorunun inkişafı da prezident kimi, məni çox sevindirir. Qeyri-neft sektorunun, xidmət sahəsinin inkişafı ölkəmizin dayanıqlı inkişafından xəbər verir. Təsadüfi deyildir ki, bu ilin birinci 6 ayında qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artmışdır. Belə gözəl hotellərin yaradılması Bakıya turistlərin, qonaqların cəlb edilməsi üçün də çox vacibdir. Çünki burada artıq qonaqları ən yüksək səviyyədə qəbul etmək üçün bütün şərait vardır. Nəzərə alsaq ki, xarici əlaqələrimiz genişlənir, bizim tərəfdaş ölkələrin sayı artır və demək olar, Bakıda hər həftə müxtəlif beynəlxalq tədbirlər keçirilir, əminəm ki, hotelin fəaliyyəti çox uğurlu olacaqdır. Bu, artıq hotellər arasında bir flaqmandır, bir brenddir. Bu doğrudan da böyük və tarixi hadisədir. Çünki siz, «Four Seasons»ın əməkdaşları yaxşı bilirsiniz ki, bu hotel dünya miqyasında bir nömrəli hotellər brendidir.

Çox şadam ki, burada işləyənlərin əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Onlar həm son illər ərzində təhsil, təlim almış, həm də Azərbaycandan olan və «Four Seasons»ın başqa şəhərlərdəki hotellərində fəaliyyət göstərən insanlardır ki, indi öz Vətəninə qayıdıblar. Çünki onları Azərbaycana Vətən sevgisi bağlayır. Onların Vətənində, bizim Vətənimizdə indi işlər elə sürətlə gedir ki, burada istənilən yüksək səviyyəli məsələ həll oluna bilər. Bizi, azərbaycanlıları fərqləndirən cəhətlərdən biri də odur ki, biz öz Vətənimizə bağlıyıq. Öz Vətənimizdə elə şərait yaratmalıyıq ki, hazırda xaricdə yaşayan soydaşlarımızın böyük əksəriyyəti Azərbaycana gəlsin. Biz indi gəncləri oxumaq üçün xaricə göndəririk. Onlar da Vətən sevgisi ilə yaşayırlar və istəyirlər ki, Vətənə qayıtsınlar. Amma şərait olmalıdır. Azərbaycanda elə şərait olmalıdır ki, bütün dünyada yaşayan azərbaycanlılar öz ölkələri ilə fəxr etsinlər və bu, artıq reallıqdır.

Mən sizi ürəkdən salamlayıram. Əminəm ki, hotelin fəaliyyəti çox uğurlu olacaqdır. Bir daha demək istəyirəm ki, Azərbaycanda «Four Seasons» hotelinin açılması adi hadisə deyildir. Bu doğrudan da ölkəmizin inamlı və uğurlu inkişafının təzahürüdür. Əgər ölkəmiz bu sürətlə inkişaf etməsəydi – siz də bunu bilirsiniz, mən də bilirəm – «Four Seasons» heç vaxt burada öz hotelini açmazdı. Ona görə bu hadisənin çox böyük rəmzi mənası və böyük əhəmiyyəti vardır.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

## ABŞ-ın NÜMAYƏNDƏLƏR PALATASI XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN AVROPA VƏ AVRASİYA ALT KOMİTƏSİNİN SƏDRİ DAN BÖRTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də ABŞ-ın Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya alt komitəsinin sədri Dan Börtonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Alt komitənin sədri Dan Börton paytaxtımızda gedən sürətli inkişaf proseslərindən məmnunluğunu ifadə etdi. Dan Börton Azərbaycanın regionda mühüm bir dövlət olduğunu vurğulayaraq ABŞ-ın ölkəmizlə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini dedi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı, əlaqələrimizin daha da möhkəmləndirilməsində qanunverici orqanlar arasında əməkdaşlığın önəmini qeyd etdi.*

*Görüşdə enerji, təhlükəsizlik, beynəlxalq sülhməramlı missiyanın tərkibində Azərbaycan sülhməramlılarının uğurlu iştirakı və əməkdaşlığımızın bir sıra digər sahələri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əlaqələrimizin daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

# İRAN İSLAM RESPUBLİKASININ VİTSE-PREZİDENTİ, İRAN MƏDƏNİ İRS VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ SƏDRİ SEYİD HƏSƏN MUSƏVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də İran İslam Respublikasının vitse-prezidenti, İran Mədəni İrs və Mədəniyyət Təşkilatının sədri Seyid Həsən Musəvinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İkitərəfli münasibətlərimizin inkişafında mədəni əlaqələrin mühüm əhəmiyyət daşıdığını vurğulayan prezident İlham Əliyev «İpək yolunun dadı: kulinariya, mədəniyyət və turizm» mövzusunda Bakıda keçiriləcək konfransın önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Seyid Həsən Musəvi Azərbaycana səfərindən və prezident İlham Əliyev ilə görüşündən məmnun olduğunu dedi. Seyid Həsən Musəvi İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. O, Azərbaycana bu səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından yaxşı fürsət yaratdığını dedi.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BADAMDAR QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ 329 SAYLI TAM ORTA MƏKTƏBİN VƏ UŞAQ BAĞÇASININ BİNALARININ AÇILIŞI MƏRASİMİ

*Prezident sarayı*

*5 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Səbail rayonunun Badamdar qəsəbəsində yeni inşa olunmuş 329 saylı tam orta məktəbin və uşaq bağçasının binalarının açılışı mərasimlərində iştirak etmişdir.*

*Prezident İlham Əliyev 2011-ci ilin aprelində Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərlə tanışlıq məqsədilə Badamdarda olarkən keçirdiyi görüş zamanı sakinlər burada yeni məktəbə və uşaq bağçasına ehtiyac olduğunu bildirmişdilər. Dövlətimizin başçısı elə həmin gün Badamdar qəsəbəsində yeni 120 yerlik uşaq bağçasının və 880 şagird yerlik ümumtəhsil məktəbinin binalarının tikintisinə başlamaq haqqında sərəncam imzalamışdı. Sərəncama uyğun olaraq dövlət büdcəsində Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına yeni məktəb və uşaq bağçası binalarının inşasına başlanılmışdı. Prezidentin tapşırıqlarına uyğun olaraq 329 saylı tam orta məktəbin yeni binası qısa vaxt ərzində yüksək standartlara uyğun tikilmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə 329 saylı tam orta məktəbin yeni binasının açılışı mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Görülən işlərlə bağlı prezidentə məlumat verildi. Məktəbin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotostend yaradılmışdır. Bildirildi ki, 3 əsas mərtəbədən və zirzəmidən ibarət binanın ümumi sahəsi 6 min 581 kvadratmetrdir. Məktəbdə 48*

*sinif, 4 kompüter, 3 laboratoriya otağı, tarix, riyaziyyat və hərbi hazırlıq kabinetləri yaradılmışdır. Kompüter otaqları internet şəbəkəsinə qoşulmuşdur. Binanın fasad və divarları üzlük daşla üzlənmiş, burada böyük kitabxana, yeməkxana və bufet, tibb otaqları, idman və kütləvi tədbirlərin keçirilməsi üçün 120 nəfərlik akt zalı yaradılmışdır.*

*Dövlətimizin başçısı ayrı-ayrı sinif otaqlarına baxdı, tədris şəraiti ilə tanış oldu. Məktəbin həyətində idman meydançasının qurulduğu da qeyd olundu. Məktəbin 8 min 800 kvadratmetr həyətyanı sahəsinin 5 min kvadratmetr hissəsinə asfalt örtük döşənmiş, abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Məktəbin həyətində 1500 kvadratmetrlik istinad divarı tikilmiş və üzlənmişdir. Binanın ərazisi abadlaşdırılmış, məktəb istiqamətində uzanan küçə təmir olunaraq asfaltlanmışdır. Məktəb binasının qarşısındakı pilləkənlər qranitdən, daxili pilləkənlər isə mərmərdən qurulmuş, tutacaqlar quraşdırılmışdır. Təhsil müəssisəsi üçün yeni elektrik, qaz, su və kanalizasiya xətləri çəkilmiş, istilik sistemi qurulmuş, müasir qazanxana tikilmişdir. Həyətdə yeni elektrik transformatoru quraşdırılmış, nasosxana yaradılmışdır. Binanın bütün gün ərzində içməli su ilə tam təchizatı üçün müvafiq işlər görülmüşdür. Məktəbdə müşahidə kameraları, yanğından xəbərdarlıq qurğuları da quraşdırılmışdır.*

* * *

*Dövlətimizin başçısı məktəb binasında yaradılan şəraitlə tanışlıqdan sonra qəsəbədə inşa olunan 120 yerlik yeni uşaq bağçasının açılışı mərasimində iştirak etdi.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Uşaq bağçasında yaradılan şəraitlə bağlı Prezidentə məlumat verildi. Binanın foyesində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin uşaqlara göstərdikləri qayğıdan bəhs edən stendlər quraşdırılmışdır. İki mərtəbədən ibarət binada uşaqların təlim-tərbiyəsi üçün bütün lazımi şəraitin yaradıldığı qeyd olundu. Bildirildi ki, ümumi*

*sahəsi 1620 kvadratmetr olan bağça binası qısa müddətdə tikilərək üzlük daşla üzlənmişdir. Bağçada 6 qrup fəaliyyət göstərəcəkdir. Uşaqlar üçün nəzərdə tutulan qrup və yataq otaqlarından başqa böyük və işıqlı yeməkxana, musiqi və idman zalları, tibb və oyun otaqları, mətbəx, yardımçı otaqlar da yaradılmışdır. Bağça binasında müasir istilik sistemi qurularaq qazanxanaya birləşdirilmişdir. Yeni kommunikasiya xətləri çəkilmiş binanın su ilə daimi təminatı üçün həyətdə 3 çən qurulmuş, nasosxana tikilmişdir. Binada yanğından xəbərdarlıq sistemi qurulmuşdur.*

*Dövlətimizin başçısı bağçada yaradılan şəraitlə yaxından tanış oldu. Binanın həyətində də abadlıq işləri görülmüş, 1000 kvadratmetr sahəyə asfalt döşənmiş, idman və əyləncə qurğuları quraşdırılmış, istirahət guşələri, həmçinin yol hərəkəti təhlükəsizliyi qaydalarının öyrədilməsi üçün meydança yaradılmışdır. Bağça binasının qarşısındakı pilləkənlər qranitdən, daxili pilləkənlər isə mərmərdən düzəldilmişdir.*

*Uşaq bağçasında yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## SƏBAİL RAYONUNDAKI 49 SAYLI «İNTELLEKT» MƏKTƏB-LİSEYİN VƏ YASAMAL RAYONUNDAKI 21 SAYLI MƏKTƏBİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Səbail rayonundakı 49 saylı «İntellekt» məktəb-liseyin və Yasamal rayonundakı 21 saylı məktəbin binalarının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmiri və yenidən qurulması işləri Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq həyata keçirilir. Proqram üzrə Bakı şəhərində məktəblərin əsaslı təmir və bərpa işləri davam etdirilir. Təmir işləri ilə yanaşı, ehtiyacı olan mövcud məktəblər üçün əlavə sinif otaqlarının, yeni tədris korpuslarının, idman və akt zallarının, yeməkxana binalarının inşası və lazımi avadanlıqlarla təchiz edilməsi də həyata keçirilir.*

*Prezident İlham Əliyev əvvəlcə Səbail rayonundakı 49 saylı «İntellekt» məktəb-liseyində həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısı məktəbin təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, Dövlət Proqramına uyğun olaraq məktəbin təmirinə 2012-ci ilin mayında başlanılıb. Ümumi sahəsi 5700 kvadratmetr olan üçmərtəbəli məktəb binasının 51 sinif və yar-*

*dımçı otaqları, idman və akt zalları, dəhlizlər, sanitariya qovşaqları tam təmir edilmiş, 3 kompüter sinfi yaradılmış, təhsil ocağının həyatində 1500 kvadratmetr sahəyə asfalt örtüyü döşənmiş, binanın əvvəlki dam örtüyü təzələnmiş, pilləkən və tutacaqlar yenilənmiş, foyeyə tamet daşlar düzülmüş, bütün elektrik və kommunikasiya xətləri dəyişdirilmişdir. Məktəbin foyesində və sinif otaqlarında ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin fotoları və milli dövlət atributları asılmışdır.*

*Dövlətimizin başçısı sinif otaqlarında yaradılan şəraitlə yaxından tanış oldu.*

*Ətraf ərazilərdə əhalinin sayının artması ilə əlaqədar tələbat nəzərə alınaraq məktəbdə 36 əlavə sinif otağından ibarət, 660 şagird yerlik üçmərtəbəli yeni tədris korpusu da inşa olunmuşdur.*

*Prezident İlham Əliyev yeni korpusda yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, yeni korpusda tikinti işləri müasir standartlara uyğun olaraq yüksək keyfiyyətlə aparılmışdır. Yeni korpusdakı sinif otaqlarında da təhsil üçün müasir şərait yaradılmışdır. Korpusun mansardında ibtidai sinif şagirdləri üçün idman və internet şəbəkəsinə qoşulmuş müasir kompüter zalları fəaliyyət göstərəcəkdir. Kompüter zalı şagirdlərin informatika sahəsində biliklərinin artırılması üçün digər vəsaitlərlə də təmin olunmuşdur. Məktəbin həyəti və ətraf ərazi abadlaşdırılmış, yaşıllaşdırma işləri görülmüşdür. Həyətyanı sahədə yeni qazanxana tikilərək müasir istilik avadanlığı ilə təchiz olunmuşdur.*

* * *

*Sonra prezident İlham Əliyev paytaxtın Yasamal rayonundakı 20 Yanvar şəhidi Eldar Məmmədov adına 21 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış oldu.*

*Dövlətimizin başçısı* burada da *məktəbin təmirdən əvvəlki və yenidənqurma işlərindən sonrakı vəziyyətini əks* etdirən *fotostendə baxdı.*

*Görülən işlərlə bağlı məlumat* verildi ki, *21 saylı məktəbin əvvəlki binası 1953-cü ildə inşa* edilib, *ilk* vaxtlar *7 illik, 1958-ci ildən isə* tam orta *məktəb* kimi *fəaliyyət göstərib. Məktəbdə 920 şagird təhsil alır,* 85 müəllim pedaqoji *fəaliyyətlə məşğul* olur.

*Dövlət Proqramına uyğun* olaraq *21 saylı* tam orta *məktəbin əsaslı təmiri və şagird sıxlığının* aradan qaldırılması *məqsədi ilə 16 əlavə* sinif *otağının* tikintisi *yüksək səviyyədə həyata keçirilib. Məktəbin 25* sinif *otağı,* o *cümlədən* fizika, kimya, biologiya, informatika *kabinetləri və* laboratoriyalar *müasir avadanlıq və* informasiya-kommunikasiya *texnologiyaları ilə* tam *təmin edilmişdir.*

Prezident *İlham Əliyev məktəbin ayrı-ayrı* sinif otaqlarında, *kabinetlərdə və* laboratoriyalarda *yaradılan şəraitlə yaxından tanış* oldu.

*Təhsil ocağının girişi və hasarı yenidən qurulmuş, döşəmə,* tavan, *qapı və pəncərələr ən müasir və keyfiyyətli inşaat* materialları *ilə işlənmişdir. Ərazi abadlaşdırılmış, 1339* kvadratmetr *sahədə yeni yaşıllıq zolaqları salınmış, 1000* kvadratmetr *sahəyə* asfalt *örtüyü,* 1000 kvadratmetr *sahəyə isə* tamet *döşənmişdir.* Sanitariya *qovşaqları,* enerji, istilik, su *sistemləri* tamamilə *yenidən qurulmuşdur. Məktəbin həyətində içməli* su *və yanğın təhlükəsizliyi ehtiyatı üçün hər* birinin tutumu 100 ton olan su anbarları *tikilmişdir. Məktəbdə 20* Yanvar *şəhidi* Eldar *Məmmədovun* büstü *bərpa* olunmuş, *təhsil ocağının girişində* onun *guşəsi yaradılmışdır. Hazırda məktəbin əlavə tədris* korpusunun, idman *və* iclas *zallarının, yeməkxananın,* emalatxananın tikintisi, idman *meydançasının yaradılması ilə bağlı işlər* davam etdirilir.

*Görülmüş işlərlə tanış* olan *dövlətimizin başçısı müvafiq tapşırıqlarını* verdi.

# LİTVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ARTURAS MELİANASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Litva Respublikasının Daxili İşlər naziri Arturas Melianasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnunluğunu bildirən nazir Arturas Melianas ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından səfərin əhəmiyyətini qeyd etdi. O, səfəri çərçivəsində təmsil etdiyi qurumla Azərbaycanın Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlığa dair imzalanacaq müqavilənin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı perspektivin olduğunu dedi. Prezident İlham Əliyev təbii fəlakətlər zamanı ölkələrarası əlaqələndirmənin və qarşılıqlı yardımın əhəmiyyətini vurğuladı. Azərbaycanda Fövqəladə Hallar Nazirliyinin güclü maddi-texniki bazaya, müasir texnika və infrastruktura malik olduğunu deyən dövlətimizin başçısı bu sahədə qarşılıqlı təcrübə mübadiləsi aparılmasının önəmini qeyd etdi.*

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifaini qəbul etmişdir.*

*Dövlətimizin başçısı paytaxtda və regionlarda turizm infrastrukturunun inkişaf etdirilməsi istiqamətində böyük işlərin görüldüyünü vurğuladı. Prezident İlham Əliyev Taleb Rifainin Azərbaycana səfərinin Dünya Turizm Təşkilatı ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycana üçüncü dəfə səfər etməsini məmnunluqla qeyd edən baş katib Taleb Rifai hər gəlişi zamanı ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi. O, turizm infrastrukturunun inkişaf etdirilməsi istiqamətində Azərbaycanda görülən işlərin razılıq doğurduğunu vurğuladı. Taleb Rifai Azərbaycan prezidenti İlham Əliyevin nitqindən götürülmüş sitatların dərc olunduğu prezidentlərin və dövlət başçılarının fikirlərindən ibarət «Qızıl kitab»ı dövlətimizin başçısına təqdim etdi.*

*Kitabda Azərbaycanın Dünya Turizm Təşkilatının «Qızıl kitab» hərəkatına ilk qoşulan 26 ölkədən biri olduğu bildirilir, ölkəmizdə turizmin inkişaf etdirilməsi ilə bağlı bütün şəraitin mövcud olduğu qeyd edilir, prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət xüsusi vurğulanır.*

## NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də NATO-nun baş katibi Anders Foq Rasmussenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı NATO-nun baş katibini qarşıladı.*

*Prezident İlham Əliyev NATO-nun baş katibi Anders Foq Rasmussenin Azərbaycana səfərinin əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivlərini müzakirə etmək baxımından səmərəli olacağını bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. NATO iqamətgahına sonuncu səfərini və diplomatik korpusun nümayəndələri ilə keçirdiyi görüşləri və Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi zaman Nyu-Yorka səfərini, eləcə də NATO-nun Çikaqo sammitində iştirakını məmnunluqla xatırladan prezident İlham Əliyev səfər zamanı əməkdaşlığımızın inkişafına dair aparılan müzakirələrin əhəmiyyətini qeyd etdi. Ölkəmizin NATO-nun Əfqanıstandakı sülhməramlı missiyasında iştirakının, tranzit ölkə kimi, Əfqanıstana yüklərin daşınmasındakı rolunun və «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində uğurlu əməkdaşlığının önəmini vurğulayan prezident İlham Əliyev Azərbaycanın NATO ilə əməkdaşlığa bundan sonra da öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*NATO-nun baş katibi Anders Foq Rasmussen ölkəmizdə «Eurovision» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkil olunması və Azərbaycan idmançılarının XXX London Yay Olimpiya*

*oyunlarında əldə etdikləri* uğurlar *münasibətilə dövlətimizin başçısını təbrik* etdi.

*Azərbaycanda gedən yüksək inkişaf proseslərinin* onda *xoş təəssürat yaratdığını deyən baş* katib *ölkəmizin* beynəlxalq *aləmdə* artan *nüfuzundan məmnunluğunu ifadə* etdi. Anders Foq Rasmussen *Azərbaycanın Əfqanıstandakı sülhməramlı* missiyada *birbaşa və daşımalar* yolu *ilə iştirakını yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan–NATO əlaqələrinin gələcək* inkişafı, regional *təhlükəsizlik və* sabitlik, enerji *sahəsində əməkdaşlıq və qarşılıqlı* maraq *doğuran digər məsələlər ətrafında* fikir *mübadiləsi aparıldı.*

## NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*7 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Anders Foq Rasmussen sentyabrın 7-də birgə mətbuat konfransı keçirmişlər.*

*Azərbaycan prezidenti və NATO-nun Baş katibi əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş katib!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Sizi bir daha ölkəmizdə salamlamaq istəyirəm. Çox şadam ki, Azərbaycana səfər edirsiniz. Biz sizin ölkəmizə səfərinizə böyük əhəmiyyət veririk. Bu, tərəfdaşlıq və dostluğumuzun rəmzidir. Mən həmçinin bu ilin fevralında Brüsseldə keçirdiyimiz görüşümüzü xatırlayıram. Bizim qarşılıqlı maraq doğuran məsələlər ətrafında çox səmimi və açıq müzakirələrimiz oldu. NATO ilə Azərbaycan arasında bu fəal dialoq regional sabitlik və əməkdaşlıq üçün olduqca vacibdir. Azərbaycan NATO-nun çox etibarlı tərəfdaşıdır. Mən həmçinin Şimali Atlantika Şurasının üzv dövlətlərinin səfirləri ilə keçirdiyim görüşü və apardığımız müzakirələrdən sonra onların şərhlərini xatırlayıram. Bu şərhlərin hamısı ölkəmiz haqqında müsbət mövqe yaradırdı. Bu göstərir ki, ikitərəfli səviyyədə üzv dövlətlərlə də bizim olduqca konstruktiv münasibətlərimiz

vardır. Azərbaycan ilə NATO-ya üzv dövlətlər arasında olan münasibətlər çox geniş, proqnozlaşdırılan və dostluq xarakteri daşıyan münasibətlərdir. Bu isə öz növbəsində NATO ilə Azərbaycan arasında mövcud əlaqələri daha da gücləndirir.

Biz bir çox məsələlər üzərində çalışırıq. O məsələlərdən biri Əfqanıstandakı vəziyyətdir. İlk günlərdən Azərbaycan sülhməramlı əməliyyatlarda iştirak edib və beynəlxalq təhlükəsizliyə yardım qüvvələrinin apardığı əməliyyatlara töhfə verib. Əfqanıstandakı hərbçilərimizin sayını 2 dəfə artırmışıq. Biz yerləşdirmə, tranzit, logistika, o cümlədən hava məkanından istifadə dəstəyi ilə də töhfəmizi veririk. Bu gün Əfqanıstana göndərilən qeyri-hərbi yüklərin 30 faizindən çox hissəsi Azərbaycan ərazisi ilə daşınır. Biz fəaliyyətimizi davam etdirməyə hazırıq. Cənab Baş katibin bu gün qeyd etdiyi kimi, 2014-cü ildən sonra da bu işlər davam etdiriləcəkdir. Biz 2014-cü ildən sonra da proseslərin inkişafında iştirak etməyə hazırıq. Biz həmçinin təlim proqramlarında, qeyri-hərbi yardım proqramlarında iştirak edirik. Biz əfqan milli ordusunun qəyyumluq fonduna yardım etmişik və əlavə yardımların göstərilməsi ilə bağlı bəyanat vermişik. Başqa sözlə desək, bu əməkdaşlıq çox səmimi və açıqdır və ortaq dəyərlərə əsaslanır. Biz əlimizdən gələni edəcəyik ki, əfqan dostlarımız qarşılaşdıqları çətinlikləri aradan qaldıra bilsinlər.

Bu gün biz həmçinin regiondakı vəziyyəti, regional təhlükəsizliyi və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirə etdik. Azərbaycan münaqişənin tezliklə, beynəlxalq hüquq və ərazi bütövlüyü prinsipləri əsasında həllinə çalışır. Ərazi bütövlüyümüzə verdiyi dəstəyə görə NATO-ya çox minnətdarıq. Bu, Çikaqo sammitinin, eləcə də əvvəlki Lissabon və Buxarest sammitlərinin sənədlərində əks olunub. Azərbaycan torpaqları, demək olar ki, 20 ildir işğal altındadır. Biz bu ədalətsizliyə son qoymalıyıq, bu regional təhlükəni aradan qaldırmalıyıq.

Müzakirə etdiyimiz mövzulardan biri enerji təhlükəsizliyi idi. Azərbaycan bu məsələ ilə bağlı NATO-nun üzv dövlətləri

ilə sıx işləyir. Biz nəhəng enerji ehtiyatları aşkar etmişik. Çox müasir daşıma infrastrukturuna, boru kəmərlərinə malikik. Biz yeni TANAP boru kəmərinin tikintisini planlaşdırırıq. Bu boru kəməri ilə resurslarımızı Avropa bazarlarına nəql edə biləcəyik. Enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi, Azərbaycan öz səylərini davam etdirməyə, tərəfdaşlığın gücləndirilməsinə hazırdır. Əminəm ki, bu tərəfdaşlıq davam edəcək, xüsusən də nəzərə alsaq ki, biz enerji təhlükəsizliyi məsələləri üzrə üzv dövlətlərlə artıq iş aparırıq, uğurlu olacaqdır. Bəzi üzv ölkələrin enerji balansında Azərbaycan neftinin payı 30 faizdən artıqdır. Əminəm ki, vaxt gələcək, bizim qazımız da Avropadakı dostlarımızın və qonşularımızın qaz istehlakında mühüm yer tutacaqdır.

Cənab Baş katib! Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlamaq istəyirəm. Bu sizin ölkəmizə ilk səfərinizdir. Biz çox şadıq ki, siz bu səfəri həyata keçirirsiniz. Bu səfər bizə NATO ilə Azərbaycan arasında daha yaxşı münasibətlər və daha sıx əməkdaşlıq qurmağa imkan yaradacaqdır.

## NATO-nun baş katibi Anders Foq Rasmussenin bəyanatı

Cənab Prezident!

Söylədiyiniz xoş sözlərə və səmimi qəbula görə sizə dərin minnətdarlığımı bildirirəm. Bakıya ilk səfərimdən olduqca məmnunam. Bu onu göstərir ki, NATO Cənubi Qafqaz regionuna sadiqdir və belə də qalacaqdır. Azərbaycan NATO üçün mühüm tərəfdaşdır. Münasibətlərimiz sabit və müsbət olaraq inkişaf edir. Biz sizin hərbçilərinizin Əfqanıstana verdiyi qəti dəstəyi yüksək dəyərləndiririk. Onlar nümunəvi xidmət göstərirlər. Siz onlarla fəxr edə bilərsiniz.

Biz hava məkanından istifadə və tranzit marşrutları vasitəsilə NATO-ya verdiyiniz siyasi dəstəyi də yüksək qiymətləndiririk. Əfqanıstanın təhlükəsizlik qüvvələrinə keçirilən təlimlərə verdiyiniz mühüm maliyyə töhfəsinə görə minnətdarıq. Biz bir

yerdə razılığa gəldik ki, 2014-cü ildə beynəlxalq təhlükəsizliyə yardım qüvvələrinin əməliyyatları başa çatdıqdan sonra da əfqan tərəfinə dəstəyimizi davam etdirək. Mən böyük məmnunluq hissi ilə prezident Əliyevdən eşitdim ki, Azərbaycan həmin prosesdə iştirak edəcəkdir. Bu, Əfqanıstanda və regiondakı sabitlik üçün həyati əhəmiyyət daşıyır.

NATO Azərbaycana müdafiə və təhlükəsizlik islahatları sahəsində dəstək göstərir. Biz istəyirik ki, siz həmin mühüm sahələrdəki dinamikanı qoruyub saxlayasınız. Biz həmçinin çoxlu sayda partlamamış mərmilərin zərərsizləşdirilməsinə və 100 hektarlarla torpağın bundan təmizlənməsinə yardım edirik. Bu, dünyada bu cür layihələrdən ən böyüyüdür və insanların marağına xidmət edən layihədir. Beləliklə, dialoqumuzun və əməkdaşlığımızın güclü çərçivəsi vardır. Biz uğurlarımızı davam etdirməkdə, illər boyu Əfqanıstanda birgə işləyərək hərbi qüvvələrimizin əldə etdiyi əməli təcrübənin artırılmasında, XXI əsrdə qloballaşan dünyada hamının üzləşdiyi təhlükəsizlik çağırışlarını birgə işləyərək aradan qaldırmaqda israrlıyıq. Bir sözlə, Azərbaycan NATO üçün, NATO isə Azərbaycan üçün dəyərli tərəfdaşdır. Biz güclü, uzunmüddətli tərəfdaşlığı qurmaq imkanına malikik və əminəm ki, bu fürsətdən istifadə etməyə çalışmalıyıq.

* * *

*Sonra Azərbaycan dövlətinin başçısı və alyansın baş katibi jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l** *(«Frans Press» agentliyi):* **Cənab Rasmussen, Ramil Səfərovun əfv olunmasından sonra Ermənistan Təhlükəsizlik Şurasının iclasında çıxış edən prezident Serj Sarkisyan «Azərbaycan özündən küssün» bəyanatını verib. Bundan sonra erməni terror təşkilatı «ASALA» Azərbaycan vətəndaşlarını ölümlə hədələmişdir. NATO-nun Baş katibi olaraq Ermənistan prezidentinin terrora siqnal bəyanatlarına münasibətiniz necədir?**

**A n d e r s F o q R a s m u s s e n** (*NATO-nun baş katibi*): Təbii ki, NATO-nun müttəfiqləri terrorçuluğu bütün formalarda pisləyirlər. Biz bütün məsuliyyətli siyasi liderlərə müraciət edirik ki, onlar terrorçuluğun həvəsləndirilməsindən çəkinsinlər. Yerli, regional vəziyyətə gəldikdə, gərginliyin azaldılmasına, əmək-daşlığın və barışığın təşviq edilməsinə böyük ehtiyac vardır. Mən vəziyyətlə bağlı çox narahatam. Ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini görəcəyik. NATO Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini təşkilatın Çikaqo sammitində bildirib. NATO bu münaqişənin həllinin tapılmasında birbaşa iştirak edən təşkilat deyildir və Minsk prosesini dəstəkləyir. Buna əsaslanaraq, biz münaqişənin sülh yolu ilə həllini görməyə ümid edirik.

**İ l h a m Ə l i y e v:** İcazə verin, mən də bir neçə söz əlavə edim. Mən Ramil Səfərovun məsələsi ilə bağlı danışmaq istərdim. Reaksiyalara cavab olaraq qeyd edirəm ki, Ramil Səfərovla bağlı qərar Avropa Konvensiyasına uyğun verilib və Prezidentin sərəncamı ilə onun əfv edilməsi Azərbaycan Konstitusiyasına uyğundur. Buna görə ümumi nöqteyi-nəzərdən vəziyyət tam aydındır. Azərbaycanı Konvensiyanın pozulmasında günahlandırmağa çalışanlar ya reallığı bilmir, ya da ictimai rəyi çaşdırmaq istəyirlər. Onu da qeyd etmək istəyirəm ki, Ermənistan bundan Azərbaycanla sülh prosesinə xələl gətirmək üçün fürsət kimi istifadə etməli deyildir. Azərbaycan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həllinə sadiqdir. Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin verdiyi bəyanat bizi çox həvəsləndirdi. Bu bəyanatda deyilirdi ki, status-kvo qəbuledilməzdir. Bu status-kvo dəyişilməlidir. Ermənistan status-kvonu qoruyub saxlamağa çalışır.

Ötən ilin iyul ayında Kazan şəhərində keçirilmiş görüş məsələnin sülh yolu ilə həllinin tapılmasında son cəhd idi. Hazırda isə sülh prosesi durğunluq vəziyyəti alıb. Fikrimcə, beynəlxalq ictimaiyyət və ilk növbədə Minsk qrupu Ermənistana imkan verməməlidir ki, bunu səbəb kimi istifadə etsin və danışıqları tamamilə dondursun.

Ramil Səfərovun məsələsinə gəldikdə, bir daha bildirmək istəyirəm ki, qərar beynəlxalq hüquq norma və qaydalarına uyğun verilib. Mən sadəcə, ermənilərə xatırlatmaq istəyirəm. Fransanın Orli aeroportunda 2001-ci ildə Avropa və Amerika vətəndaşlarının qətli ilə nəticələnən terror aktını törədən şəxs Fransadan Ermənistana ekstradisiya olunmuşdu. Baxmayaraq ki, o, Ermənistan vətəndaşı da deyildi, Ermənistan prezidenti isə onu əfv etdi. Mən terrorçular ilə zabitimiz arasında paralellik aparmaq istəməzdim. Lakin zabitimiz həbsdə artıq 9 il cəzasını çəkib. O cəzalandırıldı, onun əfvi ilə bağlı qərar hüquqi nöqteyi-nəzərdən düzgün qərardır. Bu, Prezidentin qəbul etdiyi qərardır və düzgün qərardır. Azərbaycan öz zabitini vətənə qaytardı.

**S u a l:** *(Azad Azərbaycan televiziyası):* **Cənab Baş katib, bildiyiniz kimi, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycan torpaqları təxminən 20 ildir Ermənistanın işğalı altındadır. Bu münaqişə Azərbaycan kəndlərinin və şəhərlərinin dağıdılması ilə nəticələnib. Bir milyondan artıq vətəndaşımız hələ də qaçqın və məcburi köçkün kimi yaşayır. Bununla belə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində gedən danışıqlar, yəni sülh yolu ilə həlli, göründüyü kimi, hələlik istənilən nəticəni verməmişdir. Münaqişənin ədalətli həllinə NATO hansı töhfəni verə bilər?**

**A n d e r s F o q R a s m u s s e n:** Əvvəlki cavabda artıq qeyd etdiyim kimi, NATO bir təşkilat kimi, Dağlıq Qarabağ münaqişəsinin həllinin tapılmasında birbaşa iştirak etmir. Biz bu cür ağır münaqişəni sülh yolu ilə həll etmək məqsədini qarşısına qoyan Minsk qrupunun apardığı prosesi dəstəkləyirik. Biz Çikaqo sammitinin bəyannaməsində mövqemizi açıq şəkildə bildirmişik. Biz regionda gərginliyin azalmasına və əməkdaşlığın, barışığın təşviq edilməsinə çalışırıq.

**İ l h a m Ə l i y e v:** Mən də bu fürsətdən istifadə edib NATO-nun tutduğu mövqeyə görə təşəkkür etmək istəyirəm. Bu, öncə qeyd etdiyim kimi, Çikaqo sammitində və əvvəlki

sammitlərdə qəbul edilən sənədlərdə əksini tapıb. Biz bu mövqeni yüksək dəyərləndiririk. Bir daha qeyd etmək istəyirəm ki, Ermənistan–Azərbaycan münaqişəsinin tezliklə həlli bütün ölkələrin marağına xidmət edən məsələdir. Bu, Azərbaycanın marağındadır. Çünki bu bizə işğaldan əziyyət çəkən insanların öz yurd-yuvalarına qayıtmasına imkan yaradacaqdır. Bu, Ermənistanın maraqlarına uyğundur. Çünki gərginliyin azaldılması və qonşular arasında münasibətlərin normallaşması onların marağına xidmət edəcəkdir. Buna görə biz ümidvarıq ki, Ermənistanın mövqeyi dəyişəcək, onlar münaqişənin həllinin tapılması məqsədilə Azərbaycan ilə mümkün qədər tez fəal və konstruktiv danışıqlar prosesini bərpa edəcəklər.

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Sizin hamınızı ölkəmizdə salamlamağa şadam. Şadam ki, Bakıda MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurasının növbəti iclası keçirilir. Bu, ölkəmizə münasibətin yaxşı əlamətidir. Biz bunu belə qəbul edirik. Əminəm ki, iclas yüksək səviyyədə keçəcək, qarşılıqlı fəaliyyətin, əməkdaşlığın mühüm məsələləri müzakirə olunacaqdır.

Ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı bütövlükdə çox dinamik və uğurla inkişaf edir. Əlbəttə, Daxili İşlər nazirliklərinin fəaliyyəti çərçivəsində əməkdaşlığın xüsusi əhəmiyyəti vardır. Azərbaycana gəldikdə isə, təmsil etdiyiniz ölkələrlə bizim aramızda bütövlükdə çox dost münasibətlər, etimada söykənən qarşılıqlı səmimi dəstəkləmə münasibətləri qurulmuşdur. Bu dəstək həm də əməkdaşlığın mövcud olduğu səviyyədə özünü büruzə verir.

Müasir dövrdə biz hamımız qarşılıqlı surətdə bağlıyıq və hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə birgə tədbirlər zəruri olduqda əməkdaşlığın potensialını, o cümlədən informasiya mübadiləsini gücləndirməyə çalışmalıyıq. Dünyada təhdidlər artır. Həmin təhdidlərin xarakteri dəyişməz qalsa da, formaları dəyişir. Əlbəttə, biz yeni

çağırışlara, yeni təhdidlərə hazır olmalıyıq. Vətəndaşlarımızın bir çox mənada təhlükəsizliyi və həyatı dost ölkələrin – indiki halda MDB məkanında – qarşılıqlı fəaliyyətinin nə dərəcədə səmərəli təşkil edilməsindən asılı olacaqdır. Mən bizim və MDB ölkələrinin daxili işlər orqanları arasında əməkdaşlığı təşkilatımız çərçivəsində, habelə ikitərəfli formatda çox müsbət dəyərləndirirəm və qiymətləndirirəm. Əminəm ki, Bakıda keçirəcəyiniz günlər inkişafın gələcək yollarının müəyyən edilməsi, bu əməkdaşlığın möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olacaqdır. Bu əməkdaşlıq həm də ümumi müsbət meylin ayrılmaz hissəsidir.

Sizin ölkələrinizin rəhbərləri ilə əlaqələrim və görüşlərimdə digər məsələlərlə yanaşı, biz həmişə bu mövzuları müzakirə edir və həmişə bu istiqamətdə irəliləyiş olduğunu qeyd edirik. Əlbəttə, ilk növbədə söhbət bilavasitə qonşular arasında əməkdaşlıqdan gedir. Bu əməkdaşlığın təbii ki, xüsusi formatı vardır, çünki qonşu ölkələrdə təhlükəsizlik, ümumiyyətlə, sənin öz təhlükəsizliyinin bir hissəsidir. Ölkələrimiz arasında vizasız rejim, kifayət qədər sərbəst yerdəyişmə nəzərə alınarsa, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi məsələləri çox vacibdir. Çünki ölkələrimizdə, təəssüf ki, bəzən gözlənilməz hadisələr, terror həmlələri baş verir. Təbii ki, biz bu çağırışlara hazır olmalı, səyləri birləşdirməli, informasiya mübadiləsi aparmalıyıq.

Mən bu gün dostumuz cənab Noblu görməyə çox şadam. O, artıq ilk dəfə deyil ki, Azərbaycana gəlir. Azərbaycan və İnterpol arasında əməkdaşlıq ən yüksək səviyyədədir. İnterpoldan aldığımız dəstək, texniki dəstək və məsləhətlər bizim üçün çox vacibdir. Mənə çox xoşdur ki, siz bu gün bu iclasda iştirak edirsiniz. Bu da çoxtərəfli əməkdaşlığın əlamətidir. Çünki vətəndaşlarımızın dinc həyatını qorumaq üçün belə məsələlərdə maksimum sayda ölkə birlikdə, necə deyərlər, bir qayıqda olmalıdır. Mən bir daha sizi ürəkdən salamlamaq, bizim nazirin dəvətini qəbul edib Bakıya gəldiyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu günlər

əməkdaşlığımız üçün əhəmiyyətli və şəxsi planda isə sizin üçün yaddaqalan olacaqdır.

**R a m i l U s u b o v** (*Azərbaycanın Daxili İşlər naziri):* Cənab Prezident, belə bir ümumi fikrə gəlmişik ki, Sizin qeyd etdiyiniz kimi, birgə fəaliyyət doğrudan da çox zəruridir, xüsusən transmilli cinayətkarlığa qarşı mübarizə məsələsində. Burada təmsil olunan bütün ölkələrlə bizim çox yaxşı münasibətlərimiz vardır. Xüsusilə də Sizin düzgün qeyd etdiyiniz kimi, qonşu ölkələrlə. Ələlxüsus, Şimali Qafqaz, sərhədyanı bölgələr məsələsində Rusiya Daxili İşlər Nazirliyi ilə çox yaxşı münasibətlərimiz var. Rəhbərlər tez-tez, ildə bir-iki dəfə görüşürlər.

**V l a d i m i r K o l o k o l t s e v** *(Rusiyanın Daxili İşlər naziri):* MDB ölkələrinin Daxili İşlər nazirləri Şurası həqiqətən, cinayətkarlığa qarşı mübarizə sahəsində dövlətlərarası xarakter daşıyan bir çox məsələləri həll etməyə imkan verir. Hətta bugünkü iclasda biz praktiki olaraq işimizin bütün prioritet istiqamətlərini müzakirə etdik, cinayətkarlığa qarşı mübarizəyə dair dövlətlərarası proqramların icrasının aralıq yekununu başa vurduq, gələcək əməkdaşlığımızın konsepsiyasını yaratmağın zəruri olduğunu müəyyənləşdirdik.

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlər, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2012-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Şahzadə həzrətləri!

Əziz qardaşım!

Milli bayramınız – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2012-ci il*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Meksika münasibətləri son illərdə dinamik şəkildə inkişaf etməkdədir. Daim genişlənən dostluq əlaqələrimiz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın genişlənməsi üçün əlverişli zəmin yaradır.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı yolunda atdığımız qarşılıqlı addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Meksika xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2012-ci il*

## MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

Hörmətli cənab Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malta arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulayır, dost Malta xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2012-ci il*

# ABŞ KONQRESMENLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi nəzarət və təhqiqatlar alt komitəsinin sədri Deyn Rorabaherin başçılıq etdiyi Tennessi ştatından Respublikaçı konqresmen Marşa Bləkbörndən, Texas ştatından Respublikaçı konqresmen Ted Podan, Kolorado ştatından Respublikaçı konqresmen Douq Lamborndan və alt komitə sədri ofisinin rəhbəri Pol Berkovitzdən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı və son illər ölkəmizin əldə etdiyi iqtisadi uğurlardan danışdı. ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi nəzarət və təhqiqatlar alt komitəsinin sədri Deyn Rorabaherin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılması üçün yaxşı imkan yaratdığını dedi.*

*Deyn Rorabaher Azərbaycana ikinci dəfə səfər etdiyini və ötən dövr ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu vurğuladı. Görüşdə ikitərəfli münasibətlərin genişləndirilməsində qanunverici orqanlar arasında əməkdaşlığın önəmi qeyd olundu, ikitərəfli əlaqələr, regional və enerji sahəsində əməkdaşlıq, eləcə də əlaqələrimizin digər sahələri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ZAQATALA RAYONUNA SƏFƏR

*9 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da respublikamızın şimal-qərb bölgəsinə səfəri çərçivəsində təyyarə ilə Zaqatala rayonuna gəlmişdir.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə cari il mayın 7-də baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar Zaqatalada görülən işlər və rayonda aparılan abadlıq-yenidənqurma tədbirləri barədə dövlətimizin başçısına ətraflı məlumat verdilər.*

### Şəhər 2 saylı tam orta məktəbin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da ölkəmizin şimal-qərb bölgəsinə səfəri çərçivəsində Zaqatalada 750 şagird yerlik Nizami Hüseynov adına şəhər 2 saylı tam orta məktəbin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 1952-ci ildə inşa edilmiş məktəb 500 şagird yerlik olmuşdur. Cari il mayın 7-də baş verən zəlzələ nəticəsində məktəbin binası qəzalı vəziyyətə düşmüşdü. Azərbaycan prezidentinin tapşırığına əsasən bu təhsil ocağı yenidən tikilib. Müasir görünüşü ilə diqqəti cəlb edən yeni məktəb binasında tədrisin keyfiyyətlə aparılması üçün bütün şərait yaradılıb, müasir avadanlıqla və dərs ləvazimatları ilə təmin edilmişdir. Məktəbin üçmərtəbəli binasının ümumi sahəsi bir hektardır.*

*Məktəbin binasının birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğılarını əks etdirən fotostend vardır.*

*Məktəbdə yaradılmış şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, burada 45 sinif otağı, fənn kabinetləri, zəngin kitab fonduna malik kitabxana, akt zalı, şagirdlər üçün istirahət zalları, 250 nəfərlik yeməkxana, bufet, müəllim otaqları, inzibati və digər otaqlar vardır. Burada, həmçinin ingilis dili, internetə qoşulmuş kompüter otaqları, müasir avadanlıqlarla təmin edilmiş laboratoriyalar fəaliyyət göstərir. Bu da şagirdlərin bilik və bacarıqlarının daha da genişləndirilməsinə böyük imkanlar açır. Hazırda məktəbdə təhsil alan 700 şagirdin təlim-tərbiyəsi ilə 110 müəllim məşğul olur. Tədrisin rus dilində aparıldığı məktəbdə ağac, metal üzərində oyma, tikiş emalatxanaları da fəaliyyət göstərir. Bu da şagirdlərin asudə vaxtlarını səmərəli keçirmələri ilə yanaşı, peşə sahəsində bilik və bacarıqlarını artırmalarına imkan yaradır.*

*Bildirildi ki, məktəbin müasir qurğularla təmin edilmiş idman zalında mini-futbol, basketbol və idmanın digər növləri ilə məşğul olmaq üçün lazımi şərait vardır.*

*Dövlətimizin başçısı məktəbdə yaradılmış şəraitdən razılığını bildirdi, kollektivə yeni tədris ilində uğurlar arzuladı.*

## Gözbarax kəndində uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Zaqatala rayonunun Gözbarax kəndində uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidenti uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Cari il mayın 9-da prezident İlham Əliyev zəlzələdən zərər çəkmiş Gözbarax kəndində olarkən, sakinlər kənddə uşaq bağçasının tikilməsini xahiş etmişdilər. Dövlətimizin başçısı bu kənddə uşaq bağçasının inşası barədə tapşırıq vermişdi. Ümumi sahəsi 1350 kvadratmetr olan bağçada 50 uşağın təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Fövqəladə Hallar*

*Nazirliyinin xətti ilə inşa edilmiş bağçada qazanxana, iki su anbarı tikilib, transformator quraşdırılıb.*

*Bağçanın foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara diqqət və qayğılarını əks etdirən fotostendlər yaradılıb. Burada 21 otaq, o cümlədən yeməkxana, kitabxana, həkim, musiqi və digər otaqlar vardır. Bağça iki qrup üzrə fəaliyyət göstərir. Burada 2 yaşından 6 yaşınadək olan uşaqlara təhsilin ilkin mərhələsi ilə yanaşı, rus və ingilis dilləri öyrədiləcəkdir. Bunun üçün bağça lazımi dərs ləvazimatları ilə təchiz olunub. Bağçada uşaqlara rəqs və musiqi dərsləri keçiriləcək, həmçinin əylənmələri, asudə vaxtlarını səmərəli keçirmələri üçün qış və yay oyun zalları fəaliyyət göstərəcək.*

*Prezident İlham Əliyev yeməkxanada və mətbəxdə yaradılan şəraitlə tanış oldu.*

*Bağçanın ətrafında geniş abadlıq işləri görülmüş, uşaqların istirahəti üçün müxtəlif attraksionlar quraşdırılmışdır.*

*Görülən işlərdən razılığını bildirən prezident İlham Əliyev bağçanın kollektivinə uğurlar arzuladı.*

## Gözbarax kənd sakini üçün yeni tikilmiş fərdi evlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da ölkəmizin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində evi qəzalı vəziyyətə düşən Zaqatala rayonunun Gözbarax kənd sakini, Qarabağ müharibəsi veteranı Mahir Soltanov üçün yeni inşa edilmiş fərdi evdə olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, evin əvvəlki sahəsi 170 kvadratmetr olmuşdur. Fövqəladə Hallar Nazirliyi tərəfindən tikilmiş yeni evin ümumi sahəsi 240 kvadratmetrdir. 5 otaqdan ibarət ikimərtəbəli ev qısa müddətdə və yüksək keyfiyyətlə tikilib. Lazımi avadanlıqla təchiz olunmuş, 9 bal gücündə zəlzələyə davamlı yeni evdə dörd nəfərdən ibarət ailənin*

*rahat yaşaması üçün hər cür şərait yaradılıb. Həyətyanı sahəyə hasar çəkilib, asfalt salınıb. Yeni ev elektrik enerjisi, təbii qaz və içməli su ilə təmin olunub.*

*Azərbaycan prezidenti evdə yaradılmış şəraitlə tanış oldu, görülmüş işləri yüksək qiymətləndirdi.*

*Ev sahibi Mahir Soltanov göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq etdi.*

## Gözbarax kənd tam orta məktəbinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Zaqatala rayonunun Gözbarax kəndində 500 şagird yerlik tam orta məktəbin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, təhsil ocağında yaradılmış şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyev məktəbin əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, bu ilin mayında Zaqatalada baş vermiş zəlzələ nəticəsində Gözbarax kənd tam orta məktəbinin binası tamamilə yararsız vəziyyətə düşmüşdür. Prezidentin göstərişinə əsasən bu il iyunun 12-də Fövqəladə Hallar Nazirliyinin xətti ilə məktəb üçün yeni binanın tikintisinə başlanılmışdır. Bina yüksək keyfiyyətlə və müasir tələblər səviyyəsində inşa olunub.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğılarını əks etdirən fotostendlər, eləcə də dövlət atributlarına aid xüsusi guşə yaradılıb.*

*Prezident İlham Əliyev sinif otaqlarında, fənn kabinetlərində, kitabxanada, yeməkxanada və idman zalında yaradılmış şəraitlə tanış oldu.*

*Dövlətimizin başçısı məktəbdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2012-ci il*

Mən yeni məktəbin açılışı münasibətilə Gözbarax kəndinin bütün sakinlərini təbrik edirəm. Gözəl hadisədir. Heç vaxt bu kənddə belə məktəb olmayıb. Köhnə məktəbin görüntüləri burada əks olunur. Doğrudan da bu məktəbin qısa müddət ərzində tikilməsi Azərbaycan dövlətinin nə qədər güclü olduğunu göstərir.

Biz sizinlə təxminən 4 ay bundan əvvəl görüşmüşdük. Dəhşətli zəlzələ baş verdikdən sonra mən dərhal buraya gəldim, sizinlə görüşdüm. O günü, o həyəcanı xatırlayıram. O da təbii idi. Çünki bir gündə insanlar öz evlərini itirmişdilər, dağıntılar həddindən artıq çox idi. Onu da xatırlayıram ki, sizə demişdim narahat olmayın, qısa müddətdə bütün evlər bərpa ediləcək, daha da gözəl evlər tikiləcək. Hazırda tanış olduğum bir ev onu göstərir ki, doğrudan da əvvəlki vəziyyətdən daha da gözəl vəziyyət yaradılmışdır. 4 ay ərzində bu qədər işin görülməsi doğrudan da böyük hadisədir. Zəlzələ baş verdikdən sonra görülən bütün işlər, tədbirlər bir məqsədi güdürdü. Məqsəd insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq, onları düşdüyü ağır vəziyyətdən tezliklə çıxarmaq idi.

Müvəqqəti məskunlaşma yerləri müəyyən edilib, çadırlar gətirilmişdir. Çadırda yaşamaq çox çətindir. Ancaq başqa çarəmiz yox idi. Əsas məsələ ondan ibarət idi ki, bütün bu bərpa işlərini biz qısa müddətdə, maksimum tez bir zamanda təşkil edək. Hazırda evlər tikilir, məktəb tikilib. Burada olarkən sakinlər uşaq bağçası ilə bağlı mənə müraciət etmiş və burada uşaq bağçasının olmadığını demişdilər. İndi uşaq bağçısı da tikilib.

Zəlzələ böyük bir bəla, böyük bir faciədir. Xoşbəxtlikdən insan itkisi olmayıb. Xilasedicilər çox operativ şəkildə işlə-

mişlər. Qərargah yaradılmışdır. Təmir-bərpa işləri onu göstərir ki, biz istənilən təbii fəlakət qarşısında da sınaqdan şərəflə çıxa bilərik və çıxmışıq. Əlbəttə, təmir-bərpa və yenidənqurma işləri çox böyük vəsait tələb edir. O vaxt parlamentimiz büdcəyə düzəlişlər etdi, əlavə vəsait nəzərdə tutuldu və o vəsait hesabına işlər başlandı.

Təkcə Zaqatala rayonunda 3500-dən artıq ev ya dağılmış, ya yararsız vəziyyətə düşmüşdür. Yəni zəlzələnin ən çox zərər verdiyi rayon Zaqataladır. Digər qonşu rayonlarda da dağıntılar var, amma ən böyük dağıntılar Zaqataladadır. Hazırda 3000 evin tikintisi davam edir. Məktəblər tikilir, 36 məktəb yenidən tikiləcəkdir. Onlardan 21-i Zaqatala rayonundadır.

Zəlzələ böyük bir sınaq, böyük bir faciə, fəlakət idi. Ancaq zəlzələnin fəsadlarının aradan qaldırılması nəticəsində daha da gözəl şərait yaradıldı. Bu gün baxdığım ev göz oxşayır. İkimərtəbəli, gözəl arxitektura elementləri ilə seçilən bu ev bu ailənin əvvəlki evindən bəlkə də 2 dəfə genişdir.

Onu qeyd etməliyəm ki, bu işləri biz dövlət hesabına görürük. Müxtəlif bölgələrdə, müxtəlif ölkələrdə təbii fəlakətlər, daşqınlar, zəlzələlər baş verir. Adətən, dövlət – yəni inkişaf etmiş ölkələrdə – bu təmir-bərpa işləri ilə məşğul olmur. İnsanlar özləri – onların evləri sığortalıdır – sığorta şirkətlərinə müraciət edir və kompensasiya yolu ilə öz evlərini bərpa edirlər. Bizdə isə belə deyil. Bizdə, xüsusilə kənd yerlərində heç bir ev sığortalanmayıb. Əslində gələcəkdə bu məsələ ilə də bağlı fikirləşməliyik. Bakı şəhərində artıq bu proses başlamışdır. Bölgələrdə də bunu etmək lazımdır. Ona görə dövlət bütün xərcləri öz üzərinə götürüb. Yəni bütün binalar, evlər dövlət vəsaiti hesabına tikilir və sakinlərə hədiyyə olaraq verilir. Bu da Azərbaycan dövlətinin sosialyönümlü siyasətin aparılmasında israrlı olduğunu bir daha göstərir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun həyatıdır, təhlükəsizliyidir və rifahıdır. Bu ağır hadisə, bu zəlzələ bir daha göstərdi ki, Azərbaycan bütün sınaqlardan öz gücü hesabına üzüağ çıxacaq və çıxır.

Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Həm şəhərdə, həm kəndlərdə böyük quruculuq işləri aparılır. Bu proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın. Hazırda isə bu kənddə gördüyüm mənzərə məni sevindirir. Tikinti işləri davam edir, sakinlər bu işlərdə fəal iştirak edirlər. 4 ay ərzində belə gözəl məktəbin tikilməsi, evlərin bərpası, yolların çəkilişi doğrudan da Azərbaycan dövlətinin gücünü və Azərbaycan hakimiyyətinin niyyətini göstərir.

Mən sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sizə yeni uğurlar arzulamaq istəyirəm. Arzu etmək istəyirəm ki, yaxın aylarda bu kənddə yerləşən digər evlər də bərpa edilsin və insanlar rahat yaşasınlar.

**Ə h m ə d Q u r b a n o v** *(kənd sakini):* Cənab Prezident, icazə verin, Zaqatala rayonunun bütün ağsaqqalları, Gözbarax camaatı adından Sizi salamlayım və «Xoş gəlmisiniz!» – deyim. Siz Gözbaraxa birinci dəfə gələndə gördüyünüz kədərli üzlər bu gün gülür. Böyüklərin və uşaqların o vaxtkı dalğın baxışlarında bu gün sevinc, şadlıq vardır. Bu sevinci, şadlığı insanlara Siz bəxş etdiniz. Siz onlara havadar durdunuz. Siz onların harayına yetişdiniz. Bu münasibətlə Sizə bütün zaqatalalılar, bütün Gözbarax camaatı adından ürəkdən minnətdarlıq edirik. Sizə «Çox sağ olun!» – deyirik.

Siz bu gün çox böyük zəhmət çəkib, vaxt tapıb Gözbarax kəndinə gəlmisiniz. Çox sağ olun ki, gəldiniz. Gəldiyiniz üçün, bu tədbirdə iştirak etdiyiniz üçün, Sizin göstərişinizlə tikilən bu gözəl məktəb üçün və bərpa edilməkdə olan Gözbarax kəndi üçün Sizə minnətdarlığımızı bildiririk. Gözbarax camaatı Sizə uzun ömür, cansağlığı arzulayır.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Keçən dəfə mən may ayında gəlmişdim. Ancaq o vaxt başqa işlərlə məşğul olmalı idik. Kənd camaatının ovqatı o qədər də yaxşı deyildi. Mən keçən dəfə helekopterlə gəldim ki, yuxarıdan seyr edim mənzərəni. Doğrudan da əsas diqqətim dağılmış evlərə yönəlmişdi. Amma

bu kəndin gözəl təbiətini də yuxarıdan görərkən, mən sevinc duyğuları keçirdim ki, doğrudan da Azərbaycan nə qədər gözəl ölkədir, nə qədər gözəl, mənzərəli, səfalı yerləri vardır. Bu yerlərdə ancaq inkişaf, quruculuq, abadlıq olmalıdır.

Dörd ay ərzində bu işlərin görülməsi doğrudan da böyük hadisədir. Bu, ilk növbədə Azərbaycan dövlətinin gücünü göstərir. Bütün bu işləri biz öz hesabımıza etmişik. Bizim inşaat şirkətləri, dövlət qurumları, vətəndaşlarımız öz vəsaitimizdən istifadə edərək, bütün bu işləri görmüşdür. Əminəm ki, nəinki bərpa işləri – bərpa işləri yaxın zamanlarda tamamlanacaqdır – ümumiyyətlə, gələcək inkişafla bağlı, bu şimal-qərb zonasının inkişafı ilə bağlı bizim çox böyük planlarımız vardır. Bu planların bir çoxu artıq reallaşıbdır. İnfrastruktur, aeroportların tikilməsi. Baxın, indi həm Zaqatalada, həm də Qəbələdə aeroport vardır. Yolların çəkilişi, burada su layihəsinin icrası gedir. Gələn ilin sonuna qədər, bəlkə ondan da tez Zaqatala şəhərinin içməli su ilə təmin edilməsi layihəsi başa çatacaqdır. Qazlaşdırma, məktəb tikintisi sürətlə gedir. Rayonda təqribən 70-ə yaxın kənd vardır. Hazırda məktəblərin əksəriyyəti normal vəziyyətdədir, ya yeni tikilmiş, ya da bərpa edilən məktəblərdir. Qəzalı vəziyyətdəki məktəblər də təmir olunacaqdır. Bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmayacaqdır.

Səhiyyə məsələləri həll olunur. Yadımdadır, biz burada Diaqnostika Mərkəzi tikdik. Ondan sonra şəhər xəstəxanası bərpa edildi, idman kompleksi, mədəniyyət ocaqları. Şəhər gözəlləşir, çox abad şəhərə çevrilibdir. Biz bu bölgənin turizm potensialından maksimum dərəcədə istifadə etməliyik. Daxili turizmi də inkişaf etdirmək lazımdır ki, bizim vətəndaşlar gəlsinlər, istirahət etsinlər. Bilirəm, indi gəlirlər və daha da çox gəlməlidirlər. Xarici turistlər də gəlməlidirlər. Çünki bu gün Azərbaycan artıq dünyada tanınan bir ölkədir. Buraya gələn, Bakını görən – yəni xoş niyyətlə gələnlər – hər bir xarici qonaq öz təəccübünü, sevincini gizlədə bilmir ki, Bakı nə qədər inkişaf edib. Dünyanın ən gözəl şəhərlərindən biridir.

Bölgələr də inkişaf etməlidir. Məhz buna görə 2004-cü ildə mənim təşəbbüsümlə regionların inkişaf proqramı qəbul edildi. Təsəvvür edin, əgər o proqram qəbul edilməsəydi, əgər biz bölgələrin inkişafına diqqət verməsəydik, indi Azərbaycanın uğurları yarımçıq ola bilərdi və iqtisadi inkişafı da bu qədər sürətlə gedə bilməzdi. Çünki bu ilin 6 ayında qeyri-neft iqtisadiyyatımız, yəni daha çox sənaye istehsalı və kənd təsərrüfatı hesabına formalaşan iqtisadiyyatımız 10 faizdən çox artmışdır. Neft iqtisadiyyatımız isə aşağı düşmüşdür. Çünki neftin hasilatı bir qədər aşağı düşüb. Neftdən asılılığı azaltmaq və aradan götürmək planlarımız həyata keçirilir. İnsanların rifah halı yaxşılaşır, pensiyalar, maaşlar artırılır, iş yerləri açılır. Budur inkişaf. Bütün bunları biz dünyanı hələ ki, sarsıdan iqtisadi və maliyyə böhranı zamanı əldə etmişik. Bu günlərdə dünyanın ən mötəbər qurumlarından biri olan Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 46-cı yerə layiq görmüşdür. MDB məkanında birinci Azərbaycandır. İqtisadi inkişaf templərinə görə yenə də birinci Azərbaycandır. Bölgədə idmanda birinci yenə də Azərbaycandır.

Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv olubdur. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir. Bu yaxınlarda «Qoşulmama Hərəkatı»nın zirvə görüşündə 120 ölkə Azərbaycanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan mövqeyini dəstəkləmişdir. Yəni bizim uğurlarımız hər yerdə görünür, hər yerdə də görünməlidir və hər kənddə də bu olmalıdır. Gözbarax kəndinin timsalında biz bunu görürük. Mən ikinci dəfədir bu kəndə gəlirəm. Dəvətə görə minnətdaram. Vaxt olsa bir də gələcəyəm. Bu onu göstərir ki, hər bir kənd, hər bir kənddə yaşayan sakin bizim diqqətimizin mərkəzindədir. Hər bir kənddə bütün məsələlər həll olunarsa, ölkə miqyasında bir dənə də həll olunmamış məsələ qalmaz.

Təmir-bərpa işləri davam edir. Bu işlərdə, bir daha demək istəyirəm ki, kənd sakinləri fəal iştirak edirlər. Fövqəladə Hallar Nazirliyi bu dövr ərzində çox fəal işləyibdir və işləyir. Yerli

icra hakimiyyəti fəal işləyir. Ötən dəfə burada olarkən Zaqatalada, qərargahda geniş müşavirə keçirdik. Göstərişlər verildi. Ondan sonra son 4 ay ərzində bu işlərin icrası daim nəzarətdə idi. Bu gün gəlmişəm ki, yeni dərs ilinin ərəfəsində bu məktəbi biz bir yerdə açaq. Bir də ki, vəziyyətlə özüm tanış olum, görüm işlər necə gedir. Məncə, yaxşı gedir.

Ümid edirəm ki, ilin sonuna qədər əsas işlər görüləcəkdir. İşin həcmi həddindən artıq böyükdür. İndi təhlillər aparılır. Təhlil göstərir ki, qəzalı vəziyyətdə olan yeni evlər vardır, biz onların da təmiri ilə məşğul olmalıyıq. Böyük işdir. Amma biz bu işin öhdəsindən gələcəyik. Bütün evləri bərpa edəcəyik, daha da gözəl şərait yaradacağıq.

**S a k i n l ə r:** Çox sağ olun! İnşallah.

**İ l h a m  Ə l i y e v:** Mən çox şadam ki, bu gün gözbaraxlıları xoş ovqatda görürəm. Bax, bu bizim ölkəmizə və bizim inkişafımıza yaraşır. Sağ olun! Bir daha təbrik edirəm.

**S a k i n l ə r:** Sağ olun! Çox sağ olun!

## Bəhmətli kənd tam orta məktəb binasının təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Zaqatala rayonunun Bəhmətli kəndində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa ediləcək şəhid Ələddin Cavadov adına tam orta məktəb üçün yeni binanın təməlqoyma mərasimində iştirak etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidenti yeni məktəb binasının gələcək görüntülərini əks etdirən stendə və layihə sxeminə baxdı.*

*Bildirildi ki, mayın əvvəlində ölkəmizin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində Zaqatalada Ələddin Cavadov adına Bəhmətli kənd orta məktəbi də qəzalı vəziyyətə düşmüşdür. Buna görə də kənddə yeni məktəb binasının tikintisi*

qərara alınmışdır. Onun yerində 3 korpusdan ibarət, 600 şagird yerlik üçmərtəbəli müasir tam orta məktəb binası tikiləcəkdir.

Diqqətə çatdırıldı ki, məktəbdə tədris prosesinin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılacaqdır. Təhsil ocağının cari ilin sonunda şagirdlərin ixtiyarına verilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı məktəbin təməlini qoydu.

Prezident İlham Əliyev tikinti işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.

## QAX RAYONUNA SƏFƏR

*9 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zaqatala rayonuna səfəri başa çatdıqdan sonra zəlzələnin vurduğu ziyanın aradan qaldırılması ilə bağlı görülən işlərlə tanış olmaq üçün sentyabrın 9-da Qax rayonuna gəlmişdir.*

Dövlətimizin başçısı cari il mayın əvvəlində ölkəmizin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində evi qəzalı vəziyyətə düşən Qax rayonunun Güllük kənd sakini Abdulla Məmmədov üçün yeni inşa edilmiş fərdi evdə oldu.

Bildirildi ki, Fövqəladə Hallar Nazirliyinin baş vermiş zəlzələ ilə bağlı müvafiq komissiyası tərəfindən Qax rayonunda keçirilən baxış nəticəsində 3 min 336 fərdi evin və 19 sosial obyektin qəzalı vəziyyətdə olmasına dair rəylər verilmişdir. Rayonun Güllük, Qapıçay, Ləkit, Ləkit-Kötüklü, Zərnə və Fıstıqlı kəndlərində sökülən evlərin 266-da tikinti işləri aparılır.

Qeyd edildi ki, güclü yeraltı təkanlar nəticəsində bu kənddəki 550-dən çox fərdi evin, demək olar ki, hamısına müxtəlif dərəcədə ziyan dəymişdir. Mayın 9-da prezident İlham Əliyev zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olmaq üçün fəlakət bölgəsinə səfər edərkən Güllük kəndində də olmuş, zərərçəkən sakinlərlə görüşmüşdü. O zaman Azərbaycan prezidenti kənd sakini Abdulla Məmmədovun ailəsinə də baş çəkmişdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən A.Məmmədov üçün tikilmiş fərdi evin ümumi sahəsi 118 kvadratmetrdir. 5 otaqdan ibarət ikimərtəbəli ev qısa müddətdə yüksək keyfiyyətlə inşa olunmuşdur. Yeni ev zəruri avadanlıqla təchiz edilmişdir.

Evin sahibi Abdulla Məmmədov ailəsi adından Azərbaycan Prezidentinə göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdi.

## Güllük kənd orta məktəbinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Qax rayonuna səfəri çərçivəsində əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmiş 300 şagird yerlik Güllük kənd orta məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısına məlumat verildi ki, Qax rayonunda baş vermiş təbii fəlakət nəticəsində qəzalı vəziyyətə düşən 10 məktəb binası sökülmüşdür. Fövqəladə Hallar Nazirliyinin sifarişi ilə podratçı təşkilatlar tərəfindən Ləkit kəndində 420, Zərnə kəndində 240, Qorağan kəndində 220 şagird yerlik tam orta məktəblərin binalarında tikinti işləri davam etdirilir. Güllük kəndində isə məktəbin əsaslı təmir işləri başa çatdırılıb. İkimərtəbəli məktəbdə 100-dən çox şagird təhsil alacaq. Təmir işləri zamanı məktəb tamamilə müasir səviyyədə yenidən qurulub.*

*Əsaslı təmir və yenidənqurma işləri ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

*Daha sonra dövlətimizin başçısı kənd sakinlərini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Gözəl məktəblə tanış olarkən 4 ay əvvəlki görüşümüzü xatırladım. Dörd ay əvvəl zəlzələ baş verəndən sonra sizinlə görüşdük. Sizə söz vermişdim ki, qısa müddət ərzində bütün təmir-bərpa işləri başlanacaq və qısa müddət ərzində də tamamlanacaq. 4 ay ərzində məktəbin bərpası, faktiki olaraq yenidən qurulması onu göstərir ki, biz həmişə olduğu kimi, sözümüzə əməl edirik.

**S a k i n l ə r:** Çox sağ olun. Allahdan Sizə cansağlığı arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sizi, uşaqları təbrik edirəm. Yeni dərs ilinin ərəfəsində bu gözəl məktəb artıq qapılarını uşaqların üzünə açıbdır. Burada heç vaxt belə şərait olmayıb. İndi bu məktəb əsaslı tikilib. Zəlzələ baş verərsə belə, buna heç bir mənfi təsiri olmayacaq. Amma ümid edək ki, zəlzələ daha olmayacaqdır.

Ancaq indi görülən bütün tədbirlər, tikilən bütün yeni evlər 9 bala hesablanıb. Əvvəlki evlərdən daha da keyfiyyətli, daha da gözəldir. İndi keçən dəfə olduğum bir evin yeni görüntülərini görərkən, mənim üçün müqayisə aparmaq o qədər də çətin deyil. Çünki 4 ay əvvəl dağılmış o evin həyətində idim. O evin sakinləri çox çətin bir psixoloji durumda idilər. Çünki gözləri qarşısında evləri dağılmışdı, yaşamağa yerləri yox idi. Tezliklə çadırlar gətirildi. Amma çadırda yaşamaq çox çətindir. Mən onlara söz verdim ki, qısa müddət ərzində sizin üçün daha da gözəl ev tikəcəyik. İndi o evə baxanda gördüm ki, doğrudan da böyük, əzəmətli, möhtəşəm bir villadır. Belə də olmalıdır. Bu kənddə 200-ə qədər ev yenidən tikiləcəkdir. Hamısı dövlət vəsaiti hesabına və keyfiyyətlə tikiləcək. Əlbəttə, kaş ki zəlzələ olmayaydı, ancaq yeni tikilən evlər əvvəlki evlərdən bir neçə dəfə daha keyfiyyətli və genişdir.

Verdiyim tapşırıqlar keyfiyyətlə yerinə yetirilir. Bütün müvafiq qurumlar səmərəli, gecə-gündüz işləyirlər. Qısa müddətdə – 4 ay ərzində böyük işlər görülüb. Amma işlər hələ davam edir, bərpa, tikinti işləri gedəcək. Elə etməliyik ki, bütün evlər tezliklə tikilsin və sakinlərin sərəncamına verilsin. Sizi bu münasibətlə təbrik edirəm.

**Firudin Məmmədov** *(kənd sakini):* Hörmətli cənab Prezident, Sizi Güllük kəndində yenidən görməyimizə çox şadıq və Sizə «Xoş gəlmisiniz!» – deyirik. Mayın 9-da kəndimizə gəlməyiniz, bizimlə görüşməyiniz, bizə təsəlli verməyiniz arxamızda güclü bir dövlətin, öz vətəndaşlarına qayğıkeş münasibət göstərən güclü bir rəhbərin dayandığını göstərdi. Sizin həmin görüşdə verdiyiniz bütün tapşırıqlar yerinə yetirilmişdir. Zəlzələdə dağılmış evlərin, sosial obyektlərin yerində daha geniş, daha yaraşıqlı, daha keyfiyyətli evlər tikilmişdir və tikilir. Bu məktəbin binası ona əyani bir misaldır. Bütün bunlara görə Sizə kəndimizin ziyalıları, bütün sakinləri adından «Çox sağ olun!» – deyirik, minnətdarlığımızı bildiririk və Sizə uzun ömür, cansağlığı arzu edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun, Sizi bir daha təbrik edirəm. Azərbaycanın hər bir kəndində çox gözəl şərait olmalıdır – məktəblər, evlər, yollar, kənd yolları. Biz bunu da etməyə çalışırıq.

**Ə h m ə d M u s a y e v** (*kəndin ağsaqqalı):* Hörmətli Prezident, kəndimizə gəlməyiniz münasibətilə ağsaqqallar adından Sizə minnətdarlığımızı bildirirəm. Biz Sizi kəndimizin dostu hesab edirik. Çünki insan bərkə düşəndə dostunu axtarır. Dostunu görəndə bütün ağrı-acılar canından çıxır. Mən də Sizə bu kəndin bir dostu kimi, kənd ağsaqqalları adından minnətdarlığımızı bildirirəm. Çox sağ olun. Allah ömrünüzü uzun etsin. Sizə cansağlığı, respublikanın abadlaşması yolunda müvəffəqiyyətlər arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən bura artıq ikinci dəfə gəlirəm. Ona görə bu ada layiqəm: Bu kəndin dostu!

**Ə h m ə d M u s a y e v:** Biz də elə ona görə deyirik ki, Siz bu kəndin dostusunuz. Allah qoysa, bu kəndi gələcəkdə qəsəbə şəklinə salacağıq.

**İ l h a m Ə l i y e v:** Ola bilər. Mən indi baxıram, böyük kənddir. Mənə deyirlər, ərazisi də çox böyükdür. Gözəl mənzərəsi var, gözəl dağlar qoynunda yerləşir. Kəndin yaxşı, gözəl gələcəyi olmalıdır, əhali artmalıdır. Məktəblər indi elə tikilir ki, gələcəkdə uşaqların sayı artdıqca çətinlik yaranmasın.

Azərbaycanda demoqrafik vəziyyət müsbətdir, əhalimiz artır. Hazırda 9 milyon 300 min əhali vardır. Getdikcə artır, artacaqdır. Uşaqların sayı daha da çox olmalıdır. Hər kəs üçün də şərait olmalıdır: iş yerləri, məktəblər, səhiyyə obyektləri, yollar, bütün infrastruktur, qazlaşdırma layihələri indi icra edilir. Ümid edirəm ki, gələn ilin sonuna qədər əksər kəndlər qazlaşdırılacaq. Bu kənd də qazlaşdırılmalıdır, proqrama salmaq lazımdır. Bir daha təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun. Minnətdarıq.

## ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏR

*9 sentyabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Qax rayonuna səfərini başa çatdıraraq Şəki şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı Şəki şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Azərbaycan prezidentinə son dövrlərdə ulu öndərin abidəsinin ətrafında, ümumiyyətlə, Şəkidə həyata keçirilən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Şəkidə Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin layihəsini əks etdirən stendlərə baxdı. Sonra inşa ediləcək Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı və Şəki Şəhər İcra Hakimiyyəti üçün tikiləcək yeni binanın maketi ilə tanış oldu.*

*Dövlətimizin başçısına Şəki şəhərinin baş planı təqdim olundu. Prezident İlham Əliyevə tikintisi davam etdirilən binalar və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr haqqında da məlumat verildi.*

*Azərbaycan prezidenti Heydər Əliyev Mərkəzinin təməlini qoydu.*

*Məlumat verildi ki, Mərkəzin tikintisi ulu öndərin xatirəsinin əbədiləşdirilməsi məqsədini daşıyır. Burada dahi rəhbərin irsinin öyrənilməsinə və təbliğinə geniş yer ayrılacaq. Mərkəzin ümumi sahəsi 5 min 629 kvadratmetr olacaq.*

*Orijinal memarlıq üslubunda inşa olunacaq Heydər Əliyev Mərkəzi 1969-cu ildən başlayaraq Heydər Əliyevin hakimiyyətdə*

*olduğu dövrlərdə Azərbaycanın keçdiyi inkişaf yolunu tam mənası ilə sərgiləyəcəkdir. Bu Mərkəz Heydər Əliyev irsinin təbliğində mühüm rol oynamaqla yanaşı, gənc nəslin dünyagörüşünün, bilik və bacarığının artırılmasına hərtərəfli imkan yaradacaqdır.*

*Dövlətimizin başçısı tikinti işlərinin yüksək səviyyədə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## M.F.Axundzadə adına Mədəniyyət və istirahət parkında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Şəkidə Mirzə Fətəli Axundzadə adına Mədəniyyət və istirahət parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Azərbaycan milli dramaturgiyasının banisi, böyük mütəfəkkir M.F.Axundzadənin parkda ucaldılmış abidəsinin önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, parkda yenidənqurma işlərinə ötən il başlanılıb. Şəki Şəhər İcra Hakimiyyətinin daxili imkanları hesabına aparılmış yenidənqurma işlərindən sonra ərazi tamamilə simasını dəyişib. Burada şəhər sakinlərinin istirahəti üçün hər cür şərait yaradılıb.*

*Prezident İlham Əliyev parkda görülmüş işlərdən razılığını bildirdi.*

## Dördulduzlu «Shaki Palace» hotelinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Şəkidə dördulduzlu «Shaki Palace» hotelinin açılışında iştirak etmişdir.*

*Hotelin kollektivi və inşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ümumi sahəsi 8 min kvadratmetr olan «Shaki Palace» hotelinin tikintisinə 2007-ci ilin mayında baş-*

*lanılmışdı. Hotelin binası iki hissədən – aşağı və yuxarı korpuslardan ibarətdir. Müasir havalandırma sistemi ilə təchiz edilmiş hotel kompleksinin eyni vaxtda 100 nəfərə xidmət göstərməsi nəzərdə tutulub. Hoteldə 40-dək işçi çalışacaq.*

*«Shaki Palace» hoteli Şəkinin turizm potensialının göstəricisi olmaqla yanaşı, bu bölgənin imkanlarını bir daha nümayiş etdirir.*

*Dövlətimizin başçısı hotelin həyətindən Şəki şəhərinin ümumi mənzərəsini seyr etdi. Burada dövlətimizin başçısına şəhərin qədimliyini qorumaqla yanaşı, daha da müasirləşdirilməsi üçün görüləcək işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyev hoteldə yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Hotelin kollektivi və inşaatçılar dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.*

## Taxıl anbarı və dəyirman kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 9-da Şəkiyə səfəri çərçivəsində burada taxıl anbarı və dəyirman kompleksinin açılışında iştirak etmişdir.*

*Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev məlumat verdi ki, regionların 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Şəki rayonunun Göybulaq kəndində 3 hektar ərazidə taxıl məhsullarının tədarükü, saxlanması və emalı kompleksi inşa edilmişdir. Respublikanın ən iri taxılçılıq rayonlarından olan Şəkidə yaradılan bu kompleksə taxıl anbarı və un dəyirmanı daxildir. Kompleksin ümumi layihə dəyəri 4,5 milyon manatdır. Bu layihənin icrasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 700 min manat güzəştli kredit verilmişdir.*

*Prezident İlham Əliyev dəyirmanın iş prosesindən bəhs edən filmə baxdı. Dövlətimizin başçısına «Karat Holdinq»in nəzdində fəaliyyət göstərən müəssisələrdə istehsal olunan məh-*

*sullar barədə də məlumat verildi. Bildirildi ki, burada əsasən düyü, un, makaron, qarabaşaq və digər məhsullar istehsal olunur və qablaşdırılır.*

*Azərbaycan prezidenti kompleksi işə saldı.*

*Bildirildi ki, layihənin icrasına 2010-cu ilin sonunda başlanılmış, 2012-ci ilin avqustunda başa çatdırılmışdır.*

*Məlumat verildi ki, taxıl anbarı xarici texnologiya əsasında qurulub. 14 min tonluq taxıl anbarı hər birinin tutumu 3,5 min ton olmaqla, 4 silodan ibarətdir. Müasir texnologiyaya əsaslanan taxıl anbarı Şəki və ətraf rayonlarda fəaliyyət göstərən fermerlərin istehsal etdiyi taxıl məhsullarının uzun müddətə itkisiz saxlanmasına imkan verir. Burada taxılın qəbulu, təmizlənməsi və qurudulması prosesi də həyata keçirilir. Dəyirmanın gündəlik istehsal gücü 220 tondur. Burada yüksək keyfiyyətli un istehsal edilir və qablaşdırılır. Layihələrin icrası nəticəsində 170 nəfər yeni iş yeri ilə təmin olunmuşdur.*

*Dövlətimizin başçısı kompleksdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## 423 məcburi köçkün ailəsi üçün salınmış yeni qəsəbənin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Şəkidə 423 məcburi köçkün ailəsi üçün salınmış yeni qəsəbənin istifadəyə verilməsi münasibətilə təşkil olunan mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı qəsəbədə tikilən 360 şagird yerlik Ağdam 29 saylı məcburi köçkün tam orta məktəbinə gəldi.*

*Burada qəsəbə sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Ağdam Mədəniyyət evinin kollektivinin çıxışını dinlədi.*

## ŞƏKİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2012-ci il*

Bu gözəl məktəbin və qəsəbənin açılışı münasibətilə sizi təbrik edirəm. 423 evdən ibarət qəsəbə, demək olar ki, bir neçə ay ərzində tikilib. İndi burada yaşayan vətəndaşlarımız əvvəllər fin tipli evlərdə yaşamışlar, böyük əziyyət çəkmişlər. Onların vəziyyətini, yaşayış şəraitini yaxşılaşdırmaq üçün biz gözəl qəsəbə saldıq. Bu doğrudan da böyük işdir, böyük tarixi hadisədir. Bu onu göstərir ki, Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusilə ehtiyacı olan vətəndaşlara böyük qayğı ilə yanaşır.

Bildiyiniz kimi, bu il Azərbaycan Dövlət Neft Fondundan 300 milyon manat vəsait ayrılmışdır. Əvvəlki illərə nisbətən bu daha böyük məbləğdir. Gələn il çox güman, bu məbləği daha da artıracağıq ki, məcburi köçkünlərin problemlərini tezliklə həll edək.

Bu qəsəbə vaxtilə qəbul edilmiş «Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı» əsasında tikilmişdir. Proqramın icrası bizə imkan verdi ki, birinci mərhələdə bütün çadır şəhərciklərini ləğv edək və onların yerində yeni qəsəbələr salaq. İndiki mərhələdə fin tipli evlərdə, məktəblərdə, hərbi hissələrin ərazilərində məskunlaşmış soydaşlarımızı gözəl şəraitlə təmin edirik. Bu qəsəbənin tikilməsi bu il görülən işlərin sadəcə olaraq, bir hissəsidir. Bu il bir neçə qəsəbə tikilib, tikilməkdədir. İlin sonuna qədər hələ bir neçə yerdə yeni qəsəbələr vətəndaşların sərəncamına veriləcək. Gözəl məktəb, gözəl evlər, rahat şərait, infrastruktur, bütün kommunal məsələlər öz həllini tapıb. İşıq, su, qaz xətləri çəkilmişdir, yollar salınmışdır. Bir sözlə, bu qəsəbədə rahat yaşamaq mümkün

olacaqdır. Azərbaycan dövləti öz sosial siyasətini bir daha bu qəsəbənin yaradılmasında göstərir.

Neft Fondunun fəaliyyətinə gəldikdə, demək olar ki, bütün məcburi köçkünlər üçün nəzərdə tutulmuş, tikilmiş və tikiləcək qəsəbələr fondun hesabına inşa olunacaqdır. Bu ənənəni ulu öndər Heydər Əliyev qoymuşdur. Onun göstərişi və fərmanı ilə Neft Fondundan birinci ödəmələr məcburi köçkünlərin problemlərinin həlli üçün yönəldilmişdi. Biz də hər bir sahədə olduğu kimi, bu sahədə də ulu öndərin siyasətinə sadiqik. Bu siyasət davam etdirilir və Neft Fondu hazırda bu istiqamətdə çox böyük işlər görür. Bu qəsəbə və digər qəsəbələr, Neft Fondunun xətti ilə tikilmiş binalar bir daha onu göstərir ki, neft Azərbaycan xalqına məxsusdur, bizim milli sərvətimizdir. Biz bu sərvətdən səmərəli şəkildə istifadə edərək, həm ölkə iqtisadiyyatını gücləndiririk, infrastruktur layihələrini icra edirik, həm də məcburi köçkünlərin problemlərini həll edirik.

Mən əminəm ki, gələcək illərdə də yeni qəsəbələr tikiləcək. Hazırda 120 min məcburi köçkün belə gözəl, buna bənzər evlərlə təmin edilib. Ancaq hələ o qədər də yararlı olmayan şəraitdə yaşayan köçkünlərimizin sayı kifayət qədər çoxdur. Biz onların problemlərinin həlli üçün çalışırıq, çalışacağıq və bayaq qeyd etdiyim kimi, yataqxanalardan, məktəblərdən, uşaq bağçalarından, hərbi hissələrin ərazilərindən məcburi köçkünlər yeni, gözəl evlərə, binalara köçürüləcəklər. Biz bu sosial yükü azaldırıq. Köçkünlərin məşğulluğu ilə bağlı olan problemləri həll edirik. Ancaq əsas problem torpaqlarımızın hələ də işğal altında qalmasıdır. Bunun səbəbini siz yaxşı bilirsiniz. Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı siyasəti nəticəsində torpaqlarımız işğal altındadır. Ermənilərin dünyadakı havadarlarının onlara verdikləri dəstəyin nəticəsində bu məsələ hələ ki, öz həllini tapa bilmir. Baxmayaraq ki, məsələnin həlli üçün bütün imkanlar, bütün hüquqi baza vardır. Beynəlxalq təşkilatlar qərarlar, qətnamələr qəbul etmişlər. Dünyanın aparıcı ölkələrinin liderləri bəyanatlar vermişlər ki, indiki vəziyyət dözülməzdir və vəziyyət dəyişdirilməlidir,

status-kvo dəyişdirilməlidir. Ancaq əfsuslar olsun ki, Ermənistan bu çağırışlara biganə qalır və beynəlxalq ictimaiyyət də onlara kifayət qədər güclü təzyiq və təsir göstərmir. Məsələnin həll olunmamasının səbəbi də məhz bundan ibarətdir.

Biz bundan sonra da ölkəmizi, beynəlxalq mövqelərimizi gücləndirəcəyik. Məsələnin həlli üçün hüquqi əsaslar kifayət qədər çoxdur və bu əsaslar Azərbaycanın mövqeyini müdafiə edir, dəstəkləyir. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, digər beynəlxalq təşkilatlar qərarlar qəbul ediblər və bu qərarlar məsələnin həlli üçün yeganə yoldur.

Azərbaycanın ərazi bütövlüyü bütün ölkələr tərəfindən tanınır və bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Məsələnin həlli ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və biz tutduğumuz yoldan dönməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. İşğal edilmiş bütün torpaqlardan işğalçılar çıxarılmalıdır və çıxarılacaqdır, Azərbaycan vətəndaşları doğma torpaqlarına qayıtmalıdırlar və qayıdacaqlar. Hazırda keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarından kənarda yerləşən bölgələrə və Dağlıq Qarabağa, Xankəndinə, Şuşaya bizim soydaşlarımız qayıdacaqlar.

İnanıram və mənim inamımı gücləndirən kifayət qədər çox amillər var: Beynəlxalq hüquq, Azərbaycanın iqtisadi qüdrəti, bizim hərbi potensialımız və siyasi müstəvidə Azərbaycanın artan çəkisi. Təkcə bir ilin tarixçəsinə nəzər salmaqla biz Azərbaycanın uğurlarını görə bilərik. Biz dünyanın ən mötəbər beynəlxalq təşkilatının – BMT Təhlükəsizlik Şurasının üzvüyük. Bir neçə ay bundan əvvəl bu təşkilata sədrlik etmişik. Bu təşkilata 155 ölkənin dəstəyi ilə daxil olmuşuq.

Bu yaxınlarda 120 ölkə – «Qoşulmama Hərəkatı»nın üzvləri Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair qətnaməni dəstəkləmişlər. 120

ölkə dünya birliyinin əksəriyyətidir. Biz bir çox hallarda beynəlxalq aləm anlayışını eşidirik və bəzi təşkilatlar, bəzi qurumlar beynəlxalq aləm dedikdə özlərini nəzərdə tuturlar. Beynəlxalq aləm 20, yaxud da ki, 30 ölkəni birləşdirən məsələ deyildir. Beynəlxalq aləm BMT-dir və BMT-də 155 ölkə bizi dəstəklədi. Beynəlxalq aləm «Qoşulmama Hərəkatı»dır. Orada 120 ölkə fəaliyyət göstərir. Onlar da bizi dəstəklədi. Yəni beynəlxalq aləm bizim mövqemizi dəstəkləyir və əlbəttə ki, bu bizə əlavə imkanlar verir, inamımızı artırır.

Bununla bərabər və xüsusi olaraq 20 ildir Minsk qrupu yaradılıb ki, bu məsələni həll etsin və məsələni həll edə bilmir, Ermənistana lazımi təzyiqi göstərə bilmir. Biz görürük ki, bu məsələ Azərbaycanın gücü hesabına öz həllini tapa bilər və tapmalıdır. Ona görə biz daha da güclü olmalıyıq. Biz ordumuzu daha da gücləndirməliyik və gücləndiririk. Hazırda Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında qüdrətli orduların sırasındadır. Biz iqtisadi potensialımızı gücləndirməklə ölkəmizi irəliyə aparırıq. Bu bizə imkan verir ki, bütün məsələlərlə bağlı müstəqil siyasət aparaq. Biz xarici və daxili siyasətlə bağlı milli maraqlara söykənən qərarları qəbul edirik. Güclü Azərbaycan güclü regional amildir. Həm də sabitləşdirici amildir, Azərbaycan ilə artıq regional məsələlərdə hesablaşmamaq mümkün deyil. Azərbaycan ilə hesablaşmamaq cəhdləri heç bir nəticə verməmişdir və yaxın tarix bunu göstərir. Ona görə, nə qədər güclü olsaq, Azərbaycan öz ərazi bütövlüyünü bir o qədər tez bərpa edəcək.

Məsələnin həlli ilə bağlı bizim birmənalı mövqemiz vardır. Bu barədə mən dəfələrlə fikirlərimi bildirmişəm. İşğal edilmiş bütün torpaqlardan işğalçı qüvvələr çıxarılmalıdır, ondan sonra bölgədə sülh, əməkdaşlıq yarana və təhlükə mənbəyi aradan götürülə bilər. Hələ ki, torpaqlarımız işğal altındadır, bizim bir nömrəli hədəfimiz Ermənistandır.

Biz bundan sonra da Ermənistanı bütün beynəlxalq və regional layihələrdən təcrid edəcəyik. Bu siyasət öz səmərəsini verir və Ermənistanın ağır iqtisadi vəziyyətinin səbəbkarı Azər-

baycandır. Bu birmənalıdır. Ermənistandan onların rəsmi statistikasının göstəricilərinə görə, ilin birinci yarısında 80 min adam köçmüşdür. İlin sonuna qədər bu yəqin ki, ikiqat rəqəmə çatacaqdır. Azərbaycan əhalisi artır və 5–10 ildən sonra, ümumiyyətlə, bu faizlər nisbəti birə on olacaqdır, bəlkə də ondan da az. Bu amillər onları düşündürməlidir. Ağır iqtisadi vəziyyət, demoqrafik vəziyyət, bütün beynəlxalq məsələlərdən təcrid edilmələri onları narahat etməlidir.

Azərbaycan isə irəliyə gedir. Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, biz böyük uğurlara imza atırıq və bu uğurları artırırıq. Bir neçə gün əvvəl mötəbər beynəlxalq iqtisadi qurum – Davos İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliyinə görə Azərbaycanı 46-cı yerə layiq görübdür, MDB məkanında birinci yerdəyik. Bizim işimiz haqq işidir. Biz ədalətin bərpasını istəyirik və buna nail olacağıq. Bizim üçün həm xarici siyasətimiz, həm də, ümumiyyətlə, bizim gündəliyimizdə duran bir nömrəli məsələ torpaqlarımızın işğalçılardan azad edilməsidir. Gecə-gündüz çalışırıq və bu fəaliyyəti davam etdirəcəyik.

Siz, əziz soydaşlarımız, əziz dostlar, uzun illərdir ki, Şəki rayonunun ərazisində yaşayırsınız. Şəkililər sizə qucaq açıblar. Siz burada özünüzü evdəki kimi hiss edirsiniz. Ancaq, əlbəttə, bilirəm ki, siz Qarabağ torpağına qayıdacağınız günləri gözləyirsiniz. Bu günlər də gələcəkdir. Amma Şəki şəhərində də sizin üçün bütün şərait yaradılıb. Şəkililər çox qonaqpərvər, mehriban insanlardır. Siz də bunu yaxşı hiss edirsiniz, görürsünüz.

Şəki şəhərinin və rayonunun inkişafı ilə bağlı çox böyük tədbirlər görülür. Mən dəfələrlə Şəkidə olmuşam, keçən il, bu il, ondan əvvəlki dövrdə. Böyük quruculuq, abadlıq işləri görülür. Bu gün Heydər Əliyev Mərkəzinin təməl daşını qoyduq. Şəkidə mədəniyyət, səhiyyə, təhsil sahəsində böyük işlər görülür, infrastruktur layihələri icra edilir. Şəki böyük mədəniyyət mərkəzidir, zəngin tarixə, mədəniyyətə malik olan diyardır. Şəkinin tarixi abidələri, mədəniyyət ocaqları lazımi səviyyədə

qorunur, bərpa edilir. Çünki bu bizim hamımızın milli sərvətimizdir.

Rayonun və şəhərin kommunal infrastrukturunun yeniləşdirilməsi məsələləri də öz həllini tapır. Bir sözlə, Şəki çox dinamik inkişaf edir. Şəkinin Azərbaycan dövlətinin tərkibində xüsusi yeri vardır. Yenə də deyirəm, mədəniyyət, incəsənət, elm ocağıdır. Gözəl təbiəti, gözəl insanları var və çox şadam ki, Şəkidə işlər yüksək sürətlə və keyfiyyətlə görülür. Keçən dəfə Şəkidə ötən ilin payızında olmuşam. Heç bir il keçməyib, amma gördüyüm dəyişikliklər məni çox sevindirir.

Şəkinin inkişafına dair mənim tərəfimdən bir neçə sərəncam imzalanmışdır. Xüsusi əhəmiyyətə malik olan böyük sərəncamda həm Şəkinin tarixi, həm də gələcək inkişaf haqqında məsələlər əksini tapıbdır. Bu yaxınlarda kənd yollarının tikintisinə dair əlavə sərəncam imzalanmışdır. Böyük vəsait ayrılır, gələcəkdə də ayrılacaqdır ki, Şəki və bütün başqa şəhərlərimiz, kəndlərimiz abadlaşsın, gözəlləşsin. Bütövlükdə Azərbaycanın şimal-qərb zonası Azərbaycanın turizm mərkəzinə çevrilibdir. Mən çox istəyirəm ki, bura nəinki Azərbaycanın, həm də beynəlxalq turizm mərkəzinə çevrilsin. Bunu etmək üçün də konkret fikirlərimiz, planlarımız var.

Mən sizi bir daha ürəkdən salamlayıram, sizə xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, burada sizin həyatınız rahat keçsin, uşaqlar yaxşı oxusunlar və gözəl gənc nəsil yetişsin.

**Aysel Mustafayeva** *(təhsil işçisi):* Möhtərəm cənab Prezident, inşa etdirdiyiniz bu yaraşıqlı məktəbin gələcək müəllimi kimi, Sizi salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm. Öz dəyərli vaxtınızı ayırıb biz məcburi köçkünlərlə bu gün görüş keçirdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Hələ ulu öndər Heydər Əliyevin dövründə məcburi köçkün və qaçqınlara göstərilən diqqət və qayğı, onların ehtiyac və tələbatlarının qarşılanması son 9 ildə Sizin rəhbərliyiniz altında uğurla davam etdirilir. Sərəncamınızla salınmış bu gözəl qəsəbəmiz və müasir standartlara cavab verən məktəbimiz Sizin biz köçkünlərə olan diqqət və qayğınızın bariz nümunəsidir.

Ötən ilin 24 dekabr gününü məcburi köçkünlərlə birlikdə qeyd etməyiniz bizi hədsiz dərəcədə sevindirdi. Biz bunu Sizin məcburi köçkünlərə – yerini, yurdunu itirmiş insanlara necə qayğı ilə yanaşmağınızın bir nümunəsi kimi qiymətləndiririk.

**M a i s S ə l i m o v** (*məktəbin direktoru)***:** Siz sərəncamlarınızla qədim Şəkinin simasını yenidən özünə qaytarırsınız. Bu saat Şəkidə çox böyük, sürətli işlər, tikinti işləri gedir.

Şəkidə görülən bütün bu tikinti işlərində onun tarixiliyi qorunub saxlanılır. Qoyulan hər bir daşda, ucaldılan hər bir abidədə, istifadəyə verilən bütün tikintilərdə tariximizin izi görünür. Mən düşünürəm ki, Sizin rəhbərliyiniz sayəsində Şəki yenidən özünə qayıdır. Şəki yenidən regionun sosial-iqtisadi və mədəni mərkəzi olmağa başlayır. Buna görə də biz Şəki ictimaiyyəti adından Sizə və çox hörmətli Mehriban xanıma öz minnətdarlığımızı çatdırırıq.

Arzu edirəm ki, xalqımızın bu sevgisi həmişə Sizinlə olsun, xalqımızın xeyir-duası həmişə üzərinizdə olsun. Biz həmişə Sizinləyik, həmişə Sizin yanınızdayıq və bütün fəaliyyətinizdə Sizi dəstəkləyirik. Bir daha sağ olun. Qədim Şəkiyə, doğma Şəkimizə xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Biz Şəkinin gələcək inkişafı ilə bağlı Yaqub müəllimlə, digər deputatlarla birgə fikir mübadiləsi aparırıq. Doğrudan da Şəkinin çox füsunkar, özünəməxsus gözəlliyi vardır. Gözəl, qədim şəhərdir. Heç bir başqa şəhərə bənzəmir. Ona görə burada bütün quruculuq, abadlıq işləri, bax, bu ənənəvi üslubda aparılmalıdır. İndi təmir edilən binalar, onların fasadları, dam örtükləri, döşəmələri, hasarları – nə varsa hamısını görürəm ki, qədim Şəki üslubundadır.

Keçən dəfə burada olarkən Aşağı Karvansarada gedən tikinti işləri ilə tanış oldum. Yəqin ki, yaxın aylarda təhvil veriləcəkdir. Orada çox gözəl mehmanxana olacaqdır və turistlər üçün bütün şərait vardır. Bu gün də mənim proqramımda yeni mehmanxananın açılışı vardır. Mən qeyd etdim, Şəki nəinki Azərbaycanın, bölgənin və dünyanın turizm mərkəzinə çevrilməlidir.

**Y a q u b  M a h m u d o v** *(AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı):* Cənab Prezident, Siz Azərbaycanın tarixi şəhərlərinin dirçəldilməsinə Şəkidən başladınız. Ona görə biz hamımız Sizə minnətdarıq. Çünki Şəkidən başlamaqla Siz Azərbaycanın tarixini, mədəniyyətini dirçəldirsiniz. Tarixi şəhərlər dirçələndə tarixi mədəniyyətimiz dirçəlir. Bütün bu işlərə görə xalqımız Sizə minnətdardır.

Mən istəyirəm ki, bu camaatın içində Ramilin adını çəkim. Mən Azərbaycan prezidentinə bayaq dedim, bir daha sizin qarşınızda demək istəyirəm. Prezidentimiz dünyanın böyük dövlət xadimidir. Mən bunları yazılarımda da demişəm. Amma Prezidentimiz bu gün Azərbaycan xalqının Milli Qəhrəmanıdır, Xalq Qəhrəmanıdır. Mən bildiyim üçün bunu sizə deyirəm. Mübariz İbrahimovla əlaqədar cənab Prezidentin nələr çəkdiyini bilirəm. Aylarla çalışdı, igid əsgərimizin cəsədini düşməndən aldı. Azərbaycan prezidentinə «İlin adamı» adını verirdilər. Dedi: «İlin adamı» mən yox, Mübariz olmalıdır. Prezident bir daha sübut etdi ki, Azərbaycan xalqı üçün kimdir.

Prezident Ramil Səfərov məsələsində bir daha düşmənlərimizə də, xalqa da sözünü dedi. Şəxsən mənim ürəyim dağa döndü. Dünyanın heç bir dövlət başçısı bu cəsarəti etməzdi. Mən şəxsən Azərbaycan xalqının adından Sizi bağrıma basıram. Kim nə deyir desin, biz Sizin arxanızdayıq. Həm dövlətimizin rəhbəri kimi, həm də Azərbaycanın Xalq Qəhrəmanı kimi. Xalq Sizinlədir.

**İ l h a m  Ə l i y e v:** Azərbaycan dövləti güclü dövlətdir və biz öz gücümüzü göstəririk. Biz doğrudan da böyük uğurlara imza atırıq. Olimpiya oyunları – baxın, idmançılarımız 10 dəfə Azərbaycanın milli bayrağını göylərə qaldırdılar, 2 dəfə himnimiz səsləndi. Paralimpiya oyunlarında artıq medalların sayı 12-yə çatdı. «Eurovision»u biz ən yüksək səviyyədə keçirdik. BMT Təhlükəsizlik Şurasına seçildik, böyük, gərgin mübarizə şəraitində, 16 turdan sonra. BMT-nin tarixində bəlkə nadir hallarda belə bir hadisəyə rast gəlmək olar ki, 16 turdan sonra seçiləsən. Bu nəyi göstərir? Bizə qarşı olan müqavimət

həddindən artıq çox idi. Amma biz bildiyimizi etdik və seçildik. May ayında Azərbaycan dünya siyasətinin mərkəzində idi. Bir ay ərzində biz Təhlükəsizlik Şurasına sədrlik etdik.

Mübariz İbrahimovun və Fərid Əhmədovun cəsədlərini Vətənə qaytarmaq çox böyük və ağır məsələ idi. Biz onları ermənilərin əlindən çıxarıb gətirdik və ləyaqətlə son mənzilə yola saldıq, onlara Milli Qəhrəman adı verildi.

Ramil Səfərovun Vətənə qaytarılması barədə – indi Yaqub müəllim dedi – əvvəllər, ümumiyyətlə, mən hesab etmirdim ki, biz nə isə deməli idik. Çünki əsas məsələ onu Vətənə qaytarmaq idi. NATO-nun Baş katibi bir neçə gün bundan əvvəl Bakıda idi və mətbuat konfransında mən məsələnin hüquqi tərəfinə toxundum. Bunu siz bilirsiniz. Azərbaycan dövləti götürdüyü beynəlxalq öhdəliklərə sadiqdir. Biz Ramil Səfərovu Avropa Konvensiyası əsasında Azərbaycana gətirdik və o, Azərbaycan Konstitusiyası əsasında əfv edildi. Mən orada bir sözü də dedim: əsas məsələ ondadır ki, Azərbaycan öz zabitini Vətənə qaytardı.

Baxın, bundan sonra bizə qarşı nə qədər təzyiqlər və ittihamlar başladı. Ermənilər, dünyanın erməni lobbisi hay-küy qaldırdılar. Mən bir neçə ay əvvəl təsadüfən deməmişdim ki, bizim əsas düşmənimiz erməni lobbisidir. Bunlar indi Azərbaycana qarşı nə qədər çirkin kampaniya aparırlar. Onların himayəsində olan rüşvətxor, riyakar, satılmış senatorlar, bəzi beynəlxalq qurumların rəhbərləri, bəzi siyasətçilər indi Azərbaycana əsassız ittihamlar irəli sürürlər. Axı bu ittihamların əsası yoxdur. Hər şey qanun çərçivəsində, Avropanın qəbul etdiyi konvensiyalar çərçivəsində edilib. Amma görün, Avropa Şurasının baş katibi nə deyib?! O adam ki vəzifəsi humanizmi təcəssüm etdirməkdir, onun vəzifəsi insan hüquqlarını qorumaqdır! Avropa Şurası dəfələrlə Azərbaycana qarşı əsassız ittihamlar irəli sürmüşdür. Mən bunu yaxşı bilirəm. Çünki 3 il Avropa Şurasındakı nümayəndə heyətinə başçılıq etmişəm. Təkidlə təzyiq edirdilər ki, biz cinayətkarları azadlığa buraxaq. Mən xatırlayıram, onların arasında bir cinayətkar var idi ki,

Avropa Şurasının təkidi ilə azadlığa buraxıldı. Ondan bir neçə ay sonra yenə cinayət törətdi, bütöv bir ailəni – ata, ana və kiçikyaşlı qız uşağını qətlə yetirdi. Həmin bu Avropa Şurası ki, bunun azadlığa çıxmasını tələb edirdi, indi də məni ittiham edir ki, Ramil Səfərovu niyə əfv etmişəm.

Həmin o adamın vətənindən olan Breyviq 80-ə yaxın adamı qətlə yetirdi, 21 il iş verdilər. Hər bir ölənə elə bil ki, 3 ay cəza düşür. Elə şey olarmı?! Ona görə niyə səsini çıxarmır?! Yaxud da bir ermənipərəst senator var, Menendez. Qatı antiazərbaycan, islamofob, ermənipərəst bir adamdır. Onun son əməli ondan ibarətdir ki, Amerikanın Azərbaycandakı əvvəlki səfirinin vaxtının uzadılmasına yol vermədi, onun namizədliyinin qarşısını aldı. İki səbəbə görə. Birinci səbəb, Amerika səfiri qondarma «erməni soyqırımı»nı tanımır. O heç tanımamalıdır. Çünki Amerika dövləti bunu tanımır. İkinci səbəb ondan ibarət idi ki, bu səfirin xanımı türk mənşəlidir. Axı bu rasizmdir, islamofobiyadır. Biz bunları bilməliyik. Amma onu demək istəyirəm ki, bunların heç biri mənim iradəmə, fikirlərimə, hərəkətlərimə təsir edə bilməz və heç vaxt təsir etməyəcəkdir.

**Y a q u b  M a h m u d o v:** Getsinlər ASALA-nı ittiham etsinlər, beynəlxalq terror təşkilatını. Ermənistan terrorçu dövlətdir. Serj Sarkisyan Xocalı soyqırımının iştirakçısıdır və əli qana batıbdır. Bunu özü də etiraf edib. Bəs bunları niyə qaldırmırlar?! Ona görə də, cənab Prezident, Sizə eşq olsun, Sizi xalq sevir və bu yolla da getmək lazımdır.

* * *

*Daha sonra dövlətimizin başçısı 29 saylı tam orta məktəbdə yaradılmış şəraitlə tanış oldu.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verdi ki, yüksək şəraiti ilə seçilən, müasir təlim-tədris avadanlığı ilə diqqəti cəlb edən bu məktəbdə müəllim və şagird kollektivi üçün hər cür şərait yaradılıb. Bu bir daha təsdiqləyir ki, Azərbaycan zəngin təbii*

*sərvətlərdən səmərəli istifadə yolu ilə insan kapitalının daha da inkişaf etdirilməsini prioritet istiqamət seçmişdir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin vacib prinsipləri sırasına daxil edilmişdir. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilmiş, bir çox məktəb üçün yeni korpuslar inşa olunmuşdur. Bu proses ən ucqar bölgələrimizi də əhatə etmişdir.*

*Diqqətə çatdırıldı ki, qəsəbədə 50 yerlik uşaq bağçası da inşa olunub. Bağçada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınıb. Bu qəsəbə Şəki rayonunun Kiş bələdiyyəsinin ərazisində prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunub. Məktəbin ikinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin məcburi köçkünlərə diqqət və qayğılarını əks etdirən stendlər yaradılıb.*

*Prezident İlham Əliyev qəsəbədə yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*10 sentyabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikamızın şimal-qərb bölgəsinə səfəri çərçivəsində sentyabrın 10-da Qəbələ şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, parkda əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.*

### Mədəniyyət evinin yeni tikilmiş binasında son tamamlama işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələ Mədəniyyət evinin yeni tikilmiş binasında görülən son tamamlama işlərinin gedişi ilə tanış olmuşdur.*

*Əvvəlcə dövlətimizin başçısı Mədəniyyət evinin planını və tam hazır olduqdan sonrakı görünüşünü əks etdirən stendlərə, eləcə də binanın maketinə baxdı.*

*Prezidentə məlumat verildi ki, bu binanı digərlərindən fərqləndirən cəhət daxili divarlarının ekoloji cəhətdən təmiz və nəfis şəkildə işlənmiş taxta materiallarla örtülməsidir. Tikinti zamanı binanın memarlıq baxımından gözəlliyinə xüsusi diqqət yetirilib. Mədəniyyət evinin yerləşdiyi ərazi Qəbələnin ümumi görkəminə uyğun olaraq abadlaşdırılıb. Dövlətimizin başçısı Mədəniyyət evinin kinoteatr zalına baxdı. Bildirildi ki, 400 yerlik zalda teatr avadanlığı üzrə məşhur italyan şirkətinin istehsalı olan oturacaqlar quraşdırılmışdır. Binanın işıqlandırma və səsləndirmə sistemi də dünyanın tanınmış şirkətlərinin məhsuludur. Qəbələdə bir çox incəsənət kollektivlərinin fəaliyyət göstərdiyi nəzərə alınaraq, yeni binada*

*rejissor, qrim, istirahət otaqları, dekorasiya və tikiş sexləri də yaradılır.*

*Görülən işlərlə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Konqres Mərkəzində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələ Konqres Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Mərkəzin planını və gələcək görünüşünü əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, 2,8 hektar torpaq sahəsi ayrılmış mərkəzdə 1200 yerlik ikimərtəbəli konfrans zalı fəaliyyət göstərəcəkdir. Mərkəzin ərazisində avtomobil dayanacağı da yaradılacaqdır.*

*Qeyd edildi ki, ümumi sahəsi 10 min 200 kvadratmetr olan mərkəzin gələn ilin birinci yarısında istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Mərkəzdə yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş məscidin yeni binasında son tamamlama işləri ilə tanışlıq

*Sentyabrın 10-da Azərbaycan prezidenti İlham Əliyev Qəbələ şəhər məscidinin yeni binasının tikintisinin son tamamlama işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı məscidin tikintisinin tam başa çatmasından sonrakı görüntülərini əks etdirən fotostendə baxdı.*

*Məlumat verildi ki, Qəbələ şəhər məscidinin əvvəlki kiçik binası son dövrdə tamamilə yararsız vəziyyətə düşmüşdü. Məscidin binasının tikintisinə 2011-ci ilin martında başlanılmış,*

*bu məqsədlə 800 kvadratmetr torpaq sahəsi ayrılmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən məsciddə eyni vaxtda 800-ə yaxın insan ibadət edə biləcəkdir. Məscidin ikimərtəbəli əsas binasının, eləcə də giriş pilləkəninin, körpücüyün və 21,6 metr hündürlüyündə minarəsinin tikintisi artıq başa çatdırılmışdır. Minarələrin davamlılığını artırmaq məqsədi ilə 10 metr dərinliyində özülbərkitmə işləri aparılmışdır. Hazırda binanın daxilində işlər yekunlaşmaq üzrədir.*

*Diqqətə çatdırıldı ki, məscidin ərazisindəki məişət binasında da son tamamlama işləri görülür. Burada kitabxana, mərasim zalı, dəstəmaz yerləri və digər otaqlar fəaliyyət göstərəcəkdir.*

*Dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Karvansara hotel kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələdə Karvansara hotel kompleksinin tikintisinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı kompleksin texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, ümumi sahəsi 19 min 700 kvadratmetr olan kompleksdə 450 nəfərlik restoran, trenajor, fitnes zalları fəaliyyət göstərəcəkdir. Burada, həmçinin hovuz, fəvvarələr kompleksi, avtomobil dayanacağı, qonaqların istirahətini yüksək səviyyədə təşkil etmək üçün hər cür avadanlıqla təchiz olunan müxtəlif idman zalları yaradılacaqdır. Gözəl dizayn və interyeri ilə seçiləcək otaqlarda son dövrdə böyük turist axını müşahidə edilən Qəbələnin qonaqlarına yüksək səviyyəli xidmət göstəriləcəkdir. Bir hissəsi 3, digər hissəsi isə 4 mərtəbədən ibarət olacaq kompleksin tikintisinin gələn ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulub.*

*Dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Stend və ox atıcılığı kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələ rayonunun Bum qəsəbəsində stend və ox atıcılığı kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin 25 hektarlıq sahəsi dağlıq ərazini əhatə edir. Ərazidə inzibati bina, silah-sursat anbarı və mağazası, 45 atıcılıq yeri üçün 50 və 25 metrlik, 30 atıcılıq yeri üçün 10 metrlik tirlər, 8 dairəvi səngər, 7 meydança, 25–50 metr məsafələrdə ox atmaq üçün sahə, 120 yerlik yeməkxana binası, elektromobilləri yükləmək və saxlamaq üçün otaq və sahə, yarışları seyr etmək üçün tribuna, bayraq meydançası, nəzarət-buraxılış məntəqəsi, istirahət məkanları yaradılacaqdır. Bundan başqa, ərazidə içməli su və yanğından mühafizə çənləri, müxtəlif mühəndis qurğuları, transformator yarımstansiyası da qurulacaqdır.*

*Prezident İlham Əliyev tüfəngdən hədəfə bir neçə sərrast atəş açdı.*

*Dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## «Tufan» dağ-xizək yay-qış istirahət kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələdə tikilən «Tufan» dağ-xizək yay-qış istirahət kompleksində işlərin gedişi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, dağlıq ərazidə istirahət üçün bütün əlverişli şəraitə malik olan bu sağlamlıq-turizm obyekti Qəbələ şəhərindən təxminən 4 kilometr aralıda yerləşir. Kompleksin inşa edilməsi turistlər üçün bütün fəsillərdə ekskursiya və digər istirahət imkanlarını təmin etməklə yanaşı, onların qış idman növləri ilə məşğul olmalarına şərait yaradacaqdır. Kompleksin «trassa» sistemi hər bir qonağın onun üçün məqbul enmə*

*zolağını, maililiyini və çətinlik dərəcəsini seçmək üçün nəzərdə tutulub. Yamaclar «Everest» markalı xüsusi təyinatlı kipləşdirici qurğuların köməyi ilə möhkəmləndiriləcəkdir. Dağ yamaclarının kənarı ilə və ya düzənlik sahələrdə enmə marşrutunun yaradılmasında bu texnikadan istifadə edilməsi səmərəli üsul olmaqla yanaşı, xizək sürənlərin təcrübə toplamasına xidmət edəcəkdir. İnşası nəzərdə tutulan 10 enmə zolağının ümumi uzunluğu 18 min metrdir. Dağ-xizək liftləri hava şəraiti – küləyin sürəti və istiqaməti, yamacdan enmə imkanları, xizək sürənlərin digər trassalardan kənar hərəkətetmə imkanları nəzərə alınmaqla, qonaqların seçilən ərazinin əlçatan yerlərinə ən məqbul üsullarla çatdırılması üçün nəzərdə tutulub. Bütün dağ-xizək trassasının enmə zolaqlarının süni qaryaratma sistemi ilə təchiz edilməsi qərara alınıb. Kompleksin ərazisində xizəklə eniş zolaqlarının qar örtüyünün təmin edilməsi məqsədilə burada 223 süni qaryaratma qurğusunun yerləşdirilməsi planlaşdırılır. Bu istirahət mərkəzi gün ərzində 3000 nəfərə xidmət göstərmək imkanına malik olacaqdır.*

* * *

*Daha sonra prezident İlham Əliyevə Qəbələ rayonu ərazisində inşası planlaşdırılan «Aquapark» istirahət və əyləncə mərkəzi haqqında məlumat verildi.*

*Bildirildi ki, yeni mərkəz bir neçə funksional hissədən ibarət olacaqdır. Konstruktiv quruluşuna görə mərkəzin binası monolit dəmir-beton tikili olacaqdır. Dam örtüyü açılıb-yığılan alüminium konstruksiyadan qurulacaqdır.*

*Diqqətə çatdırıldı ki, yüksək komfortlu funksional zona kimi fəaliyyət göstərəcək mərkəzin su-əyləncə bölməsinin ümumi sahəsi 5 min kvadratmetr olacaqdır. Burada bütün su attraksionları yerləşdiriləcəkdir. İlin isti aylarında dam örtüyünün açılması nəzərdə tutulur. Xüsusi avadanlığın köməyi ilə burada 1,2 metrə qədər hündürlükdə süni dalğaların yaradılması mümkündür. «Aquapark» çoxlu sayda müxtəlif texniki sistemlərdən istifadə edilməklə inşa olunacaqdır.*

* * *

*Prezident İlham Əliyev rayonda inşası nəzərdə tutulan «Golf Resort» idman və istirahət mərkəzinin layihəsi ilə də tanış oldu.*

*Məlumat verildi ki, Azərbaycanda qolfun populyarlaşdırılması və bu idman növünə marağın artırılması məqsədilə ölkənin ən dilbər guşələrindən birində – Qəbələ rayonunda qolf idman meydançasının, habelə Qolf Akademiyası və klubunun yaradılması qərara alınmışdır. Layihəyə əsasən, Qəbələ rayonu ərazisindən keçən Dəmiraparan çayı ilə ətrafdakı dağ massivinin arasındakı 80 hektarlıq ərazidə qolf meydançasının, qolf-klubun, hotel binasının, villaların və müvafiq infrastruktur obyektlərinin inşası nəzərdə tutulur. Mövsümi yağıntıların və dağlarda qar örtüyünün əriməsi nəticəsində Dəmiraparan çayında baş verə biləcək daşqın hallarının qarşısını almaq, bununla da qolf meydançasının mühafizəsini təmin etmək məqsədilə çayın sahilində istinad divarları tikiləcəkdir. Klassik forma və üslubda inşa ediləcək bu mərkəzdə klub üzvlərinin və qonaqların səmərəli istirahəti üçün hər cür şərait yaradılacaqdır.*

*Azərbaycan prezidenti tikinti işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## ATƏT-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Qəbələ*

*10 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Qəbələdə ATƏT-in üzvü olan ölkələrin səfirlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev diplomatları salamladı:*

– Hörmətli səfirlər, xoş gəlmisiniz!

İlk növbədə, Qəbələyə gəldiyinizə görə sizə təşəkkürümü bildirirəm. Bilirəm, çox məşğulsunuz, bu gün və sabah Bakıda çoxlu görüşləriniz var. Ümid edirəm ki, görüşləriniz uğurlu olacaq. Çox vaxt Azərbaycanla bağlı kütləvi informasiya vasitələrindən xəbər tutduğunuz vəziyyəti öz gözlərinizlə görəcəksiniz. Bu, insanlarla görüşmək, ölkənin inkişafını, əldə olunan nailiyyətləri görmək üçün yaxşı fürsətdir.

Keçən il biz müstəqilliyimizin 20 illiyini qeyd etdik. Bu müddət ərzində Azərbaycan bütün sahələrdə nəzərəçarpacaq irəliləyiş əldə edib. Ötən il Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi beynəlxalq ictimaiyyətin bizə verdiyi dəstəyin bariz nümunəsi idi. Bu 20 il ərzində biz özümüzü yaxşı tərəfdən göstərməyə nail olmuşuq, dünyaya öz səsimizi çatdıra bilmişik. 155 ölkənin bizə verdiyi dəstək gördüyümüz işlərin nəticəsi idi.

Biz Azərbaycanda siyasi və iqtisadi islahatlar siyasətini yürüdürük. Bunları paralel şəkildə həyata keçirməyə çalışırıq. Bu sahədə inkişafa nail olmuşuq. 10 ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Biz üzərimizə siyasi transformasiyaya dair bir sıra öhdəliklər götürmüşük. Keçmişə, hər şeyin nədən başladığına nəzər saldıqda görürük ki, siyasi sistem fərqliydi, bazar iqtisadiyyatı isə mövcud deyildi. 1991-ci ilədək

biz Sovet İttifaqının bir hissəsi idik. Bunun necə sistem olduğu sizə məlumdur. İndi ölkədə siyasi təsisatlar, demokratik azadlıqlar, ifadə azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı mövcuddur. Düşünürəm ki, bu, xalqımızın inkişafı üçün mühüm rol oynayıb. Bizdə azad internet vardır və ölkə əhalisinin 60 faizi internet istifadəçisidir. Bütün kəndlər genişzolaqlı internet xətti ilə təmin edilib. Bu proqram ən geci il yarım ərzində tamamlanacaqdır.

Biz iqtisadi sahədə əhəmiyyətli dəyişikliklərə nail olmuşuq. Ölkə iqtisadiyyatında özəl sektorun payı 60 faizdən çoxdur. Bir neçə il dünyanın ən sürətlə inkişaf edən ölkəsi olmuşuq. Bu da bizə son 9 il ərzində ümumi daxili məhsulu 3 dəfə artırmağa, yoxsulluq səviyyəsini 49 faizdən 7 faizə endirməyə imkan yaradıb. İşsizlik səviyyəsi 5,4 faizə düşüb. 9 milyondan çox əhalisi olan ölkədə 1 milyon iş yeri açmağa müvəffəq olmuşuq. Biz həmçinin iqtisadiyyatı şaxələndirə bilmişik.

Beynəlxalq maliyyə institutları bizim islahatları dəstəkləyir. Davos İqtisadi Forumunun dünya ölkələrinin rəqabətlilik göstəricisi siyahısında Azərbaycan 46-cı yerdədir. Bir neçə ildir ki, biz MDB dövlətləri arasında 1-ci yerdəyik. Bu yaxınlarda iqtisadi və maliyyə böhranına baxmayaraq, «Standard & Poors», «Moodys» və «Fitch» reytinq agentlikləri Azərbaycanın kredit reytinqini yüksəldib. İnsanların həyat səviyyəsi gündən-günə yaxşılaşır. Biz çoxsaylı sosial infrastruktur layihələri həyata keçiririk və iqtisadi transformasiya artıq reallıqdır. Enerji mənbələrindən asılılığı  aradan qalldırmağa nail olmuşuq. İslahatlara başladığımız dövrdəki asılılıqdan azad olmağa nail olmuşuq. Hazırda ümumi daxili məhsulda enerji amilinin çəkisi aşağı düşməkdədir, qeyri-neft sektorunun payı artır. Bu ilin ilk 6 ayı ərzində qeyri-enerji iqtisadiyyatımız 10 faizdən çox artıb. Bu da onu göstərir ki, iqtisadiyyatın transformasiyası və şaxələnməsi uğurlu olub.

Enerji layihələrinin həyata keçirilməsinə başladığımız zaman bəzi insanlar «Holland sindromu» təhlükəsi ilə üzləşəcəyimizi, neftin Azərbaycan üçün bəlaya çevriləcəyini bildirmişdilər.

Lakin enerji layihələrindən əldə olunan maliyyə vəsaitlərinin müdrik idarə olunması, həmin sərvətin əhali arasında düşünülmüş şəkildə bölüşdürülməsi və strateji əhəmiyyətli layihələrin reallaşması sayəsində enerji amilindən asılılığı azalda bilmişik. Buna baxmayaraq, enerji təhlükəsizliyi iqtisadi və siyasi həyatımızın mühüm bir parçası olaraq qalacaqdır. İndi bizim enerji mənbələrimizə daha çox tələbat vardır. Biz dostlarımızla geniş əməkdaşlığa, dünya enerji bazarının proqnozlaşdırılması, istehsalçılar arasında ədalətli rəqabət, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balanslaşdırılmasına istiqamətlənmiş mühüm enerji layihələrini həyata keçiririk. Əminəm ki, əldə etdiyimiz inkişafı, üzləşdiyimiz çətinlikləri öz gözlərinizlə görmək üçün bu gün və sabah belə bir imkanınız olacaqdır.

Təkcə bizim üçün deyil, həm də bütün dünya üçün əsas narahatlıq doğuran məsələ Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsidir. Münaqişə, onun başlanması səbəblərinin təfərrüatlarına varmaq istəməzdim. Siz bunu yaxşı bilirsiniz. Lakin bu iki məsələyə diqqətinizi yönəltmək istərdim. Azərbaycan erməni təcavüzünün qurbanıdır. Bu, danılmaz faktdır. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini işğal altında saxlamaqda davam edir.

Bildiyiniz kimi, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən bu ərazidə azərbaycanlılar məskunlaşıblar. Hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir. Sovet vaxtı Dağlıq Qarabağ muxtar vilayət olub, hətta muxtar respublika belə olmayıb, o, Ermənistanla inzibati sərhədlərə belə malik deyil. Beləliklə, Dağlıq Qarabağ Azərbaycanın ərazisi daxilində yerləşir və münaqişə başladıqda orada yaşayan insanların etnik tərkibi 75-25 faiz nisbətində idi. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulublar. Ermənistan 7 ətraf rayonda etnik təmizləmə siyasəti aparıb. Halbuki orada heç bir zaman erməni əhalisi yaşamayıb. Nəticədə bizim Dağlıq Qarabağın ətrafındakı rayonlardan 750

mindən çox, Qarabağın özündən 40 min, Ermənistandan qovulan 200 mindən çox qaçqın və köçkün soydaşımız var. Bu rəqəmlər, aydın məsələdir ki, münaqişənin başlandığı, etnik təmizləmə aparıldığı dövrə aiddir. Keçən dövr ərzində məcburi köçkün ailələrində demoqrafik artım baş verdiyinə görə bu rəqəmlər də artmaqdadır.

Dağlıq Qarabağın ətraf rayonları dağıdılıb. ATƏT 2 missiya göndərib. Birincisi faktaraşdırıcı, ikincisi isə qiymətləndirmə missiyalarıdır. Onlar hər şeyin dağıdıldığını təsdiq ediblər. Bizim şəhərlər kimsənin yaşamadığı kabus şəhərlərinə çevrilibdir. Bütün infrastruktur darmadağın edilib, bütün qəbiristanlıqlar, məscidlər və tikililər yerlə yeksan olunub. Bu, Ermənistan tərəfindən, gəlmələr tərəfindən törədilib. Bu, münaqişənin real mənzərəsidir.

Beynəlxalq ictimaiyyət məsələnin həllində fəal iştirak edir. Bizim məsələni həll etmək üçün hərtərəfli hüquqi bazamız vardır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Onların heç biri yerinə yetirilməyib. ATƏT-in qərarları, Lissabon sammiti və digər qərarlar – hamımız bunları xatırlayırıq. Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda, NATO-nun Çikaqoda keçirilmiş sammitində də bu məsələyə baxılıb. Münaqişənin həlli beynəlxalq hüquq normaları və Helsinki Yekun Aktına əsaslanmalıdır. Ermənistan prezidentinin, mənim və Rusiya prezidenti Dmitri Medvedevin tərəfindən imzalanmış Mayndorf Bəyannaməsində də göstərilir ki, münaqişə beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında həllini tapmalıdır. Bu qərar və qətnamələr birmənalıdır.

Məsələnin həlli ilə bağlı Helsinki Yekun Aktına da istinad edilir. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipi arasında balans açıq-aydın göstərilir. İnsanların öz müqəddəratını təyin etmək hüququ ərazi bütövlüyü prinsipinə xələl gətirməməlidir. Üstəlik, ermənilər artıq bir dəfə öz müqəddəratlarını təyin ediblər, Ermənistan

dövlətini yaradıblar və bu dövlət tarixən azərbaycanlılar tərəfindən məskunlaşmış ərazidə yerləşir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılandan bir gün sonra İrəvan şəhərinin Ermənistan dövləti üçün paytaxt olmasına razılıq vermişdi. Çoxları bundan xəbərsizdir, lakin bu həqiqətdir. Biz daha bir erməni dövlətinin Azərbaycan ərazisində yaradılmasına icazə verməyəcəyik. Bu qeyri-mümkündür. Ermənistan anlamalıdır ki, onların maksimalist yanaşması, Dağlıq Qarabağ üçün müstəqillik tələb etmələri mümkünsüzdür. Bunu heç kim dəstəkləməyəcəkdir. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma «seçkilər» beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb, Dağlıq Qarabağı heç kim tanımır. Azərbaycan Dağlıq Qarabağı heç vaxt tanımayacaqdır. Buna görə də Ermənistanın irəliləyiş əldə etmək üçün ən yaxşı variantı 2009-cu ilin sonunda ATƏT-in Minsk qrupunun təqdim etdiyi təkliflərə qayıtmaqdır. Azərbaycan bunları dəstəkləyir. Siz bu təkliflərin nədən ibarət olduğunu bilirsiniz: işğal olunmuş bütün ərazilər Azərbaycana qaytarılmalı, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmalı, təhlükəsizlik təmin edilməlidir. Yalnız bundan sonra Ermənistan ilə əlaqələr təmin olunacaq, Dağlıq Qarabağın gələcək statusu hər iki tərəf hazır olduqda müəyyənləşdiriləcəkdir.

Ermənistanın rədd etdiyi formulanı biz qəbul etmişik. Bundan sonra danışıqlar prosesi bir ildən çoxdur ki, durğunluq mərhələsinə daxil olub. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin, xüsusən də onların status-kvonun qəbuledilməz olması barədə bəyanatı bizi çox ruhlandırdı. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin Ermənistan status-kvonu saxlamağa çalışır və danışıqlar masasında oturmaq istəmir. Onların bütün təxribatçı əməlləri və bəyanatları bir məqsəd güdür, bu da münaqişənin həllinin uzadılmasıdır. Onlar bir şeyi başa düşməlidirlər ki, status-kvonu bu neçə illər ərzində saxladıqları kimi, davam etdirə bilməyəcəklər. Qüvvələr və güc balansı dəyişir, Azərbaycan 20 il bundan əvvəlki ölkə deyildir.

Azərbaycan özünü qorumaq iqtidarında olan ölkədir. Ermənistan üçün ən yaxşı çıxış yolu onun gələcəyinin regionun inkişafından asılı olduğunu anlamasıdır. Qonşular birgə yaşamağı öyrənməli və işğala son qoymalıdırlar. Hər şey işğalla əlaqəlidir. Bəzən Ermənistan liderləri deyirlər ki, Azərbaycan bu ölkə ilə bütün əlaqələrə son qoyub. Axı siz torpaqlarımızı işğal edən ölkə ilə əməkdaşlığımızı necə gözləyə bilərsiniz?! Siz öz ölkələrinizin bütün tarixi abidələrini darmadağın etmiş, ərazilərinizi işğal etmiş və bu işğalı davam etdirmək niyyətində olan işğalçı bir ölkə ilə əməkdaşlığı necə təsəvvür edə bilərsiniz?! Bu, mümkün deyil. İşğala son qoyulmalıdır. Ərazilərin işğaldan azad olunması prosesi mümkün qədər tez başlamalıdır. İşğaldan azadolma prosesi başlayan kimi, biz münasibətlərin normallaşdırılması, gərginliyin kəskin dərəcədə azaldılması istiqamətində mühüm addımlar atmaq məsələsini nəzərdən keçirməyə hazırıq. Amma əvvəlcə bu proses başlanmalıdır. Sözdən əmələ keçmək lazımdır. Bu, bütün ölkələrin, eləcə də bizim, əminəm ki, Ermənistanın da marağındadır. Bütün insanlar sülh və əmin-amanlıq şəraitində yaşamalı və beynəlxalq hüquq mümkün qədər tez bərpa edilməlidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağa müstəqillik verilməsi məsələsi qətiyyən müzakirə mövzusu ola bilməz. Ermənistan tərəfi bunu nə qədər tez başa düşsə və maksimalist, qeyri-realist, qeyri-qanuni yanaşmalardan imtina etsə, bu onlar üçün də, sülh prosesi üçün də bir o qədər faydalı olar. Mən indi çıxışımı yekunlaşdırmalıyam, çünki bu münaqişə ilə bağlı çox danışa bilərəm, amma söhbətimizi fikir mübadiləsi şəklində davam etdirməyi daha məqsədəuyğun hesab edirəm. Təşəkkür edirəm.

* * *

*Norveçin ATƏT-dəki nümayəndəsi Robert Kvil nümayəndə heyətini qəbul etdiyinə və onlara Azərbaycanın digər bölgələrini də görmək imkanı yaratdığına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Səfir qeyd etdi ki, ATƏT-in üzvü olan ölkələrin səfirlərinin ildə bir dəfə təşkilatın iştirakçı ölkələrinin birinə getmək ənənəsini davam etdirərək, bu il Azərbaycana səfər etmək qərara alınmışdır. Bunun səbəbi isə Azərbaycanın təşkilatdakı rolu və ATƏT-in Minsk qrupunun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fəaliyyətinə diqqət göstərilməsidir. «Lakin missiya eyni zamanda, Sizinlə təhlükəsizlik və iqtisadiyyatla bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparmaq niyyətindədir» – deyən Robert Kvil görüşdə iştirak edən səfirlərdən prezident İlham Əliyevə müraciət etmək istəyənlərin olduğunu bildirdi.*

*İrlandiyanın ATƏT-dəki nümayəndəsi Eoin OLERİ prezident İlham Əliyevə müraciət edərək, bu səfər zamanı aparılacaq müzakirələrin və fikir mübadiləsinin çox əhəmiyyətli olduğunu qeyd etdi.*

**Andrey Kelin** (*Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi):* Çox sağ olun, İlham Heydər oğlu!

Mən Azərbaycanda təxminən bir il əvvəl olmuşam. Çox möhtəşəm dəyişikliklərin şahidi oldum. Dünən bizim Xəzər sahili boyu bulvarda gəzmək imkanımız oldu. Bulvarda gəzən çoxlu rusları gördük. Onlar özlərini çox rahat hiss edirlər. Bir səfir kimi, bunları görmək məni çox məmnun edir.

Bilirsiniz ki, təmsil etdiyim ölkə Qafqazda təhlükəsizlik və sabitlik amilinə, o cümlədən onun qorunub saxlanmasına nə qədər böyük önəm verir. Biz Minsk qrupu çərçivəsində fəaliyyətimizi davam etdirəcəyik və Sizə bu istiqamətdə dəstəyimizi nümayiş etdirəcəyik. Qeyd etməliyəm ki, biz çox çətin bir məqamda gəlmişik. Biz iki gün əvvəl İrəvanda səfərdəydik və prezident Sarkisyanın açıqlamalarında müəyyən gərginlik sezdik. Bu Sizə də məlum olan son hadisələrlə əlaqədardır. Demək istərdim ki, belə bir məqamda vəziyyəti normallaşdırmaq üçün xoşməramlı siyasi jest olduqca əhəmiyyətlidir. Qeyd etmək istədiyim sonuncu məqam ondan ibarətdir ki, 56 ölkənin iştirak etdiyi ATƏT-də biz yalnız siyasi məsələlərlə bağlı deyil, eləcə də terrorizm, narkotik və

təhlükəsizliklə bağlı qarşılıqlı maraq kəsb edən digər məsələlərin həlli istiqamətində də birgə fəaliyyət göstəririk. Bu məsələlərdə vahid mövqedən çıxış etmək olduqca vacibdir, çünki bunlar hamının faydalana biləcəyi siyasiləşdirilməmiş konseptual sənədlərdir. Bu da bizim üçün çox vacibdir. Təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Mən Ermənistanda ölkədaxili gərginliyin artması ilə bağlı narahatlıqdan başlamaq istərdim. Azərbaycan beynəlxalq təcrübəyə, fərq etməz, yazılı və ya şifahi öhdəliklərə zidd ola biləcək heç bir addım atmayıb. Biz bilirik ki, Ermənistanda Ramil Səfərovun ekstradisiyası və əfv olunması ilə bağlı hay-küy yaranıb. Mən bununla bağlı münasibətimi artıq bildirmişəm. Bir daha bildirirəm ki, Səfərovun ekstradisiyasından tutmuş, əfvinə qədər hər şey Avropa Konvensiyasına, o cümlədən Azərbaycan Konstitusiyasına uyğun həyata keçirilib. O, həbsxanada təxminən 9 il cəza çəkib. Buna görə də, Ermənistan bu vəziyyətdən sülh danışıqlarını pozmaq üçün bəhanə kimi istifadə etməməlidir.

Mən giriş nitqimdə qeyd etdim ki, 2011-ci ilin iyununda Kazanda keçirilən son görüşdən sonra danışıqlar prosesi durğunluq mərhələsindədir. ATƏT-in Minsk qrupunun həmsədrləri regiona səfərlər edir, lakin bizim hazırda müzakirələrimizin əsas mövzusu danışıqlar prosesinin mahiyyətinə deyil, gərginliyin, potensial təhlükənin azaldılmasına yönəlib. ATƏT-in Minsk qrupu yaranandan bəri ilk dəfədir ki, danışıqlar prosesinin dalana dirəndiyinin şahidiyik. Ötən illərdə danışıqlar prosesinin bir neçə mərhələsi, bir sıra təkliflər nəticəsiz olub. Praqa prosesindən başlayıb Madrid prinsipləri ilə tamamlanan, Azərbaycanın imtina etmədiyi sonuncu təkliflər paketi bəzi ermənilərin bunun əksini söyləməsinə baxmayaraq, mən deyərdim ki, həll üçün bəlkə də son təklif və son imkan idi. Ermənistan hazırda bu epizoddan bəhanə kimi istifadə edir. Onlar bacardıqları qədər statuskvonu saxlamaq istəyirlər. Onlar həmişə məsələnin sülh yolu ilə həllini istədiklərini bildirirlər. Biz də problemin sülh

yolu ilə həllini istəyirik. 20 il ATƏT-in Minsk qrupunda olmağımız aydın şəkildə göstərir ki, biz məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq. Sülh yolu ilə həldən başqa, biz eyni zamanda, torpaqlarımızın da azad olunmasını istəyirik. Lakin Ermənistan yalnız sülh yolu ilə həll istəyir, onlar yalnız sülh istəyirlər. Biz də sülh istəyirik, həm də torpaqlarımızı istəyirik. Bu torpaqlar tarixən, siyasi baxımdan və hüquqi baza nöqteyi-nəzərindən bizimdir. Buna görə də onlar Ramil Səfərov məsələsini qabartmağa çalışırlar. Onlar ölkədaxili lazımsız hay-küy yaradırlar. Mən əfv sərəncamımla bağlı Ermənistan prezidentinin daxili problemlərini başa düşürəm. Lakin bu onun problemidir, bu, regionun problemi deyildir. Hər bir prezidentin ölkədaxili problemləri ola bilər. Lakin bu heç də qeyri-etik davranaraq sülh prosesini zədələmək üçün səbəb ola bilməz. Ona görə də onlar bir az təmkinli olmalı, reallığı olduğu kimi qəbul etməlidirlər.

Mən paralellik aparmadan sadəcə, bir tarixi məqamı xatırlatmaq istərdim. 2001-ci ildə Ermənistan prezidenti Fransanın Orli aeroportu Türk Hava Yollarına məxsus zolaqda bir neçə nəfərin, səhv etmirəmsə 1 amerikalı, 4 fransız, digərləri türk olmaqla, 8 nəfərin ölümü, 50 nəfərin yaralanması ilə nəticələnən terror aktı törədən Karapetyan adlı terrorçunu əfv edib. Karapetyan Ermənistan vətəndaşı deyildi, lakin bir neçə il həbs cəzası çəkdikdən sonra o, Ermənistana ekstradisiya olundu və Sarkisyanın xələfi və yaxın tərəfdaşı Köçəryan onu dərhal əfv etdi. Həmin vaxt biz beynəlxalq təşkilatlardan, siyasətçilərdən bu məsələ ilə bağlı heç bir açıqlamanın şahidi olmadıq. Mən 8 nəfərin qatili, 50 nəfərin yaralanmasına səbəb olan terrorçu ilə zabitimiz arasında paralellik aparmıram. Lakin bu bir həqiqətdir. İndi ermənilərin özlərini təhqir olunmuş kimi qələmə verməyə haqları yoxdur. Mənə elə gəlir ki, buna bütün məqamlardan yanaşdıqda bu, doğru qərar idi. İndi Ermənistanın özünə ismarıc göndərilməlidir: bundan danışıqlar prosesini pozmaq üçün bəhanə kimi istifadə etməyin, bundan gərginlik yaratmaq üçün istifadə etməyin! Gərginliyi yaradan Azərbaycan deyil, onlardır. Onlar

sakitləşməli, danışıqlar masasına qayıtmalı və münaqişənin mümkün qədər tez həlli yolunu tapmağa çalışmalıdırlar.

*ABŞ-ın ATƏT-dəki nümayəndəsi İn Kelli çıxış edərək, Minsk qrupunun həmsədrlərinin fəaliyyətini dəstəklədiyini və bu fəaliyyətin əhəmiyyətli olduğunu bildirdi. Qeyd etdi ki, prezident Obama və Dövlət katibi Hillari Klinton da şəxsən Minsk qrupunun fəaliyyətinə cəlb olunublar. Səfir eyni zamanda, Azərbaycan prezidentinin etimad yaratmağa yönələn tədbirlərini, humanitar əlaqələri dəstəkləməsini yüksək qiymətləndirdiyini vurğuladı.*

*Görüşün davamında Avstriya, Fransa, İsveçrə və Türkiyənin ATƏT-dəki səfirləri Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq, ölkəmizin quruma üzv olduğu 20 il ərzində əldə etdiyi nailiyyətlər, Azərbaycan–ATƏT əməkdaşlığının bütün aspektləri üzrə qazanılan uğurlar, respublikamızın yerləşdiyi geostrateji vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli barədə fikirlərini bildirdilər.*

*Səfirlər təmsil etdikləri ölkələr ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin uğurlu inkişafı və bu istiqamətdə qarşılıqlı sərmayə yatırımı, müxtəlif layihələrin həyata keçirilməsi, yüksək səviyyəli səfərlərin planlaşdırılması və maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi apardılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*Qəbələ*

*11 sentyabr 2012-ci il*

*Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan sentyabrın 11-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Həmin gün Qəbələdə Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü oldu.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat, hərbi-texniki sahələrdə əməkdaşlıq, eləcə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ İKİNCİ İCLASINDA İŞTİRAK

*Qəbələ*

*11 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sentyabrın 11-də Qəbələdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev iclas iştirakçılarını salamladı:*

– Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Mən Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclasını biz Azərbaycanda–Qəbələdə keçiririk. Birinci iclası İzmirdə keçirdik, çox uğurlu keçdi, indi isə burada.

Keçən dövr ərzində əlaqələrimiz sürətlə inkişaf etmişdir. İzmir görüşümüzdən sonra çox önəmli hadisələr baş vermişdir. Biz Sizinlə dəfələrlə görüşmüşük, TANAP layihəsinə imza atmışıq. Bir sözlə, İzmirdə qəbul olunmuş qərarlar icra edilir. Bizim strateji müttəfiqliyimiz inkişaf edir, güclənir, bütün sahələri əhatə edir. Bugünkü toplantının gündəliyi də çox genişdir və hər iki tərəfdən bakanlar təmsil olunur, onlar da öz sözlərini deyəcəklər. Bakanlarımız da bir-biri ilə sıx təmasdadır, əlaqədədir, mən Bakıda onlarla tez-tez görüşürəm, bizimkilər də sizi ziyarət edir.

Bir sözlə, iki qardaş ölkə inamla və uğurla işbirliyini davam etdirir və bugünkü toplantı əminəm ki, gələcək fəaliyyətimiz üçün də bir yol xəritəsi olacaqdır. Əminəm ki, bu toplantı da uğurlu olacaq və ölkələrimizin inkişafı, birliyi üçün yeni imkanlar yaradılacaqdır.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Mən də şəxsən öz adımdan, bütün heyətim adından çox təşəkkür edirəm.

Dəyərli qardaşım, Prezidentimiz və hörmətli bakanlar, heyət üzvləri! Hər dəfə Azərbaycana səfər edəndə özümüzü təbii ki, fərqli bir ölkədə deyil, evimizdə görürük. Bu evimizdəki məhəbbət də hər iki ölkənin, hər iki millətin daha da güclənərək yoluna davam etməsinə gətirib çıxarır.

Bundan 10 il əvvəl bir milyard dollara yaxın ticarət dövriyyəsi ilə bu yola çıxmışdıq, amma indi 3,5 milyard dollarlıq səviyyəyə çatmışıq. Təbii ki, bununla kifayətlənmirik. İnşallah, bunu sürətlə ən qısa zamanda 5 milyard dollara çatdıracağıq. Bu yaxınlarda İqtisadiyyat naziri Zəfər Çağlayan Azərbaycanda idi, Sizinlə görüşüb. Bu hədəfi qarşıya qoyduq və Qarışıq Komissiyanın toplantısı ilə bağlı da bir az əvvəl hörmətli qardaşımla söhbət apardıq, bunları da müzakirə etdik. Bu ilin sonuna qədər Qarışıq Komissiyanın toplantılarını da keçirmək istəyirik ki, işi sürətlə davam etdirək.

Təbii ki, bizim istər hərbi, istər siyasi, istər mədəni əməkdaşlığımız bütün beynəlxalq aləmdə də çox ciddi bir həmrəylik içərisində davam edir. Bununla bərabər, enerji sahəsindəki həmrəyliyimiz bu an artıq zirvəyə çatdı. Üstəlik TANAP addımı ilə İstanbulda imzalar atıldı. İndi bundan sonra da, inşallah, artıq mexanizmləri işə salmağa başlayacağıq. İnşallah, TANAP sürətlə Azərbaycan qazını alıb Avropaya daşımaq imkanını, fürsətini tapacaqdır. Bu da təbii ki, fərqli dəyişikliklərə, fərqli inkişafa səbəb olacaqdır. Biz bunu bilərək bu addımları atırıq. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının İzmirdən sonrakı bu ikinci toplantısının da çox səmərəli olacağına inanıram. Nazir yoldaşlarımız artıq öz aralarında lazımi görüşləri keçirdilər. Mən bugünkü toplantının xeyirlərə, bərəkətə səbəb olmasını diləyirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Qəbələ*

*11 sentyabr 2012-ci il*

*Qəbələdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası başa çatdıqdan sonra sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclasının Protokolu»nu imzaladılar.*

*«Bakı Dövlət Universiteti və Yunus Əmrə İnstitutu arasında «Türkologiya layihəsi» üzrə Əməkdaşlıq Protokolu»nu Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Yunus Əmrə İnstitutunun türkologiya əlaqələndiricisi Yasin Tunç imzaladılar.*

*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti və Türkiyə Radio-Televiziya Qurumu arasında Əməkdaşlıq Protokolu»nu «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov və Türkiyə Radio-Televiziya Qurumu – TRT-nin baş direktoru İbrahim Şahin imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya Nazirliyi arasında kombinə edilmiş yükdaşımalarının inkişafına dair Anlaşma Memorandumu»nu Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Türkiyənin Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Binəli Yıldırım imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi arasında diplomatların mübadiləsinə dair Anlaşma Memorandumu»nu Azərbaycanın*

*Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında «Azərbaycan–Türkiyə toxumçuluq və araşdırma ortaq müəssisəsi»nin fəaliyyətinin nizamlanması haqqında Protokol»u Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin rəhbəri Sərdar Çam imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında axtarış və xilasetmə xidmətlərinin əlaqələndirilməsi haqqında Saziş»i Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Türkiyənin Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Binəli Yıldırım imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki tənzimlənmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və metrologiya sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və Türkiyənin İqtisadiyyat naziri Zəfər Çağlayan imzaladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Qəbələ*

*11 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sentyabrın 11-də Qəbələdə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra birgə mətbuat konfransı keçirilmişdir.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əziz qardaşım, mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Bütün türk qardaşlarımızı salamlayıram.

Biz bu gün Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclasını keçirdik. Bildiyiniz kimi, birinci iclas keçən il İzmirdə çox uğurlu keçirilmişdir. Birinci iclasda qəbul edilmiş qərarlar uğurla icra edilir. Biz bu gün ilk növbədə, görülmüş işlərə qiymət verdik, işləri təhlil etdik və gələcək əməkdaşlıq üçün əlavə addımların atılması haqqında fikir mübadiləsi apardıq. Bütövlükdə deyə bilərəm ki, Türkiyə–Azərbaycan əlaqələri bütün sahələrdə uğurla inkişaf edir, bütün sahələri əhatə edir. Bugünkü toplantının gündəliyi də çox genişdir.

Biz bir sıra önəmli məsələlər haqqında çox geniş müzakirə aparmışıq və bir daha demək istəyirəm ki, bizim aramızda fikir ayrılığı yoxdur – istər beynəlxalq məsələlərlə bağlı, istər ikitərəfli əlaqələrə dair bizim fikrimiz birdir.

Biz bu gün siyasi vəziyyətlə, dünyada gedən proseslərlə bağlı həm təkbətək görüşdə, həm geniş tərkibdəki görüşdə danışdıq, fikir mübadiləsi apardıq. Bizim ölkələr bütün sahələrdə və bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Bu gün görülmüş işlər haqqında nazirlər bizə məlumat verdilər və gələcəkdə birgə fəaliyyət haqqında yeni təşəbbüslər müzakirə edildi. Biz bütün beynəlxalq təşkilatlarda məsələlərə vahid mövqedən yanaşırıq, bir-birimizi dəstəkləyirik və bu dəstək bizim üçün, bölgə üçün, dünya üçün çox önəmlidir. Bu gün Türkiyə–Azərbaycan əlaqələri nəinki ikitərəfli münasibətlərin inkişafı üçün vacibdir, həmçinin bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün sabitləşdirici rol oynayır. Bizim dünyadakı rolumuz artır və bir-birimizə dəstək verməyimiz ölkələrimizin önəmini daha da artırır.

Beynəlxalq məsələlərə gəldikdə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrini və danışıqlarda göstərilən səyləri müzakirə etdik. Danışıqların son durumu haqqında mən əziz qardaşıma məlumat verdim. Bildiyiniz kimi, Azərbaycana qarşı ədalətsizlik və işğal siyasəti hələ də davam edir. Beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən bölgələr 20 ildir ki, erməni işğalçıları tərəfindən işğal edilmişdir. Bütün beynəlxalq hüquq normaları, ədalət pozulmuşdur, tarixi ədalət pozulmuşdur. Biz çalışırıq ki, məsələnin sülh yolu ilə həllinə nail olaq. Ancaq Ermənistanın qeyri-konstruktiv və riyakar fəaliyyəti buna imkan vermir. Azərbaycanın mövqeyi birmənalıdır: beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və məsələ yalnız ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapa bilər. Fürsətdən istifadə edərək, Türkiyə dövlətinə, hökumətinə bu məsələ ilə bağlı tutduğu mövqeyə görə bir daha Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün biz iqtisadi əlaqələrimizin yeni perspektivləri haqqında da danışdıq. Ticarət dövriyyəsi yüksək templərlə artır. Baxmayaraq ki, bizi bu ticarət dövriyyəsinin həcmi hələ qane etmir, ancaq dinamika çox müsbətdir. Əgər biz bu templəri saxlaya və artıra bilsək, yaxın gələcəkdə ticarət dövriyyəmiz daha da böyük rəqəmlərlə ölçüləcəkdir.

Enerji sahəsindəki əməkdaşlıq ənənəvi xarakter daşıyır. Deyə bilərəm ki, iqtisadi sahədə enerji sektorundakı əməkdaşlıq həmişə olduğu kimi, prioritet məna daşıyır. İzmirdə keçirilən iclasdan sonra önəmli hadisələr baş vermişdir. Biz TANAP layihəsinə imza atdıq. Artıq TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək, bu böyük layihəyə start verdi. Ümid edirəm ki, danışdığımız kimi, yaxın 5 ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaq və Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcəkdir.

Digər mühüm layihə nəqliyyat sektoru ilə bağlıdır. Bu da böyük layihələr arasında özünə yer tapa bilmişdir – Bakı–Tbilisi–Qars dəmir yolu. Bu gün nazirlər məlumat verdilər və biz gələcək layihələr haqqında danışdıq. Bu layihə bizim birgə təşəbbüsümüzdür. Ancaq bu gün yenə də onu görürük ki, başqa ölkələr, tərəfdaş olan ölkələr bu layihəyə maraq göstərir və bu layihəyə qoşulmaq istəyirlər. Biz bunu alqışlayırıq. Türkiyəni Azərbaycan və Gürcüstanla, həmçinin Gürcüstanı Azərbaycanla birləşdirən bu layihə artıq beynəlxalq müstəviyə çıxmışdır.

Hərbi-texniki əməkdaşlıq məsələləri də müzakirə edildi. Bu sahədəki əməkdaşlıq qardaşlıq, dostluq prinsiplərinə əsaslanır və birgə təşəbbüslər irəli sürülmüşdür. Deyə bilərəm ki, bu sahədə son illər ərzində böyük tərəqqi müşahidə olunur.

Rabitə, informasiya texnologiyaları məsələləri müzakirə edildi. Bu gün elə bil ki, iki ölkənin Nazirlər kabinetləri bir

araya gəlmişdir. Azərbaycana gəldikdə, Nazirlər Kabinetinin üçdəbir hissəsi bu gün bu toplantıda iştirak edir və bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, doğrudan da ikitərəfli gündəlik kifayət qədər genişdir, mənalıdır, səmimidir və müsbətdir.

Mən çox şadam ki, biz bütün məsələləri dostluq, qardaşlıq şəraitində müzakirə edirik. Bir daha demək istəyirəm ki, münasibətlərimizin təməlində iki xalqın bir-birinə olan duyğularıdır, iki dövlətin bir-birinə olan dəstəyidir. Bu dəstək vardır. Bir daha demək istəyirəm ki, bu dəstək regional məsələlərdə də müsbət rol oynayır.

Əziz qardaşım, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizə cansağlığı, uğurlar arzulayıram. Əminəm ki, bu gün imzaladığımız sənədlər də növbəti toplantıya qədər reallığa çevriləcək.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

Mən də əziz qardaşıma çox təşəkkür edirəm!

Dəyərli nazir yoldaşlarımızı, dəyərli iştirakçıları, dəyərli mətbuat nümayəndələrini sevgi və hörmətlə salamlayıram.

Həqiqətən, bu gün Qəbələdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısının İzmirdən sonra ikincisini keçirməklə, mənalı xoşbəxtlik, məmnunluq yaşayırıq. Ev sahibliyi məsələsində dəyərli qardaşıma bütün yoldaşlarım adından ürəkdən təşəkkürlərimi ifadə edirəm. Bizə həqiqətən, Azərbaycanda tarixi əhəmiyyəti çox-çox önəmli olan Qəbələ şəhərini tanıtdırdıqları üçün də ayrıca təşəkkürlərimi bildirirəm.

Bu gün istər siyasi, istər hərbi, istər mədəni, istər iqtisadi sahədə çox önəmli məsələləri müzakirə etdik. Həm ikitərəfli görüş keçirdik, həm də nazir yoldaşlarımız öz aralarında görüşlər keçirdilər. Bildiyiniz kimi, enerji sahəsində atdığımız çox önəmli addımlar vardır. Bununla bağlı əlaqədar nazir yoldaşlarımız yenə də bir-biriləri ilə görüş keçirdilər.

Bu toplantımız 2 ölkə arasında Nazirlər Kabinetinin birgə iclası kimidir. Nazirlər Kabineti toplantımızı Prezidentimizlə birlikdə keçirmiş olduq. Təbii ki, indi İzmirdən sonrakı dövrü dəyərləndirdiyimiz kimi, bundan sonra da gələcəkdə nələr edə biləcəyimizi, nə kimi addımlar ata biləcəyimizi müzakirə etdik.

Təbii ki, 10 il əvvəl 1 milyard dollar olan ikitərəfli xarici ticarət dövriyyəmizin bu gün 3,5 milyard dollara çatdığını – ötən 7 ayda bu sahədə vəziyyət təxminən 2,6 milyard dollar oldu – əgər bunu bir az da səylə, coşqu ilə davam etdirsək, zənnimcə, belə qısa bir dövr deyək – 2015-ci il üçün düşündüyümüz 5 milyard dollarlıq xarici ticarət həcmini bu ilin sonunadək reallaşdıra bilərik. 5 milyard dollarlıq bu ticarət həcmini reallaşdırmağımız 2015-ci ildə bizə 10 milyard dollarlıq bir xarici ticarət dövriyyəsini təmin edər ki, bundan sonra 2020-ci ildə bunu 20 milyard dollara çıxararıq. Çünki artıq böyüyən, inkişaf edən bir Azərbaycan var, artıq böyüyən, inkişaf edən bir Türkiyə var. Bu iki qardaş, dost ölkənin əl-ələ verməsi və xüsusilə qurucu prezident mərhum Heydər Əliyevin ifadə etdiyi kimi, biz «İki dövlət – bir millət» anlayışı ilə bu prosesə diqqət yetirdiyimiz müddətdə bunu daha yaxşı bir səviyyəyə çatdıra bilərik, çatdıracağıq. Qarşımızda bir maneə yoxdur. Bütün sahələrdə atacağımız addımlar var. Bir az əvvəl söylədiyim kimi, TANAP layihəsi ilə əlaqədar imzaları İstanbulda, Dolmabaxçada hörmətli qardaşımla bərabər atdıq. Bu andan proses başladı və ən qısa zamanda, inşallah, mexanizmlər işə düşməyə başlayacaqdır.

Təbii ki, bu layihə artıq tarixə fərqli bir imza atmaq, fərqli bir möhür vurmaqdır, Azərbaycan qazının Türkiyəyə və Avropaya açılması prosesidir. Hər keçən gün inanıram ki, bu layihə dünyanın marağını bu nöqtəyə daha çox cəlb edəcəkdir. Bu mövzuda məsuliyyətimizi dərk edirik. Eyni şəkildə TASMUS layihəmiz də vardır ki, bu da müdafiə sənayesi sahəsində, elektron rabitə məsələsində müştərək bir addımın atılmasında çox böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə fəaliyyəti əlaqədar nazir yoldaşlarımız ciddi şəkildə davam etdirirlər.

Əslində, bizim ölkələr arasındakı ikitərəfli əlaqələr belə isti ikən, həm də təbii ki, beynəlxalq mənada, bütün beynəlxalq qurumlardakı həmrəyliyimiz həqiqətən, örnək təşkil edə biləcək bir səviyyədədir. Hazırda bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olaraq Azərbaycanın xidmət etməsi bizlər üçün çox böyük önəm daşıyır. Arzu edirəm ki, inşallah, Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı missiyası başa çatdıqdan sonra – 2015–2016-cı illərdə də Türkiyə bu quruma namizəddir – təkrar Türkiyənin orada qeyri-daimi üzv kimi xidmətə başlaması da bizim bu həmrəyliyimizi artıraraq yolumuza davam etməyimizi təmin edəcəkdir.

Aramızdakı mədəni əlaqələrimiz həmrəylik əsasında davam edir. Bununla yanaşı, təşkilatlanma işində atdığımız addımlar vardır, bunlar davam edir. Bu həmrəyliyi qətiyyətlə davam etdirmək məsələsində hər iki tərəfdə iradə vardır. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi sürətlə davam edir, bununla bərabər, bu gün bir çox detallar üzərində ətraflı dayandıq. Naxçıvan–İğdır arasında dəmir yolu çəkməklə Türkiyə və Azərbaycanı dəmir yolu ilə də birbaşa olaraq bir-birinə bağlamaq imkanı gətirəcək bir fəaliyyətin də addımlarını, inşallah, sürətlə atırıq. Hazırda artıq Naxçıvan ilə İğdır arasındakı əlaqə Türkiyə və Azərbaycan arasında çox mühüm bir prosesi də başlatmış vəziyyətdədir.

Mən beləliklə, bu bəyanatımı uzatmadan – onsuz da dəyərli qardaşım lazımi açıqlamaları etdi – bildirirəm ki, bütövlükdə düşüncələrimiz ortaq düşüncələrdir. Mən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şuramızın ikinci toplantısının bu prosesi daha da sürətləndirdiyini qeyd edirəm və inşallah, üçüncüsünü də gələn il yenə ölkəmizdə keçirəcəyik. Artıq bu, toplantıları paytaxtlarda keçirməkdən çox, müxtəlif vilayətlərimizdə keçirməklə bu vilayətlərin tanınmasına və tanıdılmasına da fürsət verməsi baxımından olduqca gözəl bir anlayışın təzahürü deməkdir.

Mən çox təşəkkür edirəm. Ev sahibliyinə görə də bütün yoldaşlarımın bu məsələdəki hörmətlərini çatdırmaq istəyirəm.

* * *

*Sonra prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l** (*Türkiyənin NTV kanalı*): **Cənab Baş nazir, Sultanqazidə yeni bir terror aktı törədildi. Bunu necə qiymətləndirirsiniz? Sizə verilən son məlumatları ictimaiyyətlə bölüşə bilərsinizmi? Bir sualım da var. Suriyada seçkilərin keçirilməsi qərara alındı. Bəşər Əsəd bildirmişdir ki, seçkilərdə uduzsam bu dəfə hakimiyyətdən gedəcəyəm. Onun bu fikrini necə qiymətləndirirsiniz?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n :** Əvvəlcə, Sultanqazidəki terror aktı ilə əlaqədar. Təbii ki, verilən məlumatlar əsasında məsuliyyəti öz üzərinə götürən qrupu hazırda bilirik. Bu barədə xəbəri sizlər də almısınız. Bu, polis şöbəsinə edilən bir hücumdur. 1 şəhidimiz var, 4 polisimiz yaralıdır, 2 vətəndaşımız da yaralı vəziyyətdədir. Yaralılarımızın vəziyyətlərinin ağır olmadığı haqqında məlumat aldım. Onlara Allahdan şəfa arzulayıram, şəhidimizə rəhmət və yaxınlarına səbir diləyirəm. Bildiyiniz kimi, hadisə terrorçu-intiharçının bombanı partlatması nəticəsində baş vermişdir. Cinayəti törədənin şəxsiyyəti müəyyən olunmuşdur. Amma onun əlaqələri hazırda bütün təhlükəsizlik qurumları və polis tərəfindən araşdırılır.

İkinci sualınıza gəldikdə, hazırda Suriyada keçiriləcək seçkilərin inandırıcılığı yoxdur. İnandırıcılığı olmayan bir zəmində keçiriləcək seçkilərin nəticəsi də məlumdur. Hazırda Suriyada vətəndaş müharibəsi gedir. Belə bir şəraitdə keçiriləcək seçkinin nəticəsi indidən məlumdur. Bundan əvvəlcə də, bilirsiniz, bir seçki keçirdilər. Suriya xalqının böyük əksəriyyəti bu seçkilərdə iştirak etmədi. Çünki sağlam bir təməl mövcud deyil. Burada sağlam bir təməl yaradılmadan keçiriləcək seçkilərin heç bir qiyməti yoxdur. Belə ki, Cenevrədə qəbul olunan qərarlar vardır. Bu Cenevrə qərarlarına Suriya rejimi əməl etməmişdir. Əgər buna əməl etsəydilər daha artıq məsafə qət edilmiş olardı. Kofi Annanın istefa verməsinin səbəbi məlumdur. Hazırda cənab Lahdar Brahimi bu vəzifəni yerinə yetirir. Ancaq o, vəzifəsinin nə qədər çətin

olduğunu artıq indidən ifadə etmişdir. Belə bir şəraitdə sağlam demokratik təməl yoxdur. Sağlam təməl olmayınca da buradan çıxacaq nəticələrin qəbul edilməsi də mümkün deyil.

**S u a l** *(Xəzər televiziyası):* **Hörmətli cənab Baş nazir, iki ölkə arasında iqtisadi əməkdaşlıqda xüsusilə sərmayə yatırımları mühüm rol oynayır. Bugünkü Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində Azərbaycanın bu istiqamətdə atmış olduğu addımların qarşılığı olaraq Türkiyənin Azərbaycana irihəcmli sərmayə yatırımları perspektivinə necə baxırsınız?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Hazırda onsuz da bu məsələdə olduqca gözəl təşəbbüslər vardır. Belə təşəbbüslərdə qət etdiyimiz məsafə bu an etibarilə 10 milyard dollara çatmışdır – Azərbaycandakı sərmayələr etibarilə. Hədəf bunu sürətlə 20 milyard dollara çatdıra bilməkdir. Bu istiqamətdə də işlər görülür. Təbii ki, burada ayrıca müştərək görüləcək işlər vardır. Hətta biz daha da irəliyə gedək deyirik ki, Azərbaycan–Türkiyə sahibkarlarının, təşəbbüskarlarının üçüncü ölkələrə də sərmayə qoymalarının yolunu açaq. Bunu da müvəffəqiyyətlə davam etdirmək istəyirik.

**S u a l** *(Anadolu Agentliyi):* **Mən cənab Prezidentə bir sual vermək istəyirəm. İki ölkə arasındakı əməkdaşlığın getdikcə sürətləndiyi bir mərhələdəyik. Bu əməkdaşlığı Türkiyə Respublikası vətəndaşlarına sərhəddə viza tətbiq olunmasının tamamilə aradan qaldırılması şəklində zirvəyə çatdırılması istiqamətində bir fəaliyyətiniz varmı? Sizdən bir müjdə ala bilərikmi? Bir də TANAP layihəsinin planlaşdırılan tarixdən daha əvvələ çəkilməsi mövzusunda bir addımdan söhbət gedirmi? Türkiyədən çıxış, Avropaya giriş nöqtəsi olaraq iki müxtəlif alternativ üzərində iş gedirdi. Bu alternativdə də bir konkretlik varmı?**

**İ l h a m Ə l i y e v:** Qeyd etdiyiniz kimi, əlaqələrimiz çoxşaxəlidir. Bütün sahələri əhatə edir. Biz çalışırıq ki, bütün sahələrdə bütün məsələləri zamanında həll edək.

Viza məsələlərinə gəldikdə, bir müddət əvvəl Türkiyə bütün türkdilli dövlətlərin vətəndaşlarına qarşı viza rejimini ləğv etdi. Beləliklə, bütün türkdilli dövlətlərin vətəndaşları Türkiyəyə sərbəst gedə bilərlər və bu qərara görə biz çox minnətdarıq. O ki qaldı Azərbaycana, bu məsələ bu gün müzakirə edildi. Qərar qəbul edildi ki, bu məsələyə biz tədricən nail olaq. Müəyyən kateqoriya insanlar – iş adamları, elm adamları, tanınmış şəxslər vardır ki, onların gediş-gəlişi üçün daha da asan rejim tətbiq oluna bilər. Bütövlükdə isə bizim müəyyən mexanizmlərimiz, daxili prosedurlarımız hələ tamamlanmayıb. Bu prosedurlar tamamlanandan sonra, əlbəttə ki, Türkiyə vətəndaşları da Azərbaycana vizasız gələ bilərlər. Biz bu məsələ üzərində işləyirik. Bu məsələ müzakirə edildi. Türkiyə tərəfi bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini anlayır. Biz birgə səylərlə məsələnin həlli yolunda önəmli addımları atacağıq.

TANAP layihəsinə gəldikdə, bu, sırf Türkiyə–Azərbaycan layihəsidir. Uzun illər Azərbaycan qazını Avropaya çıxarmaq üçün müxtəlif variantlar, layihələr müzakirə edilib. Təəssüf ki, onların heç biri reallaşmadı. Belə olan vəziyyətdə iki qardaş ölkə bütün məsuliyyəti, o cümlədən maliyyə məsuliyyətini öz üzərinə götürmüşdür. TANAP layihəsini biz ikimiz icra edəcəyik. Üçüncü tərəflər üçün də bu layihə açıqdır. Yerdə qalan müəyyən faizlər bizimlə tərəfdaş olan şirkətlərə verilə bilər. Beləliklə, TANAP layihəsinə beynəlxalq status da verilə bilər.

Əsas məsələ Azərbaycan qazını daha da böyük həcmdə Türkiyəyə və Türkiyə ərazisindən Avropa məkanına çatdırmaqdır. Avropa məkanına çatdıqda bu qazın həmin məkana hansı yollarla daxil ediləcəyi artıq texniki və iqtisadi məsələdir. Coğrafiya belə diktə edir ki, Bolqarıstan, ya Yunanıstan ərazisindən Avropaya gedəcək. Hazırda SOCAR və tərəfdaş şirkətlər bütün variantları nəzərdən keçirirlər. Ən məqbul, ən təhlükəsiz və iqtisadi cəhətdən səmərəli varianta üstünlük veriləcək. Hazırda Avropa İttifaqında olan ölkələr bir-biri ilə qaz xətlərini yaradırlar. İstənilən nöqtədən Avropaya Azərbaycan qazı daxil olduqda geniş Avropa məkanını

əhatə edə bilər. Ümid edirəm ki, 2017-ci ildə bu layihə tamamlana bilər.

**S u a l** *(İctimai televiziya):* **Sualım cənab Rəcəb Tayyib Ərdoğanadır. Hörmətli Baş nazir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağı danışıqlar prosesinin getdiyi bir vaxtda bəzi dairələr bu danışıqlar prosesinə fikir vermədən Türkiyə və Ermənistan arasında sərhədin açılması məsələsini yenidən gündəmə gətirir. Bu məsələ ilə bağlı Sizin mövqenizi bilmək istərdik.**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, başda ATƏT-in Minsk qrupu olmaqla, bu məsələnin həlli yolları tapılmayınca, oradan bir və ya iki rayonun məsələsi həll edilməyincə bizim belə bir qapı açmağımız və sairdən söhbət gedə bilməz. Bu, iqtidarda olduğumuz müddətdə həmişə söylədiyimiz sözdür. Belə bir addım ata bilmərik. Hazırda işğal altındakı torpaqlardan ermənilər çıxmalıdır. Bu, beynəlxalq qurumlar tərəfindən də «Bura Azərbaycanındır» deyilməsinə rəğmən, hələ də torpaqların buranın haqq sahiblərinə verilməmiş olması bizim mövqemizi aydın və dəqiq şəkildə ortaya qoyur. Bizim mövqemiz də burada Ermənistan ilə bağlı atdığımız qətiyyətli addım, tutduğumuz mövqe nədirsə, bundan sonra da eyni şəkildə davam edəcək. Bu prosesdə maraqlı tərəf olaraq, biz də hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyik.

## TÜRK ƏSGƏRİNİN MƏZARINI ZİYARƏT

*Şəki*

*12 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan sentyabrın 12-də Şəki şəhərinə gəlmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Şəkinin Orta Zəyzid kəndi ərazisində naməlum türk əsgərinin məzarını ziyarət etmişlər.*

*Dövlətimizin başçısı və qardaş ölkənin Baş naziri Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycandakı və Dağıstandakı hərəkət marşrutlarını, həmçinin respublikamızdakı türk şəhid məzarlıqlarının yerləşdiyi məkanları əks etdirən stendə baxdılar.*

*Bildirildi ki, bu abidə XX əsrin əvvəllərində xalqımızı erməni-bolşevik qəsbkarlarından xilas etmək məqsədi ilə Azərbaycana gəlmiş türk ordusunun şəhid əsgərlərinin şərəfinə ucaldılmışdır. Abidənin ətrafında geniş abadlıq işləri görülmüş, 2002-ci ildə məzarüstü abidə kompleksi yaradılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan abidənin önünə gül dəstələri qoydular.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİ XAN SARAYINI ZİYARƏT

*12 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan sentyabrın 12-də Şəki Xan sarayına gəlmişlər.*

*Sarayla tanışlıq zamanı məlumat verildi ki, XVIII əsrə aid olan bu nadir tarixi-memarlıq abidəsi şəhərin yuxarı hissəsində, «Yuxarı baş» Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşir. Şərq memarlığının nadir incisi hesab olunan bu saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi, «Müştaq» təxəllüsü ilə şeirlər yazan Hüseyn xanın dövründə, təqribən 1762-ci ildə tikilmişdir. İnşaat texnologiyasına görə Xan sarayının dünyada bənzəri yoxdur. Tikinti zamanı mismar və yapışqandan istifadə olunmamışdır. Hər kvadratmetr şəbəkə bir-birinə geydirilən 5 min hissədən ibarətdir. Saray 1300 metr uzunluğunda qala divarları ilə əhatə olunmuşdur. 300 kvadratmetr ərazisi olan ikimərtəbəli sarayda 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvan vardır. Sarayda xalq təsviri sənətinin bir çox növləri, xüsusilə XVIII–XIX əsrlərə aid maraqlı divar rəsmləri diqqəti cəlb edir. Bu rəsmlər əsasən həndəsi, nəbati, habelə süjetli və quşların təsviri həkk olunmuş naxışlardan ibarətdir. Sarayın ikinci mərtəbəsinin divarlarında təsvir olunan döyüş və ov səhnələri xüsusilə maraq doğurur. Şəki Xan sarayı indiyədək 5 dəfə əsaslı bərpa edilmişdir.*

*Diqqətə çatdırıldı ki, bu il iyulun 4-də Şəki şəhərində Şərq memarlığının ən nadir incilərindən hesab edilən Xan sarayının 250 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana Xan sarayının 250 illik yubileyi münasibətilə hazırlanmış*

*gümüş sikkələr hədiyyə edildi, Prezident İlham Əliyevə, xanımına və Baş nazir Rəcəb Tayyib Ərdoğana, xanımına sarayın 250 illik yubileyi münasibətilə nəfis tərtibatda nəşr edilmiş kitablar təqdim olundu.*

*Dövlətimizin başçısı, xanımı və Türkiyənin Baş naziri, xanımı kitabları imzalayaraq bir-birinə təqdim etdilər.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan Şəkinin qədim sənətkarlıq nümunələrinə baxdılar. Burada qonaqlara üzərində maraqlı rəsmlər həkk olunmuş daş nümunələr hədiyyə olundu.*

# TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİ CÜMƏ MƏSCİDİNİ ZİYARƏT

*Şəki*

*12 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan sentyabrın 12-də XIX əsrin tarixi-memarlıq abidəsi olan Şəki Cümə məscidini ziyarət etmişlər.*

*Türkiyənin Baş nazirinə xatirə hədiyyəsi verildi.*

*Prezident İlham Əliyevə və Baş nazir Rəcəb Tayyib Ərdoğana Qurani-Kərim hədiyyə olundu.*

*Türkiyənin Baş naziri isə Qurani-Kərimin türkcəyə tərcümə olunmuş variantını məscidə bağışladı.*

*Cümə məscidi və burada fəaliyyət göstərən Şəki İslam Mədrəsəsi barədə məlumat verilərək bildirildi ki, mədrəsədə həm yerli, həm də Türkiyədən dəvət olunmuş müəllimlər dərs deyirlər. Azərbaycanda yeganə hafiz məktəbi bu mədrəsədədir. Burada tələbələrə Quranla yanaşı, ərəb dili və kompüter texnologiyaları da öyrədilir.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan mədrəsənin tələbələri ilə görüşüb söhbət etdilər, xatirə şəkli çəkdirdilər.*

*Sonra məscidlə tanışlıq oldu. Məlumat verildi ki, şəhərin mərkəzində yerləşən Cümə məscidinin həyətyanı sahəsi 700 kvadratmetrdir. Minarəsinin hündürlüyü 24 metr olan məscidin taxtadan düzəldilmiş onpilləli minbəri şəbəkə ilə işlənmişdir. İbadət zalının 3 giriş qapısı və 44 pəncərəsi vardır. Hündürlüyü 2 metr olan mehrab nəbati ornamentlərlə işlənmişdir. İkinci mərtəbədə isə qadınlar üçün ibadət zalı fəaliyyət göstərir.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİNİN KİŞ KƏNDİNDƏKİ ALBAN MƏBƏDİ İLƏ TANIŞLIQ

*Şəki*

*12 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan sentyabrın 12-də Şəkinin Kiş kəndindəki Alban məbədi ilə tanış olmuşlar.*

*Məlumat verildi ki, bu məbəd eramızın I əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulmuşdur. Əhəng daşından tikilən bu abidə erkən orta əsrlərdə yaranan ilk günbəzli, zal tipli məbəddir. 2001-ci ildə abidədə «Kiş» layihəsi üzrə bərpa işlərinə başlanılmış, 2003-cü ilin sentyabrında məbədin açılışı olmuşdur. Layihə məşhur norveçli alim və səyyah Tur Heyerdalın dəstəyi ilə həyata keçirilmişdir.*

*Qeyd edildi ki, Kiş məbədi nəinki Qafqaz Albaniyasında, eləcə də bütün Qafqazda təqribən 2000 il bundan əvvəl xristianlığın yayıldığını rəmzləşdirən məşhur tarixi abidədir. Hazırda məbəd tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan məbədin ilkin orta əsrlərə aid sərdabalarına baxdılar. Məbədi gəzdikdən sonra Kiş kənd sakini İsmayıl İlyasovun həyatinə gəldilər. Evin sakinləri Azərbaycan dövlətinin başçısının və Türkiyənin Baş nazirinin xanımları ilə birlikdə gəlişindən sonsuz sevinc hissi keçirdiklərini bildirdilər.*

# TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİNİN YUXARI VƏ AŞAĞI KARVANSARA MEHMANXANA KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Şəki*

*12 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan sentyabrın 12-də Şəkidə XVIII əsrdə Şərq memarlığı üslubunda tikilmiş Yuxarı Karvansara mehmanxana kompleksi ilə tanış olmuşlar.*

*Məlumat verildi ki, Şəki sənətkarlıq və ticarət şəhəri olduğundan XVIII–XIX əsrlərdə burada çoxlu sayda bazar və karvansaralar tikilmişdi. Azərbaycana gələn tacir və səyyahların qaldıqları və əsasən ticarətlə məşğul olduqları bu karvansaralar şəhər həyatında mühüm rol oynayırdı. Karvansaralar həm də ticarət sazişlərinin bağlanılması üçün xüsusi yer hesab olunurdu. Əvvəllər Şəkidə 5 karvansara binası mövcud olmuşdur. Onlardan yalnız 2-si – Yuxarı və Aşağı karvansaralar indiyədək qalmışdır.*

*Yuxarı Karvansara mehmanxana kompleksi ilə tanışlıqdan sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, xanımı Əminə Ərdoğan birgə nahar etdilər.*

* * *

*Sonra Azərbaycan prezidenti, xanımı və Türkiyənin Baş naziri, xanımı Şəkidəki Aşağı Karvansara məhəlləsini gəzdilər. Qonaqlar məhəllədəki müxtəlif sənət növləri nümunələrinin cəmləndiyi mağazalara baxdılar.*

*Yerli sənətkarlar tərəfindən hazırlanan müxtəlif hədiyyəlik əşyalar qonaqlara təqdim olundu, xüsusilə Şəki ipəyindən hazırlanan geyim əşyaları daha çox maraqla qarşılandı.*

*Bildirildi ki, Şəki tarix boyu öz sənətkarları ilə məşhur olmuşdur. Bu gün də bu qədim el ənənələrinin yaşadılmasına böyük diqqət göstərilir, onlar nəsildən-nəslə ötürülür.*

*Qonaqlara Şəki şirniyyatları da təqdim edildi.*

*Diqqətə çatdırıldı ki, Aşağı Karvansara funksional xüsusiyyətlərinə görə başqalarından seçilir. Böyüklüyü, rahatlığı, səfalı bir məkanda yerləşməsinə görə Cənubi Qafqazda tayı-bərabəri yoxdur. Tikintidə Şəki memarlığının əsasını təşkil edən bişmiş kərpicdən, çay daşından, kirəmitdən, və digər yerli materiallardan məharətlə istifadə olunması binaya xüsusi gözəllik verir. Burada tağbəndlərdən istifadə edilməsi bu gözəlliyi daha da artırır. Yolüstü karvansaralardan fərqli olaraq, burada istirahət otaqları ilə yanaşı, müxtəlif görüşlərin keçirilməsi, müqavilələrin bağlanması və sair üçün xüsusi otaqlar da inşa edilmişdir.*

*Bildirildi ki, Aşağı Karvansaranın 4 tərəfdən giriş qapısı vardır. Bu qapılar bağlandıqda karvansara alınmaz qalaya çevrilir ki, bu da Şəki sənətkarlarının yüksək dünyagörüşünə və memarlıq bacarığına malik olduqlarını göstərir.*

## TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ HULUSİ KILIÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Türkiyə Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Hulusi Kılıçı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

**H u l u s i  K ı l ı ç:** Həyatımın bundan sonrakı hissəsində də Azərbaycanın bir nümayəndəsi, vətəndaşı kimi işləməyə davam edəcəyəm. Bunu bilməyinizi istəyirəm. Mən buraya, bu Vətənə xidmət üçün gəlmişdim. Bu müddətdə də çox dəstək, kömək gördüm. Dünənki səfər də tarixi səfər idi. Hörmətli Prezidentim, biz Sizə, Mehriban xanıma minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də çox şadam ki, səfər çox gözəl keçdi. Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycanın başqa yerləri ilə də tanış oldu. Bu səfərin təşkilində sizin də böyük səyləriniz olubdur. Ümumiyyətlə, Azərbaycanda çalışdığınız dövrdə 2 ölkəni bir-birinə daha da yaxın etmək üçün böyük səylər göstərmisiniz. Biz bunu yüksək qiymətləndiririk. Doğrudan da siz Azərbaycan xalqının dostusunuz. Bura sizin öz vətəninizdir. Əminəm ki, başqa işdə də daim bizimlə əlaqədə olacaqsınız.

*Dövlətimizin başçısı Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Hulusi Kılıçın Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeni ilə təltif edildiyini dedi və ordeni ona təqdim etdi.*

**H u l u s i  K ı l ı ç:** Hörmətli Prezident, bu mənim üçün həyatımda aldığım ən şərəfli mükafatdır. Buna layiq ola bilmək

də həqiqətən, həyatımın mükafatıdır. Bundan əlavə, Zatialiləriniz tərəfindən bunun dəyərləndirilməsi həyatımın 4 il yarımının bir xülasəsidir, qiymətləndirilməsidir. Mən bunun üçün şükranlığımı, təşəkkürlərimi bildirmək istəyirəm, hörmətli Prezidentim!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizin burada fəaliyyətiniz doğrudan da çoxşaxəli olub. Cəmiyyətdə də böyük nüfuz qazana bilmisiniz. Mən bilirəm ki, siz Azərbaycanı nə qədər ürəkdən sevirsiniz. Buna görə sizə gələcək fəaliyyətinizdə də uğurlar arzulayıram. Əminəm ki, gələcək illərdə ölkələrimiz bir-biri ilə daha da sürətlə əməkdaşlıq edəcəkdir. Dünən və srağagün hörmətli cənab Baş nazirlə keçirdiyimiz görüşlər bir daha münasibətlərimizin nə qədər dərin olmasına dəlalət edir.

## NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİNİN MÜAVİNİ MAKSİM VERHAGENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Niderland Krallığının Baş nazirinin müavini və İqtisadi İşlər, Kənd Təsərrüfatı və İnnovasiya naziri Maksim Verhagenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Maksim Verhagen Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. Niderland Krallığının Bakıda səfirliyinin fəaliyyətə başlamasından sonra ikitərəfli əlaqələrimizin inkişafında irəliləyişlərin olduğunu vurğulayan Maksim Verhagen bu əlaqələrin gələcək illərdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. O, Azərbaycana səfərinin ölkələrimiz arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə inkişafının razılıq doğurduğunu vurğuladı. İkitərəfli münasibətlərimizin genişləndirilməsində müxtəlif səviyyəli səfərlərin önəmini diqqətə çatdıran Azərbaycan prezidenti ölkələrimiz arasında möhkəm tərəfdaşlıq əlaqələrinin qurulması üçün yaxşı imkanların olduğunu dedi.*

*Görüşdə Niderland şirkətlərinin ölkəmizdəki geniş və uğurlu fəaliyyəti vurğulandı, neft-qaz sektoru, daşımalar, nəqliyyat, infrastruktur, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın «STRATFOR» ANALİTİK MƏRKƏZİNİN TƏSİSÇİSİ VƏ İCRAÇI DİREKTORU CORC FRİDMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də ABŞ-da fəaliyyət göstərən «Stratfor» analitik mərkəzinin təsisçisi və icraçı direktoru Corc Fridmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər, «Stratfor» analitik mərkəzi ilə ölkəmizin müxtəlif analitik mərkəzləri arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının Yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan yəhudi vətəndaşlarımız yüz illərdir ki, ölkəmizdə əmin-amanlıq, dostluq və qardaşlıq münasibətləri şəraitində yaşayır, öz dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamaqla, Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hazırda ölkəmizdə gedən böyük tərəqqi və inkişaf prosesində, azad vətəndaş cəmiyyəti quruculuğunda, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında yəhudi icmasının özünəməxsus rolu vardır.

Əziz dostlar!

Hər il təntənə ilə bayram etdiyiniz Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2012-ci il*

## BAKININ NİZAMİ RAYONUNDA YENİDƏN QURULMUŞ HEYDƏR BAĞI – PARK BULVARIN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Nizami rayonunda Heydər bağı – Park-bulvarın yenidənqurmadan sonra açılışı mərasimdə iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Dövlətimizin başçısı Park-bulvarın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Bildirildi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə 1998-ci ildə salınmış bu parkda aparılan yenidənqurma işləri ən yüksək səviyyədə həyata keçirilib. Əhalinin sıx yaşadığı bu ərazidə sakinlərin istirahətinin təşkili üçün hər cür şərait yaradılıb. Ərazisi 56 min kvadratmetr, uzunluğu 800, eni 70 metr olan parkda fəvvarələr kompleksi yaradılıb, musiqili fəvvarə quraşdırılıb. Burada inşa olunan terrasın sahəsi 1000 kvadratmetrdən çoxdur. Park-bulvarın maraqlı elementlərindən biri də müxtəlif əyləncə növlərinin bir arada təqdim olunmasıdır. Burada yaradılan açıq kafelər yay vaxtı sakinlərin istirahətini daha maraqlı təşkil etməyə imkan verir. Parkda şirniyyat mağazası, fotostudiya, yay kafesi və digər iaşə obyektləri də istifadəyə verilib.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tir tüfəngi ilə hədəfə atəş açdı.*

*. Prezident İlham Əliyev Park-bulvarda görülmüş işlərdən razılığını bildirdi.*

## BAKININ NİZAMİ RAYONUNDAKI 242 SAYLI ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Nizami rayonundakı 242 saylı orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik məktəbin binası 1968-ci ildən fəaliyyət göstərir. O vaxtdan indiyədək bu təhsil ocağında təmir işləri aparılmamışdır. Məktəbin əsaslı surətdə yenidən qurulmasına 2012-ci ildə Dövlət Proqramına uyğun olaraq başlanılmışdır.*

*Diqqətə çatdırıldı ki, burada sinif otaqları müasir standartlara uyğun şəkildə təmir edilib. İnventarlar yeniləri ilə əvəz olunub, fənn kabinetləri lazımi avadanlıqlar və əyani vəsaitlərlə təchiz edilib. Məktəbin istilik sistemi müasir qaydada yenidən qurulub, fasiləsiz isti və soyuq su ilə təmin olunub. Əsaslı təmir zamanı işıqlandırma sistemi də müasirləşdirilib. İdman və akt zallarında, yeməkxanada, tibb məntəqəsində ən müasir şərait yaradılıb.*

*Qeyd edildi ki, təhsil ocağının yerləşdiyi 1,7 hektar ərazidə abadlıq və quruculuq işləri həyata keçirilib, 1,2 min kvadratmetr sahəyə asfalt salınıb.*

*Görülmüş işlərdən razılığını bildirən dövlətimizin başçısı məktəbdə təhsilin yüksək səviyyədə aparılması barədə tapşırıq və tövsiyələrini verdi.*

## BAKININ NİZAMİ RAYONUNDA ƏSASLI SURƏTDƏ YENİDƏN QURULMUŞ 70 SAYLI MƏKTƏB-LİSEY İLƏ TANIŞLIQ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Nizami rayonunda əsaslı surətdə yenidən qurulmuş 70 saylı məktəb-liseylə tanış olmuşlar.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, 70 saylı məktəb-liseyin binası 1967-ci ildən fəaliyyət göstərir. O vaxtdan indiyədək bu təhsil ocağının binası təmir olunmamışdır. Bu məktəb-liseydə də əsaslı təmir və yenidənqurma işləri «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq həyata keçirilmişdir.*

*Bildirildi ki, məktəb-liseyin bütün sinif otaqları və fənn kabinetləri ən yüksək standartlar səviyyəsində təmir olunub. Təhsil ocağı müasir avadanlıqlar və əyani dərs vəsaitləri ilə təchiz edilib. Şagird sıxlığının və çoxnövbəli tədrisin aradan qaldırılması məqsədi ilə 42 sinif otağından ibarət 840 şagird yerlik əlavə korpus inşa edilib.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəb-liseydə yaradılan şəraitlə yaxından tanış oldular.*

*Diqqətə çatdırıldı ki, bu təhsil ocağında istilik və işıqlandırma sistemləri tamamilə yenidən qurulub. Məktəb-lisey daimi isti və soyuq su ilə təchiz edilib. Təhsil ocağının ərazisində abadlıq və quruculuq işləri həyata keçirilib, 1300 kvadratmetrlik sahəyə asfalt salınıb.*

*Əsaslı təmir və yenidənqurma işlərindən razılığını bildirən dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

## BAKININ KEŞLƏ QƏSƏBƏSİNDƏ 328 SAYLI MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsində 328 saylı orta məktəbin yeni binasının açılışı mərasimində iştirak etmişlər.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbin foyesində xalqımızın ulu öndəri Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Vurğulandı ki, müasir qurğularla təmin edilən idman zalında mini-futbol, basketbol və idmanın digər növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb. Məktəbdə ibtidai hərbi hazırlıq kabineti də vardır. Təhsil ocağında biologiya, fizika, kimya fənninin əyani vəsaitlərlə öyrənilməsi məqsədilə laboratoriyalar, şagirdlərin asudə vaxtlarının səmərəli təşkili üçün isə əmək otaqları yaradılıb.*

*Məktəblə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni dərs ilində kollektivə uğurlar arzuladılar.*

## BAKININ KEŞLƏ QƏSƏBƏSİNDƏ 100 YERLİK UŞAQ BAĞÇASI BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsində 100 yerlik uşaq bağçası binasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı uşaq bağçasının istifadəyə verildikdən sonrakı görüntülərini əks etdirən stendə baxdı.*

*Diqqətə çatdırıldı ki, bağça binasının ümumi sahəsi 1200 kvadratmetr olacaqdır. İki mərtəbədən ibarət binada 20-dən çox otaq, o cümlədən kiçik yaş qrupu bölməsi, yeməkxana, kitabxana, həkim, musiqi otaqları və digər kabinetlər yaradılacaqdır. Bağçada qış və yay oyun zalları fəaliyyət göstərəcəkdir. Ətrafda geniş yaşıllıq zolağı salınacaq, müxtəlif attraksionlar quraşdırılacaqdır.*

*Prezident İlham Əliyev uşaq bağçası binasının təməlini qoydu, tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## BAKININ BÜLBÜLƏ QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ 327 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 14-də paytaxtın Suraxanı rayonunun Bülbülə qəsəbəsində yeni inşa olunmuş 327 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı 2011-ci ilin aprelində Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərlə tanışlıq məqsədilə Bülbülədə olarkən keçirdiyi görüş zamanı qəsəbə sakinləri burada yeni məktəbə ehtiyac olduğunu bildirmişdilər. Elə həmin gün Prezident Bülbülə qəsəbəsində 640 şagird yerlik ümumtəhsil məktəbinin binasının tikintisinə başlamaq haqqında sərəncam imzalamışdı. Sərəncama uyğun olaraq dövlət büdcəsində Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına yeni məktəb binasının inşasına başlanıldı. Prezidentin tapşırığına uyğun olaraq 327 saylı tam orta məktəbin yeni binası qısa vaxt ərzində yüksək standartlara uyğun tikildi.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 3 korpusdan ibarət binanın ümumi sahəsi 7 min 455 kvadratmetrdir. Məktəbin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. İkinci mərtəbədə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotostendlər qurulmuşdur.*

*Diqqətə çatdırıldı ki, məktəbdə 32 sinif otağı, informatika, kimya, biologiya, fizika, ədəbiyyat, əmək və gənclərin çağırışaqədər hazırlıq fənn kabinetləri yaradılıb. Məktəb daxili simsiz internet xidməti ilə təmin olunub. MDB məkanında ilk dəfə olaraq bu məktəbdə «smart sinif» açılıb. Bu layihə çərçivəsində ilk dəfə olaraq elektron tədris üçün nəzərdə tutulmuş «smart sinif» otağı layihəsi tətbiq edilib. «Smart sinif» otağında quraşdırılmış simsiz*

şəbəkə, rəqəmsal podium, interaktiv «Smart LCD», planşet kompüter və digər avadanlıqlar kompleks şəkildə interaktiv tədrisə imkan yaradır və bu prosesi gücləndirir. «Smart sinif» otağı layihəsinin tətbiq olunmasında əsas məqsəd Azərbaycanın təhsil sisteminin inkişafına və müasirləşdirilməsinə töhfə vermək, məktəb idarəetmə prosesində, həmçinin orta tədris sistemində informasiya texnologiyalarından istifadəni tətbiq etmək və gücləndirməkdir. Məktəbdə valideyn-müəllim assosiasiyası, psixoloq kabineti, kitabxana, kütləvi tədbirlərin keçirilməsi üçün 250 nəfərlik akt zalı yaradılıb.

Bildirildi ki, burada 2 min 640 kvadratmetr sahəsi olan yaşıl örtüklü idman meydançası və gənclərin hərbi hazırlığı üçün idman avadanlığının qurulduğu meydança vardır.

Daha sonra prezident İlham Əliyevə məktəbin yerləşdiyi ərazidə aparılan abadlıq işləri barədə məlumat verildi.

## PAYTAXTIN 8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ YENİ STADİONUN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Nizami rayonunun 8-ci Kilometr qəsəbəsində tikilmiş yeni stadionun açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Prezident İlham Əliyev stadionun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Stadionla tanışlıq zamanı dövlətimizin başçısına məlumat verən AFFA-nın prezidenti Rövnəq Abdullayev bildirdi ki, burada tikinti işlərinə 2010-cu ilin mayında başlanılmışdır. Ümumi ərazisi 22 min 500 kvadratmetr olan stadion beynəlxalq standartlara cavab verən müasir avadanlıqla təchiz edilib.*

*Prezident İlham Əliyevə Azərbaycan futbolunun keçdiyi 100 illik inkişaf yolundan bəhs edən «Azərbaycan futbolu–100» adlı kitab təqdim edildi.*

*Daha sonra dövlətimizin başçısı futbol meydançasında yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, 11 min tamaşaçı yeri olan stadion ümumi, media və VİP olmaqla, 3 giriş hissədən və 5 sektordan ibarətdir. Stadionda futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının oyunları keçiriləcəkdir və artıq bu, FİFA tərəfindən də təsdiq edilmişdir. Dünya birinciliyi bitdikdən sonra isə burada Azərbaycan Premyer Liqasının oyunları keçiriləcəkdir.*

*Futbol meydançasına FİFA standartlarına uyğun xaricdən gətirilən təbii ot örtüyü salınıb və xüsusi isitmə sistemi quraşdırılıb. Meydançanın işıqlandırılması üçün 4 projektor və ümumi müasir işıqlandırma sistemi yaradılıb. Tribunaların*

üstünün bağlanması üçün xüsusi fəza konstruksiyasından istifadə olunub və üzərinə müxtəlif ölçüdə yanğına və digər təsirlərə davamlı xüsusi membran örtük çəkilib.

Daha sonra prezident İlham Əliyevə 2012-ci ildə Polşada və Ukraynada keçirilən futbol üzrə Avropa çempionatının rəsmi topu hədiyyə edildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qızlardan ibarət milli komandanın topuna uğur imzası atdılar.

Dövlətimizin başçısı stadionun otaqlarında yaradılan şəraitlə də tanış oldu.

Bildirildi ki, tribunada ailə baxış otağı və 17 skayboks VİP otaqlar da inşa edilib. Böyük monitorun quraşdırıldığı tribunada mətbuat nümayəndələri üçün lazımi avadanlıqla təchiz edilən 200 nəfərlik xüsusi oturacaqlar quraşdırılıb. Tribunanın alt hissəsində komandaların istifadəsi üçün 4 soyunub-geyinmə otağı, FİFA-nın media mütəxəssisləri üçün otaqlar və konfrans zalları, məşqçilər, hakimlər, həkimlər üçün otaqlar, dopinq-nəzarət və digər otaqlar yaradılıb. Burada mərkəzi idarəetmə, təhlükəsizliyə nəzarət-müşahidə və şərhçi otaqları inşa edilib. Stadionun 300 avtomobil yerlik dayanacağı vardır.

Prezident İlham Əliyev stadionda yaradılmış şəraiti yüksək qiymətləndirdi.

## PAYTAXTIN NİZAMİ RAYONU ƏRAZİSİNDƏ YERALTI PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsindəki 22–69 ünvanında – Babək prospektində tikilən yeraltı piyada keçidinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı keçidin texniki göstəricilərini əks etdirən stendə baxdı.*

*Azərbaycan prezidenti yeraltı piyada keçidinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, bu gün Bakıda yol-nəqliyyat sisteminin inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı gördüyü işlər nəticəsində indi paytaxtımızda yeni yol qovşaqları, körpülər və piyada keçidləri inşa olunur.*

*Bildirildi ki, Keşlə qəsəbəsində yeraltı piyada keçidinin inşasına ötən il başlanılmışdır. İşlərin keyfiyyətlə, həm də tez bir zamanda yekunlaşması üçün bütün qüvvələr səfərbər olunmuşdur. Tikinti işləri zamanı burada 60-a yaxın işçi çalışmışdır. Yeni yeraltı piyada keçidi bu ərazidə sakinlərin rahat gediş-gəlişini və təhlükəsiz hərəkətini təmin etmək istiqamətində mühüm rol oynayır.*

*Keçiddə müasir işıqlandırma sistemi, hər iki girişdə təhlükəsizlik kameraları quraşdırılıb. Bu kameralar vasitəsilə sutka ərzində keçiddəki təhlükəsizliyə nəzarət olunacaqdır.*

*Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi.*

## XIV LONDON PARALİMPİYA OYUNLARINDA ÖLKƏMİZİ TƏMSİL ETMİŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də XIV London Paralimpiya oyunlarında ölkəmizi təmsil etmiş idmançıları və onların məşqçilərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev idmançıları salamladı:*

– Əziz dostlar, əziz idmançılar!

Mən sizi ürəkdən salamlayıram və Londonda qazanılmış böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Bizim paralimpiyaçılarımız Azərbaycan bayrağını yüksəklərə qaldırdılar. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Bizim komandamız 21 idmançı ilə təmsil olunmuşdur. İdmançılarımız medallar qazanmışlar – toplam 12 medal. Elə idmançımız da var ki, bir neçə medal qazanıb. Bu da hesab edirəm ki, çox gözəl nəticədir, çox böyük qələbədir. Bizim komanda 27-ci yerdədir. 4 qızıl, 5 gümüş, 3 bürünc medalımız var. Bu doğrudan da böyük və tarixi qələbədir. Paralimpiyaçılarımız artıq bir neçə dəfədir ki, Paralimpiya oyunlarında iştirak edirlər. Ancaq ən böyük qələbə məhz London oyunlarında qazanılmışdır.

Mən Sizi bir daha bu böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Siz bütün xalqımızı sevindirmisiniz, peşəkarlığınızı, Vətənə bağlılığınızı göstərmisiniz. Çünki idman qələbələrinin mənbəyi Vətənə, xalqa olan məhəbbət və sədaqətdir.

Azərbaycan idman dövlətidir. Artıq mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm. Həyat və sizin uğurlarınız bu sözləri bir daha təsdiqləyir. Çünki həm Olimpiya, həm Paralimpiya oyunlarında idmançılarımız şərəflə çıxış etmişlər. Dünya miqyasında yüksək pilləyə qalxmaq çox böyük nəticədir. Hər bir qələbə, hər bir uğur ölkəmizi daha da ucaldır. Bu, əlbəttə ki, sizin qələbənizdir, idmançıların, onların məşqçilərinin, idman

mütəxəssislərinin uğurudur. Ancaq bununla bərabər, bütün xalqımızın, dövlətimizin uğurudur. Londonda həm olimpiyaçılarımızın, həm ondan sonra sizin bizə bəxş etdiyiniz o sevincli günləri, anları biz heç vaxt unutmayacağıq. Sizin hər bir qələbənizi hər bir vətəndaş öz qələbəsi kimi qəbul etmişdir.

Biz doğrudan da idmanda böyük uğurlara nail ola bilmişik. İdman infrastrukturu yaradılır. Paralimpiyaçılar üçün 2008-ci ildə yeni idman kompleksi tikilib istifadəyə verilmişdir. Mən xatırlayıram, Pekinə yola düşərkən biz sizinlə orada görüşmüşdük. Pekində də nəticələr yaxşı idi. Londonda isə nəticələr ən yüksək səviyyədədir.

Biz artıq tanınmış idman dövlətlərinin arasında özümüzə layiqli yer tapa bilmişik. Bu qələbə bizi həm ruhlandırır, həm də onu göstərir ki, gələcəkdə bundan da böyük qələbələr olacaqdır. O da çox əlamətdar bir haldır ki, həm Olimpiya oyunlarında, həm Paralimpiya oyunlarında ildən-ilə qələbələrin sayı artır və komandalar arasında yerimiz daha da yüksəlir.

Bu onu göstərir ki, dinamika vardır. Ona görə, vətəndaşlarımız bir növ, bu vəziyyətə öyrəşmişlər. Hər dəfə idmançılardan daha da böyük qələbələr gözləyirlər və haqlıdırlar. Amma qələbə qazanmaq çox çətindir, çox böyük fiziki, mənəvi güc və peşəkarlıq tələb edir.

Bizim qələbəmiz dünyaya səs salıb və bir də onu göstəribdir ki, qələbələrimiz təsadüfi xarakter daşımır. Həm Olimpiya oyunlarında, ondan sonra Paralimpiya oyunlarında komandamız ən yüksək yerlərdədir. 4 qızıl, 5 gümüş, 3 bürünc medal – 27-ci yerdə olmaq böyük şərəfdir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Siz bu qələbəyə layiqsiniz. Mən sizinlə və olimpiyaçılarımızla Olimpiya oyunları ərəfəsindəki görüşü xatırlayıram. Biz sizi yola salarkən böyük ümidlərlə gələcəyə baxırdıq. Mən şəxsən əmin idim ki, siz bizi sevindirəcəksiniz, Azərbaycan xalqını sevindirəcəksiniz. Belə də oldu. Bu qələbə sizə layiqdir, bu qələbə Azərbaycana layiqdir, Azərbaycan da bu qələbəyə layiqdir. Azərbaycan güclü dövlətdir, dinamik inkişaf edən dövlətdir. Bütün sahələrdə uğurlarımız var,

Azərbaycan bütün sahələrdə inamla irəliləyir. Azərbaycanın istər siyasi müstəvidə, beynəlxalq aləmdə, istərsə də iqtisadi sahədə uğurları artıq reallıqdır, dünya ictimaiyyəti bunu bilir və təqdir edir. Bəzi hallarda bizim təcrübəmiz öyrənilir, Azərbaycanda gedən proseslər nümunəvi xarakter alır.

İdman hər bir ölkənin gücünü göstərir. İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır. Azərbaycanda bu belədir. Uğurlarımızın təməlində məhz dövlət siyasəti dayanır. Bizdə çox gözəl gənc nəsil yetişir. Baxın, Olimpiya oyunlarından sonra güləş üzrə dünya çempionatında gənclərimiz birinci yerə çıxdılar. Yeniyetmələr arasında I Olimpiya oyunlarında cavanlarımız 11-ci yerə nail ola biliblər. Yeni nəsil yetişir, dinamika, düşünülmüş yanaşma, proqram, konsepsiya və dövlət siyasəti vardır. Məhz dövlət siyasəti, idmançılarımızın peşəkarlığı, mütəxəssislərin fəaliyyəti, federasiyaların, olimpiya və paralimpiya komitələrinin birgə fəaliyyəti bu uğurları şərtləndirir. Amma son sözü idmançılar deyirlər. Son söz sizindir və siz də bu sözü demisiniz, bizi sevindirmisiniz, Vətənə böyük qələbə ilə qayıtmısınız. Mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar və cansağlığı arzulayıram.

* * *

*Sonra London Paralimpiya oyunlarında uğur qazanmış idmançıların və onların məşqçilərinin mükafatlandırılması mərasimi oldu.*

*Prezident İlham Əliyev mükafatları təqdim etdi.*

**İlham Zəkiyev** *(ikiqat paralimpiya çempionu):* Çox sağ olun, cənab Prezident, Allah köməyiniz olsun. Bu bizi yeni qələbələrə ruhlandıracaqdır. Sizin diqqətiniz sayəsində «Qızıl çinar» mükafatından sonra məşqlərimi daha da artırdım. Olimpiya oyunlarında hər hansı bir medal mənim üçün qələbədir. 1450 gündən sonra Rio-de-Janeyroda Sizi bundan da yüksək nəticələrlə sevindirməyə çalışacağıq.

**Ramin İbrahimov** *(London Paralimpiadasının qalibi):* Çox sağ olun, cənab Prezident. Sizin bu diqqət və qayğınız bizi daha da ruhlandıracaqdır. Mən hələ Pekində üçüncü yerə çıxanda

qarşıma məqsəd qoymuşdum ki, Londondan ölkəmizə qızıl medal gətirim. Buna nail oldum. Mənim ən böyük arzum idi ki, cənab Prezident əlimi havaya qaldırsın. Çox sağ olun.

*Prezident İlham Əliyev Ramin İbrahimovun əlini havaya qaldırdı.*

**A ğ a n a ğ ı C ə f ə r o v** *(məşqçi):* Cənab Prezident, ən böyük qələbə Sizindir. Siz Ramil Səfərovu ölkəmizə gətirdiniz. Buna heç inanmaq olmurdu. Ən böyük çempion Sizsiniz.

**M ə h ə r r ə m S u l t a n z a d ə** *(paralimpiya komandamızın baş məşqçisi):* Cənab Prezident, Londonda XIV Paralimpiya oyunlarında komandamız uğurla çıxış etmiş və Vətənə böyük qələbə ilə qayıtmışdır. Hər bir idmançının ən böyük arzusu yüksək pilləyə qalxmaq, Azərbaycanın bayrağını yüksəltmək və himnini səsləndirməkdir. Sizin «Azərbaycan güclü dövlətdir və güclü dövlətin güclü idmançıları olmalıdır» sözləriniz Londonda öz təsdiqini tapmışdır. İdmançılarımız 4 qızıl, 5 gümüş, 3 bürünc medal qazanmışlar. Bu, böyük nailiyyətdir. Bu Sizin və bütün Azərbaycan xalqının nailiyyətidir. Bütün paralimpiyaçılarımız adından Sizə dərin təşəkkürümüzü bildiririk.

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, mən sizi bir daha təbrik edirəm. Mən çox şadam ki, doğrudan da Azərbaycan idmanı artıq dünyada özünü tanıtdırıb. Azərbaycan idmanını tanıtdıran sizsiniz – olimpiyaçılarımız, paralimpiyaçılarımız, gənclər, yeniyetmələr, uşaq idmançılarımız. Biz hamımız çalışırıq ki, Azərbaycanda idman daha da sürətlə inkişaf etsin. Hamımız çalışırıq ki, ölkəmiz daha da güclənsin, daha da öz təsir imkanlarını genişləndirsin. İdman artıq dünya siyasətində də öz yerini tapıbdır. Olimpiya və Paralimpiya oyunları elə oyunlardır, elə yarışlardır ki, burada ölkələr bir-biri ilə rəqabət aparır. Bu rəqabətdə Azərbaycan yüksək yerlərdədir. Bunun da səbəbkarı sizsiniz.

Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

## «BİLİK GÜNÜ»NDƏ BAKININ YASAMAL RAYONUNDA 18 SAYLI MƏKTƏBİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Bilik Günü»ndə – sentyabrın 15-də Bakının Yasamal rayonunda tamamilə yenidən qurulmuş Mikayıl Müşfiq adına 18 saylı məktəbin açılışında iştirak etmişdir.*

*Məktəbin pedaqoji kollektivi, şagirdlər və valideynlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Yeni dərs ili münasibətilə şagirdləri və müəllimləri təbrik edən prezident İlham Əliyev dedi:*

– Sabahınız xeyir olsun. Mən sizi ürəkdən salamlayıram, yeni dərs ili münasibətilə təbrik edirəm.

Yeni dərs ilində siz təmir edilmiş məktəbdə oxuyacaqsınız. Məktəbin böyük tarixi var. Bildiyiniz kimi, məktəbin vəziyyəti o qədər də yaxşı deyildi, təmirə ehtiyac var idi. Göstəriş verildi ki, təmir ən yüksək səviyyədə aparılsın. Bu məktəb artıq həm xarici görünüşü, həm daxili dizayn baxımından şəhərimizin ən gözəl məktəblərindən biridir. Bütün şərait yaradılıb, indi mən gedib tanış olacağam. Məktəbdə gedən təmir-tikinti işləri ilə bağlı mənə mütəmadi qaydada məlumat verilirdi.

Mən çox şadam ki, Bakıda yeni gözəl məktəb artıq qapılarını şagirdlərin üzünə açır. Burada həm oxumaq, həm də işləmək üçün yaxşı şərait vardır, valideynlər də razı qalacaqlar. Bir sözlə, biz çalışırıq ki, şəhərimizin və ölkəmizin bütün məktəbləri bu səviyyədə olsun. Son illərdə buna nail ola bilmişik. Çünki təkcə keçən il Bakı şəhərində 60-dan çox məktəb əsaslı təmir edilmişdir. Bu il isə 81 məktəb təmir edilir, yeni korpuslar, yeni məktəblər tikilir və gələn ilin sonuna qədər Bakı şəhərinin məktəb problemləri 100 faiz həll olunacaqdır.

Gələn il 120 məktəbin əsaslı təmiri nəzərdə tutulur. Beləliklə, Bakıda bir dənə də olsun yararsız, təmirsiz, qəzalı vəziyyətdə məktəb olmayacaq.

Bu doğrudan da böyük nailiyyətdir. Çünki Bakının məktəblərinin tam əksəriyyəti uzun illər bundan əvvəl tikilmişdir və təmirə ehtiyac var idi. Biz bütün məktəbləri gözəl vəziyyətə gətirib çıxarırıq.

Bununla bərabər, bütün başqa bölgələrdə məktəb tikintisi gedir. Son illər ərzində 2200-dən çox məktəb binası tikilmiş və təmir edilmişdir. Bu proses davam edir və gələn ilin sonuna qədər çalışacağıq ki, bütün bölgələrdə əksər məktəblər təmir edilsin.

Beləliklə, biz məktəb infrastrukturunun yenidən qurulması proqramını uğurla başa çatdıracağıq. Qaldı ki məktəblərdə təhsilin səviyyəsinin yüksək olmasına, bu da müəllimlərdən asılıdır. Uşaqlar da yaxşı oxumalıdır. Müəllimlər də öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər ki, Azərbaycan cəmiyyəti üçün gözəl, yeni, peşəkar, bilikli kadrlar yetişsin. Uşaqlarımız bilikli, savadlı olmalıdır. Çünki müasir dünyada hər bir insanın və hər bir ölkənin uğurunu şərtləndirən biliyin səviyyəsidir. İndi biz XXI əsrdə yaşayırıq. XXI əsr yüksək texnologiyalar əsridir. Bu əsrdə hansı ölkə biliyə, savada, yeniliyə daha meyillidirsə, o ölkə öz maraqlarını təmin edəcəkdir. Çünki müasir texnologiyalar elə inkişaf edibdir ki, bəlkə də 10 il, 20 il bundan əvvəl bunu təsəvvür etmək mümkün deyildi.

Biz də inkişaf yolunu seçmişik. Biz bütün sahələrdə inkişafdayıq, o cümlədən texnologiyalar sahəsində də inkişafda olmalıyıq. Cəmiyyətin gücünü müəyyən edən insanlardır. Əlbəttə, hər bir ölkənin öz təbii resursları, öz coğrafi üstünlükləri vardır. Ancaq nəticə etibarilə hər şey insanlardan asılıdır. Sənin neftin də, qazın da çox ola bilər, əgər peşəkar insanların, kadrların yoxdursa, bunun heç bir əhəmiyyəti olmayacaqdır. Ona görə, müasir dünyada həm özünə yer tapmaq, həm ölkəyə fayda gətirmək üçün mütləq uşaqlar yaxşı oxumalıdır. Bu sözləri uşaqlar yəqin ki, tez-

tez eşidirlər. Bu da təbiidir. Amma doğrudan da bu sözlərin çox böyük mənası vardır. Yaxşı oxumaq o deməkdir ki, siz həyatda istədiyinizə nail ola bilərsiniz. İndi Azərbaycanda vəziyyət elədir ki, hər bir insanın uğuru onun əlindədir. Azərbaycanda azadlıq, sərbəstlik var, bazar iqtisadiyyatı prinsipləri hökm sürür və hər bir insanın taleyi onun öz əlindədir. Ona görə yaxşı bilik almaq ilk növbədə, sizin üçün lazımdır, eyni zamanda, xalq üçün, dövlət üçün lazımdır. Azərbaycan gəncləri gələcəkdə ölkəmizi idarə edəcəklər. Gələcəkdə ölkəmizin inkişafı sizdən asılı olacaqdır. İlk növbədə bilik, bununla bərabər, Vətənə olan bağlılıq, Vətən sevgisi mütləq yüksək səviyyədə olmalıdır. Ümid edirəm ki, bizim bütün məktəblərdə vətənpərvərlik mövzusu daim gündəlikdədir. Vətənə bağlılıq, sevgi, peşəkarlıq və yüksək biliyə malik olmaq – bunlar ölkəmizi qabağa aparacaqdır.

Biz isə çalışacağıq ki, gənclərimiz üçün daha da gözəl şərait yaradaq, gəncləri qabağa çəkək. Gənclər cəmiyyətimizin fəal üzvləridir. Gənclər sərhədlərimizi qoruyur, gənclər idman arenalarında qələbələrimizi müəyyən edir və gənclər bizim gələcəyimizdir. Belə gözəl məktəbdə ancaq və ancaq yaxşı oxumaq lazımdır. Müəllimlər üçün də burada yaxşı şərait yaradılıb. Müəllimlər o insanlardır ki, cəmiyyətimiz üçün gənc kadrları yetişdirirlər. Müəllimlərin cəmiyyətimiz üçün çox böyük məsuliyyəti, çox böyük faydası vardır. Müəllim peşəsi çox şərəfli peşədir. Hər bir uşağa ilk növbədə, məktəbdə qayğı göstərən, onu düz yola istiqamətləndirən müəllimdir. Müəllim valideynlə eyni məsuliyyət daşıyır. Bu fürsətdən istifadə edərək yeni dərs ili münasibətilə bütün müəllimləri salamlayıram, onlara yeni uğurlar, cansağlığı arzulayıram.

* * *

**Vaqif Hüseynli** *(məktəbin direktoru):* Cənab Prezident, icazə verin, mən kollektivimiz adından – Mikayıl Müşfiq adına 18 saylı məktəbin şagird və müəllimlərinin adından Sizə «Xoş gəlmisiniz!» – deyim. Sizin sərəncamınızla məktəbimiz yenidən qurulub. Bizim əsas binamızda altıncı mərtəbə, üzbəüzdə çox

möhtəşəm, çox gözəl idman zalı tikilib. Məktəbimizin maddi-texniki bazası möhkəmlənib, siniflərin sayı artıb, müasir texnologiya ilə təchiz olunmuş yeni kabinet və laboratoriyalar yaradılıb. Ən əsası odur ki, bizim uzun illər gözlədiyimiz akt zalımız vardır. Bizim yeni yeməkxanamız vardır. Bizim böyük oxu zalı olan kitabxanamız vardır. Bütün bunlara görə biz Sizə çox minnətdarıq.

Cənab Prezident, biz Sizin təhsilə olan qayğınızı həmişə hiss edirik. Siz çıxışınızda regionlarda, Bakıda tikilən yeni məktəblərin sayını qeyd etdiniz. Bu Sizin titanik zəhmətinizin bəhrəsidir.

Biz Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya da təşəkkürümüzü bildiririk. Biz Sizə bir daha təşəkkür edirik.

Mən bir məqamı qeyd etmək istəyirəm. 1997-ci il sentyabrın 1-i bizim məktəbimizin tarixində çox əlamətdar bir gündür. Ulu öndərimiz Heydər Əliyev həmin gün bizim məktəbimizə gəlmişdi. Ulu öndər çox geniş çıxış etdi və atributlarla əlaqədar bizim respublika müəllimlərinin hamısına böyük tövsiyələr verdi. Biz ötən illər ərzində ulu öndərimizin tövsiyələrini nəzərə almışdıq. Sizin bugünkü tövsiyələrinizi də nəzərə alacağıq. Biz çalışacağıq ki, etimadınızı işimizlə doğruldaq.

Cənab Prezident, kollektivimiz işgüzar, istedadlı kollektivdir. Mən onu demək istəyirəm ki, məktəbimizin texniki təchizatı çox yüksək səviyyədədir. İndi məktəbimizdə 110 kompüter, 8 noutbuk, 15 «ağıllı lövhə», 15 kompüter lövhəsi vardır. Biz tədris prosesində bu texniki vasitələrdən geniş istifadə edəcəyik.

Biz Sizə bir daha minnətdarlığımızı bildiririk. Biz Sizinləyik. Sağ olun!

* * *

*Məktəbdə yaradılmış şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, bu bina 1966-cı ildə inşa olunmuşdur. O vaxtdan bəri burada bu cür genişmiqyaslı yenidənqurma işləri aparılmamışdır. Prezident İlham Əliyevin sərəncamına əsasən məktəbdə 2012-ci ildə həyata keçirilən yeni-*

*dənqurma işləri zamanı əlavə üçmərtəbəli yeni korpus inşa olunub. Burada müasir qurğularla təchiz edilmiş idman zalı yaradılıb.*

*Məktəbdəki Heydər Əliyev Muzeyində ulu öndərin həyatı və siyasi fəaliyyəti ilə bağlı müxtəlif kitab, sənəd və fotolar toplanılıb. Muzeydə ümummilli liderin 1997-ci ildə məktəbdə keçirilən «Bilik Günü»nə həsr olunan tədbirdə iştirakı zamanı çəkilən fotolar da böyük maraq doğurur.*

*Sinif otaqları ilə tanışlıq zamanı prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, məktəbdə 59 otaq, o cümlədən 41 sinif otağı var. Burada, həmçinin müasir tələblərə cavab verən linqafon, informatika, fizika, kimya, biologiya, təsviri incəsənət, Azərbaycan, rus, alman dilləri kabinetləri fəaliyyət göstərir. Elektron və smart lövhələrin quraşdırıldığı sinif otaqlarının hamısı tədrisin yüksək şəraitdə keçirilməsinə geniş imkanlar verir.*

*Məktəbin müəllimlər otağı ilə tanışlıq zamanı bildirildi ki, buradan Bakının istənilən başqa məktəbi ilə videokonfrans keçirmək mümkündür.*

*Dövlətimizin başçısının iştirakı ilə müəllimlər otağından paytaxtın 6 saylı məktəbi ilə videokonfrans oldu.*

**G ü l ş ə n  O r u c o v a** *(6 saylı məktəbin direktoru):* Cənab Prezident, Sizi doğma məktəbimiz adından salamlayırıq. Sizin bu gün göstərdiyiniz bu diqqətə və qayğıya görə minnətdarlığımızı bildirmək istəyirik. Ötən tədris ilində bu etimadınızı doğruldaraq biz də fərqlənməyə çalışmışıq. Hesab edirəm ki, yeni ildə də ən yüksək göstəricilərlə bir daha Sizi sevindirəcəyik. Sizə böyük uğurlar arzulayırıq.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Sizi salamlayıram. Bütün şagirdlərə mənim salamlarımı çatdırın. Keçən il sizinlə görüşmüşdük, 6 saylı məktəbin yenidənqurmadan, əslində yenidən tikilməsindən sonra açılışını bir yerdə qeyd etmişdik. Bu gün buradayam. Hər il yeni məktəblər tikilir, təmir edilir. Ancaq 2013-cü ildən sonra artıq bu proqram başa çatır. Çünki ondan sonra Bakı şəhərində bir dənə də olsun təmirsiz məktəb qalmayacaqdır.

**G ü l ş ə n  O r u c o v a:** Bütün təhsil işçiləri adından Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun, cənab Prezident.

Məktəbdə yeni yaradılan yeməkxana da müasir tələblərə cavab verir. Burada şagirdlərin normal qidalanmaları üçün hərtərəfli şərait vardır. Bu il məktəbin birinci sinfində 230 şagird təhsil alacaqdır. Bu tədris ocağında 1700 şagirdin təlim-tərbiyəsi ilə 157 müəllim məşğul olur.

*Məktəbdə yaradılan biologiya kabinetində Azərbaycanda ilk dəfə 3D stereogörüntü texnologiyaları əsasında lövhə quraşdırılmışdır. Bu da tədrisi müasir səviyyədə aparmağa imkan verir.*

*Prezident İlham Əliyev yeni inşa olunan korpusda yaradılan idman zalı ilə də tanış oldu. Burada şagirdlər idmanın mini-futbol, voleybol, basketbol növləri ilə məşğul ola biləcəklər.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi.*

*Sonra prezident İlham Əliyev məktəbin yaxınlığında yerləşən və bu il istifadəyə verilən «Cüdo–2012» idman kompleksi ilə tanış oldu. Burada 30 yaşından yuxarı idmançılar məşq edirlər. Kompleksdə hər cür şərait yaradılıb. 3 mərtəbədən ibarət binada 3 məşq zalı fəaliyyət göstərir. Hazırda burada 500-ə yaxın idmançı cüdo ilə məşğul olur.*

## NEFT-QAZ MÖVZUSUNDA YAZAN JURNALİSTLƏRİN BEYNƏLXALQ MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA

Əziz dostlar!

Sizi – neft-qaz mövzusunda yazan jurnalistlərin Bakı şəhərində keçirilən Beynəlxalq Media Forumunun iştirakçılarını səmimi-qəlbdən salamlayıram.

Qlobal enerji təhlükəsizliyi məsələlərinin mühüm əhəmiyyət kəsb etdiyi müasir dövrdə karbohidrogen ehtiyatlarının hasilatı, nəqli və əldə olunan gəlirlərin idarə edilməsi siyasəti daim kütləvi informasiya vasitələrinin diqqət mərkəzində dayanır. Beynəlxalq Mətbuat İnstitutunun təşəbbüsü ilə keçirilən forum bu aktual mövzunu bir daha nəzərdən keçirməyə əlverişli şərait yaradır.

Zəngin təbii sərvətlərə malik olan Azərbaycan Respublikası mədən sənayesi sahəsində qabaqcıl ənənələri ilə tanınır. Hələ XlX əsrdə Azərbaycanda sənaye üsulu ilə neft çıxarılmasına başlanılmış, ötən yüzilliyin ortalarında isə açıq dənizdə hasilatın əsası qoyulmuşdur. Dövlət müstəqilliyi əldə edildikdən sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində Xəzər dənizinin nəhəng enerji potensialının mənimsənilməsi və dünya bazarına nəqli, regionda bu sahədə transmilli əməkdaşlığın genişlənməsi üçün böyük imkanlar açılmışdır. Artıq dünyanın alternativ enerji təminatı mərkəzlərindən birinə çevrilmiş Azərbaycan Respublikası hazırda özünün güclü infrastrukturu və şaxələnmiş neft-qaz kəmərləri şəbəkəsi ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Azərbaycan «Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində Şəffaflıq Təşəbbüsü» adlanan beynəlxalq proqrama qoşulmuş, ölkə daxilində və xaricində neft gəlirlərinin idarə edilməsində vətəndaş cəmiyyətinin iştirakı və beynəlxalq audit üçün lazımi şərait yaradılmışdır. Enerji daşıyıcılarının satışından əldə edilən gəlirlərin toplandığı Dövlət Neft Fondunun

fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Fondun vəsaitlərinin əhəmiyyətli hissəsi gələcək nəsillər üçün qorunub saxlanılır, digər qismi isə şəffaf şəkildə qeyri-neft sektorunun və sosial-iqtisadi infrastrukturun inkişafına, vətəndaşların rifahının yüksəldilməsinə və demokratik islahatların davam etdirilməsinə yönəldilir. Ölkədə plüralizmin, söz və məlumat azadlığının mövcudluğu, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti həyata keçirilən enerji siyasəti və gəlirlərin idarə olunması haqqında cəmiyyəti hərtərəfli məlumatlandırmağa imkan verir.

İnanıram ki, dünyanın nüfuzlu media qurumlarının, enerji sahəsindən yazan jurnalistlərin, ekspertlərin iştirak etdiyi bugünkü beynəlxalq forum mövzu ətrafında konstruktiv müzakirələr, yeni-yeni dəyərli təklif və təşəbbüslərlə yadda qalacaq.

Forum iştirakçılarını təbrik edir, toplantının işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2012-ci il*

## İNDONEZİYA RESPUBLİKASININ İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ NAZİRİ HATTA RACASANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də İndoneziya Respublikasının İqtisadi Məsələlər üzrə naziri Hatta Racasanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İndoneziya arasında siyasi sahədə əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün də yaxşı imkanların olduğunu qeyd etdi. Dövlətimizin başçısı İndoneziyanın İqtisadi Məsələlər üzrə naziri Hatta Racasanın Azərbaycana səfərinin uğurlu olacağına və bu səfərin əməkdaşlığımızın yeni sahələrinin müəyyənləşdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Nazir Hatta Racasa İndoneziya Respublikasının Prezidenti Susilo Bambanq Yudhoyononun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən və Azərbaycanda gedən böyük iqtisadi inkişaf proseslərindən məmnunluğunu ifadə etdi. Azərbaycanın mühüm beynəlxalq layihələrdə iştirakının önəmini qeyd edən Hatta Racasa ikitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Nazir ölkəsinin Azərbaycan ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Prezident İlham Əliyev prezident Susilo Bambanq Yudhoyononun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İndoneziyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## FRANSAYA İŞGÜZAR SƏFƏR

*17 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Fransa Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Fransa Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Parisin Orli Beynəlxalq Aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Prezident İlham Əliyev Orli aeroportundan onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# «GDF SUEZ» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU JERAR MESTRALLE İLƏ GÖRÜŞ

*Paris*

*17 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Parisdə «GDF Suez» şirkətinin sədri və baş icraçı direktoru Jerar Mestralle ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «GDF Suez» şirkəti arasındakı əlaqələrin perspektivləri, «Abşeron» qaz yatağı üzrə əməkdaşlıq, həmçinin Azərbaycanda əhalinin dünya standartlarına uyğun təmiz içməli su ilə təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «TECNİP» ŞİRKƏTİNİN QURUDA VƏ DƏNİZDƏ BAŞ ƏMƏLİYYAT DİREKTORU, İCRAÇI VİTSE-PREZİDENTİ FİLİPP BARRİL İLƏ GÖRÜŞ

*Paris*

*17 sentyabr 2012-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Parisdə «Tecnip» şirkətinin quruda və dənizdə baş əməliyyat direktoru, icraçı vitse-prezidenti Filipp Barril ilə görüşmüşdür.

Görüşdə «Tecnip» şirkətinin Azərbaycanın neft-qaz sektorundakı uğurlu fəaliyyəti, bu şirkətin «Şahdəniz-1» yatağının işlənilməsində və digər layihələrin həyata keçirilməsində rolu qeyd olundu. Həmçinin gələcəkdə Azərbaycan ilə «Tecnip» arasında əməkdaşlığın digər istiqamətləri və yeni layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ FRANSANIN «TOTAL» ŞİRKƏTİ ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİNİN MÜZAKİRƏSİNDƏ İŞTİRAK

*Paris*

*17 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Parisdə «Total» şirkətinin baş icraçı katibi Kristof de Marjeri ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Total» şirkəti arasında «Abşeron» və «Şahdəniz» yataqlarının işlənilməsində,* boru *kəmərləri* layi*hələrinin həyata keçirilməsində əməkdaşlıq, eləcə də əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər müzakirə* edildi.

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*Paris*

*18 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Yelisey sarayında Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa prezidenti Fransua Olland Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında əməkdaşlıq münasibətlərinin müxtəlif istiqamətləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Bu münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyi bildirildi.*

*Fransa şirkətlərinin Azərbaycan iqtisadiyyatında fəal rolu və Fransanın ölkəmizə sərmayə qoymasının əhəmiyyəti vurğulandı, bu sahədə əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, bu istiqamətdə atılmalı olan addımlar da müzakirə edildi.*

## LUVR MUZEYİNİN İSLAM İNCƏSƏNƏTİNƏ HƏSR OLUNMUŞ YENİ ZALLARININ AÇILIŞI MƏRASİMİ

*Paris*

*18 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Parisin Luvr Muzeyində islam incəsənətinə həsr olunmuş yeni zalların açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısını və xanımını Fransa prezidenti Fransua Olland qarşıladı.*

*Tədbirdə çıxış edən Luvr Muzeyinin baş direktoru Anri Luerett bildirdi ki, Fransa bütün mədəniyyətlərin, o cümlədən islam incəsənətinin qorunub saxlanmasına böyük diqqət göstərir. Bu baxımdan Luvr Muzeyi hazırda mədəniyyətlərarası dialoqun əldə olunmasında mühüm rol oynayır. Yeni zallar isə islam sivilizasiyasının mühüm cəhətləri ilə tanış olmaq imkanı yaradır.*

*Fransa prezidenti Fransua Olland çıxış edərək bildirdi ki, rəsmi Paris Luvr Muzeyində İslam incəsənəti departamentinin yaradılmasından və bu zəngin kolleksiyanı təqdim etməkdən şərəf hissi duyur. Fransa dövlətinin başçısı söylədi ki, 2003-cü ildə ideya kimi yaranan, 2008-ci ildən isə icra olunmağa başlanan bu layihənin həyata keçirilməsində əsas məqsəd Luvrun universallığını və bəşəri əhəmiyyətini göstərmək, Fransanın islam sivilizasiyasına münasibətini nümayiş etdirməkdir. Fransua Olland bu layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə Azərbaycan prezidenti İlham Əliyevə və digər tərəfdaşlara minnətdarlığını bildirərək* dedi:

– Mən xeyirxahlıq nümayiş etdirərək lazımi anda yardımını göstərmiş şəxslərə, xüsusilə də Azərbaycan Respublikasının Prezidentinə və digər ali qonaqlara dərin təşəkkürümü bildirmək

istəyirəm. Onlar bizim çoxsaylı tərəfdaşlarımızdandırlar. Onlar Fransanın dostlarıdırlar. Onlar bu layihəyə çox böyük yardım ediblər. Ümid edirəm ki, bu xeyirxahlıq gələcəkdə də davam etdiriləcəkdir.

*Sonra qonaqlar Luvr Muzeyinin islam incəsənəti bölməsi ilə tanış oldular. Bildirildi ki, bu bölmənin yaradılması muzeyin tarixində xüsusi bir mərhələdir. Həmin bölmə islam sivilizasiyasının arxitektura, rəssamlıq və digər mədəni yaradıcılıq nümunələrini təcəssüm etdirir. Muzeydəki İslam incəsənəti bölməsi müxtəlif müsəlman ölkələrinin mədəniyyətlərinə aid yaradıcılıq nümunələrindən ibarətdir. Burada şüşədən, keramikadan və metaldan hazırlanmış müxtəlif dulusçuluq əşyaları, xalçalar, geyimlər, miniatürlər də daxil olmaqla, 5 mindən çox bütöv incəsənət nümunələri, mindən artıq natamam və zədələnmiş yaradıcılıq işləri sərgilənir. Azərbaycana aid eksponatların nümayiş etdirildiyi muzeyin bu bölməsində islam tarixinin müxtəlif dövrlərində mövcud olmuş dövlətlərə aid sənət əsərləri də saxlanılır.*

*Diqqətə çatdırıldı ki, yeni zalların açılmasında Fransa ilə yanaşı, Azərbaycan, Küveyt, Oman və Mərakeşin də mühüm rolu olmuşdur.*

*Muzeyin İslam incəsənəti bölməsində nümayiş etdirilən eksponatlarla tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin həyatində xatirə şəkli çəkdirdilər.*

*Dünyanın ən məşhur muzeylərindən sayılan Luvr 1793-cü ildə Kral sarayının binasında açılmışdır. Parisin mərkəzində yerləşən muzeyin ilk vaxtlar 60 min kvadratmetr sahəsi hazırda 3 dəfə artmışdır. Luvr sahəsinə görə dünyanın üçüncü, tamaşaçı sayına görə isə ən çox ziyarət edilən muzeyidir. Təkcə 2011-ci ildə muzeyə 8 milyon 800 min ziyarətçi gəlmişdir.*

## FRANSA RESPUBLİKASININ SABİQ PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ GÖRÜŞ

*Paris*

*18 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Fransa Respublikasının sabiq prezidenti Nikola Sarkozi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## QEYDLƏR

**1. Murtuza Muxtarov** (1857–1920) – milli Azərbaycan burjuaziyasının və neft sənayesinin görkəmli nümayəndəsi. İri neft sahibkarı, mesenat Murtuza Muxtarovun adı daha çox Bakıda neftçıxarma texnologiyasının inkişafı ilə bağlıdır. Murtuza Muxtarov, demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin, həmçinin Peterburq müsəlman xeyriyyə cəmiyyətinin Fəxri üzvü və ali, orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüdün təsisçisi idi. M.Muxtarov Bakıda bir sıra əzəmətli binalar tikdirmişdir. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid indiyədək öz memarlıq quruluşu və üslubuna görə göz oxşayır. – 5.

**2. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriy-

yə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 103, 106, 107, 111, 210, 211, 245, 268, 304,305–306, 307, 308, 309, 317, 318, 319, 320, 340.

**3. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6–7, 8, 9–11, 29, 159, 172, 173, 174.

**4. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbə-

kistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 6–7, 11, 64, 71, 73, 235–237, 251, 266, 280, 322.

**5. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 8, 174.

**6. Sergey Narışkin** (d.1954) – Rusiya dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011–2016-cı illərdə qədər Rusiya Federasiyası Dövlət Dumasının Sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. – 9–11.

**7. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika

konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 12.

**8. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika Kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 12.

**9. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 88,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 13.

**10. Məhəmməd Mursi** (d.1951) – Müsəlman qardaşları hərəkatının rəhbəri, Azadlıq və Ədalət Partiyasının sədri. 2012–2013-cü illərdə Misir Ərəb Respublikasının Prezidenti olmuşdur. – 13.

**11. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 14, 40, 64, 73, 155, 264, 279–303.

**12. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 14, 29, 31, 40, 41, 42, 155, 157, 162, 229, 232, 233, 245, 251, 264, 266, 282, 283, 284, 285, 295, 303, 313, 314, 344.

**13. Lamberto Zanier** (d.1954) – İtaliya diplomatı. 2011–2017-ci illərdə ATƏT-in baş katibi olmuşdur. – 14.

**14. İtaliya,** İ t a l i y a   R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 15,98.

**15. Şahin Mustafayev,** Ş a h i n   A b d u l l a   o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə isə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 16, 17, 66, 293.

**16. İsveçrə,** İ s v e ç r ə   K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 18, 19, 22–23, 24–26, 28, 93.

**17. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya,ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 29, 40, 232, 233, 265, 283, 285, 286, 303.

**18. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 29, 100, 102, 216, 233, 242, 315.

**19. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 29, 233, 340–346.

**20. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara

çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan

Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 31, 32, 68, 78,115, 119, 122, 125, 126, 157, 160, 161, 162, 165, 169, 171, 172, 188, 192, 221, 246, 252, 258, 273, 298, 317, 320.

**21. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 39, 40, 49, 71, 75, 108, 113–114, 155, 156, 165, 184, 190, 193, 201, 218, 226, 251, 264, 279, 282, 299.

**22. Kolumbiya,** Kolumbiya Respublikası – Cənubi Amerikanın şimal-qərbində dövlət. Sahəsi 1,14 milyon km$^2$, əhalisi 48,4 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqota şəhəridir. – 42.

**23. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 42, 264.

**24. Meksika,** Meksika Birləşmiş Ştatları – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km², əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 31–32, 42, 94–95, 240.

**25. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 32, 42, 94, 155.

**26. Pakistan,** Pakistan İslam Respublika-sı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km², əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 42, 199.

**27. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-in məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 47.

**28. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğ-lu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 50, 144, 145, 196, 221, 340.

**29. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km²,

əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 61–75, 208.

**30. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi.1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 61–75, 208.

**31. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 76, 97, 156, 165,289–310, 311–312.

**32. «Azərsun Holdinq»** MMC – 1991-ci ildə təsis olunmuşdur. «Azərsun Holdinq»in istehsal etdiyi məhsullar həm də MDB ölkələrinə və Avropaya ixrac edilir. – 78–79.

**33. Maldiv,** M a l d i v  R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 km$^2$, əhalisi 402 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 87.

**34. Peru,** P e r u  R e s p u b l i k a s ı – Cənubi Amerikanın qərbində dövlət. Sahəsi 1,28 milyon km$^2$, əhalisi 30,7 milyon nəfərdir. İnzibati ərazisi 12 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Konqresdir. Paytaxtı Lima şəhəridir. – 88.

**35. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir.

İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 89.

**36. VI Məhəmməd,** b i n əl - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 89.

**37. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 90.

**38. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 $km^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 92.

**39. Toni Tan Kenq Yam** (d.1940) – Sinqapur siyasətçisi, bankir, riyaziyyatçı. 2011–2017-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 92.

**40. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i -m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. Parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 99, 103, 106–111, 147–150.

**41. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min $km^2$, əhalisi 8,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin

1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 101.

**42. Şimon Peres** (1923–2016) – İsrail siyasətçisi və dövlət xadimi. 2007–2014-cü illərdə İsrailin prezidenti olmuşdur. . «Avoda» Partiyasının yaradıcısı və lideri idi. – 101.

**43. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 102.

**44. Qana,** Q a n a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min $km^2$, əhalisi 25,2 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkra şəhəridir. – 105.

**45. Elnur Məmmədli,** E l n u r Ç i n g i z o ğ l u (d.1988) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 106.

**46. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini və Bakı Dövlət Universitetini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisidir. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 122.

**47. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 138.

**48. Qırğızıstan,** Q ı r ğ ı z R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 139, 165.

**49. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 140.

**50. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 141.

**51. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 143.

**52. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziya Respublikasının Prezidenti olmuşdur. – 143.

**53.** ***bp,*** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 149.

**54. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. – 149.

**55. Özbəkistan,** Ö z b ə k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 32,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 152.

**56. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 152.

**57. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 153.

**58. İvan Qaşparoviç** (d.1941) – Slovakiyanın dövlət xadimi, hüquqşünas-alim, 2004–2014-cü illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. – 153.

**59. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h - ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz

Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 159–163.

**60. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarluq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 161, 164, 168.

**61. II İohann Pavel,** dünyəvi adı K a r o l V o y t ı l a (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma Papasıdır. Sülhün qorunması və beynəlxalq gərginliyin zəifədilməsində böyük xidmətləri olmuşdur. II İohann Pavel 1978-ci ildə Roma Papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvətilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 171.

**62. II Aleksi** (1929–2008) – 1990–2008-ci illərdə Moskvanın və Bütün Rusiyanın patriarxı, xristian dinini qorumaq hərəkatının görkəmli nümayəndələrindən biri, Rusiya pravoslav kilsəsində əmin-amanlıq hərəkatının rəhbəri, Avropa Kilsələr Konfransı Şurasının sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 171.

**63. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 174, 282.

**64. Vyetnam,** Vyetnam Sosialist Respublika-sı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min $km^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 176.

**65. Çionq Tan Şanq** (d.1949) –2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 176.

**66. Ramazan bayramı –** müsəlman aləmində oruclıq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 179.

**67. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 181–196.

**68. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 181–196.

**69. Fikrət Məmmədov,** Fikrət Fərrux oğlu (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, I dərəcəli Dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 186.

**70. Oqtay Şirəliyev,** O q t a y  K a z ı m  o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 186.

**71. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 196, 340.

**72. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 150, 226–234, 270.

**73. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə  Ə r ə b i s t a -n ı  K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki

müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 238.

**74. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğlu. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. – 238.

**75. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 245, 252, 274, 275.

**76. Şəki Xan sarayı**– XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər nəbati ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. – 305–306.

**77. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının

həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 340.

**78. «Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil edilmişdir. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 343.

**79. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 344.

**80. Luvr Muzeyi** – Parisdə memarlıq abidəsi. Adı vaxtilə burada Fransa krallarının ovçu qəsrinin yerləşdiyi «Canavar» meşəsinin adından götürülmüşdür. Əvvəllər kral sarayı olmuş, sonradan dünyanın ən böyük bədii muzeylərindən birinə çevrilmişdir. 1791-ci ildə inqilabi Konventin dekreti ilə Luvr milli bədii muzeyə çevrilmiş və 1793-cü ildə kütləvi baxış üçün açılmışdır. Ekspozisiyasının əsasını keçmiş kral kolleksiyası, həmçinin bir sıra monastır, kilsə və kübar ailələrin milliləşdirilmiş kolleksiyaları təşkil etmişdir. Kolleksiyası

Napoleon yürüşlərinin qənimətləri, müxtəlif ölkələrdən satınalınma, eləcə də hədiyyələr hesabına daim artmışdır. Luvrda 20 mindən artıq boyakarlıq və heykəltəraşlıq əsəri var. Muzey 6 şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq, boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət. Qədim Şərq şöbəsində nadir incəsənət nümunələri, o cümlədən Azərbaycanın zərgərlik (Ziviyədən tapılmış qızıl əşyalar, e.ə. VIII əsr) və metal məmulatları (bürünc dolça, 1190, müəllifi Osman ibn Salman Naxçıvani) saxlanılır. Luvrda Fransa incəsənəti daha geniş təmsil olunmuşdur. Burada dünya şöhrəti qazanmış bir sıra əsər («Samofrakiyalı Nika», e.ə. II əsrin sonu; «Miloslu Afrodita», e.ə. II əsr; Mikelancelo, Leonardo da Vinçi, Rafael, Rembrandt və b.-nın tabloları) mühafizə edilir. – 345–346.

## Şəxsi adlar göstəricisi

**Abasov İsmət** – 65
**Abela Corc** – 241
**Abrate Biacio** – 98
**Abutalıbov Hacıbala** – 50, 144, 145, 195, 221, 340
**Ağayev Mənsur** – 119
**Axundzadə Mirzə Fətəli** – 259
**Al Səud Abdullah** – 238
**Al Səud Salman** – 239
**II Aleksi** – 171
**II Albert** – 12
**Aleksandr** (arxiyepiskop) – 163, 168, 170–172
**Alışanov Arif** – 292
**Asrori Mirzoşoxrux** – 66
**Atambayev Almazbek** – 139
**Babayev İntiqam** – 130
**Baldişah Tuanku** – 141
**Barril Filipp** – 342
**Barrozu Joze** – 207
**Bağırov Faiq** – 292, 293
**Bayramov Rövşən** – 147, 148
**Berdiyev İsmayıl** – 172–173
**Berkovitz Pol** – 242
**Bləkbörn Marşa** – 242
**Börtan Dan** – 216
**Bradtken Robert** – 23
**Cavadov Ələddin** – 252
**Cəfərov Ağanağı** – 330
**Çağlayan Zəfər** – 293
**Çam Sərdar** – 293
**Çəlik Faruk** – 76
**Çionq Tan Şanq** – 176

**Dadli Robert** – 149
**Dassin Marta** – 15
**Davudoğlu Əhməd** – 293
**De Benito Qonzalo** – 30
**De Vinsenti Klaudio** – 15
**Esquer Marcos** – 94–95
**Əhmədinejad Mahmud** – 151, 217
**Əhmədov Emin** – 148
**Əhmədov Fərid** – 270
**Əliyev Heydər** – 31, 32, 68, 78,115, 119, 122, 125, 126, 157, 160, 161, 162, 165, 169, 171, 172, 188, 192, 221, 246, 252, 258, 273, 298, 317, 320
**Əliyeva Mehriban** – 5, 103, 106, 107, 111, 210, 211, 245, 268, 304,305–306, 307, 308, 309, 317, 318, 319, 320, 340
**Əliyeva Zərifə xanım** – 160
**Ərdoğan Rəcəb Tayyib** – 76, 289–310
**Ərdoğan Əminə** – 304, 305–306, 307, 308, 309
**Əzizov Əziz** – 125
**Foks Liam** – 99
**Fontana Bernard** – 24–26, 28
**For Jak** – 29
**Fridman Corc** – 315
**Gül Abdullah** – 76
**Hacıbabayi Həmidrza** – 77
**Harris Devid** – 100
**Heydərov Kəmaləddin** – 293
**Həsənov Əli** – 271
**Hüseynzadə Çingiz** – 65
**Xristov Valentin** – 111
**İbrahimov Mübariz** – 269, 270
**İbrahimov Ramin** – 329
**II İlya (patriarx)** – 171

**İlümjinov Kirsan** – 175
**İmanov Kamran** – 66
**İnaxosa Felipe** – 240
**II İohann Pavel** – 171
**Jarko Vasili** – 186
**Kasprşik Anji** – 29
**Kelin Andrey** – 285
**Kemeron Devid** – 150
**Kərimov İslam** – 152
**Kim Çen İr** – 209
**Kirill** (patriarx) – 163, 171
**Kılıç Hulusi** – 156, 158, 311–312
**Kosimov Kosim** – 65
**Kvil Robert** – 284, 285
**Qaraşov Taleh** – 113
**Qasparoviç İvan** – 153
**Quliyev Elçin** – 122
**Qurbanov Əhməd** – 249
**Qurbanov Fəxrəddin** – 103
**Qvinjin Çoi** – 147, 148
**Lamborn Douq** – 242
**Lefort Filip** – 314
**Lukaşenko Aleksandr** – 181–196
**Lukşiç İqor** – 91
**Mahamay Con** – 105
**Medvedev Dmitri** – 174, 282
**Mehdiyev Ramiz** – 340
**Melianas Arturas** – 224
**Merabişvili Vano** – 90
**Mestralle Jerar** – 341
**Mədətov İlham** – 106
**VI Məhəmməd** – 89
**Məmmədli Elnur** – 106
**Məmmədov Abdulla** – 254
**Məmmədov Fikrət** –186

**Məmmədov Firudin** – 256
**Məmmədov Ziya** – 292
**Mərdanov Misir** – 65, 66
**Məmmədyarov Elmar** – 66, 185, 203
**Mikayılov Süleyman** – 27
**Mills Con** – 105
**Mirzəyev Sultan** – 173
**Mursi Məhəmməd** – 13
**Mukherci Pranab** – 104
**Muxtarov Murtuza** – 5
**Mustafayeva Aysel** – 267
**Mustafayev Şahin** – 16, 17, 66, 293
**Musayev Əhməd** – 257
**Musəvi Həsən** – 217
**Narışkin Sergey** – 9–11
**Nematov Malikşo** – 65, 66
**Nüberq Lars** – 197
**Obama Barak** – 102
**Olland Fransua** – 344
**Ondimbay Ali Bonqo** – 142
**Orucova Gülşən** – 335, 336
**Ottinger Günter** – 207
**Palışenkov Aleksandr** – 186
**Paniaqua Oskar** – 94–95
**Paşayev Zaur** – 134
**Paşazadə Allahşükür** – 159–163
**Peres Şimon** – 101
**Piter** (lord) – 103
**Ploşko İosif** – 5
**Popov İqor** – 29
**Putin Vladimir** – 8, 174
**Racasa Hatta** – 339
**Raxoy Mariano** – 30
**Rasizadə Artur** – 196, 340
**Rəhmon Emoməli** – 61–75, 208

**Rifai Taleb** – 225
**Roqabaher Deyn** – 242
**Rasmussen Anders** – 226–234
**Roqozin Dmitri** – 174
**Saidov Nuriddin** – 65, 66
**Sarkozi Nikola** – 347
**Semyonov Minqiyan** – 147
**Səfərov Vüqar** – 186
**Səfərov Ramil** – 231, 232, 269, 270
**Sijevski Oleq** – 186
**Sikorski Radoslav** – 96
**Slutski Leonid** – 6–7
**Spenser Tomas** – 147
**Snopkov Nikolay** – 185
**Soltanov Mahir** – 245–246
**Soryan Məhəmməd** – 148
**Sultanzadə Məhərrəm** – 330
**Şahin İbrahim** – 292
**Şineviç İqor** – 185
**Şvidkov Mixail** – 10–11
**Timofti Nikolaye** – 140
**Tunc Yasin** – 292
**Tuqanova Liza** – 5
**Ulmann Sabine** – 22–23
**Umudov Firdovsi** – 205
**Usubov Elxan** – 258
**Usubov Ramil** – 185, 237
**Van Rompey Herman** – 207
**Verhagen Maksim** – 313
**Vidmer-Şlumpf Evelin** – 93
**Vieyra Fransisko** – 31–32
**Voldegiorgis Girma** – 180
**Vuyanoviç Filip** – 91
**Yam Toni** – 92
**Yanukoviç Viktor** – 138

**Yıldırım Binəli** – 96, 292, 293
**Yudhoyono Susilo** – 143, 339
**Zannier Lamberto** – 14
**Zarifi Xamroxon** – 66
**Zəkiyev İlham** – 329

## Coğrafi adlar göstəricisi

**Afina** – 107, 199
**Afrika** – 39
**Ağstafa** – 19
**Amerika Birləşmiş Ştatları** – 29, 100, 102, 216, 233, 242, 315
**Atlanta** – 199
**Avrasiya** – 216
**Avropa** – 58, 84, 198, 216, 230, 233, 302
**Badamdar** – 218–220
**Belçika** – 12
**Belarus** – 181–196
**Bəhmətli** – 252–253
**Biləsuvar** – 50, 81
**Binə** – 78–79
**Bolqarıstan** – 101, 302
**Böyük Britaniya** – 99, 103, 106–111, 147–150
**Burqas** – 101
**Bülbülə** – 145
**Cəlilabad** – 125–137
**Cənubi Qafqaz** – 230, 310, 314
**Çeçenistan** – 173
**Çikaqo** – 226, 233
**Dağıstan** – 304

**Dağlıq Qarabağ** – 14, 29, 31, 40, 41, 42, 155, 157, 162, 229, 232, 233, 245, 251, 264, 266, 282, 283, 284, 285, 295, 303, 313, 314, 344.
**Düşənbə** – 73
**Efiopiya** – 180
**Əfqanıstan** – 150,226,227,230,231
**Fransa** – 29, 233,340–346
**Fıstıqlı** – 254
**Gözbarax** – 245, 249
**Güllük** – 254
**Gürcüstan** – 90
**Hacıqabul** – 50,80–86
**Hindistan** – 104
**Hövsan** – 50
**Xankəndi** – 42,264
**Xəzər dənizi** – 71,74,165,285
**Xocalı** – 32,42,94,155
**İndoneziya** – 143,339
**İran** – 77,151,217
**İspaniya** – 30
**İsrail** – 101
**İsveçrə** – 18, 19, 22–23, 24–26, 28, 93
**İtaliya** – 15, 98
**Kazan** – 232
**Keşlə** – 326
**Kiş** – 308
**Kolorado** – 102
**Kolumbiya** – 42
**Koreya XDR** – 209
**Krasnodar** – 8, 10
**Kür çayı** – 50
**Qabon** – 142
**Qafqaz** – 71, 74, 162, 164, 165, 166, 196, 285, 308

**Qax** – 254–257
**Qana** – 105
**Qapıçay** – 254
**Qaraçay-Çərkəz Respublikası**– 172
**Qazaxıstan** – 165
**Qəbələ** – 273–278, 279–303
**Qırğız Respublikası** – 139, 165
**Qorağan** – 255
**Latın Amerikası** – 39
**Ləkit** – 254
**Lənkəran** – 113–124
**Litva** – 224
**London** – 103, 106–111, 147–150, 198–206, 226, 327
**Malayziya** – 141
**Maldiv** – 87
**Malta** – 241
**Meksika** – 31–32, 42, 94–95, 240
**Mərkəzi Asiya** – 71, 74
**Mərakeş** – 89
**Minsk** – 181–196
**Misir** – 13
**Moldova** – 140
**Monteneqro** – 91
**Naxçıvan** – 19
**Neftçala** – 50, 81
**Niderland** – 313
**Nyu-York** – 226
**Özbəkistan** – 152
**Pakistan** – 42, 199
**Paris** – 340–346
**Pekin** – 106, 107
**Peru** – 88
**Polşa** – 96
**Rio-de-Janeyro** – 206

**Rusiya** – 6–7, 8, 9–11, 29, 159, 172, 173, 174

**Saatlı** – 50

**Sabirabad** – 50, 81

**Salyan** – 50, 81

**Səudiyyə Ərəbistanı** – 238

**Sidney** – 107,199

**Sinqapur** – 92

**Sibir** – 160

**Slovakiya** – 153

**Şəki** – 258–272, 304–310

**Şimali Qafqaz** – 159, 164

**Şuşa** – 264

**Şirvan** – 50, 81

**Tacikistan** – 61–75, 208

**Türkiyə** – 76, 97, 156, 165, 289–310, 311–312

**Ukrayna** – 138

**Vyetnam** – 176

**Yeni Suraxanı** – 145

**Yunanıstan** – 302

**Zaqatala** – 243–253

**Zərnə** – 254

# MÜNDƏRİCAT


SƏADƏT SARAYININ ƏSASLI TƏMİR VƏ YENİDƏN-QURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*5 iyul 2012-ci il* .......... *5*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyul 2012-ci il* .......... *6*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*7 iyul 2012-ci il* .......... *8*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ SERGEY NARIŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyul 2012-ci il* .......... *9*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*9 iyul 2012-ci il* .......... *12*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MURSİYƏ

*9 iyul 2012-ci il* .......... *13*

ATƏT-in BAŞ KATİBİ LAMBERTO ZANNİER İLƏ GÖRÜŞ

*9 iyul 2012-ci il* .......... *14*

İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XANIM MARTA DASSUN VƏ İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ KLAUDİO DE VİNSENTİNİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 iyul 2012-ci il* ........................................ 15

METAL KONSTRUKSİYALAR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*10 iyul 2012-ci il* ........................................ 16

«HOLCİM–AZƏRBAYCAN» ASC-nin YENİ SEMENT ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*10 iyul 2012-ci il* ........................................ 17

SAHİL QƏSƏBƏSİNDƏ SALINACAQ YENİ PARKIN ƏRAZİSİNƏ BAXIŞ

*10 iyul 2012-ci il* ........................................ 27

İSVEÇRƏNİN «HOLCİM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BERNARD FONTANA İLƏ GÖRÜŞ

*10 iyul 2012-ci il* ........................................ 28

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*10 iyul 2012-ci il* ........................................ 29

İSPANİYA KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRLİYİNİN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ QONZALO DE BENİTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2012-ci il* ........................................ 30

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ SƏDR MÜAVİNİ FRANSİSKO ARROYO VİEYRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2012-ci il* ........ *31*

NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*11 iyul 2012-ci il* ........ *33*

YEKUN NİTQİ ........ *43*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 iyul 2012-ci il* ........ *61*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 iyul 2012-ci il* ........ *62*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 iyul 2012-ci il* ........ *63*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 iyul 2012-ci il* ........ *65*

ALİ ORDENLƏRLƏ TƏLTİFOLUNMA MƏRASİMİ

*12 iyul 2012-ci il* ........ *67*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 iyul 2012-ci il* ........ *70*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 iyul 2012-ci il* ........ *74*

TÜRKİYƏ RESPUBLİKASININ ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ FARUK ÇƏLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 iyul 2012-ci il* ........................................................................................ *76*

İRAN İSLAM RESPUBLİKASININ TƏHSİL VƏ TƏLİM NAZİRİ HƏMİDRZA HACIBABAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 iyul 2012-ci il* ........................................................................................ *77*

BİNƏ QƏSƏBƏSİNDƏ YERLƏŞƏN «AZƏRSUN HOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA MƏXSUS «GREEN TECH» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN MÜASİR İSTİXANA KOMPLEKSİ İLƏ TANIŞLIQ

*13 iyul 2012-ci il* ........................................................................................ *78*

ŞİRVAN–MUĞAN QRUP SU KƏMƏRİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*16 iyul 2012-ci il* ........................................................................................ *80*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD VAHİDƏ

*16 iyul 2012-ci il* ........................................................................................ *87*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLYANTA UMALA TASSOYA

*16 iyul 2012-ci il* ........................................................................................ *88*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*16 iyul 2012-ci il* ........................................................................................ *89*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VANO MERABİŞVİLİ İLƏ GÖRÜŞ

*16 iyul 2012-ci il* ........................................................................................ *90*

MONTENEQRONUN BAŞ NAZİRİ İQOR LUKŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 iyul 2012-ci il* ......................................................................................... *91*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

*17 iyul 2012-ci il* ......................................................................................... *92*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM EVELİN VİDMER-ŞLUMPFA

*17 iyul 2012-ci il* ......................................................................................... *93*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ DEPUTATLAR PALATASININ PREZİDENTİ OSKAR MARTİN ARSE PANİAQUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* ......................................................................................... *94*

POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RADOSLAV SİKORSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* ......................................................................................... *96*

TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT, DƏNİZÇİLİK VƏ KOMMUNİKASİYA NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* ......................................................................................... *97*

İTALİYA RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ BİACİO ABRATENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* ......................................................................................... *98*

BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ ÜZVÜ, KEÇMİŞ MÜDAFİƏ NAZİRİ LİAM FOKS İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* .......................................................................................... *99*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2012-ci il* .......................................................................................... *100*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*19 iyul 2012-ci il* .......................................................................................... *101*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*21 iyul 2012-ci il* .......................................................................................... *102*

XXX YAY OLİMPİYA OYUNLARININ KEÇİRİLƏCƏYİ LONDON ŞƏHƏRİNƏ SƏFƏR

*26 iyul 2012-ci il* .......................................................................................... *103*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*27 iyul 2012-ci il* .......................................................................................... *104*

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CON DRAMANİ MAHAMAYA

*27 iyul 2012-ci il* .......................................................................................... *105*

XXX YAY OLİMPİYA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*28 iyul 2012-ci il* .......................................................................................... *106*

XXX YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞ «AZƏRBAYCAN GÜNÜ» MƏRASİMİNDƏ İŞTİRAK

*28 iyul 2012-ci il* ........................................................................................ *107*

XXX YAY OLİMPİYA OYUNLARINDA AZƏRBAYCANIN AĞIR ATLETİ VALENTİN XRİSTOVUN YARIŞINA BAXIŞ

*29 iyul 2012-ci il* ........................................................................................ *111*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ

*30 iyul 2012-ci il* ........................................................................................ *112*

LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏR

*31 iyul 2012-ci il* ........................................................................................ *113*

LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*31 iyul 2012-ci il* ........................................................................................ *115*

CƏLİLABAD RAYONUNA SƏFƏR

*31 iyul 2012-ci il* ........................................................................................ *125*

CƏLİLABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*31 iyul 2012-ci il* ........................................................................................ *131*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*1 avqust 2012-ci il* ..................................................................................... *138*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*1 avqust 2012-ci il* ..................................................................................... *139*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAYE TİMOFTİYƏ

*1 avqust 2012-ci il* ........................................................................... *140*

MALAYZİYA RESPUBLİKASININ ALİ BAŞÇISI
ƏLAHƏZRƏT TUANKU ABDUL HALİM MÜƏDZƏM ŞAH
İBNİ ƏL-MƏHRUM SULTAN BADLİŞAHA

*1 avqust 2012-ci il* ........................................................................... *141*

QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*1 avqust 2012-ci il* ........................................................................... *142*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ
YUDHOYONOYA

*1 avqust 2012-ci il* ........................................................................... *143*

PAYTAXTIN HEYDƏR ƏLİYEV PROSPEKTİ İLƏ ƏLƏDDİN
QULİYEV KÜÇƏSİNİN KƏSİŞMƏSİNDƏ SALINAN YENİ
PARKDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*1 avqust 2012-ci il* ........................................................................... *144*

YENİ SURAXANI QƏSƏBƏSİNDƏKİ R.ABDİNOV ADINA
85 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ KORPUSUNUN
AÇILIŞI MƏRASİMİ

*2 avqust 2012-ci il* ........................................................................... *145*

BAKININ BÜLBÜLƏ QƏSƏBƏSİNDƏKİ 268 SAYLI
KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ ƏSASLI
YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ
TANIŞLIQ

*2 avqust 2012-ci il* ........................................................................... *146*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*3 avqust 2012-ci il* ........................................................................*147*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*6 avqust 2012-ci il* ........................................................................*149*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ DEVİD KEMERON İLƏ GÖRÜŞ

*6 avqust 2012-ci il* ........................................................................*150*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*12 avqust 2012-ci il* ........................................................................*151*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*13 avqust 2012-ci il* ........................................................................*152*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*13 avqust 2012-ci il* ........................................................................*153*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 avqust 2012-ci il* ........................................................................*154*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*14 avqust 2012-ci il* ........................................................................*159*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*14 avqust 2012-ci il* ........................................................................ *164*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 avqust 2012-ci il* ........................................................................ *174*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLÜMJİNOV İLƏ GÖRÜŞ

*15 avqust 2012-ci il* ........................................................................ *175*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

*16 avqust 2012-ci il* ........................................................................ *176*

TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNUN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*16 avqust 2012-ci il* ........................................................................ *177*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*17 avqust 2012-ci il* ........................................................................ *179*

EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİRMA VOLDE-GİORGİSƏ

*24 avqust 2012-ci il* ........................................................................ *180*

BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*28 avqust 2012-ci il* ........................................................................ *181*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 avqust 2012-ci il ........................................................................182*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 avqust 2012-ci il ........................................................................183*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 avqust 2012-ci il ........................................................................185*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 avqust 2012-ci il ........................................................................187*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*28 avqust 2012-ci il.........................................................................192*

MİNSKDƏ «QƏLƏBƏ» MEYDANINDA UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*29 avqust 2012-ci il ........................................................................194*

«TELİASONERA» ŞİRKƏTİNİN PREZİDENTİ LARS NUBERQ İLƏ GÖRÜŞ

*30 avqust 2012-ci il ........................................................................197*

XXX LONDON YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*31 avqust 2012-ci il .......................................................................198*

AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2012-ci il ..........................................................................207*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*3 sentyabr 2012-ci il...........................................................................208*

KOREYA ƏMƏK PARTİYASININ BİRİNCİ KATİBİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN BİRİNCİ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İNƏ

*3 sentyabr 2012-ci il...........................................................................209*

BEŞULDUZLU «FOUR SEASONS HOTEL BAKU»NUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*3 sentyabr 2012-ci il...........................................................................210*

ABŞ-ın NÜMAYƏNDƏLƏR PALATASI XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN AVROPA VƏ AVRASİYA ALT KOMİTƏSİNİN SƏDRİ DAN BÖRTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2012-ci il ..........................................................................216*

İRAN İSLAM RESPUBLİKASININ VİTSE-PREZİDENTİ, İRAN MƏDƏNİ İRS VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ SƏDRİ SEYİD HƏSƏN MUSƏVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2012-ci il ..........................................................................217*

BADAMDAR QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ 329 SAYLI TAM ORTA MƏKTƏBİN VƏ UŞAQ BAĞÇASININ BİNALARININ AÇILIŞI MƏRASİMİ

*5 sentyabr 2012-ci il* .......................................................................... *218*

SƏBAİL RAYONUNDAKI 49 SAYLI «İNTELLEKT» MƏKTƏB-LİSEYİN VƏ YASAMAL RAYONUNDAKI 21 SAYLI MƏKTƏBİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2012-ci il* .......................................................................... *221*
LİTVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ARTURAS MELİANASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2012-ci il* .......................................................................... *224*

DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2012-ci il* .......................................................................... *225*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2012-ci il* .......................................................................... *226*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*7 sentyabr 2012-ci il* .......................................................................... *228*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*7 sentyabr 2012-ci il* .......................................................................... *235*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*8 sentyabr 2012-ci il*.......................................................................... *238*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*8 sentyabr 2012-ci il.........................................................................239*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*8 sentyabr 2012-ci il.........................................................................240*

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

*8 sentyabr 2012-ci il.........................................................................241*

ABŞ KONQRESMENLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2012-ci il.........................................................................242*

ZAQATALA RAYONUNA SƏFƏR

*9 sentyabr 2012-ci il .........................................................................243*

ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2012-ci il .........................................................................247*

QAX RAYONUNA SƏFƏR

*9 sentyabr 2012-ci il.........................................................................254*

ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏR

*9 sentyabr 2012-ci il .........................................................................258*

ŞƏKİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2012-ci il .......................................................................262*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*10 sentyabr 2012-ci il*.......................................................................*273*

ATƏT-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2012-ci il* .......................................................................*279*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*11 sentyabr 2012-ci il* .......................................................................*289*

AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ İKİNCİ İCLASINDA İŞTİRAK

*11 sentyabr 2012-ci il* .......................................................................*290*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*11 sentyabr 2012-ci il* .......................................................................*292*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*11 sentyabr 2012-ci il*.......................................................................*294*

TÜRK ƏSGƏRİNİN MƏZARINI ZİYARƏT

*12 sentyabr 2012-ci il* .......................................................................*304*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİ XAN SARAYINI ZİYARƏT

*12 sentyabr 2012-ci il* .......................................................................*305*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ ŞƏKİ CÜMƏ MƏSCİDİNİ ZİYARƏT

*12 sentyabr 2012-ci il* ..........................................................................*307*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN
İLƏ ŞƏKİNİN KİŞ KƏNDİNDƏKİ ALBAN MƏBƏDİ İLƏ
TANIŞLIQ

*12 sentyabr 2012-ci il* ..........................................................................*308*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ
ŞƏKİNİN YUXARI VƏ AŞAĞI KARVANSARA MEHMANXANA
KOMPLEKSİ İLƏ TANIŞLIQ

*12 sentyabr 2012-ci il*............................................................................*309*

TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ HULUSİ KILIÇ
İLƏ GÖRÜŞ

*13 sentyabr 2012-ci il* ..........................................................................*311*

NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİNİN MÜAVİNİ
MAKSİM VERHAGENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2012-ci il* ..........................................................................*313*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2012-ci il* ..........................................................................*314*

ABŞ-ın «STRATFOR» ANALİTİK MƏRKƏZİNİN TƏSİSÇİSİ
VƏ İCRAÇI DİREKTORU CORC FRİDMANIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2012-ci il* ..........................................................................*315*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*14 sentyabr 2012-ci il*............................................................................*316*

BAKININ NİZAMİ RAYONUNDA YENİDƏN QURULMUŞ HEYDƏR BAĞI – PARK BULVARIN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il* ......................................................................*317*

BAKININ NİZAMİ RAYONUNDAKI 242 SAYLI ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ ENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2012-ci il* ......................................................................*318*

BAKININ NİZAMİ RAYONUNDA ƏSASLI SURƏTDƏ YENİDƏN QURULMUŞ 70 SAYLI MƏKTƏB-LİSEY İLƏ TANIŞLIQ

*14 sentyabr 2012-ci il* ......................................................................*319*

BAKININ KEŞLƏ QƏSƏBƏSİNDƏ 328 SAYLI MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il* ......................................................................*320*

BAKININ KEŞLƏ QƏSƏBƏSİNDƏ 100 YERLİK UŞAQ BAĞÇASI BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*14 sentyabr 2012-ci il* ......................................................................*321*

BAKININ BÜLBÜLƏ QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ 327 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il* ......................................................................*322*

PAYTAXTIN 8-ci KİLOMETR QƏSƏBƏSİNDƏ YENİ STADİONUN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*......................................................................*324*

PAYTAXTIN NİZAMİ RAYONU ƏRAZİSİNDƏ YERALTI PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2012-ci il*......................................................................*326*

XIV LONDON PARALİMPİYA OYUNLARINDA ÖLKƏMİZİ
TƏMSİL ETMİŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ
İLƏ GÖRÜŞ

*14 sentyabr 2012-ci il* .......................................................................................*327*

«BİLİK GÜNÜ»NDƏ BAKININ YASAMAL RAYONUNDA
18 SAYLI MƏKTƏBİN YENİDƏNQURMADAN SONRA
AÇILIŞI
MƏRASİMİ

*15 sentyabr 2012-ci il* .......................................................................................*331*
NEFT-QAZ MÖVZUSUNDA YAZAN JURNALİSTLƏRİN
BEYNƏLXALQ MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA

*17 sentyabr 2012-ci il*..........................................................................................*337*

İNDONEZİYA RESPUBLİKASININ İQTİSADİ MƏSƏLƏLƏR
ÜZRƏ NAZİRİ HATTA RACASANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*17 sentyabr 2012-ci il* ........................................................................................*339*

FRANSAYA İŞGÜZAR SƏFƏR

*17 sentyabr 2012-ci il* ........................................................................................*340*

«GDF SUEZ» ŞİRKƏTİNİN SƏDRİ VƏ
BAŞ İCRAÇI DİREKTORU
JERAR MESTRALLE İLƏ GÖRÜŞ

*17 sentyabr 2012-ci il* ........................................................................................*341*

«TECNİP» ŞİRKƏTİNİN QURUDA VƏ DƏNİZDƏ BAŞ
ƏMƏLİYYAT DİREKTORU, İCRAÇI VİTSE-PREZİDENTİ
FİLİPP BARRİL İLƏ GÖRÜŞ

*17 sentyabr 2012-ci il* ........................................................................................*342*

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ FRANSANIN «TOTAL»
ŞİRKƏTİ ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF
PERSPEKTİVLƏRİNİN MÜZAKİRƏSİNDƏ İŞTİRAK

*17 sentyabr 2012-ci il* ............................................................................................*343*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA
OLLAND İLƏ GÖRÜŞ

*18 sentyabr 2012-ci il* ............................................................................................*344*

LUVR MUZEYİNİN İSLAM İNCƏSƏNƏTİNƏ HƏSR
OLUNMUŞ YENİ ZALLARININ AÇILIŞI MƏRASİMİ

*18 sentyabr 2012-ci il* ............................................................................................*345*

FRANSA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
NİKOLA SARKOZİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2012-ci il* ............................................................................................*347*

QEYDLƏR..............................................................................................348

Şəxsi adlar göstəricisi ..............................................................................*369*

Coğrafi adlar göstəricisi...........................................................................*374*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.